


https://agilahmad.com/kitab/

# ROBERT QRİN: HAKİMİYYƏTİN 48 QANUNU

İnsan psixologiyasının mahir bilicisi, Robert Qrin lə-tafətləndirmək və hökmranlıq etmək, özünə sevgi cəlb etmək və başqalarının düşüncələrini və əhvali-ruhiyyəsini məharətlə idarə etmək sənətini mənimsəməkdə sizə kömək edəcək. Bu kitabda toplanmış məsləhətlərə riayət etməklə, siz hər bir təbəssümü, hər bir jesti, hər bir sözü dağıdıcı silaha çevirə biləcək, rəhbərlərinizin, iş üzrə həmkarlarınızın sonsuz etimadına və hörmətinə nail ola biləcəksiniz. Siz hər bir qadını (və ya kişini) məftun edə, eləcə də özünə inamlı, gur, uğurlu şəxsiyyət ola biləcəksiniz.

* * *

Hər şeydən əvvəl, bu kitab üçün materialın seçilməsində mənə kömək edən və möhtəşəm intuisiyası "Hakimiyyətin 48 qanunu"nun forması və məzmunu baxımından müəyyən rol oynamış Anna Billerə təşəkkür etmək istəyirəm. Onsuz heç nə alınmazdı.

Mən həmçinin də əziz dostum Mixael Şvartsa münnətdarlığımı bildirməliyəm, axı İtaliyadakı Fabrica rəssamlıq məktəbi ilə tanışlığıma görə məhz ona borcluyam. O, elə orada da məni, "Hakimiyyətin 48 qanunu" üzərində işdə "həmiştirakçı" olmuş, Yoost Elfferslə tanış etmişdi. Məhz orada, Fabrica məktəbinin müəmmalarla zəngin dünyasında, mənə və Yoosta Makiavellinin dəyişməz aktuallığı açıldı və orada, Venesiyada, bizim mübahisələrimizdən bu kitab ərsəyə gəldi.

Bu kitabda əhəmiyyətli rol oynayan çox sayda fransız personajlara xüsusi diqqət ayıraraq, məni Makiavelli ruhunda bir çox tarixi lətifələrlə təmin etmiş Anri Le Qubenə təşəkkür etmək istəyirəm.

Yapon tarixi üzrə kitabxanalarını mənim ixtiyarıma vermiş və kitabın yapon çay dəstgahına həsr edilmiş fəsillərinin yazılmasına kömək etmiş Les və Sumiko Billerləri, həmçinin də əziz dostum, Çin tarixi üzrə məsləhətçim olmuş Elizabeti xatırlamaya bilmərəm.

Belə bir kitab üçün, əlbəttə, tarixi materiallar çox vacibdir. Buna görə də mən Los-Ancelesin Kaliforniya Universitetinə xüsusilə minnətdaram ki, burada çox zəngin sərvətləri ilə tanış ola-ola keçirdiyim xoş günlər az olmayıb.

Valideynlərim Loretta və Stenli Qrinə səbirləri və göstərdikləri dəstəyə görə sonsuz minnətdaram.

Və əlbəttə, öz pişiyim Borisi xatırlamaya bilmərəm, əlyazmanın üzərində aparılan sonu olmayan günlər qatarı ərəzində məni tək qoymayıb.

Nəhayət, hakimiyyət oyununu məharətlə istifadə edərək, həyatımda mənimlə uzun illər ərzində manipulyasiya edən və mənə ağrı verən bütün hamıya – mən sizə kin saxlamıram və məni "Hakimiyyətin 48 qanunu"na ilhamlandırdığınıza görə sizə minnətdaram.

# ÖN SÖZ

İnsanlar və hadisələr üzərində hakimiyyətin yoxluğu duyğusu adətən bizim üçün dözülməzdir – gücsüzlük özünü bədbəxt hiss etməyə məcbur edir. Az hakimiyyətə malik olmağa heç kim can atmır; hər kəs onu daha çox almaq istəyir. Lakin bugünkü dünyada hakimiyyətə həddən artıq həris olduğun təsiri bağışlamaq, ona doğru can atdığını gizlətməmək heç də təhlükəsiz deyil. Biz gərək başıaşağı, vicdanlı və təvazökar adam təsiri bağışlayaq. Odur ki, incə sənət tətbiq etmək – xoşniyyətli, ancaq hiyləgər olmaq, demokratik – ancaq qeyri-səmimi olmaq lazım gəlir.

Bu cür daimi ikiləşmə daha çox, qədimdə şah əsil-nəcabətlilərin saraylarında baş verən oyunları xatırladır. Tarixin gedişində saray əhli həmişə hakim simaların – kralların, kraliçaların, imperatorların və yaxud, başqa sözlə, liderin ətrafında formalaşmışdır. Saray əhlini təşkil edən saray əyanları çox və lap çox həssas vəziyyətdə olurdular tez-tez: bir tərəfdən, hökmdara xidmət etmək zəruri idi, ancaq digər tərəfdən, əgər bu, açıq-aydın boşqab dibi yalamaq, həddən artıq açıq ləbbeykləmək təsiri bağışlayırdısa, saray əyanları belələrinə qarşı çıxış etmək imkanını əldən qaçırmırdılar. Buna görə də, monarxın lütfünü qazanmaq cəhdləri həddən artıq açıq-saçıq görünməsin deyə, hiyləgərliyə əl atmaq lazım gəlirdi. Və hətta təcrübəli, bu cür incəliyə qadir olan saray əyanlarına da, onları hər an itələyib kənarlaşdırmağa hazır olan rəqibləri nəzərə alaraq, müdafiə tədbirlərini unutmamaq lazım gəlirdi.

Eyni zamanda da, ehtimal edilirdi ki, saray əhli ədəb-ərkan incəliyinin və sivilliyin zirvəsininin təcəssümüdür. Hakimiyyətə kobud surətdə və açıq-saçıq can atmaq alqışlanmırdı, güc tətbiq edən istənilən kimsəyə qarşı saray əyanları altdan-altdan, gizlicə fəaliyyət göstərirdilər. Bu, sarayda həyatın dilemması idi: zahirən eleqantlığın və nəcibliyin nümunəsini təcəssüm etdirən saray əyanları, rəqibə nəzərə çarpmadan və incə şəkildə hiylə gəlməyə və onu geridə qoymağa çalışırdılar. Uğurlu saray əyanı vaxt öt-

dükcə dolanbac yollar elminə yiyələnir, rəqibin kürəyinə zərbəni məxmər əlcəkli əl və sifətində ən şirin təbəssümlə endirməyi öyrənirdi. Əsl saray əyanı zor tətbiq etmək və ya birbaşa hədə gəlmək əvəzinə, istəyinə lətafətləndirmə strategiyası, hiyləgərliyin köməyi ilə, məlahətini və intriqaları işə salaraq, fəaliyyət planını həmişə çox-çox addım irəlidən fikirləşməklə nail olurdu. Saray həyatı sonsuz, iştirakçılarından daimi sayıqlıq və taktiki təfəkkür tələb edən oyun idi. Bu, nəzakətli müharibə idi.

Biz bu gün çox oxşar bir paradoksla üzləşirik: hər şey sivil, ədəb-ərkanlı, demokratik və vicdanlı olmalıdır – zahirən. Ancaq əgər biz bu qaydalara həddən artıq dəqiq riayət edərək oynayarıqsa, bunları həddən artıq hərfi mənada başa düşəriksə, rəqiblərimiz bizi əzər – əgər onlar da eyni cür sadəlövh deyillərsə. İntibah dövrünün görkəmli diplomatı və saray əyanı Nikkolo Makiavelli yazdığı kimi: "Həmişə yaxşı olmağa çalışan hər bir kəs, əvvəl-axır mütləq, çox böyük sayda yaxşı olmayanların arasında dəfn edilmiş olacaq".

Saray əhli özünü incəliyin kulminasiyası kimi qəbul etsə də, parlaq qabıq qatının arxasında qaranlıq ehtiraslar gizlənirdi – hərislik, paxıllıq, şəhvət, nifrət, qaynayan qazandakı kimi paqqıldayırdı. Bax, indi bizim dünyamız da özünü xoşməramlılığın kulminasiyası kimi qəbul edir, amma xoşagəlməz ehtiraslar bizim içərimizdə əvvəlkitək, elə həmişə olduğu kimi, cövlan edir. Qaydalar dəyişməz qalır. Zahirən siz vicdanlı oyuna hörmət etməlisiniz, ancaq əməldə, əgər siz tamamilə sadəlövh deyilsinizsə, haqq-hesab çəkməyi və ehtiyatlı olmağı çox tez öyrənir və Napoleonun məsləhət etdiyi kimi – dəmir ələ məxmər əlcək taxaraq hərəkət edirsiniz. Əgər siz, qədim dövrlərin saray əyanları kimi, altdan-altdan iş görmək sənətini mənimsəyə, məftun etməyi, lətafətləndirməyi, intriqalar toxumağı və rəqiblərinizi barmağınıza dolamağı öyrənə biləcəksinizsə, onda hakimiyyətin ən yüksək zirvələrinə çatacaqsınız. Siz insanları iradənizə elə tabe etdirəcəksiniz ki, bunun necə baş verdiyi onların heç nəzərlərinə də çarpmayacaq. Sizin nə etdiyinizi başa düşməyəcəklərsə, onlar heç bir vəchlə sizə qarşı dura və müqavimət göstərə bilməyəcəklər.

"Hakimiyyətin 48 qanunu"na, dolanbac yollar seçmək sənətini öyrədən özünəməxsus rəhbəredici vəsait kimi yanaşın. Siz kitabı oxuyaraq hakimiyyət və onun səciyyələri ilə tanış olacaqsınız. Onları praktikada tətbiq etməklə isə siz ətrafda olanlarla məharətlə manipulyasiya edərək və özü də bu vaxt onların gözlərinə nəcibliyin və xoşməramlılığın təcəssümü kimi görünərək, "neynim" demədən yaşamaq və uğur qazanmaq üçün imkan əldə edəcəksiniz.

Anna Bellerə və valideynlərimə
R.Q.

# QANUN 1

## KÖLGƏN HEÇ VAXT HÖKMDARIN ÜSTÜNƏ DÜŞMƏSİN

### QANUN BELƏ İFADƏ OLUNUR

Həmişə nail olun ki, rəhbər olanlar yuxarıda özlərini rahat hiss etsinlər. İstedadlarınızı nümayiş etdirməklə onlara yarınmaq, ya da özünüz haqqında onlarda təəssürat yaratmaq səylərinizdə həddən artıq uzağa getməyin – əks təqdirdə özünüzlə bağlı onlara qorxu və tərəddüd aşılamaqla, bunun əksini qazanacağınızla risk edərsiniz. Rəislərinizi əslində olduqlarından da parlaq görünməyə məcbur edin və siz hakimiyyətin zirvələrinə çatacaqsınız.

### HAKİMİYYƏTİN AÇARI

Hər kəsin öz kompleksləri var. Dünyaya çıxanda və istedadlarınızı təqdim edəndə, siz paxıllıq, qəbul edilməmək və özünəinamsızlığın digər təzahürləri ilə üzləşirsiniz. Buna hazır olmaq lazımdır. Siz başqalarının hisslərinə aman verməyə çalışa-çalışa yaşaya bilməyəcəksiniz. Ancaq özünüzdən yüksəkdə olanlara münasibətdə isə başqa yanaşma istifadə edilməlidir: söhbət hakimiyyətdən gedəndə, mövqeyinə görə sizdən yüksəkdə duranın üstünə kölgənizi salmaq – qalan bütün səhvlərin arasında, ola bilsin, ən kobududur.

XIV Lüdovikin, ya da Mediçinin dövründən həyatın guya bərk dəyişdiyini fikirləşib özünüzü aldatmayın. Yuxarı pillələrdə dayananlar – əvvəlkitək krallar və kraliçalardır: onlar yerlərində özlərini rahat duymaq və ağılları və məlahətləri ilə başqalarından üstün olmaq istəyirlər. Çox kobud, lakin adi yanlışlıq – istedad-larınızı və bacarıqlarınızı nümayiş etdirmək və üzə vurmaqla

rəislərinizin xoş münasibətini qazanacağınızı hesab etməkdir. O təşəkkür edə bilər, ancaq ilk əlverişli imkan əlinə düşən kimi, sizi əvəz edəcək – sizin qədər ağıllı, sizin qədər parlaq, sizin qədər cəlbedici olmayan bir başqası ilə.

Bu qanuna iki qayda daxildir və onları yadda saxlamaq lazımdır. Birinci: sizdən yüksəkdə duranın üzərinə şüursuz surətdə, sadəcə, təbii halınızda qalmaqla kölgə salmaq olar. Başqaları ilə müqayisədə, yüksək mövqe tutanlar arasında özünə əmin olmayanlar, dəhşətli dərəcədə əmin olmayanlar çoxdur. Siz məlahətiniz və cəlbediciliyiniz, təbiətinizin səciyyəvi cəhətləri ilə onların üzərinə kölgə sala bilərsiniz.

İkinci: əgər rəis sizi sevirsə, deməli, istədiyiniz hər şeyi etməkdə sərbəstsiniz fikri heç vaxt ağlınıza gəlməsin. Öz sığallı mövqelərini hökmdarı kölgədə qoymağa icazə kimi qəbul etdikləri üçün hökmdarın lütfündən məhrum edilən favoritlər haqqında çox sayda kitab yazmaq olar.

Kölgənizin hökmdarın üzərinə düşməsinin nə qədər təhlükəli olduğunu bilərək, siz bu qanunu öz xeyrinizə çevirə bilərsiniz. Hər şeydən əvvəl rəisinizin qılığına girmək və onun özünəvurğunluğunu üfürüb şişirtmək lazımdır. Açıq qılığa girmək effektiv ola bilər, amma onun hüdudları var; bu, həddən artıq birbaşa və aşkar yoldur və tabeçilikdə olan digər adamların gözündə pis görünür. Əgər, məsələn, özünüzdən yüksəkdə olandan ağıllısınızsa, bunun əksinin görüntüsünü yaratmağa çalışın. Ona imkan verin özünü sizdən ağıllı göstərə bilsin. Sadəlövhlük təsvir edin. Onun təcrübəsinə möhtac olduğunuzu büruzə verin. Ağır nəticələrə gətirməyəcək və sonradan sizə ziyan vurmayacaq, ancaq kömək üçün ona müraciət etməyinizə imkan yaradacaq səhvlərə yol verin. Hökmdarların bu cür xahişlər üçün ürəyi gedir. Öz təcrübəsinin ləl-cəvahirini sizin üzərinizə yağdırmaq imkanından məhrum olan rəis, bunun əvəzində üstünüzə kinini və incikliklərini yönəldə bilər.

Əgər siz rəhbərlərinizdən daha yaradıcı düşünürsünüzsə, ideyalarınızı onların adına çıxarın, özü də bunu bacardıqca ictimailəşdirin. Aydın göstərin ki, sizin məsləhətləriniz – vur-tut onun məsləhətlərinin əks-sədasıdır.

Əgər siz, onunla müqayisədə, təbiətən daha ünsiyyətcil və genişqəlblisinizsə, çox ciddi göz qoyun ki, rəisinizin parıltısını başqalarının gözündən örtən buluda çevrilməyəsiniz. Sizin bilavasitə rəhbəriniz, sanki, günəş kimi çıxmalı, qüvvə və əzəmət şüalandırmalı, diqqət mərkəzində olmalıdır.

Bütün bu hallarda gücünüzü gizlətmək heç də zəiflik göstərmək demək deyil, axı nəticədə bu, hakimiyyətə aparır. Başqalarının özünəinamsızlığının qurbanı olmaq əvəzinə, onlara sizi kölgədə qoymaq imkanı verməklə, situasiyanı əlinizdə saxlamaqda davam edirsiniz. Daha yüksək pilləyə qalxmaq vaxtınız çatan gün bunların hamısı işə yarayacaq. Əgər siz hökmdara başqalarının gözündə parlamağa kömək edərsinizsə, siz onun üçün – həqiqətən də tanrı bəxşişisiniz və sizi dərhal yüksəltmək lazım gələcək.

Obraz: Göydə ulduzlar. Göydə yalnız bir günəş ola bilər. Günəşin işığının qabağını heç vaxt tutma və işıq mənbəyinin parıltısı ilə rəqabət aparma; solğunlaşmaq, göy qübbəsini tərk etmək və özündən yüksəkdə duranın şüalarını daha gur etməyin üsullarını tapmaq daha yaxşıdır.

Nüfuzlu rəy: "Çalış ki, cənabının qarşısını öz kölgənlə tutmayasan. İstənilən şəkildə üstünlük nifrətəlayiqdir, amma vassalın öz knyazı üzərində üstünlüyü sadəcə axmaqlıq deyil, bu – ölümcüldür. Bu, göydəki ulduzların bizə verdiyi dərsdir – onlar, ola bilsin, Günəş kimidirlər və elə onun kimi də parlayırlar, lakin heç vaxt onunla birlikdə ortaya çıxmırlar".

Baltazar Qrasiani (1601-1658)

# QANUN 2

## DOSTLARA HƏDSİZ ETİBAR ETMƏ, DÜŞMƏNLƏRDƏN YARARLANMAĞI ÖYRƏN

### QANUN BELƏ İFADƏ OLUNUR

Dostlarınızla münasibətlərdə sayıq olun – onlar paxıllığa asan uyduqları üçün daha tez xəyanət edər. Üstəlik də, onlar tez şıltaqlaşır və tirana çevrilirlər. Lakin keçmiş düşməni xidmətinizə çağırın və o, dostdan çox loyal olacaq, çünki onun sübuta yetirməli olduğu nəyi isə var. Həqiqətən də, siz düşmənlərdən çox, dostlardan ehtiyat etməlisiniz. Əgər düşməniniz yoxdursa, onların olmasının üsullarını tapın.

### HAKİMİYYƏTİN AÇARI

Zərurət yaranan vaxt dostların köməyindən istifadə etməyə çalışmaq – təbiidir. Dünya – sərt yerdir və tez-tez olur ki, dostlarınız bu sərtliyi yumşaldır. Bundan başqa, siz onları tanıyırsınız. Əgər dost yanındadırsa, yada nəyə görə bel bağlayasan?

Ancaq bəla ondadır ki, siz çox vaxt dostlarınızı güman etdiyinizdən pis tanıyırsınız. Dostlar çox vaxt, sadəcə, aranızın dəyməməsi üçün sizinlə razılaşırlar. Onlar xoşagəlməz cizgilərini cidd-cəhdlə ört-basdır edib gizlədir, bir-birinin zarafatına bərkdən gülüşürlər. Saflıq dostluğun möhkəmlənməsinə nadir hallarda kömək etdiyinə görə, dostunuzun əsl hisslərini eləcə, bilməyə də bilərsiniz. Dostlar şeirləriniz onların xoşuna gəldiyini deyəcək, sizin musiqinizə valeh olacaq, geyim zövqünüzə yaxşı mənada paxıllıq edəcəklər – onların heyranlığı, ola bilsin, səmimidir, ancaq çox vaxt heç də belə olmur.

Əgər dostunuzu işə götürməyi qərara alırsınızsa, onun (kişi və ya qadın) indiyə qədər gizlətdiyi keyfiyyətlərini siz tədricən kəşf etməli olacaqsınız. Nə qədər qəribə olmasa da, onu işə götürəndə sizin mərhəmətli hərəkətiniz tarazlığı büsbütün pozur. Qazandıqları uğurlara layiq olduqlarını düşünmək insanlara xoşdur. Gerçəklik məyusluq və acılıq gətirə bilər: deme, üzərinizə düşən seçim dostluq xətrinə edilmişdir, yəni qazanılmış deyil. Çat getdikcə daha nəzərəçarpan olur: ifadələrdə azacıq çox açıqlıq, bəzən inciklik və paxıllıq qığılcımları – və siz heç gözünüzü qırpmağa macal tapmayacaqsınız, dostluğun sonu çatacaq. Dostluğu sönməyə qoymamaq üçün nə qədər çox ənam verəcək və xoş məram göstərəcəksinizsə, minnətdarlıq bir o qədər az olacaq.

Dostları işə dəvət etməkdə çətinlik ondan ibarətdir ki, bu sizin hakimiyyətinizi labüd məhdudlaşdırır. Dost – çox nadir hallarda sizə hamıdan yaxşı kömək edə biləcək adamdır: əvvəl-axır, bilik və kompetentlik dostluq hisslərindən qat-qat vacibdir.

Vəzifə ilə bağlı situasiyaların hamısı insanlar arasında müəyyən məsafə saxlanmasını tələb edir. Siz işləməyə cəhd edirsiniz, dostluq etməyə yox; dostcanlılıq (əsl və ya saxta) bu fakta yalnız kölgə salır. Hakimiyyət yolunda açar, deməli, – maraqlarınızın istənilən şərtlər daxilində irəliləməsinə kimin ən əlverişli şəkildə kömək edə biləcəyi məsələsində mühakimə yürütmək qabiliyyətidir.

Digər tərəfdən, bədxahlarınız – mənimsənilməyən qızıl yatağıdır və siə ondan istifadə etməyi öyrənməlisiniz. Napoleonun xarici işlər naziri, Şarl Moris Taleyran 1807-ci ildə hökmdarının Fransanı süquta apardığı qənaətinə gələndə, vaxt isə onun əleyhinə işləyəndə, o, imperatora qarşı sui-qəsdin nə qədər təhlükəli olduğunu da tam anlayırdı; ona tərəfdaş, məsləkdaş lazım idi – belə bir işdə dostlarından kimə etibar edə bilərdi? Seçimi Jozef Fuşenin, məxfi polisin başçısının, ən çox nifrət etdiyi düşməninin, hətta Taleyranın qətlini təşkil etməyə çalışmış adamın üzərinə düşdü. Taleyran, Fuşe ilə aralarındakı keçmiş düşmənçiliyin emosional barışıq üçün zəmin yarada biləcəyini başa düşdü. Seçimində səhv etmədiyini Taleyrana sübuta etmək üçün

Fuşenin işləyəcəyini, etdiyinin müqabilində ondan heç nə gözləməyəcəyini Taleyran əvvəlcədən görürdü; nəyi isə sübuta yetirmək istəyən adam sizin üçün dağı dağ üstünə qoyar. Nəhayət, o, Fuşe ilə münasibətlərin qarşılıqlı maraqlar üzərində əsaslanacağını və bu münasibətləri şəxsi hisslərin bulandırmayacağını bilirdi. Sui-qəsdçilər Napoleonu taxtdan salmağa müvəffəq olmasalar da, bu qədər qüvvətli və qəfil tərəfdaşların ittifaqı mövcud şəraitdə ən mühüm olan nəticəyə gətirdi: imperatora müxalifət yavaş-yavaş genişlənməyə başladı. Taleyran və Fuşe məhsuldar işçi ittifaqı yaratdılar.

İstənilən hər bir imkandan istifadə edib, düşmənlə sülh bağlayın və onu yanınızda xidmətə cəlb etməyin üsulunu tapın. Bədxahınızın meydana çıxmasının sizi yolunuzdan azdırmasına heç bir halda imkan verməyin – bir-iki aşkar opponentinizin olması, düşmənləriniz varmı və onlar kimdir suallarına cavab axtarışında itib-batmaqdan qat-qat yaxşıdır. Hakimiyyət adamı konfliktləri alqışlayır – mətin döyüşçü, ağır vaxtda özünə bel bağlamaq mümkün olan adam reputasiyasını möhkəmlətmək üçün.

Obraz: Naşükür çənələr. Barmağı şirin ağzına salmağın nə ilə qurtaracağını bilərək, siz bunu etməməyə çalışacaqsınız. Dostdan badalaq gözləmirsən, ancaq onu yanınıza xidmətə götürərsinizsə, naşükür dost sizi içalat qarışıq həzm-rabedən keçirəcək.

Nüfuzlu rəy: "Düşməndən şəxsi faydanız üçün necə istifadə etmək lazım olduğunu bilin. Sizi yaralaya biləcək qılıncın tiyəsindən yox, dəstəyindən yapışmağı öyrənmək lazımdır – bu, özünüzü müdafiə etməyə imkan verəcək. Müdrik öz düşmənlərindən daha çox fayda alar, nəinki axmaq öz dostlarından".

Baltazar Qrasiani (1601-1658)

"İnsanlar şərin haqqını ödəməyə daha çox hazırdırlar, nəinki minnətdarlığın, axı minnətdarlıq – yük, qisas isə – həzzdir".

Tasit, təqribən 58-ci – təqribən 117-ci illər

## DÜŞMƏNLƏRİMİZDƏN FAYDA HAQQINDA

Necə olmuşdusa, bir dəfə şah Gieron düşmənlərindən biri ilə söhbət edirdi, həmsöhbət şahın üfunətli nəfəsinə işarə etdi. Bundan sonra mərhəmətli şah, bir qədər narahat halda, evə qayıdır və arvadına irad tutur: "Necə ola bilərdi ki, sən bunu mənə heç vaxt deməmisən?" Sadə, ismətli və qəbahətsiz şah arvadı dedi: "Cənabım, mən elə bilirdim kişilərin hamısının nəfəsi bu cürdür". Beləliklə, aydındır ki, aşkar, birmənalı və nəzərəçarpan və yaxud, başqa sözlə, hamıya bəlli çatışmazlıqlarımızı biz daha tez düşmənlərimizdən öyrənə bilərik, nəinki dostlardan, ya da yaxınlardan.

Plutarx, təqribən 45-ci – 127-ci illər

# QANUN
# 3

## NİYYƏTLƏRİNİ
## GİZLƏT

## QANUN BELƏ İFADƏ OLUNUR

Hərəkətlərinizin əsl səbəbini heç vaxt açmayın, insanları qaranlıqda, dayanıqsız tarazlıq vəziyyətində saxlayın. Sizin nə etmək istədiyinizdən məlumatsız olanda, onlar özlərinə müdafiəni təmin edə bilməyəcəklər. Onları yanlış izlə imkan daxilində uzağa aparın, duman salın və onlar sizin niyyətlərinizi dərk edəcəkləri vaxt, artıq çox gec olacaq.

## HAKİMİYYƏTİN AÇARI

İnsanların əksəriyyəti açıq kitab kimidir. Onlar hiss etdiklərini deyir, hər bir əlverişli halda rəylərini ortaya qoyur, planlarını və niyyətlərini həmişə bildirirlər. Onlar bir çox səbəblərdən bu cür hərəkət edirlər. Birincisi, həmişə hisslər və gələcək planlar barəsində danışmaq – insanın təbiətindədir. Dilini saxlamaq və dediklərinə göz qoymaq üçün özünü gücə salmaq lazım gəlir axı. İkincisi, çoxları düzgünlükləri və açıq olmaları ilə ürəkləri fəth etdiklərinə və öz müsbət mahiyyətlərini nümayiş etdirdiklərinə inanır. Bu, çox böyük yanlışlıqdır. Düzgünlük – mahiyyət etibarilə, küt alətdir, o daha çox əzib-tökər, nəinki kəsər. Düzgünlüklə insanın xətrinə dəymək, onu incitmək asandır; sizin nə fikirləşdiyiniz və nə hiss etdiyinizin kobud və eybəcər həqiqəti əvəzinə, sözlərinizi uyğunlaşdıraraq, insanlara eşitmək istədiklərini demək bundan qat-qat ağıllı və tədbirlidir. Heç nəyə məhəl qoymayan açıqlıq sizi, gələcək hərəkətləri o qədər proqnozlaşdırılan adam edir ki, sizə nə hörmət etmək, nə də

sizdən qorxmaq demək olar mümkün deyil, hakimiyyət isə bu hissləri oyada bilməyən adama tabe olmur.

Əgər siz hakimiyyətə nail olmağı öyrənirsinizsə, düzgünlüyünüzü bacardıqca tez bir kənara qoyun və şəxsi niyyətlərinizi gizlətmək sənətində məşq etməyə başlayın. Bunu mənimsəyin – və siz həmişə vəziyyətə nəzarət edəcəksiniz. Əsl niyyətlərini gizlətmək imkanı insan təbiətinin adi xüsusiyyəti ilə izah edilir: bizim birinci instinktiv istəyimiz – görüntüyə həmişə etibar etməkdir. Biz, gördüklərimizin və eşitdiklərimizin real olduğuna şübhə ilə yanaşa-yanaşa yaşaya bilməzdik – görüntünün arxasında başqa nəyin isə gizləndiyi ilə bağlı daimi fikirlər bizi taqətdən salar və vahiməyə qərq edərdi. Niyyətlərimizi bir-birimizdən nisbətən asan gizlətməyə də kömək edən elə budur. Sadəcə olaraq, arzu etdiyinizin əvəzinə, nəyisə və yaxud, guya arxasınca düşdüyünüz məqsədi nümayiş etdirin – və hamı onların real olduğuna inanacaq.

Niyyətlərinizi gizlətməyin ən effektiv üsullarından biri – daim şəxsi planlar və arzular haqqında dəm vurmaqdır, lakin bu əsl planlar və arzular olmamalıdır. Siz bir güllə ilə üç dovşanı vurmuş olarsınız: şən, açıq, etibara layiq adam təsiri bağışlayacaq, niyyətləriniz rübəndləyəcək və rəqiblərinizi həyata keçməyəni təqib etməyə göndərəcəksiniz və bu onların vaxtını xeyli alacaq.

İnsanları yanlış izə yönəltməyə kömək edən bir güclü alət də – yalançı səmimilikdir. İnsanlar səmimiliyi asanlıqla düzgünlük kimi qəbul edirlər. Unutmayın, onların birinci hissi – görüntüyə etibar etməkdir; ətrafındakı adamların düzgün olduğuna hamı inanmaq istədiyindən isə, onlar çətin ki sizdən şübhələnə və ələlxüsus da çətin ki sizin daxilinizi görələr. Əgər dediklərinizə özünüzün inandığınızı anlada bilirsinizsə, bu, sözlərinizin çəkisini çox artırır. Yaqo məhz bu cür aldatdı və məhv etdi Otellonu: Yaqonun hisslərinin nə qədər dərin olduğunu, Dezdemonanın ehtimal olunan vəfasızlığından Yaqonun narahatlığının nə qədər səmimi olduğunu görən Otello ona inanmaya bilərdimi?

Yalançıların – parlaq, koloritli publika, hər addımbaşı fokus, hiyləgər və rəngarəng uydurma səpələyən adamlar olduğunu düşünürsünüzsə, yanlışlığa varırsınız. Onlardan ən yaxşıları,

özlərinə etibara sövq edən zahiri görkəmə malikdirlər və personalarına diqqət cəlb etmirlər. Ekstravaqant sözlərin və hərəkətlərin dərhal şübhə doğuracağı onlara bəllidir. Bunun əvəzində onlar planlarına nə isə adi, banal və xətərsiz don geyindirməyə üstünlük verirlər.

Qurbanlarınıza gözlədiklərini təqdim edib, diqqətlərini yuxuya verən kimi, onlar düz elə öz arxalarında baş verən yalanı görmək qabiliyyətini itirəcəklər. Gözə üfürdüyünüz tüstü dumanı nə qədər boz və ordinardırsa,[1]niyyətlərinizi gizlətmək bir o qədər asan olur.

Tüstü dumanının ən adi forması – sifətin ifadəsidir. Özünü istədən, ürəyəyatımlı, çox da ifadəli olmayan xarici görkəmin arxasında gizlənərək, istənilən bədxahlığı planlaşdırmaq olar, heç kəs də sizdən heç nə ilə bağlı şübhələnməyəcək. Bir çox tarixi xadimlər bu silahdan istifadə edib. Danışırlar ki, Franklin Delano Ruzveltin sifəti tamamilə ifadəsiz idi. Baron Ceyms Rotşild əsl fikirlərini insanpərvər, xoşniyyətli geniş təbəssümlərin, ya da qeyri-müəyyən baxışların arxasında gizlədərək, bu fənddən bütün ömrü boyu istifadə etmişdir.

Yadda saxlayın: gur rəngləri boğaraq diqqəti cəlb etməyən maska taxmaq üçün səbir və fağırlıq tələb olunur. Əgər ifadəsiz sima gəzdirmək lazım gəlirsə, kədərlənməyin – tez-tez olur ki, məhz elə onun ifadəsizliyi insanları sizə doğru çəkir və sizə hakimiyyətdə iştirak edən adam görkəmi verir.

Obraz: Qoyun dərisi. Qoyun qarət etməz, qoyun xəyanət eləməz, qoyun olmazın dərəcədə axmaq və xətərsizdir. Belində qoyun dərisi olan tülküyə birbaşa toyuq hininə girmək asandır.

Nüfuzlu rəy: "Qalanı ələ keçirməyə hazırlaşan və planları haqqında düşməni xəbərdar edən mahir sərkərdə barədə eşitmək sizə nəsib olubmu? Məqsədinizi gizlədin və uğurlarınızla öyünməyin; hesablarınıza nə isə mane ola biləcək vaxta qədər, döyüş qurtarmayana qədər, hesablarınızın nə qədər uzağa getdiyinin başa düşülməsinə imkan verməyin. Qələbəni müharibə elan olunana qədər əldə edin. Bir sözlə, o hərbiçiləri təqlid edin ki,

onların niyyətləri, artıq zəfər marşı ilə keçdikləri, talan olunmuş ölkələrdən başqa heç kəsə bəlli olmur".

Ninon de Lanklo (1623-1706)

"Yalançı kimi ad çıxarmamağa çalış, hərçənd bu gün belə olmadan yaşamaq da çətindir. Sənin ən böyük hiyləgərliyin, öz hiyləgərliyini üzə vurmamaqdan ibarət olmalıdır".

Baltazar Qrasiani (1601-1658)

GÜNÜN GÜNORTA ÇAĞI
OKEANDA ÜZMƏK

Bu, əvvəl-axır adət edilən, tanış görkəm alan pərdə-örtük yaratmaq deməkdir. Bu cür örtük strateqə, onun altında gizlənib, nəzərə çarpmadan hərəkət etməyə imkan verir, çünki bu vaxt bütün gözlərin qarşısında yalnız gözlənilən və vərdiş olunmuş mənzərə açılır.

Tomas Kliri, "Yapon hərbi sənəti", 1991

1 Ordunar – orta səviyyəli

# QANUN
# 4

## ZƏRURİ OLDUĞU GÜMAN EDİLƏNDƏN AZ DANIŞ HƏMİŞƏ

## QANUN BELƏ İFADƏ OLUNUR

Nitqlərinizlə təəssürat yaratmaq istəyərkən, yadda saxlayın: nə qədər çox deyəcəksinizsə, bir o qədər ordinar və real qüvvəsi olmayan adam təsiri bağışlayacaqsınız. Əgər nitqləriniz, sfinksin nitqləri kimi, az anlaşılan, tamamlanmamış və müəmmalı olacaqsa, siz hətta banal şeylər danışanda belə, orijinal təsir bağışlayacaqsınız. Nüfuzlu insanlar natamam danışmaqları ilə təəssürat yaradır və qorxu təlqin edirlər. Nə qədər çox danışırsınızsa, sizin nə isə bir axmaqlıq deyəcəyinizin ehtimalı bir o qədər yüksəlir.

## HAKİMİYYƏTİN AÇARI

Hakimiyyət, bir çox cəhətlərinə görə – zahirdə olanın, gözə görünənin oyunudur; əgər siz az danışırsınızsa, onda əslində olduğundan iri və əzəmətli təsir bağışlayacaqsınız mütləq. Sizin susqunluğunuz başqalarını əsəbiləşməyə məcbur edəcək. İnsan varlıqlarının təyinatı interpretasiyalar, təfsirlər və izahlardır; sizin nə haqda düşündüyünüzü bilmək onlara vacibdir. Əgər nəyin üstündən örtüyü azacıq açmağı ciddi götür-qoy edirsinizsə, onlar düşüncələrinizə girə, sizin özünüzlə nə kəsb etdiyinizi başa düşə bilməyəcəklər. Susqunluğunuz və sadə cavablarınız onları müdafiə mövqeyini tutmağa vadar edəcək və onlar dözməyəcək, sirlərini və zəifliklərini ələ verərək, pauzaları şəxsi fikirləri ilə doldurmağa başlayacaqlar. Onlar, evə qayıdarkən yol boyunca sizin hər bir sözünüzü xatırlaya-xatırlaya, görüşü qarət olunduqları hissi ilə tərk

edəcəklər. Qısa nitqlərinizə bu cür yüksək diqqət sizin hakimiyyətinizi yalnız artırar.

İsanları sizin istədiyiniz kimi hərəkət etməyə yalnız dilə tutmaqla məcbur etməyin qeyri-mümkü olduğunu rəssam Endi Uorhol hələ cavanlığında başa düşmüşdü. Onlar ziddiyyət hissinin təsiri altında sizə qarşı çevriləcək, arzularınızı təhrif edəcək, sizə əks gedəcəklər. Bir dəfə o, dostuna demişdi: "Mən başa düşdüm ki, əgər dilini saxlayarsansa, daha çox hakimiyyətə nail olmaq mümkündür".

Uorhol bu prinsipi həyatında uğurla tətbiq edirdi. Onun verdiyi müsahibə, orakulun çıxışlarını xatırladırdı: o, nə isə kənar və az anlaşılan şey haqqında danışırdı, müsahibə alana isə bəzən bu mənasız cümlələrdə nə isə dərinliklər tapmaq, bunun nə demək olduğunu təsəvvür etmək üçün baş sındırmaq lazım gəlirdi. Uorhol öz işləri haqqında çox nadir hallarda danışırdı: dediklərinin interpretasiyasını başqalarının öhdəsinə buraxırdı. O, işləri haqqında nə qədər az danışırdısa, publika onlar haqqında bir o qədər çox danışırdı. Onlar haqqında nə qədər çox danışırdılarsa, onun işlərinin qiyməti bir o qədər yüksək olurdu.

XIV Lüdovik çox danışan adam deyildi. Bu görkəmli ifadə ona məxsusdur: "Dövlət – bu, mənəm". Lakin gənclik çağlarında o, gözəl nitqindən həzz ala-ala danışmağı xoşlayırdı. Sonralar heç kəsə özünü tarazlıqdan çıxartmağa imkan verməmək üçün, susqun olmağı öyrəndi. Heç kəs öz mövqeyini dəqiqliklə bilmirdi, heç kəs kralın reaksiyasını öncədən deməyə müvəffəq olmurdu. Heç kəs Lüdovikin eşitmək istədiyini qulağına pıçıldamaqla, onu aldada bilmirdi. Dinməz qalan kralın hüzurunda uzun-uzadı danışmağa məcbur olan xahiş-münnət üçün gələnlər, qeyri-ixtiyari olaraq, kralın qarşısında daha çox açılırdılar, Lüdovik isə gələcəkdə bütün bunları onların özlərinin əleyhinə uğurla istifadə edə bilərdi.

Nəhayət, Lüdovikin susqunluğu ona hamını qorxu altında və tabeçilikdə saxlamağa kömək edirdi. Bu, onun əzəmətinin əsaslandığı dirəklərdən biri idi. Sen-Simon yazırdı: "Sözlərinin, təbəssümünün, hətta ötəri saldığı nəzərinin qiymətini ondan yaxşı heç kəs bilməyib. Onda olan hər şeyin qiyməti var idi, çünki o, ha-

disələrin gedişinə təsir edə bilirdi və onun əzəməti az danışması ilə daha da güclənirdi”.

Söz, sərçə deyil, uçdu – tuta bilməyəcəksən. Sözlərinizə diqqət yetirin. Sarkazmla danışanda xüsusilə ehtiyatlı olun: ödəməli olacağınız qiymət acı sözlərin gətirdiyi bir anlıq məmnunluğu alt-üst də edə bilər.

Obraz: Delfiyalı orakul. Orakulun yanına məsləhət üçün gələndə, kahinlər məna və ciddiliklə dolu olduqları təəssüratı yaradan bir neçə müəmmalı söz deyirdilər. Hamı orakulun sözlərinə tabe olurdu – onlarda həyat və ölüm üzərində hakimiyyət var idi.

Nüfuzlu rəy: “Heç vaxt dodaqlarını və dişlərini tərpətməyə başlama, o vaxta qədər ki, bununla sənin tabeçiliyində olanlar məşğuldurlar. Mən nə qədər çox susuramsa, başqaları bir o qədər sürətlə dodaqlarını və dişlərini tərpədəcək. Onlar dodaqlarını və dişlərini hərəkət etdirdikləri vaxt, mən onların əsl niyyətlərini başa düşə bilərəm... Əgər hökmdar müəmmalı deyilsə, məmurlar yenə və yenə qapışdırmağa imkan tapacaqlar”.

Xan Fey-tzı, Çin fəlsəfəsi (b.e.ə. III əsr)

“İstirdiyyələr (yeyilən dəniz ilbizi) balıqqulağını tam şəkildə Ay bədirlənəndə açırlar; istirdiyyənin açıldığını görən dəniz xərçəngi onun içərisinə xırda daş, ya da yosun atır, buna görə də istirdiyyə yenidən bağlana bilmir və krabın şikarı olur. Ağzını həddən artıq çox açanların qisməti belədir və onlar özlərini dinləyicilərin ixtiyarına vermiş olurlar”.

Leonardo da Vinçi (1452-1519)

Maykl Arlen [kino ssenaristi] 1944-cü ildə, özü üçün ağır vaxtlarda, Nyu-Yorka gəlmişdi. Bədbəxtliklərini heç olmasa necə isə unutmaq üçün o, məşhur “21” restoranına getməyi qərara aldı. Vestibüldə o, Sem Qolduinlə toqquşdu və o, Arlenə qətiyyən gərək olmayan bir məsləhət verdi – qaçış atlarını almaq. Barda köhnə tanışı Luis B.Mayerlə rastlaşdı və tanışı Arlendən gələcək

planları haqqında soruşdu. "Mən indicə Sem Qolduinlə danışdım..." – başlayan Arlen nə isə demək istəyirdi. "O sizə nə qədər təklif etdi?" – Mayer onun sözünü kəsdi. "Qaneedici deyildi", – ssenarist yayğın cavab verdi. "Otuz həftəyə 15 min sizi qane edərmi?" – soruşdu Mayer. Bu dəfə Arlen artıq tərəddüd etmirdi. "Bəli", – oldu onun cavabı.

Klifton Fadiman, "Qəhvəyi rəngdə lətifələr kitabçası", 1985

# QANUN 5

## REPUTASİYADAN HƏDDƏN ÇOX ŞEY ASILIDIR – ONU HƏYATIN BAHASINA QORU

## QANUN BELƏ İFADƏ OLUNUR

Reputasiya – hakimiyyətin təməl daşıdır. Reputasiyanın köməyi ilə siz qorxu təlqin edə və qələbə çala bilərsiniz. Onun yalnız laxlamasına bənddir və siz aciz olur, hər tərəfdən hücumlara məruz qalırsınız. Reputasiyanızı sarsılmaz edin. Mümkün hücumları həmişə sayıqlıqla gözləyin və özünüz hücuma keçməzdən qabaq, onları dəf edin. Düşmənlərinizin reputasiyasında boşluqlar taparaq, onları sıradan çıxarmağı öyrənin. Sonra kənara çəkilin və onun axırına çıxmağı ictimai rəyin öhdəsinə buraxın.

## HAKİMİYYƏTİN AÇARI

Əhatənizdə olan insanlar, hətta yaxın dostlar da, həmişə hansısa dərəcədə müəmmalı qalır və onlardan axıradək baş açmaq olmur. Onların xarakterlərində sizə heç vaxt göstərməyəcəkləri gizlin künc-bucaqlar var. Başqalarından baş açmağın qeyri-mümkünlüyü əsəbilik doğura bilər, axı bu bizi, fərqinə varsaq, insanları obyektiv qiymətləndirmək imkanından məhrum edir. Lakin biz bu fakta saymazyana yanaşıb, insanlar barəsində zahiri, nəzərimizə hamısından asan açılan əlamətlərə – geyim, jestlər, sözlər, hərəkətlərə görə mühakimə yürütməyə üstünlük veririk. Zahiri görkəm sosial sferada bizim qiymətləndirmələrimizin və mühakimələrimizin praktiki olaraq hamısı üçün barometrdir və deməli, çox ciddi göz qoymaq lazımdır

ki, sizin haqqınızda yanlış mühakimə yürüdülməsin. Bircə səhv addım, görkəminizin tək bircə şübhəli və gözlənilməyən dəyişməsi ölümcül ola bilər. Fərdi reputasiyanı öz əllərinlə yaratmaq və özünün də onu qoruyub saxlamağın bax buna görə son dərəcə vacibdir.

Zahiri olanın, gözlə görünənin təhlükəli oyununda reputasiya sizi müdafiə edəcək, nəzərləri yayındıracaq, gerçəklikdə necə olduğunuzu bilməyə adamlara imkan verməyəcək, dünyanın sizin haqqınızda necə mühakimə yürütdüyünə hansısa dərəcədə təsir etməyə kömək edəcək – bu, sizin üçün hakim mövqedir. Reputasiya sehrbazın imkanlarına malikdir: o çubuğu bir dəfə yellətməklə qüvvənizi ikiqat artıra və təqibçilərinizi pərən-pərən sala bilər. Eyni bir iş möhtəşəm, ya da dəhşətli təsir bağışlayırmı, – bütövlükdə və tamamilə ifa edəndən asılıdır.

Başlanğıcda sizə, hansısa çox görkəmli bir səciyyəvi xüsusiyyətin yiyəsi olduğunuzla bağlı reputasiya qazanmaq üzərində işləmək lazımdır – düzgünlük, məsələn, ya da səxavət, ola da bilsin, zirəklik. Bu, sizi fərqləndirəcək və başqalarını haqqınızda danışmağa məcbur edəcək. Ardınca çalışın ki, reputasiyanız haqda bacardıqca çox adam bilsin (çox da aludə olmayın: reputasiyanı tələsmədən və möhkəm zəmin əsasında qurmaq lazımdır) və onun, sanki meşədə yanğın kimi, necə yayıldığını müşahidə edin.

Möhkəm reputasiya sizə mötədillik və nisbətən kiçik xərclər müqabilində əlavə qüvvə verəcək. O, hörmət, bəzən isə hətta qorxu da doğuran aura kimidir. İkinci Dünya müharibəsi dövründə Şimali Afrikada döyüşən alman generalı Ervin Rommel, rəqibi dəhşətə gətirən hiyləgər və məkrli manevrləri ilə şöhrət qazanmışdı. Hətta onun birləşmələri tamamilə məhv edildiyi və britaniyalıların tankları onun texnikasını beşin birə nisbətində üstələdiyi vaxtda da, bircə onun yaxınlaşması barədə şayiə ilə bütöv şəhərlər evakuasiya olunurdu.

Qoy sizin reputasiyanız nöqsansız bir keyfiyyətin üzərində qurulsun. Bu yeganə keyfiyyət – qoy bu, yüksək iş qabiliyyəti və yaxud lətafətiniz olsun – nə isə vizit kartı kimi bir şeyə çevrilir, onun köməyi ilə siz, ətrafdakıları hipnozlayaraq, səhnəyə öz çıxışınızı hazırlayırsınız.

Reputasiya – xüsusi diqqətlə toplanmalı, qorunub saxlanmalı olan xəzinədir. Ələlxüsus da siz yolun başlanğıcında dayananda adınızı əliniz çatan hər vasitə ilə müdafiə edin, bütün hücumlardan qoruyun. Mövqelərinizi möhkəmlətdikdən sonra, özünüzdən çıxmamağı və düşmənlərin təxribatçı səciyyəli çıxışlarına cavab olaraq müdafiə mövqeyi tutmamağı öyrənin – bu, öz reputasiyanızda əmin olmadığınıza dəlalət edərdi. Bunun əvəzində irəli hərəkət edin və zəifliyinizi heç bir vəchlə büruzə verməyin, hətta əgər özünüzü müdafiə edə biləcəyinizə artıq ümidiniz olmayanda da.

Ancaq yadda saxlayın ki, rəqibin reputasiyası üzərinə hücum güclü silahdır, ələlxüsus da əgər rəqib daha qüvvətlidirsə. Sizin, hələ özünə yer etməyən reputasiyanız onun üçün həddən artıq əhəmiyyətsiz hədəf olduğu halda, o özü, əgər cavab atəşi açmağa cəhd edərsə, bu cür əlbəyaxada çox şeylə risk edir. Amma bu taktikadan ağılla istifadə etmək lazımdır; bu, cılız qisas təsiri bağışlamamalıdır. Əgər siz rəqibin reputasiyasına xələl yetirə bilməsəniz, onda öz reputasiyanız labüd surətdə dağılacaq. Bu cür hücumlarda heç bir vəchlə həddən çox uzağa getməyin, axı bu hücumlar diqqəti üzərinə həmlə etdiyiniz adamın keyfiyyətlərindən çox, özünüzün qisasçılığınıza cəlb edəcək. Əgər öz reputasiyanız möhkəmdirsə, daha incə fəndlərdən – rəqibi zəiflədəcək, sizi isə mehriban sözükəsərli adam kimi təqdim edəcək satira və məsxərələrdən istifadə edin. Qüdrətli şir yolunu keçən siçanla vur-tut oynayar, – istənilən başqa davranış onun qorxunc heyvan reputasiyasına ziyan vurmuş olardı.

Obraz: Almaz və rubinlə dolu yeraltı mədən. Siz onları qazıb çıxarmısınız, indi siz dövlətlisiniz. Onları nəyin bahasına olur-olsun qoruyub saxlayın. Qarətçilər və oğrular hər tərəfdən tökülüşəcək. Çox da qürrələnməyin ki, var-dövlət sizə bir dəfə və həmişəlik verilib. Xəzinəni daim təzələyin – vaxt ötdükcə onlar solğunlaşır və qiymətini itirir.

Nüfuzlu rəy: "Bunun nəticəsində bizim saray əyanına, öz anadangəlmə məziyyətlərini fərasət və hiylə ilə möhkəmlətməsini və bu əminliklə sığortalanmasını arzu edərdim ki, nə vaxt oldu

tanınmadığı yerlərə getmək lazım gələndə özü haqqında xoş şöhrətin sədası bu yerlərdə onun gəlişini qabaqlayacaq... Zira hesab edildiyi kimi, çoxlarının rəyinə əsaslanan reputasiya insanın layiqli olduğuna möhkəm inam doğurur və artıq lazımi şəkildə köklənmiş və hazırlanmış beyinlərdə bu inamı möhkəmləndirmək çətin olmayacaq".

Baldassare Kastilone (1478-1529)

"Natəmiz vicdanın öhdəsindən gəlmək, axmaq reputasiyanın öhdəsindən gəlməkdən asandır".

Fridrix Nitsşe (1844-1900)

"Zira, Siseronun dediyi kimi, hətta şöhrətə qarşı ayağa qalxanlar da, bu haqda yazdıqları kitabların özlərinin adını daşımasına can atırlar və şöhrətə nifrət nümayiş etdirdikləri ilə, özlərinə şöhrət qazanmaq istəyirlər. Qalan hər şey ümumi ola bilər; lazım gələndə biz dostlarımızın yolunda həm əmlakımızı, həm həyatımızı qurban veririk. Lakin öz şərəfini keçmək, öz şöhrətini başqasına hədiyyə etmək – beləsini adətən görməzsən".

Mişel de Monten (1533-1592)

# QANUN 6

## NƏYİN BAHASINA OLUR-OLSUN DİQQƏT QAZAN

## QANUN BELƏ İFADƏ OLUNUR

Hər şey haqqında zahiri görkəmə görə mühakimə yürüdürlər; nəyi ki, görmək olmaz, o şey dəyərə malik deyil. Buna görə də heç vaxt özünüzə kütlə arasında it-bat olmağa və yaxud tarixə qovuşmağa imkan verməyin. Seçilin. Nəyin bahasına olsa da, gözə dəyin. Maqnittək özünüzə cəzb edin, ətrafdakı bir çox təvazökar və nəzakətli insanlarla müqayisədə daha iri, rəngarəng, müəmmalı görünün.

## HAKİMİYYƏTİN AÇARI

Əhatəmizdə olanlardan daha gur parlamaq – bu elə bir qabiliyyətdir ki, heç kim bununla dünyaya gəlmir. Karyeranızın başlanğıcında adınızı və reputasiyanızı, sizi başqa adamların cərgəsindən fərqləndirəcək nə ilə isə bağlamalısınız, məsələn, geyimdə xarakterik stillə, hansısa bir səciyyəvi cəhətlə, elə bir hoqqa ilə ki, bu, təkcə məzəli görünməsin, həm də sizin haqqınızda danışmağa məcbur eləsin. Obraz özünə yer edən kimi, siz individuallıq olacaqsınız, ulduzunuzun göy qübbəsində öz yeri peyda olacaqdır.

Belə hesab etmək bərqərar olmuş yanlışlıqdır ki, yalnız sizin üçün səciyyəvi olan görkəm ziddiyyətli olmamalıdır, hücumların predmeti olmaq pisdir. Həqiqətdən bu qədər uzaq olan başqa nəyi isə təsəvvür etmək çətindir. Səylərinizin boşa çıxmasından və başqa bir kimsənin məşhurluğunuza kölgə salmasından qaçmaq üçün

diqqətin bir növündən o birinin xeyrinə imtina etməyinizə dəyməz. Son nəticədə istənilən diqqət sizin yalnız xeyrinizə olacaq.

XIV Lüdovikin sarayı istedadlı yazıçılar, rəssamlar, gözəlçələrlə, həmçinin də qüsursuz məziyyətləri olan kişi və qadınlarla zəngin olsa da, onlardan heç biri haqqında, hersoq Lozannski barədə olduğu qədər danışmırdılar. Hersoq bəstəboylu, demək olar cırtdan idi və onun davranışı son dərəcə dəliqanlılığı ilə seçilirdi – o, yatağını kralın favoriti olan xanımla bölüşürdü, yalnız saray əhlini deyil, həm də kralın özünü açıq təhqir edirdi. Təbəəsinin ekssentrikliyi kralı, amma o qədər əyləndirirdi ki, o, hersoqun olmadığı vaxtlarda çətinliklə tab gətirirdi. Bu, sadə izah olunurdu: hersoqun dözülməz xarakterinin qəribəlikləri diqqəti cəlb edirdi. Onun ecazkarlığı əhatə edənlərə təsir edən kimi, onlar nəyin bahasına olur-olsun hersoqla ünsiyyətdə olmaq istəyirdilər.

Bozluğun və ortabablığın üzərində yüksələn gur şəxsiyyətlərə möhtacdır cəmiyyət. Buna görə də sizi kütlədən fərqləndirən, diqqəti sizə cəlb edən keyfiyyətlərdən utanıb-çəkinməyin. Toqquşmalardan, hətta qalmaqallardan da qaçmayın. Unudulmuş olmaqdansa, üzərinizə edilən hücumlar, hətta yağdırılan böhtan da yaxşıdır.

Əgər siz elə də yüksək mövqe tutmursunuzsa və mövqeyiniz diqqəti üzərinizə cəlb etmək üçün xüsusi şanslar vermirsə, bu halda effektiv fənd, əliniz çata biləcək ən görkəmli, ən güclü, ən məşhur şəxsə hücum etmək olardı. XVI yüzilliyin əvvəllərində Pyetro Aretino, gənclik çağında hələ Romada çapçının şagirdi olduğu vaxt, şeir qoşan adam kimi özünə diqqət cəlb etmək eşqinə düşmüşdü və o, Roma Papasını və onun əhlilləşdirilmiş filə olan bağlılığını məsxərəyə qoyan satirik həcv silsiləsini nəşr etdirməyi qərara almışdı. Bu hücum Aretinoya dərhal məşhurluq gətirdi. Bu dünyanın güclülərinin üzərinə edilən həmlələr adətən oxşar effekt verir. Ancaq yadda saxlayın ki, siz ictimai diqqətin obyekti olandan sonra bu fənddən sui-istifadə etmək olmaz, bu, əks nəticəyə gətirə bilər.

Görünən mövqedə olandan sonra siz, diqqət cəlb etmək metodunuzu şəraitə uyğunlaşdırmaqla və dəyişməklə, özünüzə marağın sönməsinə imkan verməyə bilərsiniz. Əgər bu edilməsə,

publika darıxmağa başlayacaq və diqqətini başqa obyektin üzərinə keçirəcək. Oyun daim sayıq olmağı və yaradıcı yanaşmanı tələb edir. Pablo Pikasso özünə fonla qarışmağa heç vaxt imkan vermirdi. Onun adını hansısa bir müəyyən stillə bağlayanda, o, publikanı gözlənilməz işlər silsiləsi ilə kədərləndirirdi. O fikirləşirdi ki, tamaşaçıları eybəcər yaradıcılıqla tarazlıqdan çıxarmaq, onların mənim stilimə vərdiş etməsinə imkan verməkdən yaxşıdır. Başa düşmək lazımdır: insanlar kimin hərəkətlərini öncədən deyə bilirlərsə, həmin insanlara nəzərən üstün olduqları hissi onlara hakim kəsilir. Əgər siz, belələrinin gözləntilərinin əksinə oynamaqla, onlara yüksəklikdə kimin olduğunu göstərərsinizsə, bir dəfəyə hörmət qazanacaq və daha ciddi diqqətin obyekti olacaqsınız.

Obraz: Rampanın işığı. Bu parlayan dairəyə qədəm qoyan aktyor öz mövcudiyyətinin yüksəkliklərinə nail olur. Hamı ona baxır. Sofitin ensiz şüası yalnız bir nəfəri işıqlandıra bilər. Onu öz üzərində saxlamaq üçün bacardığın hər şeyi et. Məzəli, yöndəmsiz və ya qalmaqallı ol, təki şüa sənin üzərində dayansın və başqa aktyorları kölgədə qoysun.

Nüfuzlu rəy: "Özünü göstər, göz önündə ol... O şeyi ki, görmürlər, o elə bil mövcud da deyil... Məhz işıq ilkin şərt oldu ki, bunun sayəsində bütün xaliq olunan nura büründü. Nümayiş etdirmək bir çox boşluqları doldurur və əgər o əsl məziyyətlərlə möhkəmləndirilirsə, çatışmazlıqları ört-basdır edir və hər şeyə ikinci ömür verir".

Baltazar Qrasiani (1601-1658)

"Hətta söyüşlərə məruz qalaraq da, mən şöhrətdən özümə düşən payı alıram".

Pyetro Aretino (1492-1556)

ARI VƏ ŞAHZADƏ

İtiquyruq adlı bir arı çoxdan idi məşhurlaşmaq arzusu ilə yaşayırdı. Bir dəfə o uçub şahın sarayına gəldi və öz çarpayısında yatan balaca şahzadəni sancdı. Şahzadə ayıldı və bərkdən ağladı. Şah və saray əyanları təlaş içində onun yanına tələsdilər. Şahzadə qışqırır, arı isə onu yenə və yenə sancırdı. Saray əyanları arını tutmağa çalışırdılar, amma onlardan hər birinə də arının neştərindən pay düşdü. Qara-qışqırığa bütün saray əhli tökülüşdü, xəbər tez yayıldı və avaralar saraya tərəf axışmağa başladı. Şəhər təlatümə gəlmişdi, bütün işlər dayanmışdı. Çəkdiyi zəhmətdən sonra dincəlməyə getməzdən əvvəl arı ərz etdi: "Şöhrəti olmayan ad, alovu olmayan yanğın kimidir. Nəyin bahasına olur-olsun ad çıxarmaqdan vacib başqa heç nə yoxdur".

Hindistan təmsili

# QANUN 7

## BAŞQALARINI ÖZÜNƏ İŞLƏMƏYƏ MƏCBUR ET VƏ NƏTİCƏLƏRDƏN BƏHRƏLƏN

## QANUN BELƏ İFADƏ OLUNUR

Başqa adamların ağlını, biliklərini və qovhaqovunu öz işlərinizin irəliləməsi üçün istifadə edin. Bu cür kömək təkcə sizin qüvvənizə qənaət etməyəcək, həm də işlərində uğurlu adamın ilahi nurunu üzərinizə salacaq. Köməkçiləriniz unudulacaq, sizi isə yadda saxlayacaqlar. Başqalarının sizin üçün edə biləcəkləri şeyi heç vaxt özünüz etməyin.

## HAKİMİYYƏTİN AÇARI

Hakimiyyət dünyasında cəngəlliklərin qanunları hökm sürür: belələri var ki, ovlayır və öldürürlər və bir çox digərləri var ki, başqalarının ovlaması hesabına başını salamat saxlaya bilir (giyenalar, leşyeyənlər). Belələri elə də parlaq simalar deyil, daha az vergilidirlər və onları hakimiyyətə gətirə biləcək işi özləri yerinə yetirməyə çox vaxt qabil deyillər. Lakin onlar erkən dərk edirlər: əgər səbirli olarsansa, kimin isə bütün işi sənin yerinə edəcəyi vaxt mütləq gəlib çatacaq. Sadəlövh olmayın: siz tər-qan içində öz layihənizin üzərində zəhmət çəkəndə, üzərinizdə hərlənən qriflər və leşyeyənlər yaradıcılıq qabiliyyətlərinizdən istifadə edərək, necə yaşaya və hətta çiçəklənə biləcəklərini götür-qoy edirlər. Bundan şikayətlənmək, buna acımaq və hiddətdən boğulmaq faydasızdı. Özünü müdafiə etmək və oyuna girmək daha yaxşıdır. Hakimiyyətinizin oturacağını tikəndən sonra, özünüz leşyeyənə çevriləcəksiniz və çoxlu vaxta və qüvvəyə qənaət etmiş olacaqsınız.

Rəssam Peter Paul Rubens karyerasının axırlarına yaxın çox böyük sayda rəsm sifarişlərinin öhdəsindən gələ bilmirdi. O, sistem işləyib hazırladı: onun geniş emalatxanasında muzdla tutduğu çox qabiliyyətli onlarla rəssam çalışırdı. Biri geyim işlərində ixtisaslaşmışdı, başqası fon çəkirdi və beləcə də qalanları. Nə isə konveyerə oxşayan bir şey alınırdı və bunun sayəsində daha çox rəsm əsərini başa çatdırmağa müvəffəq olurdu. Əgər emalatxanaya mühüm sifarişçi baş çəkirdisə, Rubens muzdla tutduğu işçiləri bir günlük işdən buraxırdı. Sifarişçi eyvandan müşahidə etdiyi vaxt Rubens dəlicəsinə templə və ikiqat enerji ilə işləyirdi. Sifarişçi çox qısa vaxt ərzində bu qədər şedevr yaradan adamın iş qabiliyyətinə valeh olaraq çıxıb gedirdi. Qanunun cövhəri bax budur: başqalarını özünüz üçün işləməyə məcbur edərək və bütün mükafatları özünüz mənimsəyərək, onları istifadə etməyi öyrənin, – bu minvalla siz hədsiz hakimiyyət əldə etmiş olarsınız. Əgər bütün işi öz əllərinlə görməyin vacib olduğunu inadla hesab etməkdə davam edirsinizsə, onda siz heç vaxt kifayət qədər uzağa irəliləyə bilməyəcəksiniz və tez yanacaqsınız. Özünüzdə çatışmayan qabiliyyətlərə və yaradıcı potensiala malik olan adamları tapın. Onları muzdla tutun və şedevrlərin üzərinə öz imzanızı qoyun, ya da onların işlərini öz adınıza çıxarmağın başqa üsulunu tapın. Beləcə, başqalarının istedadı sizin olacaq və dünya sizin simanızda dahi görəcək.

Bu qanunun başqa, müasirlərin əməyində parazitliyi tələb eləməyən tətbiq üsulu da var: keçmişə – biliyin və müdrikliyin tükənməz mənbəyinə üz tutun. İsaak Nyuton bunu "nəhənglərin çiyinləri üstə dayanmaq" adlandırırdı. Bunu deyərkən o, kəşflərini edəndə həmişə başqalarının nailiyyətlərinə əsaslandığını nəzərdə tuturdu. Nyuton dahi şöhrətinə görə əksər hallarda antik dövrlərin, Orta Əsrlərin, İntibahın alimlərinin möhtəşəm vəhylərini ağılla istifadə etmək qabiliyyətinə minnətdar idi (və özü bunu başa düşürdü). Şekspir süjetləri, xarakterləri və hətta dialoqları, məsələn, Plutarxdan əxz edirdi, çünki bilirdi ki, ən incə psixoloji çalarların qələmə alınmasında və məharətlə sitat gətirilməsində Plutarxın tayı-bərabəri olmayıb. Bəs ardınca nə qədər yazıçı, öz növbəsində, Şekspirdən əxz edib! İndi nə – bu, plagiatdır?

İnsanın təbiətini tədqiq edən yazıçılar; qədim dövrlərin strateqləri; insan axmaqlıqlarını və ağılsızlıqlarını qələmə almış tarixçilər; hakimiyyətin yükünü daşımaq kimi ağır sənəti öyrənən krallar və kraliçalar – onların biliklərini toz basır, uzaq keçmişdən olan bu adamların hamısı, sizin nə vaxt gələcəyinizi və onların çiyinlərinə dırmaşacağınızı gözləyir. Onların idrakı sizin idrakınız, onların bacarığı – sizin bacarığınız ola bilər və onlar sizin əslində nə qədər qeyri-orijinal olduğunuzu insanlara demək üçün heç vaxt peyda olmayacaqlar. İnadla, yenə və yenə səhvlər buraxa-buraxa, öz fərdi təcrübənə yiyələnmək cəhdlərində vaxt və enerji sərf edərək, bütün ömür boyu işləmək olar. Keçmişin nailiyyətlərindən də istifadə etmək olar. Bismark bir dəfə demişdi: "Axmaqlar deyir ki, öz təcrübələri üzərində öyrənirlər. Mən başqalarının təcrübəsindən istifadə etməyə üstünlük verirəm".

Obraz: Leşyeyən. Cəngəllik varlıqları arasında ən asan tale ondadır. O, başqalarının yerinə yetirdikləri çətin işi mənimsəyir və özününkü edir. Onların salamat qalmaq üçün etdikləri uğursuz cəhdlər leşyeyənin şarmına çevrilir. Leşyeyənə bir baxın: siz işlədiyiniz vaxt, o ətrafda uçur. Onunla mübarizə aparmayın – ona qoşulun.

Nüfuzlu rəy: "Çox şey var ki, onları bilmək lazımdır, ömür qısadır, biliksiz həyat isə – həyat deyil. Bilikləri hasil etmək üçün çox gözəl vasitə var – başqalarının təcrübəsi və işi. Beləcə, tər başqasının alnında əmələ gələcək, orakul reputasiyasını isə siz qazanacaqsınız".
Baltazar Qrasiani (1601-1658)

Əgər ovçu öz arabasının etibarlı olduğuna bel bağlayırsa, altı atın ayaqlarını istifadə edirsə və Van Lyanı cilovları istiqamətləndirməyə məcbur edirsə, onda özü yorulmayacaq və sürətli heyvanları tutmaq onun üçün çətinlik törətməyəcək. İndi isə ehtimal edək ki, ovçu öz arabasının üstünlüklərindən istifadə etmir, atların ayaqlarından, Van Lyanın bacarıqlarından istifadə etməkdən imtina edir və arabadan düşür ki, özü piyada

heyvanların dalınca düşsün. Bu halda, hətta onun ayaqları Lyu Çinin ayaqları qədər sürətli olsa da, şikarın dalınca çatdıra bilməyəcək.

Amma əgər yaxşı atlardan və möhkəm arabalardan istifadə olunarsa, onda hətta qul kişi və qul qadın da heyvanları tutmaq iqtidarında olardı.

Han Fey-tzı,
Çin filosofu, b.e.ə. III əsr

## KOR TOYUQ

Qida axtarışında torpağı eşələməyə adət edən toyuq görmə qabiliyyətindən məhrum olur. Kor olmasına baxmayaraq, o daha böyük səylə eşələməyə başlayır. Axı bu, öz işini intizamla görən axmaqcığazın nəyinə gərək idi?

İti gözü olan başqa bir toyuq incə pəncələrinə əziyyət vermirdi, amma torpaqda eşələnmədən, o birisinin əməyinin məhsulundan ləzzət alırdı. Axı kor toyuq arpa dənəsini torpaqdan eşələyib çıxaran kimi, onun sayıq rəfiqəsi həmin andaca dənəni qapırdı.

Qothold Lessinq (1729-1781)

# QANUN
# 8

ADAMLARI SƏNƏ YAXINLAŞMAĞA MƏCBUR ET, ƏGƏR LAZIMDIRSA,
TƏLƏ YEMİ İSTİFADƏ ELƏ

QANUN BELƏ İFADƏ OLUNUR

Başqa adamı fəaliyyət göstərməyə məcbur edəndə, qüvvə sizin tərəfinizdədir. Hər şeydən əlverişlisi, rəqibin sizə yaxınlaşması və bunun xatirinə öz planlarını pozmasıdır. Onu nağıllardakı xeyirlərlə tamahsılandırın – və hücum edin. Kartların hamısı sizin əlinizdədir.

HAKİMİYYƏTİN AÇARI

Eyni bir ssenari tarixdə neçə dəfə təkrar olunub: aqressiv lider başlanğıcda hakimiyyətinin güclənməsinə gətirən qətiyyətli addımlar atır. O, tədricən zirvəyə çatır, ancaq sonra hər şey ona qarşı çönür. Onun çoxsaylı düşmənləri birləşirlər. O, hakimiyyəti qoruyub saxlamağa çalışaraq, özünü ora-bura vurmağa başlayır, amma bununla yalnız qüvvəsini tükədir, bu da qaçılmaz iflasa gətirir. Bu sxemin təkrar olunmasının səbəbi odur ki, aqressiv adam çox nadir hallarda situasiyanı tam həcmdə əlində saxlaya bilir. O, öncədən bir – iki gedişdən çox hesablaya, özünün bu və ya digər fəal hərəkətinin nəticələrini görə bilmir. O, sayı aramsız artan düşmənlərinin yedəyində getməyə məcburdur daim. Bu, onun impulsiv hərəkətlərinin nəticələri ilə yanaşı, yekunda aqressiv enerjinin özünə qarşı yönəlməsinə gətirir.

Hakimiyyətdə olduğunuz vaxt siz gərək özünüzdən soruşasınız: əgər mən situasiyanı heç vaxt əlimdə saxlaya bilmirəmsə, onda problemlərimi həll etməyə və düşmənlərimdən müdafiə olunmağa çalışaraq, nə məqsədlə ora-bura vurnuxuram? Niyə mən hadisələri

istiqamətləndirmək əvəzinə, həmişə onlara reaksiya verirəm? Cavab sadədir: hakimiyyət haqqında sizin təsəvvürləriniz düzgün deyil. Siz aqressiv hərəkətləri effektiv hərəkətlərlə qarışıq salırsınız. Çox vaxt isə ən effektivi, təmkininizi pozmadan və tələləri düzənləri məyus edə-edə, ən əsası isə, uzunmüddətli hakimiyyəti qısamüddətli qələbələrdən üstün tutaraq, arxa planda qalmaqdır.

Yadda saxlayın: hakimiyyətin əsasını təşkil edən – təşəbbüsü öz əlində saxlamaq, başqalarını etdiyiniz gedişlərə cavab verməyə məcbur etmək, rəqibləri və ətrafınızdakıları müdafiə mövqelərində saxlamaq qabiliyyətidir. Adamlar göstərişinizlə hərəkət etmək məcburiyyətində qalanda, siz situasiyaya nəzarət etməyə başlayacaqsınız. Hakimiyyət isə situasiyaya nəzarət edənə məxsusdur. Bu cür vəziyyətə nail olmaq üçün iki şey baş verməlidir: hisslərinizi idarə etməyi öyrənin və qəzəbin sizə hakim kəsilməsinə heç vaxt imkan verməyin. Eyni zamanda da insanların könlünə dəyəndə və insanları məsxərəyə qoyanda, onların özündən çıxmaq kimi təbii meyilləri üzərində oynamağı bacarmaq vacibdir. Əvvəl-axır, başqalarını idarə etmək qabiliyyəti – aqressiyanın istənilən alətindən qat-qat güclü silahdır.

Rəqibinizi özünüzə xeyirli olan şəkildə hərəkət etməyə vadar eləmək bacarığında əlavə bir üstünlük də var – siz onu öz ərazinizdə döyüşmək məcburiyyətində qoyursunuz. Düşmənin ərazisində olarkən o, əsəbiləşir, tələsməyə başlayır və səhvlərə yol verir. Danışıqlar və görüşlər üçün öz ərazinizi, ya da özünüzün seçdiyiniz yeri təklif etmək tədbirlidir. Sizin istinad edə biləcəyiniz nöqtə var, rəqib isə öyrəşdiyi heç nə görmür və özünü narahat hiss edir.

Manipulyasiya – təhlükəli oyundur. Kimin isə özü ilə manipulyasiya edildiyindən şübhələnməsinə bənddir və o, müqavimət göstərməyə başlayır və nəzarətiniz altından çıxır, rəqibin başını girləyib öz yanınıza çəkib gətirməklə siz, situasiyaya nəzarətin onun tərəfindən həyata keçirildiyi ilə bağlı illüziya yaratmış olursunuz.

XIX əsrin böyük cinayətkarı olan baron Deniel Drü birjada oynamaq ustası idi. O bu və ya digər aksiyaların alınmasını və ya

satılmasını arzulayanda, – aksiyaların kursu isə gah artır, gah da düşürdü, – məqsədinə doğru demək olar heç vaxt birbaşa getmirdi. Onun fəndlərindən biri belə idi: o, Uoll-Stritin yaxınlığındakı elitar klubun zalından tələsik keçərkən (belə ki, onun birjaya yönəldiyi açıq-aşkar nəzərə çarpsın), məşhur qırmızı cib yaylığını çıxarır və alnından təri silirdi. Bu vaxt onun cibindən, sanki təsadüfən, kağız vərəqi düşürdü. Drünun atacağı addımları öncədən tapmağa çalışan klub üzvləri, kağızda birja proqnozunu tapa biləcəkləri ümidi ilə, kağızın üstünə atılırdılar. Kağızda yazılanlarla bağlı şayiələr sürətlə yayılırdı və klubun üzvləri barona əl verən ssenari üzrə aksiyaları ya almağa, ya da satmağa başlayırdılar.

Çox şey tələ yeminin nə qədər dadlı olmasından asılıdır. Əgər tələ kifayət qədər gözəgəlimlidirsə, emosiyalardan və şəhvət hisslərindən gözləri tutulan düşmənləriniz həqiqəti görə bilməyəcəklər. Onlar nə qədər tamahkar olurlarsa, onları sizə lazım olan tərəfə aparmaq bir o qədər asandır.

Obraz: Ayı üçün bal tələsi. Ayı ovuna çıxan ovçu şikarının dalınca qovhaqova girişmir. Əgər ayı ovlandığını bilirsə, onu tutmaq demək olar qeyri-mümkündür və o küncə qısnanarsa, son dərəcə quduzlaşır. Bunun əvəzində ovçu cələ qismində bal olan tələlər düzür. O təqib etməklə özünü yormur və həyatını risk altında qoymur – sadəcə, cələni hazırlayır və gözləyir.

Nüfuzlu rəy: "Yaxşı döyüşçülər özləri yaxınlaşmır, əvəzində başqalarını özlərinə yaxınlaşmağa məcbur edirlər. Bu, başqalarının və özünün boşluğu və doluluğu prinsipidir. Siz rəqiblərinizi özünüzə yaxınlaşmağa məcbur edəndə, onların qüvvəsi həmişə boş olur; siz isə onların yanına getmədiyinizdən, qüvvəniz həmişə doludur. Boşluğa doluluqla hücum etmək – daşları toyuq yumurtalarına atmaq kimidir.

Jan Yu, "Hərbi sənət"in şərhçisi (XI əsr)

“Marallar üçün cələni düzərək, mən onu iyləmək üçün yaxınlaşan elə birinci marala güllə atmıram, əvəzində cələnin ətrafında bütöv maral sürüsü toplaşana qədər gözləyirəm”.

Otto fon Bismark (1815-1898)

# QANUN 9

## QƏLƏBƏYƏ DƏLİLLƏRLƏ YOX, HƏRƏKƏTLƏRİNLƏ NAİL OL

## QANUN BELƏ İFADƏ OLUNUR

Mübahisədə, sizə elə gəldiyi kimi, nail olduğunuz istənilən bir dəqiqəlik uğur, Pirr qələbəsinə çevrilir. Başqalarını özünüzlə razılaşmağa məcbur etməyin bundan xeyli effektiv yolu, bircə söz də tələffüz etmədən, hərəkət etməkdir. İzah etmək əvəzinə, göstərin.

## HAKİMİYYƏTİN AÇARI

Hərəkətlərinizin əhatənizdə olanlara vaxt ötdükcə necə təsir edəcəyini düzgün qiymətləndirməyi öyrənmək hakimiyyət sferasında çox vacibdir. Mübahisədə öz mövqeyini sübuta yetirməyə və ya qələbə qazanmağa çalışanda, inandırmağa çalışdığın adamlara mübahisənin özünün necə təsir edəcəyini heç vaxt dəqiqliklə bilmirsən: onlar sizinlə zahirən tamamilə nəzakətlə razılaşa, amma daxilən etiraz edə və hiddətlənə bilərlər. Belə də ola bilər ki, siz qəsdən, müxtəlif cür başa düşülən, o cümlədən də opponentlərin xətrinə dəyə biləcək hansısa sözlər ifadə edərsiniz və bu onların əhvalını pozar. İstənilən mübahisənin hətta ən yaxşı arqumentləri də vur-tut söz olaraq qalır – bu isə elə sürüşkən əsasdır ki. Mübahisənin və bu qədər inandırıcı görünən dəlillərin üstündən bir neçə gün keçəndən sonra, biz çox vaxt ilkin rəyimizə qayıdırıq – sadəcə, ona daha çox vərdiş etdiyimizə görə.

Başa düşmək lazımdır: sözlərin qiyməti heç nədir. Hər kəsə məlumdur ki, mübahisə qızışanda nə istəsən demək olar, təki haqlı olduğunu sübut edəsən. Biz İncildən qeyri-dəqiq sitat gətirə, etibarsız mənbədən statistikaya müraciət edə bilərik. Belə xırda

vicdan əyintisinə qarşı sizə kim irad tutacaq ki? Hərəkətlər və əyani olanın nümayiş etdirilməsi – tamamilə başqa məsələdir. Onlar qat-qat təsirlidir, onlarda məna daha çoxdur. Onlar buradadır, düz gözlərimizin önündə, biz onları görə bilərik. Kiminsə xətrinə dəyə biləcək sözlər deyilməyib, yanlış başa düşülmək imkanı istisna edilib. Əyani sübutla heç kim mübahisə etməyəcək. Baltazar Qrasiani qeyd etdiyi kimi: "Həqiqəti çox vaxt görmək olar, onu eşidə bilmək nisbətən çətindir".

Ser Kristofer Ren ensiklopedik təhsilli adamın ingilis variantının təcəssümü idi. O, riyaziyyatı, astronomiyanı, fizikanı və fiziologiyanı gözəl bilirdi. O, uzun illər ərzində fəaliyyət göstərmişdi və İngiltərənin ən şöhrətli memarlarından biri olmuşdu. Bununla belə, sifarişçilərin onun layihələrinə ağılsız dəyişikliklər etməklə bağlı əmr verməsi nadir hadisə deyildi. Onlar cavabında heç vaxt etiraz, ya da təhqir eşitməzdilər. Haqlı olduğunu sübut etmək üçün memarın başqa üsulları var idi.

1688-ci ildə Ren, Vestminster üçün möhtəşəm ratuşanın layihəsini yaratmışdı. Lakin layihə meri qane etməmişdi; mer əsəbiləşirdi. O öz təşvişlərini Renlə bölüşdü: ikinci mərtəbə təhlükəsiz deyil və uçub, düz onun birinci mərtəbədəki kabinetinin üstünə tökülə bilər. Tavanı daha yaxşı möhkəmlətmək üçün o, Rendən iki daş sütun əlavə etməyi xahiş elədi. Üstələnməyən mühəndis olan Ren sütunların qətiyyən lazım olmadığını və merin təşvişlərinin əsassız olduğunu başa düşürdü. Lakin sütunlar tikildi, mer özünü xoşbəxt və minnətdar hiss edirdi. Və yalnız illər ötəndən sonra restavratorlar, bərpa işləri ilə bağlı qaldırıcı körpünün üstündə tavanın altına qalxanda gördülər ki, sütunların hündürlüyü lap azacıq tavana çatmır.

Sütunlar, demə, təsviri incəsənətdə başaldatma adlandırılan şeylər imiş. Lakin iki nəfər nə istəyirdisə, onu aldı: mer toxtaya bilərdi, Ren isə başa düşürdü ki, gələcək nəsillər biləcəklər: onun orijinal layihəsi düzgün hesablanmışdı və sütunlar lazım deyildi.

Sizin ideyanızın əyani nümayişinin gücü, opponentlərinizin özlərini müdafiə etməyə ehtiyaclarının olmamasındadır, bu isə opponentlərin inandırmaq üçün daha açıq olduqları deməkdir. Nəzərdə nə tutduğunuzu onlara, hərfi mənada, fiziki olaraq

duymağa imkan verin, bu isə istənilən sözdən qat-qat güclü arqumentlərdir.

Hakimiyyətə can atanda, ya da onu qoruyub saxlamağa çalışanda, həmişə birbaşa olmayan yollar axtarın, həmçinin döyüşlərinizi çox ciddi dəqiqliklə planlaşdırın. Əgər bir kimsənin sizinlə, nəhayət, razılaşanadək nə qədər vaxt keçəcəyi sizin üçün vacib deyilsə və yaxud zaman və şəxsi təcrübəsinin onu, başqasını, nə istədiyinizi başa düşməyə məcbur edənədək gözləməyə razısınızsa – onda hər şeydən yaxşısı, əyani dəlillərin nümayiş etdirilməsi ilə özünüzü çətinə salmamaqdır. Kənara çəkilin və qüvvələrinizi qoruyun.

Obraz: Taxta parçası – yelləncək. İrəli hərəkət etmədən, yuxarı-aşağı, yuxarı-aşağı gedib-gələn mübahisəçilər. Yelləncəkdən düşün və taxta parçasını yellətmədən, öz niyyətlərinizi onlara göstərin. Qoyun onlar yuxarıda qalsınlar və qoy ağırlıq qüvvəsi tədricən və yumşaq şəkildə onları yerə düşürtsün.

Nüfuzlu rəy: "Heç vaxt mübahisələrə qoşulmayın. Cəmiyyətdə heç nəyi müzakirə etmək lazım deyil, əvəzində, yalnız nəticələr verin".

Bencamin Dizraeli (1804-1881)

## AMASİSİN HİYLƏGƏRLİYİ

Misirdə Apri devriləndən sonra, Siuf şəhərinin Saiss əyalətindən olan Amasis taxt-taca qalxdı. Misirlilər başlanğıcda padşahı saya belə almırdılar, çünki əvvəllər o, adi vətəndaş idi və hətta əsil-nəcabətli nəsildən də deyildi. Sonra, ancaq Amasis onların etibarını hiyləgərliklə, lakin çox incə üsulla qazanmağa müvəffəq oldu. Onun saya-hesaba gəlməyən sərvətləri arasında, padşahın özünün və onun qonaqlarının hamısının həmişə ayaqlarını yuduqları tas var idi. Amasis həmin tasın əridilməsini, ondan tanrının heykəlinin tökülməsini və heykəli şəhərin ən gediş-

gəlişli yerində qoyulmasını hökm etdi. Misirlilər isə heykəlin yanından keçəndə ilahipərvər həyəcanla ona dua edirdilər. Amasis bu haqda eşidəndə, misirliləri yanına yığmağı hökm etdi və onlara bildirdi ki, indi onların ilahipərvər ehtiramla yanaşdıqları heykəl, ayaqları yumaq üçün olan, onların əvvəllər tüpürdükləri, ifrazatlarını buraxdıqları və ayaqlarını yuduqları həmin tasdan düzəldilib. Bax onun özü ilə də, təxminən elə həmin tasla bağlı olana oxşar bir şey baş verib. Olsun ki, Amasis əvvəllər nə vaxtsa adi vətəndaş idi, indi isə – onların padşahıdır. Buna görə də, misirlilər ona ehtiram və hörmət etməlidirlər. Bu minvalla Amasis misirlilərin yaxşı münasibətini qazandı və onlar Amasisə xidmət edəcəkləri ilə könüllü surətdə razılaşdılar.

Herodot, b.e.ə. təqribən 485 – 425

# QANUN 10

İNFEKSİYA: ŞƏN OLMAYANLARDAN VƏ BƏXTİ GƏTİRMƏYƏNLƏRDƏN QAÇ

QANUN BELƏ İFADƏ OLUNUR

Başqalarının çətinlikləri sizin üçün fəlakətli ola bilər – emosional hallar da, xəstəliklər kimi, yoluxucudur. Sizə belə gələ bilər ki, suda batanı xilas edirsiniz, amma əslində yalnız öz bədbəxtliyinizi yaxınlaşdırırsınız. Bədbəxtlər hərdən dərd-bəlanı özlərinə cəzb edir, onlar dərd-bəlanı sizin üstünüzə də çəkib gətirəcəklər. Əgər belədirsə, uğurlulara və bəxtəvərlərə yaxın olmağınız yaxşıdır.

HAKİMİYYƏTİN AÇARI

Bizim ətrafımızda bəxti gətirməyən, taleyin amansız zərbələrindən əziyyət çəkən, bunların öhdəsindən gəlməyə qüvvəsi çatmayan adamlar var. Beləlari, sözsüz ki, onlara verə biləcəyimiz hər cür köməyə və halayananlığa layiqdir. Lakin bir başqaları, bədbəxtliklər və uğursuzluqlar üçün yaranmayan, amma bədbəxtlik və uğursuzluqları başına öz dağıdıcı əməlləri ilə gətirən və ətrafdakılara destabilizasiya edici təsir göstərən adamlar var. Belələrini tərbiyə etməyi öyrənmək, onların xarakterlərini və həyatlarını dəyişmək gözəl olardı, ancaq çox vaxt məhz onlar bizim həyatımıza soxulur və bizim özümüzü dəyişməyə məcbur edirlər. Səbəb sadədir – insanlar öz vaxtlarını birlikdə keçirdikləri adamların əhvali-ruhiyyəsinə, emosiyalarına və hətta düşüncə tərzinə münasibətdə çox həssasdırlar.

Başa düşmək lazımdır: sizin necə adamlarla əlaqəli olduğunuzla bağlı başqalarının təsəvvürləri hakimiyyət oyunlarında

çox vacibdir. Özünüzü "infeksiya daşıyıcıları" ilə bağlayarsınızsa, bundan azad olmaq üçün qiymətli vaxtınızı və qüvvənizi həddən artıq çox sərf edəcəyiniz riski böyükdür. Üstəlik də, əhatənizdəkilərin gözündə siz assosiasiya üzrə həmiştirakçıya oxşar bir adam olacaqsınız. İnfeksiya təhlükəsini heç bir vəchlə olduğundan aşağı qiymətləndirmək olmaz!

İnfeksiyadan bir xilas var: karantin. Lakin siz problemi aşkar edəcəyiniz vaxta qədər, çox vaxt həddən artqı gec olur. Hər yerə sirayət edən belə viruslardan özünü necə qoruyasan? Cavab bundan ibarətdir ki, adamlar haqqında, öz problemlərini necə və nə ilə izah etdiklərinə görə yox, onların öz əhatəsindəki dünyaya necə təsir etdikləri ilə bağlı mühakimə yürütmək lazımdır. Xəstəliyin daşıyıcılarını, öz başlarına gətirdikləri bədbəxtliklər, coşqun keçmişləri, qırdıqları dostluq və tanışlıq əlaqələrinin uzun siyahısı, xidmət üzrə qeyri-sabit, qırıq-qırıq irəliləmə, həmçinin sizi aşıran və öz maraqlarınızı unutmağa məcbur edən xarakterlərinin gücü ilə tanımaq mümkündür. Bu əlamətlər üzrə daşıyıcıları tanımağa hazır olun, narazılığı onların gözlərindən görüb oxumağı öyrənin. Ən vacibi – halayananlığın təsiri altına düşməyin. Kömək etməyə cəhd göstərməyin. Bu insan dəyişməyəcək, amma bax siz özünüz isə yolunuzdan vurulub çıxarılacaqsınız.

İnfeksiyanın ikinci üzü doğrudan-doğruya da qiymətli və daha anlaşılandır: uğuru yaxşı daxili əhvali-ruhiyyə, təbiətdən gələn həyatsevərlik, enerji və ağılları ilə çəkib gətirən adamlar var. Belə insanlar – sevinc mənbəyidirlər və siz belələri ilə birləşməlisiniz ki, özlərinə cəzb etdikləri çiçəklənməni onlarla bölüşəsiniz.

Bu yalnız yaxşı əhvali-ruhiyyə və uğurla bağlı deyil: istənilən müsbət keyfiyyət yoluxucu ola bilər. Napoleonun hökmranlığı dövründə xarici işlər naziri olan Taleyran bir çox qəribə və adamı qorxuya salan səciyyəvi cəhətlərə malik olsa da, hamı yekdilliklə hesab edirdi ki, o, incə zövqlü davranışı, aristokratik şarmı, ağıldan zirəkliliyi ilə istənilən fransızı üstələyir. Və həqiqətən də, ölkənin ən qədim əsil-nəcabətli ailələrindən birinin davamçısı olan Taleyran, demokratiyaya və Fransa Respublikasına inamına baxmayaraq, saray əhlinə xas olan ecazkar maneralarını saxlamışdı. Onun müasiri olan Napoleon bir çox cəhətlərinə görə

onun əksi idi – Korsikadan olan kəndli, dilə tutmaq qeyri-mümkün olan və adamsevməz, hətta kobud. Lakin Napoleon heç kimə, Taleyrana olduğu qədər heyran olmamışdı. Nazirin insanlarla rəftarına qibtə etsə də, onun ağlına, qadınları məftun etmək bacarığına paxıllıq edə-edə olsa da, Napoleon çox müdrikcəsinə hərəkət etmişdi – özündə çatışmayan ədəb-ərkanı özünə hopdurmaq ümidi ilə, Taleyranı yanında saxlayırdı. Şübhəsiz, hökmranlıq etdiyi vaxt ərzində Napoleon dəyişirdi. Taleyranla ünsiyyətdə olması sayəsində iti bucaqların bir çoxu cilalanmışdı.

Bu cür emosional təsirin müsbət tərəflərindən öz faydanıza yararlanın. Əgər, məsələn, siz təbiətən simicsinizsə, səxavətli adamla ünsiyyətdə olun və o öz ürəkaçıqlığını sizə yoluxduracaq. Əgər siz qaraqabaq, tutqun adamsınızsa, həyatsevər şəxslərlə yaxın olun. Əgər özünə qapanmağa meyillisinizsə, özünüzü ünsiyyətcil adamlarla dostlaşmağa məcbur edin. Özünüzdəki çatışmazlıqların yiyəsi olan adamlarla heç vaxt kooperasiyaya girməyin, onlar sizi dala çəkən bütün hər şeyi daha da möhkəmləndirəcəklər. Qoy sizi yalnız müsbət olana cəzb etsin. Bunu özünüz üçün həyat qanunu edin – bu sizə istənilən terapiyadan çox kömək edəcək.

Obraz: Virus. Gözəgörünməzdir, sizin məsamələrinizə xəbərdarlıqsız soxulur, səssiz və yavaş-yavaş yayılır. Siz məsələdən xəbərdar olub əl-ayağa düşməzdən qabaq, artıq yoluxacaqsınız.

Nüfuzlu rəy: "Taleyin ərköyünlərini – onlarla ünsiyyətdə olmaq üçün və uğursuzları – onlardan qaçıb canını qurtarmaq üçün tanımağı öyrən. Uğursuzluq adətən – ya cinayət, ya da ağılsızlıqdır və ondan əziyyət çəkənlərin arasında bundan yoluxucu xəstəlik yoxdur: uğursuzlar arasında ən uğursuzu olana qapını heç vaxt açma, zira əgər bunu edərsənsə, ondan yapışıb, bir çox başqaları da içəri keçəcək... Başqalarının bəd nəsibləri ilə ləkələnmə".
Baltazar Qrasiani (1601-1658)

QOZA VƏ ZƏNG QÜLLƏSİ

Qarğanın gətirdiyi qoza hündür zəng qülləsinin lap üstünə gəlib çıxmışdı və diyirlənib yarığa düşərək, dəhşətli qismətindən yaxa qurtara bilmişdi. Onda o, Tanrının rəhmdilliyinə çağırış edərək və qüllənin hündürlüyünü, gözəlliyini və zənglərinin nəcib səsini vəsf edə-edə, zəng qülləsindən onu gizlətməyi yalvar-yapış etməyə başladı. "Əfsus, – o davam edirdi, – madam ki mənə qoca atamın yaşıl budaqları altına düşmək və onun tökülən yarpaqlarının yumşaq örtüyünün üstündə yatmaq nəsib olmadı, heç olmasa sən məni atma. Mən qarğanın dimdiyində olanda özümə and içdim ki, əgər məhv olmaqdan canımı qurtara bilsəm, günlərimi balaca bir çalada sakitcə yatmaqla qurtaracağam". Bu sözlər zəng qülləsini kövrəltdi və halayananlıqla hərəkətə gətirilərək, qozaya düşdüyü yarıqda qalmağa icazə verdi. Bir müddət keçdi və qoza parçalanıb bölündü. Onun rişələri daşlardakı çatlara kök atır və onları aralayırdı, onun cücərtiləri yuxarıya, günəşə doğru uzanmağa başladı. Tezliklə onlar binanın özündən hündürə qalxdı, burulub-düyünlənən köklər isə qalınlaşdıqca, divarları dağıtmağa və qədim daşları öyrəşdikləri yerdən oynatmağa başladı. Onda dağılmanın səbəbi zəng qülləsinə agah oldu, lakin həddən artıq gec idi və tezliklə uçub-dağılaraq xarabalığa çevrildi.

Leonardo da Vinçi, 1452-1519

# QANUN 11

## ÇALIŞ, İNSANLAR SƏNDƏN ASILI OLSUNLAR

## QANUN BELƏ İFADƏ OLUNUR

Asılı olmayan vəziyyətinizi saxlamaq üçün çalışın ki, həmişə lazımlı olasınız. Sizə nə qədər çox bel bağlayırlarsa, bir o qədər çox azadlıq əldə edirsiniz. Başqa adamların xoşbəxtliyinin və çiçəklənməsinin sizdən asılı olmasına nail olun – və siz heç nədən ehtiyatlanmaya bilərsiniz. Onlara heç vaxt hər şeyi öyrətməyin, belə ki, onlar öz qüvvələri ilə keçinə bilməsinlər.

## HAKİMİYYƏTİN AÇARI

Hakimiyyətin zirvəsi – insanları sizin istəyinizlə hərəkət etməyə məcbur eləmək bacarığıdır. Əgər siz buna gücə əl atmadan və təhqir etmədən nail olursunuzsa, əgər adamlar məhz sizə lazım olanı həvəslə yerinə yetirirlərsə, deməli, hakimiyyətiniz əlçatmaz yüksəklikdədir. Belə vəziyyətə nail olmağın ən yaxşı üsulu – özünüzdən asılılıq yaratmaqdır. Rəisin sizin xidmətlərinizə ehtiyacı var; o, zəifdir və ya sizsiz fəaliyyət göstərmək iqtidarında deyil; siz onun işinə elə dərin sirayət etmisiniz, siz bu işlə elə hörülüb-toxunmusunuz ki, sizdən yaxa qurtarmaq cəhdi ona yalnız bir çox çətinliklər gətirəcək, ya da o, adekvat əvəz axtarmaq üçün qiymətli vaxtı israf etməli olacaq – bunların hamısı sizin vəziyyətinizi möhkəmləndirir. Qarşılıqlı münasibətləri elə qurmaq pis olmazdı ki, rəisinizi sizin istəyinizə uyğun idarə etməyə imkan verən kozırların hamısı, bütün rıçaqlar əlinizdə olsun. Bu, mahiyyət etibarilə, taxt-tacın arxasında nəzərəçarpmadan

dayanan, öz hökmdarını faktiki olaraq idarə edən kral nökərinin klassik nümunəsidir.

Çoxları səhvən hesab edir ki, hakimiyyətin ali forması – müstəqil olmaqdır. Bu, yanlışlıqdır. Hakimiyyət insanlar arasında münasibətləri nəzərdə tutur. Sizə pərdə qismində xidmət edən müttəfiqlər, icraçılar və hətta zəif hökmdarlar lazımdır mütləq.

Əgər özünüzə tələbatın duyulduğu vəziyyətə nail ola bilməyəcəksinizsə, onda ələ düşən ilk əlverişli imkandaca sizdən yaxa qurtaracaqlar. Daha cavan, sizdən təravətli, yüksək ödəniş tələb etməyən, nisbətən az təhlükə doğuran kimsə tapılacaq. Bunu gözləməyin, əhatənizdə olanların bütünlüklə sizdən asılı olduqlarını onlara təlqin edin. Əgər sizinlə ayrılmaq mümkün bəlalar, hətta ölümlə təhdid edirsə, hakimiyyət dairələri, öncədeyimin düzgün olub-olmadığını yoxlamaq üçün, taleyi sınağa çəkməyə cürət etməyəcəklər. Bu cür mövqeyə nail olmağın bir çox üsulu var. Onlardan ən yaxşısı – əvəz edilməsi, sadəcə, mümkün olmayan talant və ustalığa malik olmaqdır.

Hökmən deyil ki, dahi olasınız, sizi ümumi kütlədən fərqləndirən nəyi isə etmək bacarığı kifayətdir. Elə bir situasiya yaratmalısınız ki, bu zaman siz itib-batmayacaqsınız, istənilən vaxt özünüzə başqa himayədar tapa biləcəksiniz. Rəisinizə gəlincə isə, qoy o özünə elə bu cür talanta malik başqa nökər tapmaq üçün ayaqlarına güc versin. Amma əgər, öz aramızdır, siz elə də əvəzedilməz deyilsinizsə, haqqınızda bu cür təəssürat yaratmaq üçün bir üsul tapın. Savadlı mütəxəssis reputasiyası, mövqeyinə görə sizdən yüksəkdə olanı sizsiz keçinə bilməyəcəyinə inandırmağa gözəl kömək edir. Niksonun vaxtında Ağ Evdə Henri Kissincerin başı qalmaqala dəfələrlə düşmüşdü və bununla belə, o tab gətirdi. Ona görə yox ki, prezidentin tapa biləcəyi ən yaxşı diplomat idi – danışıqları elə həmin səviyyədə apara biləcək bir kimsə tapılardı; və ona görə də yox ki, onlar Niksonla gözəl yola gedirdilər – onlar heç uzaqdan-uzağa da həmişə yola getmirdilər; və heç ona da görə yox ki, onların siyasi idealları üst-üstə düşürdü. Kissincer siyasi strukturun çoxsaylı sahələrində özünü elə dərin möhkəmləndirə bilmişdi ki, onun kənarlaşdırılması xaosa səbəb olardı və o, buna görə sağ qala bilmişdi. O,

administrasiyanın müxtəlif istiqamətlərdə fəaliyyət göstərən lap çox sayda departamentlərinin işinə cəlb olunmuşdu – məhz elə bu cəlbolunmanın özü onun əsas kozırı oldu. Bunun sayəsində onun çoxlu tərəfdarı var idi. Əgər özünüzə bu cür mövqe təmin edə bilərsinizsə, sizi kənarlaşdırmaq, sadəcə, təhlükəli olacaq – bu halda qarşılıqlı bağlılıqların ən müxtəlif növləri pozulmaq təhlükəsi qarşısında qala bilər.

Və sonuncu xəbərdarlıq: özünüzdən yüksək mövqedə duranın sizdən asılılığının onu sizi sevməyə məcbur edəcəyi ağlınıza gəlməsin. Çox güman, o sizdən qorxacaq. Lakin Makiavellinin dediyi kimi, sevgi doğurmaqdansa, qorxu doğurmaq daha yaxşıdır. Qorxunu idarə etmək olar, sevgini heç vaxt. Sevgi və dostluq kimi dəyişkən, həssas hisslərdən asılılıq sizi yalnız müdafiəsiz edir. Belə baxanda, başqaları sizinlə ünsiyyətdə olmağı sevdikləri üçün sizdən asılı olunca, qoy sizi itirə biləcəkləri qorxusu altında asılı olsunlar.

Obraz: Çoxsaylı tikanları olan liana. Aşağıda köklər dərinə və ətrafa boy atır. Yuxarıda lriananın budaqları kolların arasından keçir, ağacların gövdəsinə, dirəklərə və pəncərə çərçivələrinə sarmaşır. Lianalardan yaxa qurtarmaq o qədər əziyyət və axıdılan qan hesabına başa gələrdi ki, onlara sarmaşmağa imkan vermək daha asandır.

Nüfuzlu rəy: "İnsanları özündən asılı olmağa məcbur et. Belə asılılıqdan, adi minnətdarlıqdan çox olan nə isə almaq olar. Susuzluq yanğısını söndürən adam, su quyusuna arxasını çevirir dərhal. Asılılıq yox olanda, onunla birlikdə nəzakət və qanacaq-mərifət də yox olur, ardınca – hörmət. Səni öyrətməli olan birinci təcrübə belədir: ümidin yaşamasına imkan ver, onun həyata keçməsinə yox və buna, hətta taxt-tac sahibi olan himayədarının da sənə ehtiyacı olduğunu duymağa məcbur etməklə nail ol".

Baltazar Qrasiani (1601-1658)

"...Müdrik hökmdar öz təbəələrinin, onlar kim olsalar da və istənilən şərtlər çərçivəsində, dövlətdən və onun özündən asılı

olmalarının qeydinə qalacaq. Bu halda onlar həmişə etimada layiq olacaqlar”.

Nikkolo Makiavelli (1469-1527)

AT VƏ QATIR

Qatır gecə və gündüz sahədə gəzir və şumlayırdı, at isə gecələr yeyir, gündüzlər isə şumlayırdı. Qatır onda ata deyir:

– Sən niyə şumlayırsan? Sənin yerinə olsaydım, mən getməzdim. O məni qamçı ilə çırpardısa, mən ona şıllaq atardım.

Səhəri gün at elə belə də etdi. Atın tərsləşdiyini görən mujik kotana qatırı qoşdu.

Lev Tolstoy (1828-1910)

# QANUN 12

QURBANINI TƏRKSİLAH ETMƏK ÜÇÜN HƏRDƏN DÜZGÜNLÜK VƏ SƏXAVƏT GÖSTƏR

QANUN BELƏ İFADƏ OLUNUR

Tək bircə səmimi düzgün hərəkət bir düjün natəmiz hərəkətə qalib gələr. Düzgünlüyün və genişürəkliyin səmimi-qəlbdən təzahürü, hətta hər şeyə şübhə ilə yanaşan adamların da sayıqlığını yuxuya verər. Seçmə hallarda düzgünlüyünüz vurub boşluq yaradanda, adamları ürəyiniz istəyəntək aldada və onlarla manipulyasiya edə bilərsiniz. Vaxtında edilən bəxşiş – Troya atı – elə həmin məqsədə xidmət edəcək.

HAKİMİYYƏTİN AÇARI

Yalanın cövhəri – diqqətin yayındırılmasıdır. Aldatmağa hazırlaşdığınız adamların diqqətini yayındıranda siz, onların nəzərinə çarpmayan nə isə etmək üçün vaxt və məkan udursunuz. Mərhəmətli, genişqəlbli, vicdanlı hərəkətlər çox vaxt diqqəti yayındırmağın ən effektiv üsulu olur, çünki hətta hər şeydən şübhələnən adamları da tərksilah edir. Bu onları, istənilən effektli jestə inanmağa hazır olan uşağa döndərir.

Qədim Çində bu, "götürməzdən əvvəl vermək" adlandırılırdı – ətrafınızdakılar sizin necə verdiyinizə göz qoyduqlarından, necə götürdüyünüzü görmürlər. Bu, praktikada tətbiqinin sonsuz variantları olan mexanizmdir. Hətta hakim dairələr üçün də kimdənsə nəyi isə açıq-açığına almaq, təhlükəlidir. Qurban qisas alovu ilə odlanar. Özünüzə lazım olan şeyi, sadəcə, xahiş-minnətlə, qoy nəzakətli şəkildə olsa belə, almaq da eyni cür təhlükəlidir: əgər başqaları bunda özləri üçün fayda görməzlərsə,

onlar xahişinizdən inciyə bilərlər. Almaqdan əvvəl, verməyi öyrənin. Bu, zəmin hazırlayır, gələcək xahişə reaksiyanı yumşaldır, ya da sadəcə olaraq, diqqəti yayındırmağa kömək edir. Bu məqsədlə edəcəyiniz hərəkətin özü isə ən müxtəlif formalar ala bilər: səxavətli və ya genişürəkli olduğunun hipotetik jesti, həqiqətən də bəxş etmək, qəlbəyatımlı qulluq, "vicdanlı" etiraf – baxır şəraitə.

Qismən düzgünlük – siz kiminlə isə ilk dəfə iş gördüyünüz halda ən yaxşı təsir göstərir. Biz hamımız vərdişlərin övladıyıq və ilk təəssüratımız uzun müddətə qalır. Əgər kim isə tanışlığın lap başlanğıcında sizin düzgünlüyünüzə inanarsa, onu əks olana inandırmaq çətin olacaq. Bu sizə manevr üçün məkan verəcək.

Düzgünlüyün bir dəfə nümayişi bəzən kifayət etmir. Düzgün adam reputasiyasını yaratmaq üçün bir sıra hərəkət həyata keçirmək lazımdır – qoy bu hərəkətlər hətta tamamilə qeyri-ardıcıl olsun. Reputasiya özünə möhkəm yer edəndən sonra isə, onu, elə birinci təəssürat kimi, yerindən oynatmaq çətindir.

Qədim Çində Çen şahlığından olan hökmdar Vu, getdikcə güclənən Çu şahlığını ələ keçirmək vaxtının çatdığı qərarına gəlmişdi. O, niyyətini heç kimə agah etmədən, qızının Çuya ərə getməsini təşkil etmişdi. Ardınca şuranı toplamışdı və nazirlərə demişdi: "Mən hərbi əməliyyatlara başlamağa hazırlaşıram. Fikrinizcə, hansı şahlığı ələ keçirməyimizə dəyərdi?" Elə onun gözlədiyi kimi də, məsləhətçilərdən biri cavab verdi: "Çunun şahlığını". Hökmdar, elə bil, hirslənmişdi: "Çu indi – bizə qohum olan şahlıqdır. Onun üzərinə hücum etmək sənin ağlına haradan gələ bilərdi?" Və o, məsləhətçini cinayətkar təklifinə görə cəzalandırmağı əmr etdi. Bu xəbər hökmdar Çuya çatmışdı və o, Vunun düzgünlüyü ilə bağlı çoxsaylı tərifnamələri, həmçinin də onun qızı ilə nikahını nəzərə alaraq, Çen şahlığı ilə öz sərhədlərinin müdafiəsi üçün heç bir tədbir görmürdü. Üstündən bir neçə həftə ötəndən sonra Venin ordusu Çuya daxil oldu və hakimiyyəti Vuya ötürdü ki, o, bunu bir də heç vaxt əldən buraxmasın.

Düzgünlük – şübhələri dağıtmaq üçün ən yaxşı üsul olsa da, yeganə deyil. Alicənablığın istənilən təzahürü, təmənnasız hərəkət, könüllü surətdə vəzifədən əl çəkmək, ələlxüsus da –

səxavət aktı bu məqsədə xidmət edəcək. Hədiyyə, hətta ən qatı düşmən tərəfindən edilən hədiyyə qarşısında az adam tab gətirə bilər, – bu, bax buna görə insanları tərksilah etmək üçün əla üsuldur. Hədiyyə bizdə, başqa vaxt ehtiyatlı olmaq hissi tərəfindən içəri basılan, uşaqlığı oyadır. Biz başqalarının hərəkətlərini ən qatı sinizm işığı altında nəzərdən keçirməyə meyilli olsaq da, hədiyyənin, çox vaxt ali motivlər arxasında ört-basdır edilmiş, Makiavellisayaq astarına nadir hallarda göz qoyuruq. Hədiyyə – rəzil motivləri gizlədə bilən gözəl obyektdir.

Bu taktikanı istifadə edərkən ehtiyatlı olmaq lazımdır: əgər sizin paxırınız açılarsa, onda məyusluq, realizə olunmayan minnətdarlıq və yaxınlıq hissləri çox güclü nifrət və etibarsızlığa çevriləcək. Əgər siz hərəkətlərinizə səmimilik və onların ürəkdən gəldiyi görüntüsü verə bilmirsinizsə, odla oyuna girişməyin.

Obraz: Troya atı. Sizin məkrliyiniz elə möhtəşəm hədiyyənin içərisində gizlədilib ki, düşməniniz onun qarşısında tab gətirə bilməyəcək. Darvazalar açılır. İçəri düşəndən sonra, viran qoyun.

Nüfuzlu rəy: Çen şahlığından olan Sin, Yu şahlığına hücum etməyə hazırlaşanda, onun hökmdarına nefrit və at ilxısı bağışladı. Hökmdar Tzi, Çjou üzərinə hücum etməyə hazırlaşanda, ona gözəl arabalar hədiyyə etdi. Məsəl buradan gəlir: "Sən almağa hazırlaşanda, gərək verəsən".

Han Fey-tzı, Çin filosofu (b.e.ə. III əsr)

FRANÇESKO BORRİ,
SARAY ƏYANI OLAN ŞARLATAN

Milandan olan, 1695-ci ildə vəfat etməsi demək olar XVII yüzilliyin başa çatmasına təsadüf etmiş, Françesko Cuzeppe Borri öz həyatı ilə, şarlatan, fırıldaqçı, özü-özünə ad qoyan xüsusi tipi – saray əyanı və ya kavaleri qabaqlamışdı... Əsl şöhrət ona Amsterdama köçəndən sonra gəlmişdi. Orada özünə "Medico

Universale" titulu verərək, özünü çox böyük sayda müşayiətçi ilə əhatə etmişdi və altı at qoşulan karetdə gəzirdi... Pasientlər onun yanına hər yerdən axışırdı, bəzilərini portşezlərdə2 Parisdən düz Amsterdama qədər gətirirdilər. Borri konsultasiyalarına görə haqq götürmürdü, yoxsullara əhəmiyyətli məbləğdə pul paylayırdı və onun haqda məlum idi ki, poçtla və ya veksellər üzrə heç vaxt pul almır. Borri, bununla belə, dəbdəbəli həyat sürməkdə davam etdiyindən, tezliklə şayiə yayıldı ki, o, "fəlsəfə daşının" sahibidir. Bu xeyriyyəçi qəfildən Amsterdamdan yox oldu. Aşkar oldu ki, saxlamaq üçün ona etibar edilən pulları və ləl-cəvahiratı da aparıb.

Qrete de Françesko,
"Şarlatanın hakimiyyəti", 1939

2 Portşez – yarı uzanmış halda aparmaq üçün yüngül kürsü

# QANUN 13

KÖMƏK XAHİŞ EDƏNDƏ,
İNSANLARIN ŞƏXSİ TƏMƏNNASINA
ÇAĞIRIŞ ET VƏ HEÇ VAXT – MƏRHƏMƏTƏ
VƏ YA QƏLBİGENİŞLİYƏ ÇAĞIRIŞ ETMƏ

QANUN BELƏ İFADƏ OLUNUR

Əgər sizə müttəfiqinizə kömək üçün müraciət etmək lazım gəlibsə, ona etdiyiniz keçmiş xidmətlərinizi və xeyirxah işlərinizi xatırlatmaqla özünüzə zəhmət verməyin. Bu, sizi saya almamaqda ona mane olmayacaq. Bunun əvəzində elə edin ki, sizin xahişinizdə və yaxud təklif etdiyiniz müqavilədə o, məhz özünə faydalı olacaq nə isə görsün və bunu hər vəchlə üzə vurun. O, fayda vəd edən təklifi ruh yüksəkliyi ilə dəstəkləyəcək.

HAKİMİYYƏTİN AÇARI

Hakimiyyətə doğru hərəkətinizdə siz, nisbətən daha çox hakimiyyəti olan adamlardan kömək xahiş etməli olacağınız vəziyyətə dəfələrlə düşəcəksiniz. Kömək xahiş etmək – sənətdir, burada isə uğur, iş görəcəyiniz adamı başa düşmək qabiliyyətinizdən və öz ehtiyaclarınızı onun ehtiyacları ilə qarışıq salmamağınızdan asılıdır.

İnsanların əksəriyyəti bunda heç vaxt müsbət nəticəyə nail olmur, çünki öz istəkləri və tələbatları onların gözünü örtüb. Onlar müraciət etdikləri adamların təmənnasız kömək etməkdə maraqlı olduqları ehtimalından çıxış edirlər. Söhbəti elə aparırlar ki, guya özlərinin ehtiyacları bu adamlar üçün əhəmiyyət kəsb edir, əslində isə, ola bilsin, onları bundan az qayğılandıran başqa heç nə yoxdur. Bəzən onlar yüksək materiyalara müraciət edirlər: hipotetik motivlərə və yaxud sevgi, ya da halayananlıq kimi

hisslərə. Adi, məişət reallığı daha cəzbedici ola biləcəyi halda, onlar böyük miqyaslı rəsmlər çəkirlər. Onlar anlamaq istəmirlər ki, hətta müstəsna hakimiyyəti olan adam da öz ehtiyaclarının məngənəsindədir, buna görə də, əgər onun maraqlarına müraciət olunmasa, o, xahişi, ən yaxşı halda, faydasız vaxt itkisi kimi qəbul edəcək.

Ən vacib olanı – başqa adamın psixologiyasını başa düşməkdir. O şöhrətpərəstdir? Öz reputasiyasının və ya cəmiyyətdə mövqeyinin qeydinə qalır? Onun elə düşmənləri varmı ki, onlara sizin köməyinizlə qalib gəlmək olar? Bəs birdən onu, sadəcə olaraq, pul və hakimiyyət maraqlandırırsa, onda necə?

XII əsrdə monqollar Çini tutanda, onlar iki min il ərzində çiçəklənən mədəniyyətin mövcudiyyətinə son qoyulması təhlükəsini yaratmışdılar. Başçıları, Çingizxan, Çində atlarına otlaq çatışmadığını görürdü, buna görə də şəhərləri yerlə-yeksan edib, Çini dağıtmağı qərara aldı – "çinlilərə bu yolla qalib gəlmək və otlaq yaratmaq daha asan olacaq". Çin viran qalmaqdan və talandan əsgərin, sərkərdənin və şahın yox, E-lyuy Çu-tsay adlı adamın sayəsində xilas olmuşdu. Çu-tsay yadelli olsa da, Çin mədəniyyətinin üstün olduğunu etiraf edirdi. O, Çingizxanın etibarını qazanan məsləhətçisi idi və ölkəni dağıtmasa, əvəzində onun hər bir sakinindən bac-xərac almağa başlasa, Çinin var-dövlətindən istifadə edə biləcəyini ona təlqin edə bildi. Çingizxan məsləhətin müdrik olduğunu hesab etdi və Çu-tsayın təklif etdiyi kimi hərəkət elədi.

Çingizxan uzunmüddətli mühasirə nəticəsində Kayfen şəhərini ələ keçirəndən sonra, şəhərin sakinlərinin hamısını məhv etmək niyyətində idi (o, müqavimət göstərən şəhərlərin sakinləri ilə belə rəftar edirdi). Çu-tsay ona xəbər verdi ki, Çinə ən yaxşı sənətkarları və ən yaxşı mühəndisləri məhz bu şəhər verib – indi, bəlkə, onları istifadə etmək, məhv etməkdən faydalıdır? Əvvəllər Çingizxan heç vaxt rəhmdillik göstərməzdi, hərçənd əslində şəhəri xilas edən heç də rəhmdillik deyildi.

Çu-tsay monqolların başçısını yaxşı öyrənmişdi. Bu, mədəniyyətlə, elə hərbi əməliyyatlara və praktiki nəticəyə aidiyyəti olmayan başqa heç nə ilə də maraqlanmayan barbar idi. Çu-tsay

ona görə də, belə adamda inkişaf edə biləcək yeganə hissə çağırış etməyə üstünlük verdi: tamahkarlığa.

Eqoizm, təmənnalı maraq – insanların əksəriyyətinə təsir etmək rıçaqıdır. Adamlara tələbatlarını necə qane edə biləcəyinizi görməyə imkan yaradın – və köməklə bağlı xahişiniz magik surətdə onlar tərəfdən müqavimətlə rastlaşmayacaq. Hakimiyyətə nail olmaq yolunda hər bir addımı keçərkən, ətrafınızdakı insanların fikirlərinə yol çəkməyi, onların ehtiyaclarını və maraqlarını görməyi, həqiqətin üstünə kölgə salaraq, onu görməyə sizə mane olan hissiyyatınızın pərdəsindən yaxa qurtarmağı öyrənməlisiniz. Bu sənətə yiyələnin – və sizin imkanlarınızın həddi-hüdudu olmayacaq.

Obraz: Kəndir. Rəhmdillik və minnətdarlıq kəndiri sürtülüb və birinci zərbədəcə qırılacaq. Həyatınızı ona etibar etməyin. Qarşılıqlı eqoizm kəndiri çoxsaylı liflərdən toxunub, onu qırmaq elə də asan deyil. O uzun illər xidmət göstərəcək.

Nüfuzlu rəy: Uğur qazanmağın ən qısa və ən yaxşı yolu – insanlara başa düşməyə şərait yaratmaqdır ki, sizin irəliləyişinizə kömək etmək elə onların özlərinin maraqlarına uyğundur”.

Jan de Labrüyer (1645-1696)

“İnsanlar əksər hissəsi etibarilə – elə bir dərəcədə tamamlanmış eqosentrikdirlər ki, özlərindən başqa heç nə ilə maraqlanmırlar. Kiminsə tərəfindən edilən istənilən qeydi onlar öz hesablarına qəbul edirlər, hər şey onları öz işləri ilə bağlı düşüncələrə sövq edir, azacıq şans yaranan kimi, onların diqqət mərkəzinə öz şəxsiyyətləri çıxır, əslində mövzu bundan nə qədər uzaq olmasa da”.

Artur Şopenhauer (1788-1860)

KƏNDLİ VƏ ALMA AĞACI

Kəndlinin bağında alma ağacı var idi, ağac bar vermirdi, budaqlarında isə sərçələr və cırcıramalar hoppanırdı. Kəndli ağacı kəsməyi qərara aldı və əlinə balta götürüb, zərblə ağacın kökünə vurdu. Cırcıramalar və sərçələr kəndliyə yalvarır, onlara sığınacaq verən ağacı kəsməməsini xahiş edirdilər. Onlar nəğmələri ilə adamın zəhmətini yüngülləşdirəcəklərini söz verirdilər. Yalvarışlara fikir verməyən kəndli balta ilə ikinci və üçüncü zərbəni endirdi. Ağacdakı koğuşa çatanda, burada ağzına qədər dolu arı pətəyi tapdı. Bal şanılarının dadına baxandan sonra, kəndli baltanı bir kənara atdı və ağaca qayğı ilə qulluq etməyə başladı, sanki ağac müqəddəs idi. İnsanların əksəriyyətinin hərəkətini müəyyən edən yalnız şəxsi təmannasıdır”.

Ezop, b.e.ə. VI əsr

# QANUN
# 14

## DOST ROLUNU OYNA,
## XƏFİYYƏ KİMİ FƏALİYYƏT
## GÖSTƏR

## QANUN BELƏ İFADƏ OLUNUR

Rəqibi tanımaq çox vacibdir. Qiymətli informasiyanı toplamaq üçün xəfiyyələrdən istifadə edin və bu sizə həmişə bir addım qabaqda olmağa imkan verəcək. Bundan da yaxşısı – xəfiyyə özünüz olun. Nəzakətli kübar söhbətlərdə maraqlı həmsöhbət olmaqla, zəmini yoxlamağı öyrənin. Birbaşa olmayan elə suallar verin ki, bunlar insanların zəifliklərinin və niyyətlərinin üstündən örtüyü qaldırsın. İstənilən situasiyada məharətli təhqiqat üçün imkanlar tapmaq mümkündür.

## HAKİMİYYƏTİN AÇARI

Hakimiyyət şahlığında sizin məqsədiniz – gələcək hadisələri idarə etmək imkanını əldə etməkdir. Bu vaxt üzləşdiyiniz çətinliklərdən biri, insanların fikirlərini, hisslərini və planlarını sizinlə bölüşmək istəməyəcəklərindən ibarət olur. Əgər insanlar dediklərinə nəzarət edirlərsə, xarakterlərinin əsas səciyyəvi cizgilərini, əsl motivlərini, özünü sırıyan ideyalarını çox vaxt gizlətməyə müvəffəq olurlar. Nəticədə siz onların hərəkətlərini proqnozlaşdıra bilmirsiniz və həmişə qaranlıqda vurnuxursunuz. Hiylə isə sirləri və gizli niyyətləri öyrənməyin elə bir üsulunu tapmaqdan ibarətdir ki, adamlarda bununla bağlı şübhə yaranmasın. Bu, görünə biləcək qədər də mürəkkəb deyil. Dostcanlılıq maskası sizə həm dostlar, həm də düşmənlər haqqında gizli surətdə məlumat toplamağa imkan verəcək. Qoy

başqaları qoroskopla məsləhətləşsinlər və Taro kartlarında fala baxsınlar – gələcək barədə peyğəmbərlik etməyə sizin daha dəqiq metodlarınız var.

Casusluğun ən geniş yayılan metodu – başqa adamları istifadə etməkdir. Bu üsul sadədir, təsirlidir, amma bununla yanaşı risklidir: siz, şübhəsiz, informasiya alacaqsınız, ancaq sizə işləyən adamlara nəzarət etmək imkanınız demək olar olmayacaq. Onlar casusluq etdiklərini gizlətmək üçün kifayət qədər bacarıqlı olmaya, ya da hətta sizin özünüzə qarşı işləməyə başlaya bilərlər. Özünüzü dost yerinə qoyub, amma bu vaxt nəzərə çarpdırmadan informasiya toplayaraq, özünüzün casusluq etməyiniz qat-qat yaxşı olardı.

Fransalı siyasətçi Taleyranın bu sənətdə tayı-bərabəri yox idi. O, adi nəzakətli söhbət əsnasında həmsöhbətlərindən sirləri öyrənməkdə demək olar fövqəladə qabiliyyətə malik idi. Müasirləri onun, eyhamların, sözlərin şəffaf rübəndi arxasında fikirlərini və ya düşündüklərini elə bir səviyyədə gizlətmək məharətinə yiyələndiyini qeyd edirdilər ki, bunlar ifadə etməkdən çox, gizlədirdi. Burada açar rolunda Taleyranın söhbət əsnasında özünü ələ alması çıxış edirdi; başqaları özləri haqda danışır və bu vaxt niyyətlərini və planlarını labüd olaraq çılpaqlayırdılar.

Kübar qəbullarında və xətərsiz ziyafətlərdə diqqətli olun. Adamlar məhz burada özlərinə nəzarəti zəiflədirlər. İndividuallığınızı ört-basdır etməklə, siz onları açıq olmağa təhrik edə bilərsiniz. Bu manevrin parlaqlığı, əhatənizdə olanların sizin marağınızı səhvən dostluq kimi qəbul etmələrindən ibarətdir. Beləliklə, siz yalnız məlumat toplamırsınız, həm də əlaqələr qurursunuz.

Bu metodu xüsusi səliqə və diqqətlə tətbiq etmək lazımdır. Əgər əhatənizdə olanlardan sirləri çəkib çıxarmaqla məşğul olduğunuzdan şübhələnsələr, onda sizdən qaçacaqlar. Vurğunu dostcasına söhbət üzərinə edin, qiymətli məlumatlara yox. İnformasiya zərrələrinin axtarışı ilə məşğul olduğunuz gözə dəyməməlidir, əgər bacarığınız çatmasa – istiqamətləndirici suallar lazım olan məlumatları almaqdan çox, niyyətinizin üstünü açacaq.

Sınaqdan çıxarmaq mümkün olan fəndlərdən birini bizə dahi Ləröşfuko məsləhət görüb. O yazırdı: "Səmimilik tək-tük adamlarda aşkar oluna bilər və çox vaxt fəndlərdən ən ağıllısıdır – səmimiyyətə, çox vaxt, başqalarından açıq etirafları çəkib çıxarmaq məqsədi ilə əl atırlar". Başqa sözlə, özünüzü həmsöhbətinizə qəlbinizi açdığınız kimi qələmə verməklə, siz onun sirlərini nisbətən asanlıqla çəkib çıxararsınız. Saxta etiraflarınızla onun tərəfindən düzgünlüyə bel bağlaya bilərsiniz. Başqa, bundan heç də az vacib olmayan hiyləni Artur Şopenhauer adlı filosofla bağlayırlar: o, söhbət əsnasında adamlara var güclə zidd getməyi təklif edirdi və bununla onlar əsəbiləşdirilir, sözlərinə nəzarəti tam itirəcəkləri vəziyyətə gətirilirlər. Emosiyaların təlatümü onları özləri haqda həqiqətin hamısını açmağa məcbur edəcək və bu, sonradan elə onların özlərinə qarşı da istifadə oluna bilər.

Obraz: Xəfiyyənin üçüncü gözü. İki gözü olan insanlar ölkəsində üçüncü göz Tanrıya xas olan hər şeyi görmək qabiliyyətini verir. Siz başqalarından uzağı görürsünüz, siz onların qəlblərinə baxırsınız. Bu gözdən, özünüzdən başqa heç kim müdafiə olunmayıb.

Nüfuzlu rəy: "Beləliklə, qüdrətli hökmdarın və müdrik sərkərdənin düşmənə istənilən döyüşdə qalib gəlməsinin, onların qəhrəmanlıqlarının isə adi insanların qəhrəmanlıqlarını üstələməsinin səbəbi, düşmənin vəziyyətini öncədən görmələrindən ibarətdir. Bu "öncəgörməni" nə ruhlardan, nə tanrılardan, nə keçmişin hadisələri ilə analogiyalar aparmaqla, nə də münəccimlik hesablamaları ilə almaq mümkün deyil. Bu, düşmənin vəziyyətindən xəbəri olan adamlardan – xəfiyyələrdən alına bilər".

Sun-tzı "Müharibə sənəti" (b.e.ə. VI-V əsr)

“İnəklər dünyanı duyğu, brəhmanlar – müqəddəs kitablar vasitəsilə qəbul etdikləri kimi, hökmdarlar dünyanı xəfiyyələrin vasitəsilə qəbul edirlər; qalan insanlar isə – öz gözləri vasitəsilə”.

Kautilya, hindli filosof, b.e.ə. III əsr

“Əgər kimin isə sizə həqiqəti demədiyindən şübhələnməyə əsasınız varsa, özünüzü elə göstərin ki, guya hər bir sözə inanırsınız. Bu ona davam etməyə cəsarət verəcək, o daha sərbəst danışmağa başlayacaq və əvvəl-axır özünü açıb ortaya qoyacaq.

Həmçinin, əgər kimin isə həqiqətin bir hissəsini gizlədərək tam danışmadığından şübhələnsəniz, özünüzü elə göstərin ki, guya ona inanmırsınız. Müqavimət göstərməyiniz onu təhrik edəcək və o, həqiqətin bütün qüvvəsini ona inamsızlığınızı dağıtmağa yönəldərək, hər şeyi axıradək açacaq.

Artur Şopenhauer (1788-1860)

# QANUN 15

## DÜŞMƏNİ TAMAMİLƏ DARMADAĞIN ET
## QANUN BELƏ İFADƏ OLUNUR

Moiseyin (Musa peyğəmbər) dövründən qüdrətli başçıların hamısına məlum idi ki, qorxudulmuş düşmən darmadağın edilməlidir. (Olurdu ki, bu bilik onlara ağır sınaqlar vasitəsilə gəlirdi.) Heç olmasa bircə qığılcım saxlanarsa, o nə qədər boğuq işıldasa da, əvvəl-axır od alovlanacaq. Yolun yarısında dayanmaqla, tam darmadağın ediləcək halla müqayisədə daha çox itirmək olar: düşmən özünə gələcək və qisas almağa yollar axtaracaq. Onu yalnız cismani olaraq deyil, həm də ruhən darmadağın edin.

## HAKİMİYYƏTİN AÇARI

Hakimiyyətə doğru yolda rəqiblərin və qarşınızı kəsənlərin peyda olması qaçılmazdır. Belələrinin arasında dediyinizə inandıra, öz tərəfinizə çəkə bilməyəcəyiniz şəxslər də olacaq, yəni onlar heç nəyə baxmayaraq, elə rəqib olaraq da qalacaqlar. Bunlar düşmənlərdir, onlar sizə pislik istəyirlər. Onların dünyada hər şeydən çox istədikləri, sizi məhv etməkdir. Əgər siz onlarla döyüşəndə və yolun yarısını, ya da hətta dörddə üçünü keçəndə rəhmdillik, ümid və yaxud barışıq üzündən dayanarsınızsa, bu onlara yalnız qətiyyət verəcək, onların qəzəbini gücləndirəcək və onlar bir dəfə revanş alacaqlar. Onlar özlərini dost kimi göstərə bilərlər, ancaq yalnız siz qalib gəldiyiniz üçün belə olacaq. Onların məqam gözləməkdən başqa çarələri yoxdur.

Həll: amansız olun. Düşmənlərinizi tamamilə məhv edin, necə ki onlar sizi məhv edərdilər. Düşmənlərinizin sizin sakitliyinizi və təhlükəsizliyinizi təmin edə biləcəkləri yeganə hal, onların yox olmasıdır.

Mao Tsedun bu qanunun nə qədər vacib olduğunu bilirdi. 1934-cü ildə Çin kommunistlərinin lideri, onunla birlikdə isə – yaraq-əsləhə ilə pis təchiz olunmuş 75 min əsgər, Çan Kayşinin güclü və çoxsaylı ordusunun əlindən Çinin qərbindəki kimsəsiz dağlara qaçmaqla canlarını qurtara bilmişdilər; sonralar bu, Uzun Keçid adını aldı.

Çan Kayşi kommunistlərin hamısını bir nəfər kimi qırmaqda qətiyyətli idi, odur ki, üstündən bir neçə il keçəndən sonra Maonun 10 mindən çox əsgəri qalmamışdı. Lakin 1937-ci il üçün, Çin yapon təcavüzünə məruz qalanda, Çan Kayşi kommunistlərin artıq təhlükəli olmadıqlarını qət etdi. O, təqibləri dayandırmağı və diqqəti yapon istilaçılarla mübarizə üzərində cəmləşdirməyi qərara aldı. Daha on il keçdi və kommunistlər özlərinə o qədər gəldilər ki, onun ordusunu tamamilə darmadağın edə bildilər. Çan Kayşi qədim müdrikliyi unutmuşdu, Mao onu yadda saxlamışdı. Qomindanın başçısını, onun bütün ordusu Tayvan adasına geri çəkilənə qədər təqib etdilər. Bizim günlərimizdə materik Çinində onun rejimindən əsər-əlamət də qalmayıb.

Müharibənin birinci filosofu, Karl fon Klauzeviç tərəfindən ifadə edilmiş, tam qələbəyə oriyentasiya aksiomdur. Napoleonun hərbi kampaniyalarını təhlil edən Klauzeviç yazırdı: "Biz hesab edirik ki, düşmənin qüvvələrinin tamamilə qırılması həmişə ən vacib mülahizə olmalıdır... Əsas qələbə əldə olunandan sonra dincəlmək, nəfəsi dərmək barədə mülahizə yürütmək olmaz, əvəzində yalnız davam etdirilməsi, düşməni təqib etməyin davam etdirilməsi, onun paytaxtının ələ keçirilməsi, onun ehtiyat qüvvələrinə və düşmən tərəfə kömək edə və dəstək verə biləcək bütün hər şeyə hücum olunması düşünülməlidir". Müharibədən sonra danışıqlar və ərazinin bölünməsi başlanır. Əgər siz yalnız qismən qələbə əldə etmisinizsə, onda hərbi əməliyyatların gedişində nail ola bildiklərinizi, şərtlərin müzakirəsinin gedişində mütləq uduzacaqsınız.

Çıxış sadədir: düşmənə şans saxlamayın. Onu məhv edin – onda onun ərazisi sizin sərəncamınıza keçəcək. Hakimiyyətin təyinatı rəqibi özünə tabe etdirmək, onu tabe olmağa məcbur etməkdir. Özünüzə yolun yarısında dayanmağa imkan verməməlisiniz. Küncə qısnanmış düşmən sizin iradənizi yerinə yetirmək məcburiyyətində qalacaq. Bu qanunun tətbiq olunduğu yer heç də yalnız döyüş meydanları deyil. Danışıqlar məkrli ilan kimidir, sizi qələbənizlə birlikdə udub elə həzm-rabedən keçirəcək ki, heç gözünüzə də görünməyəcək. Qoy düşmənin müzakirə etməyə heç nəyi qalmasın, ona manevr üçün məkan qoymayın. Düşmən diz çökdürülüb – bununla hər şey deyilib.

Realist olun: düşmənləriniz nə qədər varsa, siz heç vaxt təhlükəsizlikdə olmayacaqsınız. Və əgər onları qovmağa imkanınız yoxdursa, ən azı, onların sizə qarşı intriqalar hördüklərini yaddan çıxarmayın və onların nümayişkaranə dostcanlığına aldanmayın. Bu cür situasiyada sizin yeganə silahınız – sayıqlıqdır.

Obraz: Gürzə. Siz onun başını əzməyincə, o qıvrılıb əldən çıxacaq və sancaraq, ikiqat zəhər dozası buraxacaq. Yanınızda saxlanan düşmən yarıcanlı gürzə kimidir və siz onu həyata qaytarmağa çalışırsınız. Vaxt nə qədər çox keçirsə, zəhər bir o qədər güclü təsir edir.

Nüfuzlu rəy: "Bununla əlaqədar qeyd etməyə dəyər ki, adamların ya gərək başını tumarlayasan, ya da ləğv edəsən, zira az pisliyə görə onlar qisas ala bilərlər, böyük pisliyə görə isə qisas almağı bacarmazlar. Bax buna görə inciklİyi elə yetirmək lazımdır ki, qisasdan qorxmayasan".

Nikkolo Makiavelli (1469-1527)

"Qələbə qazanmaq üçün amansız olmaq lazım gəlir".

Napoleon Bonapart (1769-1821)

“Sağ qalan düşmən, tam müalicə olunmayan xəstəlik və ya axıradək söndürülməyən yanğın kimi təhlükəli ola bilər. Deməli, onları tamamilə məhv etmək lazımdır... Düşməni zəif hesab edərək, heç bir halda aşağı qiymətləndirmək olmaz. O, saman tayasında odun qığılcımı kimi, vaxtı gələndə təhlükəli olacaq”.

Kutilya, hindli filosof, b.e.ə. III əsr

# QANUN 16

## ÖZ YOXLUĞUNU, ŞƏRƏF VƏ HÖRMƏTİNİ ARTIRMAQ ÜÇÜN İSTİFADƏ ET

## QANUN BELƏ İFADƏ OLUNUR

Cəmiyyət arasında həddən artıq fəal hərlənməyiniz qiymətinizi aşağı salır. Siz nə qədər çox görünürsünüz və eşidilirsinizsə, bir o qədər bayağı təəssürat yaradırsınız. Əgər siz müəyyən mövqeyə nail olubsunuzsa, müvəqqəti yox olmağınız, haqqınızda daha çox danışmağa, hətta sizdən qürur duymağa məcbur edəcək. Nə vaxt getmək lazım olduğunu müəyyən etməyi öyrənmək lazımdır. Defisit yaradaraq, dəyər yaradın.

## HAKİMİYYƏTİN AÇARI

Bu dünyada hər şey iştirak etməkdən və etməməkdən asılıdır. Gur iştirak hakimiyyəti və diqqəti sizə doğru cəzb edir – siz qalanlarına kölgə salaraq, parlayırsınız. Ancaq hansısa bir müddətdən sonra əksqütblü effekt meydana çıxır: sizi nə qədər çox görür və eşidirlərsə, təsiriniz bir o qədər sürətlə azalır. Sizə öyrəşirlər. Qeyri-ordinar olmağa nə qədər səy göstərsəniz də – insanlar başa düşülməyən səbəbdən sizi getdikcə az dəyərləndirir və sizə getdikcə az hörmət edirlər. Varlığınız əhatənizdə olanlar üçün nəzərəçarpmadan sona çatmazdan əvvəl, siz lazım olan məqamda getməyi bacarmalısınız. Bu, gizlənpaç oyunu oynamaqdır.

Bu qanunun nə dərəcədə həqiqi olduğunu hamısından asan, sevginin və sevgidən soyumanın nümunəsində görmək olar. Bu pyesin başlanğıc səhnələrində sevginizin predmetinin yoxluğu təxəyyülü coşduraraq, onu (kişini və ya qadını) hansısa bir auraya

bürüyür. Lakin siz daha yaxından tanış olduqca, bu aura solğunlaşır – axı, təxəyyülün işi üçün məkan artıq yoxdur. Sevgiliniz qalan bütün insanlar kimi bir adam olur, onun varlığında sizin üçün heyranedici heç nə yoxdur artıq.

Bu baş verməsin deyə, insanları qayıdışınızın həsrətini çəkməyə məcbur edin. Onların hörmətinə, sizi həmişəlik itirə bilmək imkanı ilə qorxudaraq nail olun. Yox olmaq və peyda olmaq sxemini tətbiq edin.

Napoleon aşağıdakını deyəndə, məhz bu qanunu nəzərdə tuturdu: "Əgər mən teatra tez-tez getsəm, onda insanların gözü məni görməyəcək artıq". Dünya bu gün, gözlə görünən obrazlarla elə yüklənib ki (mətbuat, televiziya), müvəqqəti yox olmaqla bağlı fənd daha təsirli olur. Heç nə şəxsi həyata məxsus deyil artıq, buna görə də, əgər kim gözdən itə bilirsə, xüsusi heyranlıq doğurur. Cerom Deyvid Selincer və Tomas Pinçon nə vaxt yox olmağı bildikləri üçün, romanistlər onlara kultsəciyyəli etiqad edirdilər.

Bu qanunun daha yer mənşəli olduğunu, həm də onun əhəmiyyətini daha əyani şəkildə göstərən başqa hadisə, elmi iqtisadiyyatda defisit qanunudur. Əgər hansısa bir məhsul yox olursa, onun bazarda qiyməti ani olaraq artır. XVII əsrdə Hollandiyada hakimiyyətdə olan siniflər zanbaq gülünü dövlətin simvolu etmək istəyirdilər. Onlar gülün nadir bir şeyə çevrilməsinə nail oldular, bu isə, öz növbəsində, sonralar "zanbaq maniyası" adlandırılan halı doğurdu. O vaxt zanbaq gülü, çəkisi onun qədər olan qızıldan baha idi.

Defisit qanununu bacardığınız işin üzərinə bərqərar edin. Dünyaya nəyi təklif edirsinizsə, onu nadir, çətin ələ düşən möcüzəvi bir şeyə çevirin – və unikal mütəxəssis kimi sizin qiymətiniz ani olaraq artacaq.

Labüd surətdə bu məqam yetişir ki, hakimiyyətdə olanlardan kim isə, sanki elə hey oturan və getməyə qətiyyən tələsməyən qonaqtək, öz postunda gecikib qalır. Biz bu cür hakimi-mütləqlərdən bezirik. Biz onların bəşəriyyətin digər nümayəndələrindən heç nə ilə fərqlənmədiklərini görürük, bu isə o deməkdir ki, indi biz onları daha pis qəbul edirik, çünki onların

indiki imicini və onlara indiki münasibətimizi hökmən əvvəllər olduğu ilə müqayisə etməyə başlayırıq. Səhnədən vaxtında getmək – incə sənətdir. Əgər hər şey düzgün edilərsə, siz sanki itirilmiş populyarlığınızı qazanacaq və hakimiyyətin heç olmasa bir hissəsini özünüzə qaytaracaqsınız.

Obraz: Günəş. O olmayanda, biz onu xüsusilə qiymətləndiririk. Yağışlı günlər nə qədər çox uzanırsa, günəş bizə bir o qədər çox çatışmır. Lakin həddən artıq isti və həddən çox günəş taqətdən salır. Elə yox olmağı öyrənin ki, insanlar sizin qayıdışınızı həsrətlə gözləsinlər.

Nüfuzlu rəy: "Yoxluğunu istifadə et, özünə hörmət edilməsinə və qiymət verilməsinə nail ol. Əgər göz önündə olmaq məşhurluğu azaldırsa, olmamaq onu çoxaldır. Olmadığı vaxt timsalında şir gördükləri kəs, bir də görürsən, peyda olanda adi və gülüncə çevrilir. Talantlar parlaqlığını itirir, əgər biz onunla həddən artıq yaxından tanış oluruqsa... Hətta görkəmli dahi də işlərdən getməsindən elə yararlanır ki, insanlar onu şərəflə yola salmaq imkanı əldə edirlər və gedişi ətrafında qalxan səs-küy onu düzgün qiymətləndirməyə kömək edir".

Baltazar Qrasiani (1601-1658)

## DƏVƏ VƏ ÜZƏN DİRƏKLƏR

Dəvəni birinci görən,
Başılovlu qaçırdı gördüyündən;
İkinci ona yaxınlaşmağa cürət etdi,
Üçüncü isə – birhürgüclüyə hələ cilov da taxdı.
Beləcə, gözümüzə vahiməli və qorxunc görünənlə
Daim ünsiyyətdə olaraq –
Biz yaxın oluruq hər şeylə,
Vərdiş və nümunənin gücüylə.

Buna nümunə olaraq, bir hekayə də var:
Keşik çəkənlər bir dəfə
Uzaqda üzən bir şey gördülər.
"Böyük freqat, ya da branderdir!" –
Ətrafda hamı qət etdi dərhal.
Bircə an sonra
Hamının gözünə sadə taya göründü,
Qayıq və nəhayət –
Bu dünyada elə adamlar da tanıyıram ki,
Onlar üzən tirlərdir.

Mənim hekayətimin kimlərə dəxli var:
Uzaqdan onları nəsə hesab edərsən,
Yaxınlaşanda heç nə olduğu aşkara çıxar.

Jan de Lafonten, 1621-1695
(Tərc. O.Çyuminanın)

# QANUN 17

BAŞQALARINI ASILMIŞ VƏZİYYƏTDƏ SAXLA: HƏRƏKƏTLƏRİNİN ÖNCƏDƏN DEYİLMƏSİ MÜMKÜN OLMAYAN MÜHİT YARAT

## QANUN BELƏ İFADƏ OLUNUR

İnsanlar – vərdişlərin törəməsi, başqalarının hərəkətlərində özünə yaxşı tanış olanları axtarmaq və tapmaq tələbatının doymaq bilməyən yiyəsi olan varlıqlardır. Hərəkətlərinizin öncədən deyilməsinin mümkünlüyü onlara sizin üzərinizdə nəzarət hissi verir. Kartları qarışdırın: hərəkətlərinin öncədən deyilməsi qeyri-mümkün olan adam olun, bunu şüurlu surətdə edin. Qeyri-ardıcıl və zahirən məqsədsiz davranış, ətrafdakıları tarazlıq halından çıxaracaq və hərəkətlərinizi izah etmək cəhdlərində səbirlərini itirməyə məcbur edəcək.

## HAKİMİYYƏTİN AÇARI

Gözlənilməzlikdən və öncəgörmənin qeyri-mümkün olmasından qorxunc heç nə yoxdur. Zəlzələlər və qasırğalar bax buna görə bizi bu qədər qorxudur: biz bunun nə vaxt baş verəcəyini bilmirik. Təbii fəlakət baş verəndən sonra dəhşət içində növbətisini gözləyirik. Bizə buna oxşar təsiri, hərçənd heç bu qədər güclü olmasa da, öncədən deyilməsi qeyri-mümkün olan insan davranışı göstərir.

Heyvanların davranışı sxemlərə uyğun gəlir, insanlar onları məhz buna görə ovlaya və öldürə bilirlər. Yalnız insan öz davranışını daim dəyişmək, improvizə etmək və gündəlik işlərin və vərdişlərin təzyiqini adlamaq qabiliyyətinə malikdir. Bununla belə, insanların böyük əksəriyyəti bu imkanı realizə etmir. Onlar vərdiş etdikləri eyni bir hərəkətləri təkrarlamağa üstünlük verirlər, çünki

bu, özlərini gücə salmağı tələb etmir; bir də, onlar yanlışlığa vararaq hesab edirlər ki, əgər başqalarını qıcıqlandırmasalar, onda onları rahat buraxacaqlar. Başa düşmək lazımdır: hakimiyyət adamı, ətrafdakıları tarazlıq halından qəsdən çıxarmaqla, müəyyən qorxu təlqin edir ki, təşəbbüsü öz əlində saxlasın. Hərdən zərbəni xəbərdarlıqsız, insanlar bunu ən az gözlədikləri vaxt endirmək zəruridir ki, onları lərzəyə gəlməyə məcbur edəsən. Bu, dünyanın güclülərinin əsrlər ərzində istifadə etdikləri alətdir.

İtaliyanın Viskonti nəslindən olan sonuncu Milan hersoqu Filippo Moria, ondan gözlənilən hərəkətlərin əksinə olanları edirdi qəsdən. Məsələn, o, qəfildən öz əyanına səxavətli ənam verə bilərdi, ardınca isə, adam xidmətdə irəliləməyin mümkün olduğunu gözləyəndə, eyni cür gözlənilməzliklə onu saya almır, tam biganəlik nümayiş etdirirdi. Başını itirən bədbəxt sarayı tərk etməyə hazırlaşırdı, lakin hersoq yenidən onunla gözəl davranmağa başlayırdı. Tamam-kamal dolaşığa düşən saray əyanı yeni vəzifə ilə bağlı xahişi hersoqun, çox güman, təhqir kimi qəbul etdiyi qənaətinə gəlirdi və özünü elə aparmağı qət edirdi ki, sanki heç vaxt vəzifədə irəli çəkilmək barədə düşünməyib. Bu vaxt isə hersoq onu şöhrətpərəstliyin olmamasında ittiham edə və saraydan qova bilərdi.

Filipplə ünsiyyətdə uğurlu olmağın sirri sadə idi: sənin hökmdarının nə istədiyini qabaqcadan başa düşməyə çalışma. Onun nə ilə xoşuna gələ biləcəyini tapmağa cəhd etmə. Heç vaxt ona öz iradəni sırıma, sadəcə, onun iradəsinə tabe ol. Sonra isə nə baş verəcəyini gözlə. Hersoq, iradəsi şübhə altına alınmayan ali varlıqtək səpdiyi təlatüm və əminsizlik şəraitində sakitcə hökmranlıq edirdi.

İnsanlar hərəkətlərinizin arxasında duran motivləri fikirləşib tapmağı və hərəkətlərinizin öncədən deyilə bilməsini elə özünüzə qarşı da istifadə etməyə çalışırlar həmişə. Tamamilə izaholunmaz gediş edin – və onlar müdafiə mövqelərini tutmaq məcburiyyətində qalacaqlar. Sizi başa düşə bilməyəndə, onlar əsəbiləşməyə başlayırlar. Düşmənlər isə belə halda olanda, çətinlik çəkmədən onları vahimə içində saxlaya bilərsiniz.

Pikasso uzun müddət, incəsənət əsərləri taciri Pol Rozenberqlə əməkdaşlıq edirdi. Başlanğıcda o öz rəsmləri ilə bağlı tacirə kifayət qədər geniş səlahiyyətlər versə də, bir dəfə üzdə heç bir səbəb olmadan, Rozenberqə dedi ki, bundan sonra ona bir dənə də olsun işini satmağa icazə vermir. Pikasso izah etdiyi kimi, "Məsələnin nə yerdə olduğunu başa düşməyə çalışan Rozenberq növbəti iki günü təlaş və narahatlıq içində keçirdi. Mən hüquqları başqa tacirə verməyə hazırlaşmıram ki? Mən işləməkdə davam edir və sakit yatırdım, Rozenberq isə elə hey başa düşməyə çalışırdı. İki gündən sonra o yenə gəldi, əsəbiləşmiş, həyəcanlı, bu sözlərlə: "Əvvəl-axır, əziz dost, əgər mən bu rəsmlərə görə, adətən ödədiyim qiymətin əvəzinə filan qədər təklif etsəm (burada o, əhəmiyyətli dərəcədə yüksək qiymət dedi), siz mənimlə əməkdaşlığı kəsmək istəməzsiniz, elə deyilmi?"

Hərəkətlərin öncədən deyilməsinin qeyri-mümkünlüyü – təkcə qorxu yaratmaq silahı deyil: vərdiş olunan sxemləri mütəmadi dağıtmaqla özünüzə marağı qızışdıraraq, çaxnaşma salırsınız. Adamlar sizin haqqınızda danışır, sizin ayağınıza həqiqətlə ümumi heç nəyi olmayan motivləri yazırlar – və bu sizə onların düşüncələrini daim məşğul etməyə kömək edir. Son nəticədə, siz nə qədər şıltaq olursunuzsa, bir o qədər çox hörmət doğurursunuz. Yalnız tabeçilikdə olan mövqe tutan ümidsiz autsayder özünü proqnozlaşdırılan kimi aparır.

Obraz: Tsiklon. Proqnozlaşdırılması qeyri-mümkün olan külək. Barometrin gözlənilməz sıçrayışları, istiqamətin və sürətin izaholunmaz dəyişkənliyi. Ondan müdafiə olunmaq mümkün deyil: tsiklon qorxu və təlaş səpir.

Nüfuzlu rəy: "Maariflənmiş hökmdar o qədər müəmmalıdır ki, sanki o, heç yerdə yaşamır, o qədər izaholunmazdır ki, heç kim ona ağız aça bilmir. O, yuxarıda fəaliyyətsiz dayanıb qalır, onun rəqiblərini isə aşağıda əsməcə tutur".

Xan Fey-tzı, Çin filosofu (b.e.ə. III əsr)

“Ələ düşən hər bir imkanda daim mistifikasiya etmək, düşməni yanlışlığa qərq etmək və heyran qoymaq... belə taktika həmişə qələbə gətirir və kiçik ordu bu minvalla böyük ordunu dağıda bilər”.

Daş Divar ləqəbli,
general Cekson (1824-1863)

Sarayda yaşamaq – ciddi, sevinc gətirməyən şahmat partiyasıdır və bizdən fiqurları düzməyi, plan tərtib etməyi və ona riayət edərək, rəqibin gedişlərini zərərsizləşdirməyi tələb edir.

Hərdən, ancaq, risk etmək və tamamilə əsassız, öncədən deyilməsi mümkün olmayan gediş etmək daha yaxşıdır.

Jan de Labryuyer (1645-1696)

# QANUN 18

## ÖZÜNÜ MÜDAFİƏ ETMƏK ÜÇÜN QALALAR TİKMƏ: TƏCRİD OLUNMAQ TƏHLÜKƏLİDİR

## QANUN BELƏ İFADƏ OLUNUR

Dünya təhlükəlidir, düşmənlər isə hər yerdədir – hər kəs müdafiə olunmaq məcburiyyətindədir. Qala ən etibarlı sığınacaq təsiri bağışlayır. Lakin təcridolunma sizi yalnız müdafiə etmir və əslində, məruz qoyduğu böyük təhlükələrlə müqayisədə heç o qədər də müdafiə etmir: qalalar bizi vacib informasiyadan məhrum edir, nəzərəçarpan və zəif yerləri olan hədəfə çevirir. Adamların arasında olmaq və müttəfiqlər tapmaq daha yaxşıdır. Düşmənlərdən özünüzü kütlə ilə, sanki qalxanla olduğutək qoruyun.

## HAKİMİYYƏTİN AÇARI

Makiavelli sübut edir ki, hərb mənasında qala qaçılmaz səhvdir. Qala hakimiyyətin təcrid olunmasının simvoluna çevrilir və onu tikənin düşmənləri üçün asan hədəf olur. Təyinatı müdafiə etmək olan qalalar əslində bizi köməkdən kəsir və çeviklikdən məhrum edir. Onların alınmaz olduğu təəssüratı yarana bilər, amma onlardan birində qapanmağına bənddir və budur, sizin harada olduğunuz artıq hamıya bəllidir. Və qalanı həbsxanaya çevirmək üçün elə də böyük fəndgirlik lazım deyil. Qapalı darısqal məkan olan qalalar, infeksion xəstəliklərə məruz qalmaq baxımından çox zəifdirlər. Qala daxilində təcridolunma strateji

mənada müdafiə vermir və əslində nəyisə həll eləməyə kömək etməkdən çox, problem yaradır.

Madam ki insan öz təbiəti etibarilə ictimai varlıqdır, deməli, hakimiyyət sosial təmaslardan və qarşılıqlı fəaliyyətdən asılıdır. Siz hakimiyyətə nail olmaq üçün hadisələrin mərkəzində olmalısınız. Hadisələrin hamısı sizin ətrafınızda cərəyan etməlidir, siz küçələrdə baş verən bütün hər şey barədə və sizə qarşı intriqalar torunu hörə biləcək hamı haqda xəbərdar olmalısınız. İnsanların əksəriyyətinin rəyinə görə, təhlükə, onlar özlərini nəyin isə təhdid etdiyini hiss edəndə meydana çıxır. Bu vaxt onlar geri çəkilməyə və bu və ya digər qalada gizlənməyə çalışırlar. Lakin belə hərəkət etməklə, onlar getdikcə az və daha az informasiya alır və ətrafda baş verənləri görmək və qiymətləndirmək imkanından məhrum olurlar. Onlar manevr etmək qabiliyyətlərini itirir və asan şikara çevrilirlər, üstəlik də, təcridolunma onları hər şeydən şübhələnən edir. Strateji oyunların əksər hissəsində təcridolunma məğlubiyyətin və ölümün ərəfəsinə təsadüf edir.

Qeyri-müəyyənlik və təhlükə anlarında siz gizlənmək istəyini adlamalısınız. Bunun əvəzində köhnə əlaqələrinizi bərpa edin və yenilərini qurun, ən müxtəlif dairələrə sızıb keçin. Hakimiyyət adamlarının yüzillər ərzində əl atdıqları hiylə məhz elə bundan ibarətdir.

Romanın dövlət xadimi və gözəl natiq olan Siseron əsil-nəcabəti olmayan kiçik nəsildən idi. Əgər o, müstəqil surətdə, şəhərin hakimiyyət elitası arasında yer qazana bilməsəydi, onun hakimiyyətə gəlmək şansları cüzi olardı. O, nüfuzlu adamları, ardınca isə onların öz aralarındakı münasibətləri dəqiq müəyyən etməklə, bunu edə bildi və parlaq uğura nail oldu. O, hər yerdə olurdu, o, hər kəslə tanış idi, onun əlaqələr şəbəkəsi o qədər qol-budaqlı idi ki, istənilən düşmənin qarşısına asanlıqla öz müttəfiqini çıxara bilirdi.

İnsanlar – sosial varlıqlardır, deməli, ətrafdakı adamlar üçün xoşagəlimli olmaq sənətində müvəffəqiyyətə yalnız, daim cəmiyyətdə hərlənməklə nail olmaq mümkündür. Siz insanlarla nə qədər çox təmasda olursunuzsa, bir o qədər asanlıqla hər şeyə nail olacaqsınız. Təcridolma isə təkcə gərginlik içində olan görkəm

vermir, həm də daha çox təcridə gətirir, çünki insanlar sizdən kənarlaşmağa başlayırlar.

Qala haqda düşünmək əvəzinə, dünyaya başqa gözlə baxın: bu, hər bir otağı qonşuluqdakı otaqla birləşən nəhəng saraydır. Açıq olmaq, müxtəlif dairələrin ən müxtəlif nümayəndələri ilə qaynayıb-qarışaraq, bu dairələrə asanca daxil olmağı və onlardan çıxmağı öyrənmək lazımdır. Ünsiyyətdə bu cür hərəkətlilik və yüngüllük sizi, öz fitnə-fəsadlarını gizli saxlaya bilməyəcək bədxahlardan və sizi tərəfdarlarınızdan təcrid etməyə müvəffəq olmayacaq ciddi düşmənlərdən müdafiə edəcək. Siz, daim hərəkətdə olaraq, heç vaxt oturub qalmadan və bir yerdə uzun müddətə lövbər salmadan, bir zaldan digərinə keçirsiniz. Bir ovçu da çatdırıb sizi hədəfə almağa və vurmağa macal tapmayacaq.

Obraz: Qala. Təpənin başında olan istehkam – hakimiyyət üçün arzuolunmaz, nifrətəlayiq bütün hər şeyin simvoludur. Şəhərlilər sizi elə birinci düşmənə təhvil verəcək. Dünyadan kəsilmiş vəziyyətdə olan qala müqavimətsiz təslim olacaq.

Nüfuzlu rəy: "Ədalətli və müdrik, özünün bu obrazını qoruyub saxlamağı arzulayan və öz oğlanlarına despotik hökmdar olmağa imkan vermək istəməyən hökmdar ona görə qala tikməyəcək ki, oğlanları ümidlərini istehkamın gücünə yox, öz təbəələrinin xoş iradəsinə bağlasınlar".

Nikkolo Makiavelli (1469-1527)

Tənhalıq dərrakə üçün təhlükə yaradır, habelə məziyyətlər üçün əlverişli şərait deyil... Tənhalığa can atan fani insan, şübhəsiz, mövhumati inanclarla yaşayır və lap çox güman ki, havalanmış adamdır.

D-r Semyuel Conson (1709-1784)

"Kral [XIV Lüdovik] təkcə ali zadəganların hamısının onun sarayında toplaşmasına göz qoymurdu, o eyni şeyi kiçik zadəganlıqdan da tələb edirdi. Onun "lever" və "coucher"lərində, Versalın

bağlarında verdiyi ziyafətlərdə, o, həmişə ətrafına baxır, hər şeyi görürdü. Ən nəsil-nəcabətli zadəganlar daim sarayda yaşamasaydılar, bu onun xətrinə dəyirdi və heç vaxt təşrif buyurmayan, ya da yalnız hərdən gözə dəyənlər onun son dərəcə narazılığını doğururdular. Əgər onlardan kimsə xahiş-minnətlə müraciət edirdisə, kral qürurla cavab verirdi: "Mən onu tanımıram" – və heç kimin də etiraz etməyə cürəti çatmırdı".

Hersoq Sen-Simon (1675-1755)

# QANUN 19

## KİMİNLƏ İŞ GÖRDÜYÜNÜ BİL:
## LAZIM OLMAYAN ADAMIN XƏTRİNƏ DƏYMƏ

## QANUN BELƏ İFADƏ OLUNUR

**Dünyada müxtəlif tip adamlar var və onların hamısının eyni fəndlərə eyni cür reaksiya verəcəklərini gözləmək olmaz. Siz kimisə qorxudacaqsınız, yaxud kiməsə hiylə gələcəksiniz – o isə ömrünün axırına qədər sizdən qisas alacaq. Belə adamlar – qoyun dərisində olan canavarlardır. Buna görə də qurbanınızı, ya da rəqibinizi çox ciddi surətdə seçin və heç vaxt kimi lazım deyilsə, onlara toxunmayın və xətirlərinə dəyməyin.**

## OPPONENTLƏR, SADƏLÖVHLƏR VƏ QURBANLAR

Hakimiyyətə yüksəlmək prosesində sizə opponentin, sadəlövhün və qurbanın müxtəlif növləri ilə üzləşmək lazım gələcək. Hakimiyyət məharətinin ən ali forması – canavarları quzulardan, tülküləri dovşandan, şahinləri leşyeyəndən fərqləndirməyi bacarmaqdır. Əgər siz bunu öyrənərsinizsə, onda uğura nail olmaq üçün məcburiyyət və zorakılıqdan istifadə etmək lazım gəlməyəcək. Amma əgər siz yolunuzda duranla kor-koranə əlbəyaxa olarsınızsa, mümkündür ki, bütün, nə qədər uzun olsa da, ömrünüz boyu bunun peşmançılığını çəkəcəksiniz. İnsan tiplərini tanımaq və buna müvafiq hərəkət etmək – həyati dərəcədə vacibdir. Aşağıda cəngəlliklərin sakinlərinin beş – onlar keçmişin, həm incəsənət, həm də fırıldaqçılıq üzrə ustalarının gözünə necə görünürdülərsə – ən təhlükəli və mürəkkəb tipi sadalanır.

İnciyən və qürurlu. O bunu başlanğıcda gizlədə bilsə də, zəif, dözümsüz heysiyyəti onu çox təhlükəli edir. Özünə münasibətdə hörmətsizliyin və yaxud saymamazlığın cüzi əlamətlərinin nəzərinə çatmasına bənddir və bu, cilovlanmayan hiddətin və zorakılığın partlayışına gətirəcək. Siz ürəyiniz istəyən qədər başa sala bilərsiniz: "Əşi, mən axı, hamının möhkəm vurduğu ziyafətdə vur-tut filanı və filanı demişəm..." Bu deyil vacib. Belə adamın şişirdilmiş reaksiyasının rasional səbəbləri yoxdur, buna görə də nə baş verdiyini başa düşmək cəhdlərinə vaxt itirməyin. Əgər birlikdə iş gördüyünüz adamın fövqəl-incimək və həddən artıq qürurlu olmasından nə ilə isə əlaqədar şübhələndinizsə, aradan çıxın. Ondan nə alacağınıza ümid etməsəniz də, həmin şey buna dəyməz.

Xəstəlik dərəcəsində inamsız. Bu tipin ondan əvvəlkinə aidiyyəti var, ancaq o elə də gur ifadə olunmayıb və onu tanımaq çətindir. Özünə xəstəlik dərəcəsində inamsız olanın eqosu kövrəkdir, onun özünü şəxsiyyət kimi duymasında zəif yerlər çoxdur və əgər ona belə gəlirsə ki, onu ələ salır və ya ona hücum edirlər, bu halda incikliyini boğmaq ona çətindir. O, xırda sancmalarla o vaxta qədər cavab verəcək ki, bunlar sizin nəzərinizə çarpmağa başlayacaq. Belə adamı aldatdığınızı, ya da onun xətrinə dəydiyinizi aşkar edəndə, uzun müddətə gözdən itin. Özünüzü ondan uzaq tutun – əks təqdirdə o sizi ölənəcən sancacaq.

Mister Şübhələnən. Yuxarıda haqqında danışılanlar cinsinin başqa bir variantı – gələcək İosif Stalindir. O, əhatəsində olanların timsalında nə görmək istəyirsə, – adətən ən pis olanı, – onu da görür və hamının özünə qarşı olduğunu təsəvvür edir. Mister Şübhələnən əslində bu üçlükdən ən təhlükəsizidir: o, təbiətən natarazdır və Stalinin özünü daim necə aldadırdılarsa, onu da dəqiqliklə o cür aldatmaq asandır. Onun təbiətən şübhəliliyi üzərində oynayın ki, onu başqalarına qarşı kökləyə və çevirəsiniz. İşdir əgər onun şübhələrinin obyekti özünüz olarsınızsa, onda sayıq olun.

Kinli ilan. Aldadılan və ya xətrinə dəyilən bu adam zahirən qəzəb, ya da inciklik büruzə verməyəcək, o, gedişləri

hesablayacaq və məqam gözləyəcək. Ardınca, kartları açmaq növbəsi ona gələndə, qisas soyuqqanlı və sərrast olacaq. Bu adamı tanımaq olar: həyatın ən müxtəlif sahələrində onun hesablamaları və hiylələri ilə. O adətən soyuqqanlı və ehtirassızdır. İlanla ikiqat ehtiyatlı olun və əgər ona təsadüfən toxunmusunuzsa, ya axırına çıxın, ya da onun gözünə görünməyin.

Sadə, qeyri-tələbkar və çox vaxt ağıllı olmayan. Ah, bu qədər iştaha açan qurban qarşısında durmusunuz və hələ bir özünüzü ovçutək də tutursunuz! Məsələ ondadır ki, bu cür adamı aldatmaq, təsəvvür etdiyinizdən çətindir. Tələyə çox vaxt, ağıla və təxəyyülə malik olanlar düşür. Kütbeyin tələ yemini ona görə qapmayacaq ki, onu, sadəcə olaraq, görməyəcək. O, elə bir dərəcədə qayğısızdır ki, bu tipin təhlükəliliyi, onun sizə ziyan vuracağı və ya qisas almağa məqam axtaracağında deyil, əsas etibarilə ondadır ki, onu aldatmağa cəhd etdiyiniz vaxt ərzində o sizin vaxtınızı, enerjinizi, resurslarınızı və hətta ağlınızı alacaq. Hazır vəziyyətdə yoxlamaq üçün həmişə testiniz olsun – lətifə, əhvalat. Əgər adam hər şeyi mütləq şəkildə hərfi mənada başa düşürsə, deməli, siz həmin tiplə üzləşmisiniz. Onunla iş görüb-görməməyi özünüz qərara almalısınız.

Obraz: Ovçu. O, tülkü və canavar üçün eyni cür tələlər qoymur. O, tələ yemini elə yerdə qoymaz ki, orada onu heç kəs qapışdırmayacaq. O, şikarının "dabbaqda gönünə" bələddir, onun adətlərini, cığırlarını bilir və uğurla ov edir.

Nüfuzlu rəy: "Möhkəm bilmək lazımdır ki, tamamilə əhəmiyyət kəsb etməyən və diqqətə layiq olmayan adamlar olmur. Vaxtaşırı onlara özünüzə faydalı olmağa izin vermək lazımdır, hərçənd, əgər heç olmasa bircə dəfə, onlara münasibətdə saymamazlıq göstərilərsə, – onlar bunu, şübhəsiz, etməyəcəklər. Səhvləri çox vaxt bağışlayırlar, saymamazlığı – heç vaxt. İnsan qüruru beləsini həmişəlik yadda saxlayır".

Lord Çesterfild (1694-1773)

“Qılıncı olan döyüşçü ilə qarşılaşanda, öz qılıncını qınından çıxar: şair olmayana, şeirləri deklamasiya etmə”.

Buddizm klassikasından

(Sit. “Göylərdən ildırım” kitabından)

# QANUN 20

## HEÇ KİMLƏ BİRLƏŞMƏ
## QANUN BELƏ İFADƏ OLUNUR

Tərəflərdən birinə qoşulmağa yalnız axmaq tələsir. Özünüzü heç kimə etibar etməyin, özünüzü öhdəliklərlə bağlamayın. Adamları bir-biri ilə kəllə-kəlləyə gəlməyə, onları öz arxanızca getməyə məcbur edərək, müstəqilliyinizi saxlamaqla – siz hökmranlıq etmək imkanı alacaqsınız.

## HAKİMİYYƏTİN AÇARI

Hakimiyyət fövqəladə dərəcədə çoxsimalıdır və sizin imicinizi yaxşılaşdıran tryukları öyrənmək lazımdır. Qruplaşmalarda və ayrı-ayrı adamlarla alyanslarda iştirakdan imtina – belə tryuklardan biridir. Kənarda durmaqla, siz özünüzə qarşı qəzəb yox, özünəməxsus hörmət doğuracaqsınız. Siz, qrupun və ya qohumların təsiri altına düşən adamların əksəriyyətinə əks-taraz olaraq, özünüz haqqında daim güclü və hökmlü şəxs təəssüratı doğurursunuz. Hakimiyyətin bu aurası vaxt ötdükcə güclənir: müstəqil adam kimi reputasiyanız güclənir və bu baş verdikcə, sizə ehtiyacı olan, sizi öz tərəfinə çəkməyə müvəffəq olanlardan biri olmağa can atan adamların sayı artır. İstək virus kimidir: əgər biz ətrafımızdakıların kiməsə tərəf dartındıqlarını görürüksə, bu şəxs bizim gözümüzdə də cəlbedici olur.

Siz kiməsə üstünlük verdiyiniz dəqiqədə, magiya duman kimi dağılır. Siz qalan hamı kimi olursunuz. Sizi öz düşərgəsinə çəkmək üçün adamlar istənilən məkrli fəndlər tətbiq etməyə başlayırlar. Onlar sizə hədiyyələr edəcək, saysız qulluqlar göstərəcəklər və bütün bunlar da sizin onlara minnətdar olduğunuzu hiss etməyiniz

üçün ediləcək. Sizə göstərdikləri diqqətə görə onlara təşəkkür edin, onların özünüzlə bağlı maraqlarını stimullaşdırın, amma heç kimə və heç nəyin müqabilində və heç nəyə görə qoşulmayın. Əgər siz bunu istəyirsinizsə, onların hədiyyələrini qəbul edə bilərsiniz, lakin özünüzün daxilən kənar olduğunuzu cidd-cəhdlə qoruyun. Siz özünüzə imkan verməməlisiniz ki, kiməsə minnətdar olduğunuzu hiss edəsiniz.

Ancaq yadda saxlayın: məqsədiniz hamıdan kənarlaşmaq və ya qarşılıqlı faydalı əməkdaşlığa qabil olmadığınızı göstərmək deyil. İngiltərənin kraliçası I Yelizaveta kimi, siz təamları qızdırılmış halda saxlamalı, maraq qıcıqlandırmalı, sizi ələ ala biləcəkləri imkanı ilə adamları şirnikləndirməlisiniz. Siz hərdən onların göstərdikləri diqqət qarşısında geri çəkilməlisiniz – amma həddən artıq uzağa getməmək şərtilə.

Yunan döyüşçüsü və dövlət xadimi Alkiviad bu oyunu kamillik dərəcəsində mənimsəmişdi. B.e.ə. Sirakuza soxulan Afina donanmasına məhz o rəhbərlik edirdi. Afinada onun paxıllığını çəkənlər, ona qarşı ittiham saxtalaşdıraraq, ona böhtan atmağa cəhd edəndə, Alkiviad vətənində məhkəmə qarşısında durmaq əvəzinə, düşmənlərdən – spartalılardan sığınacaq xahiş etdi. Bir müddət keçdikdən, afinalılar Sirakuz yaxınlığında darmadağın ediləndən sonra, Alkiviad Spartadan Fars imperiyasına köçdü, hərçənd Sparta o vaxt çiçəklənmə dövrünü yaşayırdı. İndi Alkiviadın tərəfkeşliyini, onun Fars imperiyasında qazandığı nüfuza görə, artıq həm afinalılar, həm də spartalılar arayırdılar, farslar isə ona, Afinada və Spartada malik olduğu nüfuzuna görə böyük ehtiram göstərirdilər. O, hər bir tərəfə vədlər verir, amma heç birini fərqləndirmirdi və kozırların hamısı lap axıra qədər onun əlində idi.

Əgər siz hakimiyyət və nüfuz əldə etmək istəyirsinizsə, Alkiviadın taktikasını istifadə edin: hakimiyyət uğrunda mübarizə aparanların arasında mövqe tutun. Tərəflərdən birinə köməyinizi vəd edin. Həmişə öz rəqibinə üstün gəlməyə can atan o biri tərəf də sizi əldən buraxmamağa çalışacaq. İndi isə, madam ki tərəflərdən hər biri dəstəyinizi arayır, bu sizə nüfuzlu və arzuolunan sima görkəmi verir. Bu minvalla siz, tərəflərdən birinə

qoşulacağınız təqdirdə ala biləcəyinizlə müqayisədə, daha çox hakimiyyət almış olarsınız.

Bu qanunun bir tərkib hissəsi də var. Onu bu cür ifadə etmək olar: heç kəsin tərəfini tutma, döyüşün üzərində ol.

Ətrafınızdakıların öz cılız qapışmalarına və itələşmələrinə sizi çəkib salmalarına imkan verməyin. Maraq nümayiş etdirin, özünüzü elə göstərin ki, guya dəstəkləyirsiniz, lakin istənilən üsulla neytrallığınızı saxlayın. Döyüşmək imkanını başqalarına verin, özünüz isə müşahidə edin və gözləyin. Tərəflər yorulanda və nisbətən sakitləşəndə, onda onlar hazır-nazir düz sizin əlinizə düşəcəklər. Ümumiyyətlə baxanda, qalmaqalları təhrik etməyi və sonra da öz hakimiyyətinizi artıraraq vasitəçilik təklif etməyi qayda kimi də götürmək olar.

Obraz: Kol-kosluq. Meşədə, qonşularına tərəf tikanlarını çıxararaq bir kol o birisinə ilişir. Lakin onlardan uzaqda bir-birindən ehtiramlı məsafədə hündür, qədd-qamətli ağaclar yetişir. Yalnız həddən artıq yaxında olmayanlar talanın üzərində yüksələ bilər.

Nüfuzlu rəy: "Hesab et ki, özünü döyüşə çəkib salmağa imkan verməmək, döyüşü udmaqdan mərdanədir, çəkib salınan bir axmağın olduğu yerdə isə qeydinə qal ki, beləsinin sayı iki olmasın".

Baltazar Qrasiani (1601-1658)

## PAXILLIĞIN BAHASI

Yoxsul qadın bazarda pendir satırdı. Pişik gözdən yayınıb, birini oğurladı. Oğrunu görən it, guya pendiri ondan almaq istədi. Pişik və it yaxalaşdılar. İt mırıldayır və hürürdü, pişik fısıldayır və cırmaqlayırdı, amma biri də davada üstün ola bilmirdi. "Gedək şələquyruğun yanına, qoy o bizi ayırd etsin" – deyə, nəhayət pişik təklif elədi. "Yaxşı, gedək" – dedi it. Və onlar tülkünün yanına

yollandılar. Şələquyruq hər ikisini ağıllı görkəmlə dinlədi. "Axmaq heyvanlar, – tənbeh etdi onları tülkü, – axı kim özünü belə aparır? İstəyirsiniz, mən pendiri sizin aranızda elə bölüm ki, hər ikiniz razı qalasınız". "Razıyıq" – dedi it və pişik. Tülkü bıçağı çıxartdı və pendiri böldü, lakin onu eninə kəsmək əvəzinə, uzununa böldü. "Mənim yarım balacadır" – deyə, it etiraz etdi. Tülkü eynəyin altından itin payına qiymətləndirici nəzərlərlə baxdı. "Sən haqlısan, tamamilə haqlısan!" – qət etdi o. Tülkü yaxınlaşdı və pişiyin payından bir parça dişlədi. "İndi paylar bərabərdir" – dedi pendiri çeynəyib udandan sonra. Tülkünün nə etdiyini görcək, pişik miyoldamağa başladı: "Bircə bax! İndi mənim tikəm balacadır!"

Tülkü yenə eynəyini taxdı və qiymətləndirici nəzərlərlə pişiyin payına baxdı. "Sən haqlısan!" – dedi o. – Dayanın, mən indicə bunu düzəldərəm". Və o itin tikəsindən bir parça dişlədi. Beləcə, tülkü pendirin hamısını düz onların gözləri önündə yeyib qurtarana qədər gah pişiyin, gah da itin payını bərabərləşdirdi.

Natan Ozyubel,

"Yəhudi folklorunun xəzinəsi", 1948

# QANUN 21

## SADƏLÖVHÜ TOVLAMAQ ÜÇÜN ÖZÜNÜ SADƏLÖVH QƏLƏMƏ VER: HƏDƏFİNDƏN AXMAQ OLDUĞUN TƏSİRİ BAĞIŞLA

## QANUN BELƏ İFADƏ OLUNUR

Özünü başqasından axmaq hiss etmək heç kəsin xoşuna gəlməz. Ona görə də hiylə, qurbanınıza özünü ağıllı – və sadəcə ağıllı yox, sizdən ağıllı – hiss etməsinə imkan verməkdən ibarətdir. O, bir dəfə buna inanaraq, day heç vaxt şübhələnməyəcək ki, sizdə gizli motivlər ola bilər.

## HAKİMİYYƏTİN AÇARI

Başqa bir kimsənin bizdən ağıllı olması hissi demək olar dözülməzdir. Biz adətən buna istənilən cür haqq qazandırmağa çalışırıq: "O, sadəcə olaraq, kitablardan yığıb, məndə isə əsl biliklərdir", "Bu qızın valideynləri ona yaxşı təhsil vermək üçün pullarından keçiblər. Mənim valideynlərim də varlı olsaydı...", "O, özü təsəvvür etdiyi qədər da ağıllı deyil".

Əksəriyyətin şöhrətpərəstliyi üçün ağılın nə qədər vacib olduğunu nəzərə alaraq, kiminsə əqli qabiliyyətlərini şübhə altına qoymaqla, onun xətrinə dəyməmək ağlasığmaz qədər vacibdir. Bu, bağışlanmaz günahdır. Ancaq əgər bu dəmir qanunu qəbul və onu özünüzə işləməyə məcbur edərsinizsə, bu sizə insanlara təsir etmək üçün həddi-hüdudu olmayan imkanlar açacaq. Başqalarının, sırımaq təsiri bağışlamadan, sizdən ağıllı olduqlarını göstərməklə, onları özünüzün ağlınızın parlaq olmadığına, hətta kəmağıl olduğunuza inandırmaqla, onlardan kəndir toxuya bilərsiniz. Sizin onlara verəcəyiniz intellektual üstünlük hissi, onların sayıqlığını zəiflədəcək.

1865-ci ildə Otto fon Bismarka, Avstriyanın bir müqaviləni imzalaması lazım idi. Müqavilə Prussiyanın maraqlarına tam cavab verir, Avstriyanın isə xeyrinə deyildi və istədiyinə nail olmaq üçün Bismarka hiyləgərlik etmək lazım gəlirdi. Avstriya tərəfdən danışıqların iştirakçısı olan qraf Blome qatı kart oyunçusu idi. Onun sevimli oyunu kuins idi və o, tez-tez deyərdi ki, adam haqqında, onun kuinsi necə oynadığı ilə mühakimə yürüdə bilər. Bismark Blomenin dediyi bu fikir haqda bilirdi.

Danışıqların başlanacağı günün ərəfəsində axşam, Bismark, sadəlövh görkəmlə, Blomeni oyuna dəvət etdi. Sonralar o yazırdı: "Həmin vaxtdan sonra mən kuins oynamağa bir dəfə də olsun əyləşməmişəm. O qədər ehtiyatsız, tədbirsiz oynayırdım ki, hamı çaş-baş qalmışdı. Mən bir neçə min taler [o vaxtın pul vahidi] uduzdum, amma onun [Blomenin] başını girləyə bildim, onu əslində olduğumdan daha azartlı olduğuma inanmağa vadar edərək ona bu cür fikirləşməyə mane olmurdum". Bismark təkcə dərrakəsiz kimi görünmədi, o özünü ağılsız və uzaqgörməyən adam kimi aparırdı, sarsaq-sarsaq söhbətlər edirdi, özünü ələ ala bilmədiyini göstərərək, aramsız çərənləyirdi.

Bütün bunlar birlikdə Blomeni belə fikirləşməyə məcbur etdi ki, o, qiymətli informasiya alır. O, Bismarkın aqressivliyi haqda bilirdi – belə reputasiya prussiyalının adında artıq möhkəmlənmişdi və o, davranışı ilə bunu təsdiq edirdi. Aqressiv adamlar isə, Blomeyə bəlli olduğu kimi, adətən axmaqdırlar və özlərini ələ ala bilmirlər. Buna görə də, müqavilənin imzalanması məqamı üçün Blome üstünlüyün onun tərəfində olduğuna əmin idi. Bismark kimi başsız sarsaq, hesab edirdi o, soyuqqanlı götür-qoy etməyə və aldatmağa qabil deyil. Odur ki, Blome, müqaviləni imzalamazdan əvvəl sənədə yalnız gözucu baxdı və onun yekun variantını öyrənmədi. Mürəkkəb hələ heç qurumamışdı ki, Bismark sevinclə onun düz sifətinə bildirdi: "Sən bir işə bax, heç vaxt inanmazdım ki, bu sənədi imzalaya biləcək avstriyalı diplomat tapıla bilər!"

Çinlilərdə belə bir kəlam var: "Pələngi öldürmək üçün, donuzun qiyafəsinə girmək". Bu, qədim ovçuluq üsuluna gedib çıxır ki, həmin dövrlərdə ovçu donuzun dərisini və kəlləsini əyninə taxır, onun tərzini çıxarır, xor-xor edirdi. Qarşısındakının donuz

olduğunu güman edən qüdrətli pələng, asan şikar ovlayacağına ümid edərək, donuzun yaxınlaşmasına imkan verirdi. Lakin axırıncı gülən ovçu olurdu.

Donuz qiyafəsinə girmək, pələng kimi özünəinamlı və təkəbbürlü olanlarla əlaqədar möcüzələr yaradır: şikar onlara nə qədər asan görünürsə, rolları onlarla dəyişmək sizin üçün bir o qədər asan olur.

Ağıl – ört-basdır etmək lazım gələn keyfiyyətdir, amma bununla dayanmayın. Zövq və incəlik şöhrətpərəstlik şkalasında ağılla yan-yanadırlar. Adamlara hiss etməyə imkan verin ki, onların zövqü sizdən incədir – və onlar öz sayıqlıqlarını zəiflədəcəklər. Həmişə imkan verin ki, adamların sizdən ağıllı və incə olduqlarına inanmağa əsasları olsun, onlara bunu dərk etmək xoş olduğundan isə, siz onların yanında daha çox olacaqsınız və onları ötüb keçmək üçün imkanlarınız daha da artacaq.

Obraz: Özünü ölülüyə qoyan opossum. Yırtıcılar ona toxunmur. Bu cür eybəcər, ağılsız və əsəbi balaca varlığın belə bir yalana qabil olduğunu kim ağlına gətirə bilərdi?

Nüfuzlu rəy: "Axmaqlığı necə tətbiq etmək lazım olduğunu bil: ən müdrik adam da bəzən bu kartı oyuna qatır. Belə hallar da olur ki, ali müdriklik, özünü axmaq yerinə qoymaqdan ibarət olur – sən gərək cahil olmayasan, sən cahil rolunu oynamalısan. Sarsaqların arasında müdrik və lunatiklərin arasında normal adam olmaq o qədər də düzgün deyil. Özünü axmaq yerinə qoyan, axmaq deyil. Hamı ilə yaxşı münasibətlərə nail olmağın ən yaxşı üsulu – sadəlövhlərdən ən axmağının dərisini özünə taxmaqdır".

Baltazar Qrasiani (1601-1658)

Hal-hazırda insan öz əqli qabiliyyətlərilə olduğu qədər başqa heç nə ilə fəxr etmir, çünki heyvanlar aləmində hökmran mövqe qazanmağa ona məhz bu qabiliyyəti imkan verib. Lakin buna münasibətdə kiminsə qarşısında öz üstünlüyünü göstərmək, özü də ətrafda olanların diqqətini buna cəlb etmək, son dərəcə

başısoyuqluq olardı... Əgər mövqe və var-dövlət həmişə hesaba alınırsa və cəmiyyətdə adama münasibət bunlardan asılıdırsa, intellektual qabiliyyətlərlə bağlı məsələ ən gözlənilməz şəkildədir: ona göstərilən ən böyük lütf budur – onu, ümumiyyətlə, görmürlər. Əgər adamlar bu qabiliyyətlərə diqqət yetirirlərsə də, bu halda onu misilsiz azğınlığın təzahürü və yaxud da bunların yiyəsinin buna heç bir qanuni hüquqi olmadığı, hələ üstəlik də bundan qürur duymağa cürət etdiyi bir şey kimi nəzərdən keçirirlər.

Həm mühakimə edərək, həm də cəza olaraq insanlar belə davranışı mümkün olan hər üsulla gizlicə alçaltmağa çalışırlar! Əgər onlar bu məsələdə ləng olurlarsa, bu da yalnız əlverişli məqam gözlədiklərinə görə belədir. Adam özü ilə təvazökarlığın və itaətkarlığın nümunəsini təcəssüm etdirə bilər, amma əgər o, başqalarından intellektual cəhətdən üstündürsə, onda onlar istənilən halda bu cinayəti ona çətin ki bağışlasınlar. “Qızıl güllər bağı” əsərində Sədi deyir: “Sən bilməlisən ki, müdriklərə – axmaqların arasında olmaq, ağıllı adamların arasında olan axmağı iyrəndirdiyi qədər bərk iyrəndirmir”.

Artur Şopenhauer (1788-1860)

# QANUN 22

## KAPİTULYASİYA TAKTİKASINI İSTİFADƏ ET: ZƏİFLİKLƏRİNİ QÜVVƏYƏ ÇEVİR

### QANUN BELƏ İFADƏ OLUNUR

Siz kiminlə isə müqayisədə daha zəifsinizsə, heç bir vəchlə şərəf naminə döyüşməyin. Bunun əvəzində kapitulyasiya edin. Kapitulyasiya sizə yaralarınızı sağaltmağa və qalibi bezikdirməyə və əsəbiləşdirməyə, eləcə də onun qüvvəsinin tükənəcəyini gözləməyə vaxt verəcək. Sizinlə döyüşmək və qalib gəlmək həzzini ona verməyin – bu baş verməzdən qabaq kapitulyasiya edin. Kapitulyasiyanı hakimiyyətin alətinə çevirin.

### HAKİMİYYƏTİN AÇARI

Hakimiyyət imperiyasında düşmənlərin və rəqiblərin hərəkətlərinə şişirdilmiş reaksiya bizi çox vaxt pis vəziyyətdə qoyur. Bu, daha tədbirli olacağımız halda qaça biləcəyimiz çətinliklər törədir. Hər şey bir yana, konflikt sonsuzluğa qədər uzanmaqla təhdid edir, çünki rəqib də öz növbəsində, kəskin reaksiya verir. Bizim birinci hissimiz həmişə müqavimət göstərmək, bizə qarşı aqressivliyə, öz növbəmizdə, aqressivliklə cavab vermək olur. Lakin gələn dəfə, kim isə sizin xətrinizə dəyəndə və siz eyni cür cavab verməyə hazırlaşdığınızı anlayanda, görün nəyi sınaqdan çıxarın: müqavimət göstərməyin, cavab zərbəni endirməyin, əvəzində geri çəkilin, o biri yanağınızı çevirin, tabe olun. Əmin olacaqsınız ki, bu üsulla çox vaxt rəqibi neytrallaşdırmaq mümkün olur – o sizdən cavab aqressivliyini gözləyir, hətta bunu istəyir, siz isə, müqavimət göstərməməklə, onu hazırlıqsız yaxalayır və çaş-baş salırsınız. Barışaraq, əslində vəziyyəti əlinizə alırsınız, çünki sizin kapitulyasiyanız yalnız planın

bir hissəsidir və onun məqsədi – düşməni sındığınıza inanmağa məcbur etməklə, sayıqlığını yuxuya verməkdir. Bu taktikanın məğzi aşağıdakından ibarətdir: siz daxilən möhkəmliyinizi saxlayır, əvəzində zahirən baş əyirsiniz. Aqressivlik üçün bəhanədən məhrum edilən düşmənləriniz başlarını itirirlər. Davamı olaraq, zorakılıqla cavab vermək üçün onların istifadə edə biləcəkləri səbəb yoxdur, əksinə olsaydı isə, bu sizdən aqressiv gediş tələb edəcəkdi. Bunun əvəzində siz cavab manevrini hazırlamaq üçün vaxt və məkan uddunuz və bu, onlar üçün dağıdıcı ola bilər. İntellektin kobud güc və aqressiya ilə döyüşündə belə taktika – birinci dərəcəli silahdır. Bir çox hallarda mübarizəyə qoşulmaqdansa, təslim olmaq yaxşıdır; və əgər rəqib qat-qat güclüdürsə və məğlubiyyətin labüd olduğu açıq-aşkardırsa, qaçıb canını qurtarmaqdansa, təslim olmaq ələlxüsus yaxşıdır. Qaçmaq qısa zaman kəsiyində xilas edəcək, amma tez və ya gec düşmən başınızın üstünü kəsdirəcək. Təslim olaraq siz bədxahın ətrafına sarmaşmağa və dişlərinizi ona sancmaqla, onu yaxın məsafədən vurmağa imkan tapırsınız.

B.e.ə. 473-cü ildə Yue şahlığının qədim Çin hökmdarı Qu Çjan, Fuçjo yaxınlığındakı döyüşdə U şahlığının hökmdarından dağıdıcı məğlubiyyət almışdı. Qu Çjan qaçıb gizlənmək niyyətində idi, amma məsləhətçisi başqa yol təklif etdi: təslim olmaq və U hökmdarının yanında xidməti vəzifə almağa çalışmaq, beləliklə də onu bacardıqca yaxşı öyrənmək və revanş hazırlamaq üçün imkan əldə etmək. Bu məsləhətə riayət etməyi qərara alan Qu Çjan, var-dövlətini qalibə verdi və onun at tövləsində adi işçi oldu. O, üç il ərzində özünü itaətkarcasına aparırdı və nəhayət onun loyallığına inanan hökmdar, Qu Çjana öz evinə qayıtmağa izin verdi. Əslində isə Qu Çjan bütün bu üç il ərzində informasiya toplayır və cavab zərbəni planlaşdırırdı. U şahlığı qorxunc quraqlığa düçar olanda və daxili iğtişaşlar şahlığı zəiflədəndə, o, ordu toplayaraq U-ya soxuldu və asan qələbə əldə etdi. Kapitulyasiyanın arxasında bax belə bir qüvvə durur: dağıdıcı cavab zərbəsini hazırlamaq üçün vaxt və çeviklik verir o. Əgər Qu Çjan, sadəcə, qaçsaydı, onda bu şans onun üçün itirilmiş olardı.

Hakimiyyət – daimi hərəkət, qabarmalar və çəkilmələrdir, çünki bu oyun selə oxşayır; hakimiyyət – daimi mübarizə arenasıdır və burada yuxarıya qalxmaq çox vaxt yıxılmaqla əvəzlənir. Əgər siz yorğunluğun gəldiyini hiss edirsinizsə, kapitulyasiya ilə manevr yenidən ayağa qalxmağa gözəl kömək edəcək – mövqelərin könüllü təslim edilməsi sizin iddialarınızı ört-basdır edir, hakimiyyət oyununda ən mühüm biliklər olan, səbirli olmağı və özünü ələ almağı öyrədir və bədxahınıza gözlənilmədən zərbə endirə biləcəyiniz ən əlverişli mövqe tutmaqda sizə kömək edir. Əgər siz qaçarsınızsa, ya da döyüşü davam etdirərsinizsə – bu, nəticədə məğlubiyyətə gətirəcək. Əgər təslim olarsınızsa, bu gələcəkdə, demək olar, şanlı qələbəyə çevriləcək.

Obraz: Palıd. Küləyə müqavimət göstərən palıdın budaqları bir-birinin ardınca sınır və o tez və ya gec çat verir. Əyilən palıdın ömrü daha uzun olur, onun gövdəsi getdikcə qalınlaşır, kökləri isə getdikcə dərinə işləyir və getdikcə möhkəm olur.

Nüfuzlu rəy: "Siz eşitmisiniz ki, nə deyilib: gözün əvəzinə göz və dişin əvəzinə diş. Mən isə deyirəm: şər olana müqavimət göstərilməsin. Əvəzində, kim sənin bir yanağından vurarsa, ona o biri yanağını çevir; kim səninlə məhkəmədə çəkişmək və köynəyini əlindən almaq istəyərsə, üst geyimini də ona ver; kim səni özü ilə bir yol getməyə məcbur edərsə, onunla ikisini get".

(Matfeydən Yevangeliye, 5:38-41)

Böyük cənab yanından keçəndə, ağıllı kəndli dərin baş əyər və səssizcə köpünü çıxardar.

Efiop məsəli

Volter Londonda sürgün həyatını, antifransız əhvali-ruhiyyəsinin ən yüksək həddə çatdığı dövrdə yaşayırdı. Bir dəfə küçədə gəzişərkən, o, qəzəblənmiş kütlə tərəfindən əhatəyə alındı. "Onu asaq, asaq fransızı!" – qışqırışırdılar kütlənin içindən. Volter yığnağa bu sözlərlə müraciət etdi: "İngilislər! Siz məni fransız

olduğuma görə öldürmək istəyirsiniz. İngilis doğulmadığıma görə məgər mən indinin özündə kifayət qədər cəzalanmamışammı?" Buna cavab olaraq kütlə alqış qışqırtıları ilə lərzəyə gəldi və ona toxunmadan, evinə qədər yola saldı.

Klifton Fadiman,
"Lətifələrin qəhvəyi rəngdə kitabçası", 1985

# QANUN 23

## QÜVVƏLƏRİNİ CƏMLƏŞDİR

## QANUN BELƏ İFADƏ OLUNUR

Qüvvənizi və enerjinizi qoruyun, onları toplayın və konsentrasiya olunmuş şəkildə saxlayın. Siz bir dayaz şaxtadan digərinə atılmaqla müqayisədə, bir zəngin damarı tapıb və onu dərinləşdirməklə daha çoxa nail ola bilərsiniz – intensiv hasilat hər dəfə ekstensiv hasilata üstün gəlir. Sizi yüksəldəcək güc mənbələrini axtara-axtara əsas bulağı, sağmal inəyi tapın və o sizi uzun müddət südlə təchiz edəcək.

## HAKİMİYYƏTİN AÇARI

Dünya ölkələrin, siyasi qrupların, ailələrin, hətta ayrı-ayrı şəxsiyyətlərin daxilində getdikcə artan ayrılmalardan və çiliklənmədən əziyyət çəkir. Biz hamımız tam dalğınlıq halındayıq, heç cür diqqətimizi cəmləyə, fikirləri bir istiqamətdə tutub saxlaya bilmirik, bizi minlərlə başqası çəkib özünə salır. Müasir dünyada konfliktlik səviyyəsi, nə vaxtsa olandan yüksəkdir və biz bütün bunları öz həyatlarımıza çəkib salmışıq.

Qərar qapanma ola bilər: özünə, keçmişə, fikirlərin və hərəkətlərin daha konsentrasiya olunmuş formasına. Napoleon qüvvələrin cəmləşdirilməsinin və rəqibin zəif bəndinə zərbə endirilməsinin nə qədər vacib olduğunu bilirdi – döyüş meydanlarında onun uğurlarının sirri bunda idi. Məqsədyönlülük, qarşıda duran vəzifənin həlli üzərində cəmləşmək və ən əsası – bütün bu keyfiyyətləri nisbətən az cəmlənmiş adamlara, başını

itirmiş halda olan adamlara qarşı tətbiq etməyi bacarmaq – belə ox öz hədəfini həmişə tapacaq və hər dəfə düşməni məhv edəcək.

Kazanova öz həyat uğurunu vahid məqsəd üzərində cəmləşmək və təslim olana qədər məqsədə doğru irəliləmək qabiliyyəti ilə izah edirdi. Məhz özünü ürəyi istəyən qadınların ixtiyarına tam həcmdə vermək qabiliyyəti sayəsində o, qarşısıalınmaz məftunedici olmuşdu. Belə qadınlardan birinin onun diqqət sferasında olduğu həftələr və aylar ərzində, Kazanova başqa heç kim haqda fikirləşmirdi. Onu Venesiyada Dojey Sarayının məkrli qurğuşun damının altında, hələ heç kimin qaçmağa müvəffəq olmadığı türmədə məhbusluğa atanda, o, yeganə bir məqsədi götür-qoy etmək üzərində cəmləşdi – qaçış. Başqa kameraya köçürülməsi onu başını itirməyə məcbur etmədi, – bu, qazılan lağım üzərində aylarla aparılan işin it-bat olması demək idi – o geri çəkilmədi və əvvəl-axır qaçışı həyata keçirdi. "Mən həmişə inanırdım ki, – sonralar yazırdı o – əgər adam nəyə isə nail olmağı qət edərsə və yalnız bununla məşğul olacaqsa, onda o, çətinliklərə baxmayaraq, mütləq uğur qazanacaq. Belə adam qüdrətli vəzir və ya Roma Papası ola bilər".

Hakimiyyət dünyasında ətrafınızdakıların, bir qanunauyğunluq kimi, özünüzlə müqayisədə daha qüdrətli olanların köməyinə sizin daim ehtiyacınız olacaq. Axmaq, bir adamdan o birisinə uçur və inanır ki, özünü bu cür səpələməklə çoxlu qüvvə qoruyub saxlaya biləcək. Lakin konsentrasiya qanununun nəticəsi deyir ki, hakimiyyətin bir müəyyən mənbəyinə yapışaraq daha çox qüvvə saxlamaq və daha çox hakimiyyət almaq olar. Alim Nikola Tesla ona görə süquta uğradı ki, təkcə bir hökmdara xidmət etməməsi ilə guya öz müstəqilliyini saxladığına inanırdı. O hətta ona əlverişli kontrakt təklif edən Morqanın özünə də imtina etmişdi. Əslində isə Teslanın "müstəqilliyi", çox qüdrətli bir patronun himayədarlığından imtina etməklə, daim onlarla başqasına yarınmaq məcburiyyətində qalmaq demək idi. Ömrünün axırlarında o səhvini dərk etdi.

Nəhayət, hakimiyyət özü-özlüyündə konsentrasiya olunmuş formalarda mövcuddur. İstənilən təşkilatda idarəetmə rıçaqları labüd olaraq kiçik bir qrupun əlində cəmləşir. Və çox vaxt bunlar

heç də titullu simalar olmur. Hakimiyyət oyununda yalnız axmaq, onun üzərində cəmləşə bilməyərək hədəfdən yana döyəcləyir. Siz fəaliyyətə kimin rəhbərlik etdiyini, pərdənin arxasından rejissorun əslində kim olduğunu gərək aydınlaşdırasınız. Yüksəlişinin lap başlanğıcında Rişelyenin aşkar etdiyi kimi, demə, XVII əsrin əvvəllərində Fransanın siyasi səhnəsində hər şeyi idarə edən heç də XIII Lüdovik deyil, onun anası imiş. Buna görə də o, Rişelye ona yapışdı və saray əyanlarının başları üzərinə şığıyaraq, yuxarıya öz yolunu çəkdi.

Yağı bir dəfə çalxalamaq kifayətdir – var-dövlət və hakimiyyət günlərinizin axırına qədər təmin olunacaq.

Obraz: Ox. Siz bir oxla iki hədəfi vura bilməzsiniz. Əgər fikirləriniz sərgərdandırsa, siz düşmənin ürəyinə dəyə bilməyəcəksiniz. Fikir və ox qovuşub vahid bütövə çevrilməlidir. Siz, mental və fiziki qüvvənin yalnız bu cür konsentrasiyasına nail olaraq öz oxunuzla hədəfə dəyəcək və ürəyi vuracaqsınız.

Nüfuzlu rəy: "Genişliklə müqayisədə, dərinliyə daha çox ehtiram et. Kamillik keyfiyyətlə müəyyən olunur, kəmiyyətlə yox. Genişlik özü-özlüyündə ortabablığın üzərində yüksəlməyə qabil deyil və bu, geniş ümumi maraqları olan adamların bədbəxtliyidir: bir neçə dovşanın dalınca düşərək onlar birini də tuta bilmirlər. Dərinlik isə yuxarıya istiqamətlənməyə imkan verir və qüdrətli materiyalarda qəhrəmanlar səviyyəsinə yüksəldir".

Baltazar Qrasiani (1601-1658)

"Qüvvələrini səpələməkdən ehtiyatlan, daim onları toplamağa çalış. Dahi zənn edir ki, başqalarının edə bildikləri hər şeyi edə bilir, lakin o, tam aydındır ki, hər ədalətsiz mülahizəsi ilə bağlı peşmançılıq çəkməli olacaq".

İohann Volfqan Höte (1749-1832)

"Ən yaxşı strategiya – həmişə ən güclü olmaqdır; başlanğıcda, ümumiyyətlə, ardınca – müəyyənedici bəndlərdə... Qüvvələrini

cəmləşdirmək zərurətindən uca və sadə qanun yoxdur... Qısaca birinci prinsipdə deyilir: son dərəcə konsentrasiya olunmuş şəkildə hərəkət et”.

Karl fon Klauzeviç (1780-1831)

# QANUN
# 24

ƏSL SARAY ƏYANI KİMİ DAVRAN

QANUN BELƏ İFADƏ OLUNUR

Hər şeyin hakimiyyətin və siyasi bacarığın ətrafında hərləndiyi dünyada əsl saray əyanı çiçəklənir. O, dolayısı ilə edilən eyham məharətinə mükəmməl yiyələnib. O qılığa girir, geri çəkilir və başqaları üzərində öz hakimiyyətini ən incə və qeyri-müəyyən manerada təsbit edir. Sarayın qanunlarını öyrənin və tətbiq edin – və yüksəlişinizin həddi olmayacaq.

SARAYDAXİLİ SİYASƏTİN QANUNLARI

Özünü göz önünə qoyub nümayiş etdirmə. Özün haqda söz-söhbət yaymaq və ya öz hərəkətlərinə həddən artıq ciddi diqqət cəlb etmək – həmişə ehtiyatsızlıqdır. Siz işləriniz barədə nə qədər çox danışırsınızsa, bir o qədər çox şübhə doğurursunuz. Hər şey bir yana, bu, paxıllıq meydana çıxara bilər. Nailiyyətləriniz haqda car çəkəndə ehtiyatlı olmağı yadda saxlayın və başqa adamlar haqqında olduğu ilə müqayisədə, özünüz barədə az danışmağı qayda edin.

Qayğısız ol. Həddən artıq çox işlədiyinizi heç vaxt göstərməyin. Talantınız nə isə təbii, yüngül bir şey kimi görünməlidir – onda sizi dahi hesab edəcəklər, bu isə əməksevər adını çıxarmaqdan yaxşıdır. Məqsədinizə necə asan və incəliklə çatdığınıza heyran qalmaq, bunun necə bir cəhənnəm əzabı olduğundan dəhşətə gəlməkdən xoşdur.

Qılığa girməkdə ölçünü bil. Eelə görünə bilər ki, öz mövqeyinə görə sizdən yüksəkdə olanlar üçün guya, qılığa girmək həddən artıq bol ola bilməz, amma çox yaxşı şeylər də qiymətdən düşür, onların bolluğu meydana çıxanda. Bundan başqa, bu, sizinlə eyni

pillədə olanlarda şübhə doğura bilər. Qılığa girməkdə birbaşa olmamağı öyrənin – misal üçün, nailiyyətlərinizi aşağı salmaqla və ya hökmdarınızın daha yaxşı görünməsində ona kömək etməklə.

Qayğısına qal ki, nəzərə çarpasan. Bu da sizin üçün paradoks: hədd-hüdud bilmədən gözə girmək lazım deyil və bununla belə, nəzərə çarpasınız deyə, tədbirlər görmək zəruridir. Hökmdarın çoxsaylı saray əyanları arasından seçib ayırmadığı adamın yüksəlməyə heç bir şansı yoxdur.

Bu vəzifə az məharət tələb etmir. Çox vaxt olur ki, lap başlanğıcda sizi – bu sözün əsl mənasında – görmələri həqiqətən də lazımdır. Buna görə də xarici görkəminizə diqqət ayırmaq və səciyyəvi olan, hamıdan fərqlənən – demək olar ki, sezilməyəcək qədər fərqlənən – stil və obraz yaratmağa çalışmaq lazımdır.

Kiminlə iş gördüyündən asılı olaraq, ünsiyyət stilini və dilini dəyişmək. Bərabərliyə yalançı inam – sivil insanın hər bir kəslə, onların tutduqları mövqedən asılı olmayaraq, guya eyni cür danışması və davranması – əslində faciəvi səhvdir. Öz ranqına görə sizdən aşağı olanlar bunu lütfkarlıq kimi qəbul edəcəklər və haqlı olacaqlar, sizdən yüksəkdə duranlar isə inciyəcəklər, ancaq, ola bilsin, bunu etiraf etməyəcəklər. Hər yeni həmsöhbətlə stili və dili dəyişmək zəruridir. Bu yalan deyil, amma özünü belə qələmə verməkdir – məharətdir, Tanrı vergisi deyil.

Bəd xəbərlər gətirmə. Bəd xəbərlər gətirən qasidi kral edam etməyi əmr edir. Bu ştampdır, ancaq düzgün ştampdır. Siz mübarizə aparmalı, lazım olanda isə yalan danışmalı və astarınızı üzə çevirib nail olmalısınız ki, bədlik carçısının qisməti sizə yox, həmkarınıza çatsın.

Öz rəisinlə familyarlıqdan və yaxın olduğunu nümayiş etdirməkdən qaç. Rəisə, tabeçilikdə olanın yerinə, dost-tanış lazım deyil. Heç vaxt rəisə onun adamı kimi, familyar görkəmlə yaxınlaşmayın və dost münasibətləri nəzərə çarpdırmayın – bu onun imtiyazıdır.

Mövqecə yuxarıda duranı heç vaxt tənqid etmə. Bu, ola bilsin, özü-özlüyündə aydındır, lakin elə hallar da olur ki, bu vaxt tənqid zəruridir – susarsansa və ya heç nə məsləhət etməzsənsə, bu, başqa növ təhlükə doğurar. Siz imkanlarınız daxilində olan qədər

nəzakət və yayğınlıqla məsləhət vermək və tənqid etməyi gərək öyrənəsiniz.

Özündən yüksək mövqe tutanlardan son dərəcə zərurət yaranan halda xahiş elə. Mövqeyi yüksək olanı, xahiş edənə imtina etmək qədər başqa heç nə əsəbiləşdirmir. Bu, günah hissi və hiddət meydana çıxarır. Xahişlə yalnız son dərəcə zəruri halda müraciət edin və nə vaxt dayanmalı olduğunuzu bilin. Ən vacib olanı: başqa adamların adından müraciət etməyin və son növbədə də – dostların adından müraciət edin.

Xarici görkəm və ya zövqlə bağlı heç vaxt zarafat etmə. Canlı ağıl və yumora meyillilik – əsl saray əyanının zəruri keyfiyyətləridir, hərdən isə vulqarlıq da yerinə düşür və arzuolunandır. Sizdən mənsəbcə yüksəkdə duranlarla bağlı, xüsusilə də iki çox hissiyyatlı zona, xarici görkəm və zövqlə bağlı hər cür zarafatdan qaçın.

Saray əhlindən olan sinikə çevrilmə. Başqalarının uğurlarına sevinin. Əgər özünüzə bərabər və tabeçiliyinizdə olanları daim tənqid edirsinizsə, bu sizin personanızda da əks olunacaq, sanki sizi boz bulud kimi bürüyəcək və hər yerdə müşayiət edəcək. Adamlar hər yeni iradınıza görə deyinəcək, siz onları əsəbiləşdirəcəksiniz. Ətrafınızdakıların nailiyyətləri ilə bağlı heyranlıq ifadə etməklə (mülayim), siz diqqəti paradoksal surətdə özünüzə çevirəcəksiniz.

Özünü kənardan görməyi bacar. Güzgü – həqiqətən də möcüzəvi icaddır, onsuz biz gözəlliyə və zahiri ədəb-ərkana münasibətdə daim günaha batardıq. Hərəkətlərinizin əks olunması üçün sizə də güzgü lazımdır. Əhatənizdə olan adamlar – sizi necə qəbul etdiklərini deyəndə – güzgü yerinə xidmət göstərə bilərlər, amma bu heç də ən etibarlı metod deyil. Əhatənizdəki adamların sizi gördükləri kimi özünüzü görmək üçün, ağlınızı məşq etdirin və özünüz öz fərdi güzgünüz olun. Özünüzü həddən artıq kölə kimi aparırsınız? Yarınmağa həddən artıq səy göstərirsiniz? Kənardan özünüzü müşahidə edin – və siz bir çox nöqsanlardan və xətalardan yaxanızı qurtara biləcəksiniz.

Öz hisslərinə yiyələn. Sizə, yaxşı teatr aktyorutək, gərək olan məqamda, sanki sifariş olunubmuş kimi ağlamağı və gülməyi

öyrənmək lazım gələcək. Qəzəbinizi və məyusluğunuzu gizlətməyi, sevinc və məmnunluğunuzu ört-basdır etməyi bacarmalısınız. Mimikanızı idarə etməyi öyrənin.

Zamanın ruhuna uyğun ol. Azacıq retro çilədilməsi valehedici görünə bilər, əgər ən azı iyirmi il əvvəlki mərhələ seçilmiş olarsa. Axırıncı bir neçə ilin stilinə müraciət yöndəmsiz görünər və özünə saray təlxəyi rolunu seçən üçün yerinə düşərdi. Ruhi vəziyyətiniz və düşüncə tərziniz zamanla ayaqlaşmalıdır, hətta əgər zaman sizin hisslərinizi təhqir edirsə də. Lakin həddən artıq avanqard, qabaqcıl olmaqla, siz heç kim tərəfindən başa düşülməmiş qalmaq perspektivi ilə risk edirsiniz.

Ləzzətin mənbəyi ol. Bu, prinsipial surətdə vacibdir. İnsan təbiətinin qanunu xoş olmayan və ikrah doğurandan qaçmağa məcbur etdiyi halda, valeh olmaq və sevinc dadmaq gözləntisi bizi, sanki pərvanələri şamın oduna olduğutək, özünə çəkir. Favorit rolunu oynamağa heç də hər kəs qabil deyil, heç uzaqdan-uzağa da hamıya şarm və iti ağıl vergisi verilməyib. Lakin bizlərdən istənilən birimiz özünün xoşagəlməz keyfiyyətlərini cilovlaya və zərurət yarananda onları ört-basdır edə bilər.

Sarayı tanıyan adam öz jestlərinin, gözlərinin və sifətinin ağası olur; o dərindir və heç nə ifadə etmir; o, məmnun olmadığını gizlədir, düşmənlərə gülümsəyir, əsəblərinə sərbəstlik vermir, ehtiraslarını ört-basdır edir, ürəyini cilovlayır, hisslərinin ziddinə danışır və hərəkət edir.

Jan de Labrüyer (1645-1696)

## İKİ İT

Xanın xidmətində can-başla duran,
Həyət iti, sadiq Toplan,
Öz köhnə tanışı,
Jujunu, qıvrımtüklü bolonkanı,
Pəncərədə, yumşaq döşəkcə üstə yatan gördü.
Sanki doğmaymış kimi onu sevirlər,

Toplan mütəəssir olub az qala ağladı,
Pəncərənin altında hoppanıb-düşdü, zingildəyib quyruğunu buladı.
“Hə, de görüm, Juju? Necə dolanırsan,
Ağalar səni saraya götürəndən sonra?
Axı yadındadır: həyətdə biz çox vaxt aclıq çəkirdik.
Sən nə ilə xidmət edirsən?”
“Bəxtəvərliyə deyinmək günahdır, –
Juju cavab verir. –
Ağam mənə ürəyini də əsirgəmir;
Bolluq içində və xoş güzəran sürürəm,
Gümüş qabdan həm yeyirəm, həm içirəm;
Xanla oynayıram; əgər yorulsam isə,
Xalçaların və yumşaq divanın üstündə şellənirəm.
Sən necə dolanırsan?”
“Mən, – cavab verdi Toplan,
Quyruğunu ilgək kimi büküb və burnunu salladaraq, –
Əvvəlki tək yaşayıram: həm soyuğa, həm də aclığa dözürəm!
Həm də ağamızın evini qoruyuram,
Burda hasarın altında yatıram, yağışdan islanıram;
Birdən bivaxt hürərəmsə, onda kötək də alıram.
Axı sən Juju, nədən belə bəxtəvər oldun,
Belə zəif idin, balaca idin,
Mənsə əbəs yerə özümü fəda edirəm.
Sən nə ilə xidmət edirsən?”
“Nə ilə xidmət edirəm! Nə gözəl! –
Juju cavab verdi rişxəndlə. –
Arxa pəncələrim üstə gəzirəm”.
İvan Krılov (1769-1844)

# QANUN 25

## ÖZÜNÜ YENİDƏN YARAT

## QANUN BELƏ İFADƏ OLUNUR

Cəmiyyətin sizə sırıdığı rolu qəbul etməyin. Özünüzü yenidən yaradın, diqqəti cəlb edə biləcək və publikanı heç vaxt darıxdırmayacaq individuallığınızı dünyaya göstərməkdən yorulmayın. Öz görkəminin yaradıcısı olmaq, bunu sizin üçün başqalarının etməsinə izin verməkdən yaxşıdır. Öz ictimai işlərinizə və çıxışlarınıza teatrallıq əlavə edin – sizin hakimiyyətiniz artacaq, obrazınız isə miqyas və etibar qazanacaq.

## HAKİMİYYƏTİN AÇARI

Sizə eelə gəldiyi kimi, onunla birlikdə dünyaya gəldiyiniz xarakter, heç də vacib deyil ki, əslində kim olduğunuza müvafiq gəlsin. Genetik yolla ötürülən irsi cizgilərlə yanaşı, sizin individuallığınızın formalaşmasına valideynləriniz, dostlarınız və tanışlarınız təsir göstərib. Prometeysayaq vəzifə, bu prosesin idarə olunmasını öz əlinizə götürüb, xarakterinizin müəyyən olunması və formalaşdırılması hüququnu əhatənizdə olanlara etibar etməməkdir. Özünüzü güclü təbiətli adama çevirin. Özünüzü gil kimi yapıb-yapışdırın – bu ən miqyaslı və xoş həyat vəzifələrindən birinə çevrilə bilər. Bu sizi, mahiyyət etibarilə, rəssam edir – özü özünü yaradan rəssam.

Xasiyyətin formalaşdırılmasında birinci addım – özünü dərk etmək, özünü öyrənməkdir. Özünüzü aktyor hiss edin, emosiyalarınızı idarə və xarici görkəminizi müəyyən etməyi

öyrənin. Deni Didronun dediyi kimi, pis aktyor odur ki, həmişə səmimidir. Fikirlərinin və keçirdiyi həyəcanlarının hamısı sifətində yazılan, heç nəyi gizlədə bilməyən adamların arasında biz özümüzü yaxşı hiss etmirik. Onların səmimiyyəti bezdirici və dözülməzdir, bir də, onları ciddi qəbul etmək də çətindir. Adamların arasında ağlayan və qara-qışqırıq salan hərdən halayananlıq doğurur, ancaq tez və ya gec bu hiss, belə adamların bütün fikrinin-zikrinin özləri üzərində qapanmış olmasına qəzəb və nifrət hissinə keçir.

Yaxşı aktyorlar özlərini əla idarə edirlər. Onlar səmimilik və qəlbən olmağı ifa edə bilərlər, onlar sıxıb göz yaşı çıxara və halayananlıqla dolu nəzərlə baxa bilərlər, ancaq onların həmin vaxt eyni hissləri də keçirdkləri hökmən deyil. Onlar emosiyaların təzahürünü, əhatələrində olanlar üçün başa düşülən formada nümayiş etdirirlər. Əgər ifa etməli olduğu həyəcanların hamısı yox, heç olmasa bir hissəsi səmimi olsaydı, heç bir hökmdar, heç bir siyasi lider öz rolunun öhdəsindən gələ bilməzdi. Odur ki, özünənəzarəti öyrənin. Hansı hissi ifa etmək lazım olduğundan asılı olaraq, öz sifətlərini yapıb-yapışdıran aktyorların plastikliyini və mütəhərrikliyini əxz edin.

Özünü yaratmaq prosesinin ikinci addımı – gur, diqqəti cəlb edən, yadda qalan, səhnə üzrə partnyorları üstələyən xasiyyətin yaradılmasıdır. Belə bir oyunu özü üçün Avraam Linkoln seçmişdi. O bilirdi ki, adi bir insan, əyalət hüquqşünası Amerikanın indiyə qədər tanımadığı bir prezident tipi olacaq və seçkilərdə mübahisə olunmaz üstünlük qazanacaq. Bu səciyyəvi keyfiyyətlərdən bir çoxu ona təbiətən xas olsa da, o, bunları xüsusi vurğuladı – şlyapa və geyim, saqqal (Ona qədər heç bir prezident saqqal saxlamamışdı.). Lakin yaxşı teatr maraqlı zahiri görkəm və ya ayrıca götürülən bir möhtəşəm səhnədən nə isə çox olanı tələb edir. Dram zaman çərçivəsində baş verir – bu, uzanan hadisədir. Ritmi və zamanı hiss etmək ən vacib rol oynayır. Tamaşaçıları boyunlarını uzatmağa məcbur etməyin sirri hadisələrin aramla inkişaf etməyinə imkan verməkdən, ardınca isə həlledici məqamda tempi (elə hadisələrin özünü də) öz bildiyin kimi nizamlamaqla onların davamını sürətləndirməkdən ibarətdir. Napoleondan

tutmuş Mao Tzeduna qədər qüdrətli hökmdarların hamısı publikanı sarsıtmaq və əyləndirmək üçün teatral effektlərə əl atırdılar.

Ancaq çalışın ki, ifanıza aludə olmayasınız – bu, diqqəti özünə cəlb etmək üçün həddən artıq səy və vəsait sərf olunan istənilən üsul kimi, əks effekt təsiri göstərə bilər. Aktyor Riçard Barton yaradıcı fəaliyyətinin lap başlanğıcında aşkar etdi ki, səhnədə tamamilə tərpənməz dayananda o, diqqəti başqa aktyorlardan yayındıraraq, özünə cəlb edir. Başqa sözlə, sizin nə etdiyinizin əhəmiyyəti, sizin bunu necə etdiyinizdən az vacibdir – incəliyiniz, qədd-qamətiniz və vahiməli təmkininiz sosial səhnədə, həddən artıq aktiv fəaliyyət və vurnuxmadan yüksək qiymətləndirilir.

Və sonuncu: bir çox rolu, cari məqamda lazım olan tipi oynamağı öyrənin. Öz maskalarınızı situasiyaya uyğunlaşdırın – sizdən hansı sifəti gözləyirlərsə, onu taxmaqla, çoxsimalı olun. Bismark bu oyuna kamillik dərəcəsində yiyələnmişdi: o, liberalla liberal idi, yırtıcı ilə – yırtıcıya çevrilirdi. O dərk olunmaq üçün əlçatmaz idi, dərk olunmayan şeyi isə məhv etmək qeyri-mümkündür.

Obraz: Yunan ilahisi, qoca Protey. Hakimiyyətinə görə o öz iradəsi ilə zahiri görkəmini dəyişə bilmək, nəyə istəsə ona çevrilmək qabiliyyətinə minnətdar idi. Aqamemnonun qardaşı Menelay çönüb şir olanda, Protey şirə çevrildi, ardınca ilana, qaplana, qabana, axan suya və nəhayət, yaşıl ağaca çevrildi.

Nüfuzlu rəy: "Hamı üçün hər şey olmağı öyrən. Ehtiyatlı Protey – alimlərlə alim, müqəddəslərlə müqəddəs. Bu – hər kəsə qalib gəlmək məharətidir, çünki bu cür olan, bu cür olanla cəzb olunub çəkilir. Qarşına çıxan hər kəsin xarakterini tut və onu təqlid et – əhvali-ruhiyyəni düşünülmüş şəkildə və ehtiyatla dəyişməklə, növbə ilə gah ciddi ol, gah oyunbazın nümunəsinə riayət elə.

Baltazar Qrasiani (1601-1658)

Dünyanın bu qədim paytaxtında [Romada] bəxtini sınamaq niyyətinə düşən adam, özünü əhatə edən mühitin rənglərini əks etdirən buqələmun, istənilən formanı, istənilən ölçü və cizgiləri ala bilən Protey olmalıdır. O, mütəhərrik, yolagedən, qeyri-müəyyən və oğrun, yaxın, ələ keçməyən, müəmmalı və dərkolunmaz, tez-tez rəzil, bəzən səmimi, hərdən vəfasız olmalıdır; həmişə biliklərinin bir hissəsini gizlədən, səsinin elə bircə tonu ilə qılığa girməyə qabil olmalıdır; təmkinli, şəxsi mimikasının yiyəsi, kimsə odda olan tək alışıb-yananda, sanki buz imiş kimi soyuq olmalıdır; və əgər o, bədbəxtlikdən, qəlbən dindar deyilsə – bu, yuxarıda sadalanan keyfiyyətlərə malik olan adamlarda çox vaxt rast gəlinir – dini ağlında tutmalı, necə deyərlər, onu öz sifətində, dodaqlarında, maneralarında əks etdirməlidir; o, dinməzcə əzab çəkməlidir, əgər o, düzgünlük tərəfdarı olubsa, onda özünü qatı riyakar qismində dərk etməlidir.

Qəlbi belə bir həyata müqavimət göstərən adam Romanı tərk edib getməli və bəxtini haradasa başqa yerdə axtarmalıdır. Mən bilmirəm, özümü tərifləyirəm və ya özümə haqq qazandırıram, amma yuxarıda sadalanan keyfiyyətlərdən yalnız birinin yiyəsi olmuşam, o da məhz mütəhərriklikdir.

Covanni Cakomo Kazanova (1725-1798)

# QANUN 26

## ƏLLƏRİNƏ ÇİRK YAPIŞMASIN

## QANUN BELƏ İFADƏ OLUNUR

Siz nəcibliyin və işqabiliyyətliliyin nümunəsi kimi görünməlisiniz: əlləriniz heç vaxt səhv və çirkin işlərlə bulanmayıb. Bu ləkəsiz görkəmi qoruyub saxlayın – başqalarını öz silahınız qismində istifadə etmək və şəxsi iştirakınızı gizlətməklə.

## HAKİMİYYƏTİN AÇARI

Təsadüfi səhvlər qaçılmazdır – axı dünyanın işlərini öncədən bilmək o qədər qeyri-mümkündür ki. Lakin hakimiyyət adamlarını məhv edən səhvlər deyil, səhvləri necə düzəltmələridir. Onlar bədxassəli şişi cərrahlartək tez və radikal surətdə ləğv etməlidirlər. Üzrxahlıqlar və özünə haqq qazandırmalar – bu cür cərrahi əməliyyat üçün həddən artıq küt alətlərdir, hakimiyyət adamları bunlardan qaçırlar. Üzrxahlıq etməklə siz, kompetentliyiniz, niyyətləriniz üzərinə şübhə kölgəsi düşmək üçün yarıq açırsınız, peşman olduğunuzu bildirməklə hələ nə qədər başqa, ola bilsin, səhvə yol verdiyinizlə bağlı fikirlərin meydana çıxmasını rəvac verirsiniz. Üzrxahlıqlar heç kimi qane etmir, özünə haqq qazandırmaq isə narahatlıq hissi doğurur. Edilən üzrxahlıqlara görə səhvlər yox olmur, onlar dərinləşir və irinli xoraya çevrilməyə başlayır. Əgər belədirsə, adamlar sizin məsuliyyətinizi və yaxud, ola bilsin, kompetentsizliyinizi dərk etməzdən əvvəl əhatənizdə olanların diqqətini yerinə düşən bir qəssabxana keçisi üzərində fokuslaşdıraraq hər şeyi birdəfəlik kəsmək daha yaxşıdır.

Çox vaxt olur ki, kəsilmək üçün qurban roluna namizədi məhz ən günahsızların arasından seçirlər. Belə bir adam müqavimət göstərə bilmək üçün kifayət qədər nüfuzlu deyil, onun sadəlövh etirazlarını isə günahlarının sübutu kimi şərh etmək olar. Lakin qurbandan əzabkeş obrazını yaratmamaq üçün ehtiyatlı olmaq və ölçü həddinə riayət etmək lazımdır. Vacib olanı onun yox, sizin qurban kimi nəzərə çarpmağınızdır – yaramaz ətrafı tərəfindən pis vəziyyətə qoyulmuş və yaxud hətta xəyanət edilmiş bədbəxt hökmdar. Əgər sizin qəssabxana keçiniz həddən artıq zəif, cəza isə müqayisəolunmaz dərəcədə qəddar görünərsə, kombinasiyanızın qurbanı özünüz ola bilərsiniz. Bəzən bu rola kimsə bir güclünü seçmək lazımdır – elə bir adamı ki, o, əvvəl-axır nisbətən az simpatiya doğuracaq.

Qəssabxana keçisi roluna namizədin ən yaxın ətrafdan götürüldüyünü tarix tez-tez nümayiş etdirir. Bu, "favoritin süqutu" kimi bəllidir. Kralların əksəriyyəti – bəzən olur ki, nəzərə çarpacaq heç bir səbəb olmadan – özünə favorit seçdikləri, üzərinə öz lütfkarlığını yağdırmaq və xüsusi diqqət əlamətləri ilə əhatə etməklə fərqləndirdikləri adamı yaradırlar. Lakin belə favorit çox vaxt yerinə düşən qəssabxana keçisi kimi xidmət göstərir. Saray əyanlarından bəziləri ittihamın ədalətli olduğuna hazırlıqla inanar – əgər günahı yoxdursa, kral öz sevimlisini niyə qurban verməlidir? Başqaları, favoritin paxıllığını çəkənlər isə onun devrilməsinə həmişə sevinəcəklər. Bu arada isə, kral elə bir adamdan canını qurtarmış olur ki, o, ola bilsin, həmin vaxt üçün kral haqqında həddən artıq çox şey öyrənə bilmişdi, patronun üzərində öz hakimiyyətinə, ola bilsin, həddən artıq əmin olmuşdu, hətta ona, ola bilsin, gizlində nifrət də edirmiş. Yaxın müttəfiqin, partnyorun qurban qismində seçilməsi "favoritin süqutu" kimi məna kəsb edir. Siz dostunuzu, ya da köməkçinizi itirə bilərsiniz, ancaq səhvlərinizin ört-basdır edilməsi ilə bağlı uzaq perspektivi nəzərə alanda, gözəl günlərin birində sizə qarşı çevrilə biləcək kimi isə öz yanınızda saxlamaqdansa, buna getmək daha vacibdir. Bundan başqa, özünüzə yeni favoriti həmişə tapacaqsınız.

Sizə bir lider olaraq, əlinizi natəmiz və ya qanlı işlərə bulamaq olmaz, reputasiyanız ləkələnməmiş qalmalıdır. Hakimiyyət, eyni

zamanda da, insanları daim basqı altında saxlamadan salamat qala bilməz – taxt-tacda duruş gətirmək üçün zəruri olan müxtəlif çirkli işlərə həmişə tələbat olacaq. Favorit də məhz elə ona görə lazımdır ki, təmsildəki pişik kimi pəncələri ilə şabalıdları oddan götürsün sizin üçün.

Ən yaxın dairənizə daxil olmayan və buna görə də özünün (kişi və ya qadın) istifadə edildiyini çətin ki başa düşən kimi isə seçin. Belə sadəlövhləri hər yerdə tapacaqsınız – rəislərə yarınmaq onlara həzz verir, ələlxüsus da onlara mükafat olaraq üç-beş sümük atılarsa. Lakin bu adamlar – tamamilə xətərsiz və ya ən azı qanun çərçivəsindən kənara çıxmayan kimi təsəvvür etdikləri – tapşırıq yerinə yetirsələr də, sizin təchiz etdiyiniz informasiyanı yaymaqla, mahiyyət etibarilə, sizin üçün fəaliyyət meydanını təmizləyir, işinizin irəliləməsinə yardım edir və sizin üzərinizə heç bir ləkə düşmədiyi halda öz əllərini bulayırlar.

"Pişiyin pəncəsini" istifadə etməyin ən yaxşı üsulu – adamı informasiya ilə təchiz etməkdir, o bunu sonradan yayacaq və onu nəzərinizdə tutduğunuz kəsə çatdıracaq. Yalan və ya xüsusi olaraq sızdırılan informasiya – çox güclü silahdır, ələlxüsus da əgər bunu şübhələrdən kənar adam yayırsa. İnformasiyanın mənbəyinin özünüz olduğunu üzə vurmasanız, günahsız rolunu ifa etmək sizin üçün asan olacaq. Hər necə olsa da, əlverişsiz cəllad və ya bəd xəbərlər gətirən qasid rolu üçün, gözünüzün önündə həmişə kimisə saxlamağa çalışın, özünüz isə yalnız xoş və sevincli xəbərlərin mənbəyi kimi qalın.

Obraz: Günahsız quzu. Günahları yuyan qurbanın verildiyi gün ali kahin quzunu məbədə gətirir, əllərini onun başına qoyur və bütün xalqın yerinə tövbə edərək günahı qəbahətsiz heyvanın üzərinə ötürür və sonra onu vəhşi yerə aparır və orada atıb qayıdırlar, onunla da birlikdə xalqın qəbahətləri və günahları yox olur.

Nüfuzlu rəy: "Axmaqlıq, axmaqlığın edilməsindən yox, onu ört-basdır edə bilməməkdən ibarətdir. İnsanların hamısı səhvə yol verir, amma axmaqlar onu hamıya nümayiş etdirdikləri halda, müdriklər öz nöqsanlarını gizlədirlər. Reputasiya gözə nə göründü-

yündən çox, nələrin ört-basdır olunduğundan asılıdır. Əgər xoşməramlı ola bilmirsənsə, onda heç olmasa ehtiyatlı ol”.

Baltazar Qrasiani (1601-1658)

“Xoş olan hər şeyi özün yerinə yetir, xoşagəlməz işləri etməyi isə öz yerinə başqalarının öhdəsinə burax. Birinci sənə xoş münasibət qazanmaqda kömək edəcəksə, ikinci – qəzəbi özündən yayındırmağa imkan verəcək. Mühüm hadisələr mükafatlarsız və cəzalarsız ötüşmür. Elədirsə, qoy onda səndən yalnız xeyir gəlsin, şər isə – yalnız başqalarından”.

Baltazar Qrasiani (1601-1658)

# QANUN 27

## FANATİK PƏRƏSTİŞKARLAR ORDUSUNU YARADARKƏN İNSANLARIN EHTİYACLARI ÜZƏRİNDƏ OYNA

### QANUN BELƏ İFADƏ OLUNUR

İnsanlar nəyə isə inanmağın çox güclü istəyini duyurlar. Onlara ardınca düşə biləcəkləri dayaq, yeni inam verməklə, belə bir istəyin obyekti olun. Qoy sizin nitqləriniz az anlaşılan, lakin çoxvədli olsun, entuziazmı dərrakədən və düşüncə aydınlığından yüksək tutun. Yenicə qazandığınız tərəfdarlarınıza, onların icra edə biləcəkləri rituallar verin, onları sizin adınızdan qurban verməyə çağırın. Təşkil olunmuş dinin və möhtəşəm nümunələrin yoxluğunda sizin yeni inanc sisteminiz həddi-hüdudu olmayan hakimiyyət gətirəcək.

### CƏMİ BEŞ SADƏ ADDIMLA KULTU NECƏ YARATMALI

Ən kiçik səylərlə maksimum hakimiyyət gətirən metodların axtarışında (bunlar sizə gərək olacaq!) aşkar edəcəksiniz ki, ən effektiv üsullardan biri – özünüzə münasibətdə kult obyekti qismində etiqad meydana çıxarmaqdır. Əgər siz kütlələri öz arxanızsa çəkib aparmağa müvəffəq olarsınızsa, onda qarşınızda baş aldatmaq üçün mümkün hər cür yollar açılacaqdır. Tərəfdarlarınız sizi ilahiləşdirəcəklər; bundan da çox, onlar sizi düşmənlərdən müdafiə edəcək və personanızın indi-indi doğulmaqda olan kultuna ətrafda olanları cəlb etmək yükünü könüllü surətdə öz üzərlərinə götürəcəklər. Bu tip hakimiyyət sizi ucaldacaq və siz başqa dünyaya düşəcəksiniz – bundan sonra sizə

öz iradənizi sırımaq üçün hiyləgərliyə və zorakılığa əl atmaq lazım gəlməyəcək. Sizi ilahi tək sevirlər və indən belə siz günahsızsınız.

Sizə belə gələ bilər ki, bu vəzifə yerinə yetirilməzdir, əzəmətli qədər miqyaslıdır, lakin əslində çətin heç nə yoxdur. İnsanlar nəyə isə inanmağa tələsərək müqəddəsləri və peyğəmbərləri heç nədən törədirlər. Bu yüngülinamlılığın boş-boşuna it-bat olmasına imkan verməyin: özünüzü səcdə obyekti edin. Qoy insanlar sizin ətrafınızda kult inşa etsinlər.

Birinci addım. İmkan daxilində daha sadə, dumanlı ol. Kult yaratmaq üçün ilk növbədə diqqəti cəlb etmək lazımdır. Bunu əməllərin yox, – onlar həddən artıq başa düşüləndir və asanca oxunurlar, – dumanlı və baş aldadan sözlərin köməyi ilə etmək lazımdır. Birinci çıxışlarınıza, müsahibələrinizə, söhbətlərinizə iki element daxil olmalıdır: bir tərəfdən nə isə möhtəşəm bir şey, hansı isə bir çevriliş vəd etmək, digər tərəfdən isə – tamamilə ələkeçməz, qeyri-konkret olmaq. Bu qaynaq dinləyicilərinizin xəyallarını mahmızlayacaq və onlar özləri paralellər keçirməyə, qalanını fikirləşməyə başlayacaq, görmək istədiklərini görəcəklər.

Yeni kultun predmeti haqqında gur və yoluxucu tərzdə danışmağa çalışın, amma bununla yanaşı yayğın olun ki, yalnız çox azları sizi başa düşə bilsin. Əgər hər şey düzgün yerinə yetirilərsə, az anlaşılan vədlərin, dumanlı, amma şirnikləndirici ideyaların və şiddətli entuziazmın qaynağı insan qəlblərini təlatümə gətirəcək və ətrafınızda qrup artmağa başlayacaq.

İkinci addım. İntellektə əks-taraz olaraq zahiri olan hər şeyə və emosiyalara xüsusi əhəmiyyət ver. İnsanlar ətrafınızda qruplaşmağa başlayanda bilinmir haradan, iki təhlükə peyda olacaq: darıxdırıcılıq və skeptisizm. Darıxmaq insanları qovub başqa yerə aparır. Skeptisizm onlara, qarşısında çıxış etdiyiniz bütün hər şeyi rasional surətdə götür-qoy etməyə imkan verir, sizin bu cür məharətlə yığıb topladığınız dumanı skeptisizm dağıdır, ideyalarınızın əslində qiymətinin nə olduğunu göstərir. Odur ki, sizə darıxanları əyləndirmək və sinikləri zərərsizləşdirmək lazım gələcək.

Bunu etməyin ən yaxşı üsulu – teatral effektlərə əl atmaqdır. Özünüzü dəbdəbə ilə əhatə eləyin, tərəfdarlarınızı zahiri parıltı ilə

kor edin, onların gözünə kül üfürün, tamaşa qurun. Bu təkcə ideyalarınızın sarsaqlığını ört-basdır etməyəcək, inanclar sistemində uyuşmazlıqları gizlətməyəcək, həm də daha çox diqqət və daha çox pərəstişkar cəlb edəcək.

Üçüncü addım. Öz qrupuna dini təşkilat strukturu ver. Tərəfdarlarınızın sayı artmaqdadır – onları təşkil etməyin vaxtı yetişib. Təşkil olunmuş dinlər nəhəng sayda insanların gözündə sınaqdan çıxmış və şübhə doğurmayan nüfuza malikdirlər, onlar bunu hətta bizim, guya dindarlıqdan azad olmaq mərəzinə tutulmuş, əsrimizdə də qoruyub saxlayıblar. Pərəstişkarlarınız üçün rituallar yaradın; onları şəxsi sadiqlik dərəcəsi üzrə iyerarxik strukturlarda təşkil edin; onlara dini obrazlarla həmahəng səslənən adlar və titullar verin; sandıqlarınızı dolduracaq və hakimiyyətinizi möhkəmləndirəcək qurbanlar verməyi xahiş edin onlardan.

Dördüncü addım. Gəlirlərinin mənbəyini açma. Qrupunuzun sayı artıb, siz onun əsasında kilsəyə oxşar nə isə qurmusunuz. Sandıqlarınız pərəstişkarlarınızın pulları ilə dolmağa başlayıb. Lakin siz heç bir halda pula və onun verdiyi hakimiyyətə maraq büruzə verməməlisiniz. Vaxt vədə çatana qədər gəlirlərinizin mənbəyini də gizlətmək lazımdır.

Davamçılarınız inanmaq istəyirlər: əgər onlar sizin arxanızca gedərlərsə, hər cür qiymətli şey-şüy düz onların əlinin içinə düşməyə başlayacaq. Özünüzü dəbdəbə ilə əhatə etməklə siz öz timsalınızda sisteminizin doğru olduğunun canlı sübutunu təcəssüm etdirirsiniz. Kimlərinsə eşələyib var-dövlətinizin həqiqi mənşəyini – yəni öz pərəstişkarlarınızın ciblərini – müəyyən etməsinə imkan verməyin. Qoy inansınlar ki, bu sizə ideyalarınızın və metodlarınızın həqiqi olması nəticəsində gəlib.

Beşinci addım. "Kim bizimlə deyil, o bizə qarşıdır" əməliyyatını hazırla. Qrupunuzun sayı bir az da artıb və indi çiçəklənir, bu, getdikcə daha çox yeni hissəcikləri çəkib gətirən maqnitdir. Əgər siz sayıqlığınızı itirərsinizsə, onda ətalət işə düşə bilər və bunun nəticəsində zaman və darıxmaq kütlənin maqnitini boşaldar. İnsanları tonusda saxlamaq üçün indi siz bütün dinlərə və

ideologiyalara bəlli olanı etməlisiniz: "Kim bizimlə deyil, o bizə qarşıdır" hərəkatını yaratmalısınız.

İlk növbədə davamçılarınızı inandırmalısınız ki, onlar imtiyazlı bir klubun hissələridirlər və onları bir-biri ilə ümumi maraqların telləri bağlayır. Bu bağları bərkitmək üçün indi, sizi məhv etmək istəyən məkrli düşmənin peyda olduğu haqqında elan edin. Əgər düşmənləriniz yoxdursa, onları icad etmək lazımdır.

İnsanlar o qədər sözəbaxandırlar və özlərinin gündəlik tələbatlarından qultək elə asılıdırlar ki, yalançı adam, yalana aldanmağa hazır olan çox sayda adamı həmişə tapacaq.

Nikkolo Makiavelli (1469-1527)

Tezinanan adamların sayı getdikcə çoxalanda bu, şarlatana əl verirdi, odur ki, onun tərəfkeşlərinin qrupları çox böyük sürətlə artaraq ona ağlasığmaz uğur, hətta triumf təmin edirdi. Və İntibahdan etibarən və sonrakı əsrlərdə elm populyarlaşdıqca bu, həqiqətən də, baş verirdi.

İnsanların böyük əksəriyyəti bütün dövrlərdə ağlasığmaza və sirliliyə doğru dartınıb, müəyyən tarixi mərhələlərdə isə – yaşamın sakit əsasları dağıdılanda və həyatın özü vərdiş olunan tapdanmış yoldan çıxanda, iqtisadi və ya mənəvi dəyərlər isə, belə təsəvvür yaranırdı ki, öz əhəmiyyətini itirəndə – bu dartı xüsusilə kəskinləşib. Belə zamanlarda şarlatanların sayı kəskin artırdı.

Qrete de Françesko,
"Şarlatanın hakimiyyəti", 1939

# QANUN 28

İŞDƏN TƏRƏDDÜD ETMƏDƏN YAPIŞ

QANUN BELƏ İFADƏ OLUNUR

Əgər siz işin necə gedəcəyində əmin deyilsinizsə, onu başlamayın. Şübhələriniz və tərəddüdləriniz işin icra olunmasına ziyan vuracaq. Necə etməyi bilməmək təhlükəlidir: yaxşı olar ki, inamla başlayasınız. Özünəəminlik üzündən yol verilən istənilən səhvləri, daha böyük özünəəminliyin köməyi ilə düzəltmək asandır. Cəsarət qalaları fəth edir; təvazökarlıq şan-şöhrət gətirmir.

HAKİMİYYƏTİN AÇARI

Bizim əksəriyyətimiz öz-özlüyümüzdə utancağıq, buxovluyuq. Konfliktlərdən qaçmağa çalışırıq, hamının xoşuna gəlmək istəyirik. Biz qəhrəmanlıq sözləri və hərəkətləri haqqında xəyallara hələ dala bilərik, ancaq demək olar heç vaxt onları həyata keçirməyə cürət etmirik. Mümkün nəticələr bizi dəhşətə gətirir, lakin xüsusilə qorxudan, ətrafımızdakıların haqqımızda nə düşünəcəklər fikridir. Biz özümüz üçün ayrılan çərçivədən kənara çıxmağa cürət etsək, doğura biləcəyimiz düşmənçilik barədə düşünürük.

Sözdə biz cəsarətsizliyimizi həmişə inkar edirik, bunu başqaları ilə əlaqədar kövrək qayğı, yaxınlarımızı yaralamamaq və ya onların xətrinə dəymək istəməmək kimi qələmə versək də, əslində hər şey əksinədir: biz özümüzə dalmışıq, biz özümüzə görə və kənardan necə göründüyümüzlə bağlı narahatıq. Lakin qətiyyət mərkəzdənqaçma təcilinə malikdir, o adamlara sərbəstlik gətirir.

Qətiyyət diqqəti yayındırır, illüziyaları qidalandırır. O şübhə və ya məyusluq meydana çıxarmır. Buna görə biz cəsurlara heyran oluruq, belə adamların yanında olmaq xoşumuza gəlir, çünki onların özünəəminliyi bizə yoluxur, bizi inamsızlıq şahlığından və daimi refleksiyadan qoparır.

Cəsur doğulmurlar. Hətta Napoleona da döyüşlərə vərdiş etmək adətini özündə formalaşdırmaq lazım gəlmişdi və bu, sonradan başa düşdüyü kimi, onun üçün həyat və ölüm məsələsi idi. O, kübar həyatda buxovlu və cəsarətsiz idi, lakin həyatının bütün sferalarında qətiyyət formalaşdırmaqla özünü adlaya bildi, çünki xasiyyətin bu ən vacib cizgisinin istənilən adama möhtəşəmlik gətirdiyini başa düşmüşdü (hətta Napoleonun özü kimi boyu bəstə olan kəslərə də).

Sizə özünüzdə qətiyyət inkişaf etdirmək, öz cəsarətinizi məşq etdirmək lazımdır. Və siz buna tez-tez əl atmalı olacaqsınız. Başlamaq mümkün olan ən yaxşı sahə – danışıqlar aparılmasının incə sferasıdır, ələlxüsus da özünüzə qoyduğunuz qiyməti bildirmək təklif edilən hallarda. Necə də tez-tez olur ki, biz, həddən artıq az istəyərək, döyüşsüz geri çəkilirik.

Xristofor Kolumb İspaniyanın kraliçasına Amerikaya gəmi ilə səfərini maliyyələşdirmək xahişi ilə müraciət edəndə, üstəlik də, "Dənizlərin və okeanların qüdrətli admiralı" titulu ilə təltif olunması kimi comərd xahişlə müraciət etmişdi. Kolumba razılıqla cavab verdilər. O sorğu etdiyi qiyməti aldı – o özünə hörmət tələb etdi və bu ona göstərildi. Henri Kissincer də bilirdi ki, danışıqlarda cəsarətli tələblər, mıs-mıs deməkdən və ətrafda dolanmaqdan daha təsirlidir. Yüksək qiymət təyin edin, ardınca isə onu qaldırın.

Başa düşmək lazımdır: cəsarət bizə təbiətin özü tərəfindən verilməyib, amma cəsarətsizlik də bizim təbii səciyyəmiz deyil. Bu, konfliktlərə girməmək istəyindən meydana çıxan, illərlə formalaşan vərdişdir. Siz qətiyyətli hərəkətlərinizin nəticələrindən çəkinirsiniz və bu təşvişlər şişirdilmişdir, məsələnin mahiyyəti isə budur ki, cəsarətsizliyin nəticələri qat-qat acınacaqlıdır. Siz mənliyinizi itirirsiniz və şübhələrin və vicdan əzablarının qüsurlu dairəsinə düşürsünüz. Yadda saxlayın: dəliqanlı hərəkətlərin

nəticəsində meydana çıxan problemləri, daha böyük dəliqanlılığın və qətiyyətin köməyi ilə həll etmək olar.

Obraz: Şir və dovşan. Şir ilgəkləmir və burcutmur – onun hərəkətləri kəskin, onun çənələri sürətli və möhkəmdir. Qorxaq dovşan hər üsulla təhlükədən canını qurtarmağa çalışır, lakin geri çəkilmək, izləri dolaşığa salmaq və aradan çıxmaq cəhdlərində pusquya düşür, dalı-dalı çəkilərək, düz yırtıcının ağzına girir.

Nüfuzlu rəy: "Və bununla belə, zənn edirəm ki, təzyiq etmək ehtiyatlı olmaqdan yaxşıdır, axı fortuna – qadındır və onunla yola getmək üçün onu döymək və təpikləmək lazımdır, o, belələrinə daha tez tabe olar, nəinki işdən ləms yapışanlara. Və bir qadın olaraq o, – cavanların rəfiqəsidir, zira onlar daha az tədbirlidirlər, daha cəsurdurlar və onu daha böyük dəliqanlılıqla ram edirlər".

Nikkolo Makiavelli (1469-1527)

## SEVGİDƏ NECƏ QALİB GƏLMƏK

Xanım Noya diqqət yetirmişdi ki, ürəyinizi fəth edən kəslə siz cəsarətsiz olursunuz. Bu, burjuanı təəssüratlandıra bilsə də, kübar qadının ürəyini başqa silahla ələ almaq lazımdır...

Mən sizə qadınların adından bəyan edirəm: bizlərdən istənilən, həddən ziyadə nəzakətliliyin bir qədər kəskin, amma açıq-saçıq müraciətinə üstünlük verərdi. Kişilər bununla bağlı yanlışlığa yol verərək, rəhmdilliyin xilas etdiyindən çox sayda qadının ürəyini əldən buraxırlar. Aşiq olan nə qədər çox cəsarətsizlik büruzə verirsə, bizim heysiyyətimiz bir o qədər çox onu mahmızlamağa can atır; o bizim müqavimətimizə nə qədər çox hörmətlə yanaşırsa, biz onun özünə bir o qədər çox tələbkarlıq irəli sürürük.

Biz kişilərə demək istəyərdik: "Ah, yazığınız gəlsin, bizi bu qədər də ədəb-ərkanlı hesab etməyin; siz bizi öz ismətliliyimizdən bezməyə məcbur edirsiniz..." Biz özümüzü sevməyə izin verdiyimizi daim gizlətməyə can atırıq. Belə situasiya yaradın ki, qadın guya yalnız zorakılıq qarşısında geri çəkilərək təslim

olduğunu və ya gözlənilməz güc tətbiqinin qurbanı olduğunu demək imkanı qazansın – mən zamin dururam ki, onun ürəyi sizə veriləcək. Tərəfinizdən bir qədər çox qətiyyət sizə zəruri olan sərbəstliyə yiyələnməkdə kömək edəcək.

Ləröşfukonun bu yaxınlarda sizə nə dediyini xatırlayın: "Tədbirli adam – o sevəndə, ağılsıza bənzəyir, lakin o özünü idiota oxşatmamalıdır və bunu etməməlidir".

Ninon de Lanklo, 1623-1706

# QANUN 29

## HƏR ŞEYİ LAP SONADƏK PLANLAŞDIR

## QANUN BELƏ İFADƏ OLUNUR

Yekunlaşdırmaq – bu hər şeydir. Ona doğru bütün yolu planlaşdırın, bu vaxt özünüzün bütün zəhmətinizi heçə endirərək şan-şöhrəti başqasına qismət edə biləcək bütün mümkün nəticələri, maneələri, fortunanın dəyişkənliyini hesaba alın. Əgər siz hər şeyi axıradək düşünüb-daşınmısınızsa, şəraitin dəyişkənliyi sizi məhv etməyəcək və siz nə vaxt dayanmalı olduğunuzu biləcəksiniz. Bəxti yüngülcə itələyin və gələcəyi çox addım qabağa fikirləşməklə, onu müəyyən etməyə kömək edin.

## HAKİMİYYƏTİN AÇARI

Qədim yunanların inanclarına görə, qüdrətli tanrılar baş verəcək hadisələri görmək qabiliyyətinə malik idilər. Onlar baş verməli olan hər şey haqqında ən xırda detallarına qədər bilirdilər. İnsanlar, əksinə, fələyin qurbanı kimi, indiki zamanın və öz şəxsi emosiyalarının girovu kimi nəzərdən keçirilirdilər, zira onlar özlərini gözləyən təhlükələri öncədən fikirləşib görməyə qabil deyildilər. Odissey kimi öz burnundan uzağı görən qəhrəmanlar hadisələrin ardıcıllığını hesablamağı və gələcəyi planlaşdırmağı bacarırdılar, çoxlarının fikrinə görə, taleyə çağırış edirdilər, lakin ən əsası – gələcəyi öncədən görmək qabiliyyətləri sayəsində tanrılara bənzəyirdilər. Bu müqayisə indinin özündə də əhəmiyyətini itirməyib – bizlərin arasında hər şeyi əvvəlcədən düşünüb-daşınan və planlarının həyata keçməsinə səbirlə nail

olanlar gözümüzə, ilahi hakimiyyətə yiyələnən adamlar kimi görünürlər.

İnsanların mütləq əksəriyyəti cari məqamın əsarəti altına həddən artıq çox düşdüyündən və gələcəyi düşünüb-daşınmaq halında olmadığından, çoxdan gözlənilən ləzzəti və ya qəfil təhlükəni saya almamaq qabiliyyəti qüvvə kimi qəbul olunur. Bu, mahiyyət etibarilə, baş verən hadisələrin arxasınca getmək kimi təbii insani tendensiyanı adlamağa imkan verən hakimiyyətdir. İndiki məqamdakı bütün hər şeydən kənarlaşaraq bunların arxasından cizgiləri görünən daha iri hadisələri təsəvvür etməyi öyrənmək zəruridir.

B.e.ə. 415-ci ildə qədim Afinanın qoşunları Sirakuza hücum edirdi; afinalılar hesab edirdilər ki, Siciliyanın gəliri onlara var-dövlət, hakimiyyət və uzun altı il davam edən Peloponnes müharibəsinin şərəflə başa çatmasını gətirəcək. Onlar evlərindən bu qədər uzaqda olan əraziyə soxularkən özlərini təhdid edə biləcək təhlükələr barədə fikirləşmirdilər. Onlar nə siciliyalıların öz ərazilərində daha şiddətlə və uğurla döyüşəcəklərini, nə Afinanın düşmənlərinin onlara qarşı birləşəcəklərini, nə də müharibənin bir neçə cəbhəyə səpələnəcəyini və öz hərbi resurslarının tükənəcəyini nəzərə almışdılar. Siciliya üzərinə hərbi ekspedisiya tam süquta uğradı və bütün dövrlərin ən qüdrətli sivilizasiyalarından birinin dağılmasına gətirdi. İdrakları ilə deyil, ürəkləri ilə hərəkətə gətirilən afinalılar fəlakətə gəlib çıxdılar. Afinalılar mümkün şöhrətin ləzzətini dadırdılar, lakin onları irəlidə gözləyən təhlükə nəzərlərinə çarpmadı.

Kardinal de Rets yazırdı: "İnsan xətalarının və səhvlərinin səbəbi çox vaxt indiki məqamda mövcud olan təhlükədən həddən artıq bərk qorxuya düşmələrində və gələcəkdə onları gözləyən təhlükədən kifayət qədər ehtiyat etməmələrindədir". Əgər biz ayrı-ayrı təhlükələri əvvəlcədən görə və onları nəzərdən keçirməyi bacarsaydıq – nə qədər səhvdən canımızı qurtara bilərdik! Əgər biz xırda təhlükədən yaxa qurtarmağa kömək etməklə onların bizi daha ciddi təhlükələrə qərq edə biləcəyini dərk etsəydik, nə qədər qəsdlər və planlar ani olaraq qırılardı. Hakimiyyət – bu daha çox bizim nə etdiyimiz deyil, etmədiklərimizdir – dəfədən dəfəyə

təkrar etdiyimiz və yekunda bizi bəlaya gətirib çıxaran tələsik və düşünülməmiş hərəkətlərdir. Fəaliyyətə başlamazdan əvvəl hər şeyi xırdalıqlarına qədər düşünün, yayğın planların özünüzü xoşagəlməz hallara qərq etməsinə izin verməyin. Bu, gözlənilməz nəticələr verə biləcəkmi? Sizin yeni düşmənləriniz peyda olacaqdırmı? Çəkdiyiniz zəhmətin nəticələri başqa bir kimsəyə də sərf edəcəkdirmi? Pis sonluqlar, yaxşılardan qat-qat çox rast gəlinir – həppi-end gözləntisi ilə özünüzə layla çalmayın. Əgər siz bir neçə addım qabağı görürsünüzsə, gedişlərinizi lap axıradək planlaşdırın, onda həyəcanlar və ya improvizasiyaya meyil sizi artıq narahat etməyəcək. Gələcəyi dəqiq və aydın görməyiniz sizi həyəcan və qeyri-müəyyənlikdən – bir çox iflasların iki ilkin səbəbindən azad edəcək. Finalı görə bilməyi öyrənin – və siz məyusluq hissi keçirməyəcəksiniz.

Obraz: Olimp Tanrıları. Onlar insanların işlərinə buludların üstündən baxaraq faciələrə və bədbəxtliklərə aparan möhtəşəm xülyaların və arzuların hamısının sonluğunu əvvəlcədən görürlər. Tanrılar bizim öncədən görmək qabiliyyətimizin olmamasına, ələl-xüsus da, bizim özümüzü necə aldatdığımıza gülüşürlər.

Nüfuzlu rəy: "Çıxmaq üçün girməkdənsə, ümumiyyətlə girməmək qat-qat sadə deyilmi? Bir sözlə, başlanğıcda uzun düz budaqtək uzanan, amma ardınca sanki yorularaq və nəfəsi kəsilərək nə keçmiş inadkarlığının, nə də keçmiş qüvvəsinin qalmadığını sübut edən, tez-tez və sıx, dəqiqliklə elə bil bu yerlərdə nəfəsini dərirmiş kimi düyünlər bağlamağa başlayan qamışa oxşamağa heç bir vəchlə çalışmaq lazım deyil. Nəfəsinizi və coşqunluğunuzu mümkün maneələrin adlanması və girişdiyiniz işin sona çatdırılması üçün qoruyaraq, təmkinlə və soyuqqanlılıqla başlamaq qat-qat düzgündür. İşlərimizə başlayanda ilk vaxtlarda biz onları idarə edirik və onları iradəmiz altında saxlayırıq, lakin ardınca, onlar yerlərindən tərpədiləndən sonra, başladığımız işlər bizi idarə edir və bizi öz arxalarınca sürükləyirlər, belə ki, bizə qalan elə arxaları ilə düşmək olur".

Mişel de Monten (1533-1592)

“Taleyi öncədən deyənlərdən öz gələcəyi haqqında sorğu-sual edən kəs qeyri-ixtiyari olaraq, baş verəcək hadisələri istənilən falabaxandan min dəfə dəqiq deyən öz intuisiyasından, daxili hissiyyatından üz çevirmiş olur”.

Uolter Bencamin (1892-1940)

## İKİ QURBAĞA

İki qurbağa bir gölməçədə yaşayırdı. Yayın qızmarında gölməçə qurudu; qurbağalar onu tərk etdilər və birlikdə özlərinə yeni məskən axtarmağı qərara aldılar. Yolda olurdu ki, onlara dərin, ağzına qədər su ilə dolu quyuların yanından keçmək lazım gəlirdi. Quyuya baxan qurbağa rəfiqəsinə dedi: “Gəl burada qalaq və bu quyuda məskunlaşaq, – o bizə daldalanacaq və qida verəcək”. O biri şübhə ilə cavab verirdi: “Bəs təsəvvür et ki, birdən quyuda su qurudu – biz belə dərinlikdən çıxa biləcəyikmi?”

Nəticələri düşünüb-daşınmadan heç nə etmə.

Ezop, b.e.ə. VI əsr

# QANUN 30

## SƏYLƏRİNİ BÜRUZƏ VERMƏDƏN UĞUR QAZAN

## QANUN BELƏ İFADƏ OLUNUR

Sizin hərəkətləriniz kənardan təbii və asanlıqla yerinə yetirilən kimi təsir bağışlamalıdır. Buna qoyulan zəhmət və tərin hamısını, elə bütün hiyləgər tryuklar kimi, gizlətmək lazımdır. Nəzərə çarpa biləcək səy tətbiq etmədən hərəkət edin, elə bil bundan qat-qat böyük iş görə bilərdiniz. Necə ağır zəhmət çəkmiş olsanız da öyünmək təhrikinə uymayın – bu yalnız artıq suallar doğuracaq. Fəndlərinizi heç kimə açmayın, əks təqdirdə onları özünüzə qarşı tətbiq edərlər.

## HAKİMİYYƏTİN AÇARI

Güc haqqında ilk təsəvvürlər bəşəriyyətə təbiətin qüvvələri ilə toqquşanda gəlmişdi – göydə ildırım çaxması, qəfil sellər, vəhşi heyvanın çəldliyi və qəddarlığı. Bu qüvvələrin düşünüb-daşınmağa ehtiyacı yox idi, onlar planlaşdırma tələb etmirdilər – onların gücü, peyda olmalarının gözlənilməzliyində, harmonik olmasında, həyat və ölüm üzərində hakimiyyətində təzahür edirdi. Bizim günlərimizdə də məhz elə bu tip qüvvəyə malik olmaq bizə ən cəzbedici təsir bağışlayır. Elmin və texnologiyanın köməyi ilə biz təbiətin kəskin və vahiməli gücünü yaradırıq, lakin tam həcmdə yox: bizim maşınlar səs-küy salır və sınır, onlar böyük əmək tələb edir və bunu gizlətmək qeyri-mümkündür.

Sənətkarların hətta ən məharətli yaradıcılıqları da bizim səssiz və səy göstərmədən hərəkət edən qarşısında heyranlığımızı

kökündən qoparmaq iqtidarında deyil. Uşaqların üzərimizdəki, bizi onların ipi ilə getməyə məcbur edən, hakimiyyəti, özümüzdən az refleksiv, daha nəvazişli və duyğularında səmimi olan varlıqların bizim üzərimizdə malik olduqları lətafətləndirici məftunediciliyi ilə izah olunur. Biz bu hala qayıda bilmirik, lakin əgər duyğuların bu cür səmimiliyini imitasiya etməyə müvəffəq oluruqsa, onda bizi əhatə edənlərdə nə isə ibtidai ilahipərvər həyəcan meydana çıxarırıq ki, bunu insanda həmişə təbiət oyadıb və oyadır.

Bu prinsipi qələmə alan, Avropanın ilk yazıçılarından biri, son dərəcə qeyri-təbii mühitə, İntibah epoxası sarayına məxsus idi. Baldassare Kastilone 1528-ci ildə nəşr olunmuş "Saray əyanının kitabı"nda, əsl saray əyanının fövqəladə dərəcədə təkmilləşdirilmiş və bütöv bir kodeks təşkil edən maneralarını qələmə alır. Və bütün bunlara əlavə olaraq, saray əyanının davranışını bu fərqləndirməlidir ki, Kastilone bunu "spezzatura" – çətin olana sadə görkəm vermək qabiliyyəti adlandırır. O, saray əyanına "istənilən situasiyada məlum, istənilən süniliyi gizlədən və dedikləri və etdikləri hər şeyə sadəlik və təbiilik verən toxtaqlıqla davranmağı" tövsiyə edir. Sənətkarların virtuozluğu bizi valeh edir, amma sənəti incəlik və yüngüllük fərqləndirirsə, onda valeh olmağımız çox-çox dəfə artdığı – "...halda, ağır səylərin və qan-tər içində zəhmətin aşkar nəzərə çarpması hər şeyi, o necə bir dəyərə malik olsa da, cazibədarlıqdan məhrum edir".

"Spezzatura" anlayışının istənilən hakimiyyət formasına aidiyyəti var, çünki hakimiyyət özünüzün yaratdığınız görüntülər və illüziyalardan az qala bütövlüklə asılıdır. İctimaiyyət qarşısında çıxışlarınız incəsənət əsərləri kimidir – onlar gur, həyəcanlandırıcı, ardınca əyləndirici olmalıdır. Yaratdığınızın gözdən gizlədilən mexanizmlərini çılpaq ortaya qoyun – və siz həmin andaca adi fani insana çevriləcəksiniz. İdrakın əli çatacaq şey ilahipərvər duyğular meydana çıxarmır – biz özümüzə deyirik ki, bizdə də bu qədər pul və vaxt olsaydı, özümüz də belə bir işin öhdəsindən bundan pis gəlməzdik. Necə yaratdığınızı nümayiş etdirmək təhrikinə uymayın – sənətinizin mexanizmlərini gizlətmək qat-qat ağıllıdır.

İşlərinizin pərdəarxası tərəfini gizlətməyin daha tədbirli olmasının başqa səbəbi də var: kənara sızılan istənilən məlumat əhatənizdə olanlar tərəfindən özünüzə qarşı istifadə edilə bilər. Siz susmağın verdiyi üstünlükdən məhrum olursunuz. İnsanlar, bir qayda olaraq, dünyanın onların nailiyyətlərindən xəbərdar olmasını istəyərdilər – şöhrətpərəstliyi qane etmək istəyinə düşürsən, bacarıq və sənətkarlığına heyran qalmağa məcbur etmək istəyirsən, hətta çəkdiyin ağır zəhmətin, artistizmin müəyyən səviyyəsinə çatmaq üçün sərf olunan saatların qədrini bilmələrini istəyirsən. Çərənçiliyə olan bu güclü meyli nəzarət altında saxlamağı öyrənin – əks təqdirdə nəticə tamam başqa olacaq.

Yadda saxlayın, etdiyiniz nə qədər çox sirrə bürünübsə, sizə verilən qüvvə bir o qədər vahiməli təsir bağışlayır. Belə təəssürat yaranır ki, etdiyinizi siz və yalnız siz həyata keçirmək iqtidarındasınız – unikal vergisi olan adamın nüfuzu isə hədsiz qədər yüksəkdir. Və nəhayət, əgər siz düşündüyünüzə yüngüllük və incəliklə nail olursunuzsa, insanlar bir az da artıq səy göstərəcəyiniz halda sizin daha böyük işlərə qadir olduğunuza inanırlar.

Obraz: Cıdır atı. Biz yaxında olanda çaparın atı necə bir gərginliklə idarə etdiyini görürük, ağır, qırıq-qırıq nəfəs səsi eşidirik. Lakin məsafədən atı müşahidə edəndə belə təəssürat yaranır ki, havada uçan at özü ilə incəlik və yüngüllük təcəssüm etdirir. Ətrafdakıları məsafədə saxlayın, distansiyaya riayət edin və onların gözünə yalnız sizin sərbəstliyiniz görünəcək.

Nüfuzlu rəy: "Əgər iş nə qədər xırda olsa da, oynaq surətdə yerinə yetirilirsə, bu təkcə məharətə dəlalət etmir, həm də çox vaxt onu həqiqətdə olduğundan da yüksək qiymətləndirməyə məcbur edir. Ona görə belə baş verir ki, yaxşı və gücənmədən işləyən adam müşahidəçilərdə daha böyük işlərə qabil olduğu təəssüratını doğurur".

Baltazar Qrasiani (1601-1658)

“Adamlara qadir olduğun hər şeyi axıradək heç vaxt göstərmə. Əgər müdrik insan biliklərinə və talantlarına görə ehtiram olunmağını istəyirsə, onları axıradək açmır. O sənin bunlardan xəbərinin olmasına imkan yaradacaq, amma onlardan təfərrüatlı şəkildə baş açmağına izin verməyəcək. Onun qabiliyyətlərinin hansı həddə qədər bərqərar olduğunu adamlara bilmək lazım deyil, onda heç kim məyusluğa düçar olmayacaq. Heç kim heç vaxt onu tam həcmdə dərk edə bilməyəcək. Zira adamın talantlarının genişliyi ilə bağlı düşüncələr və ehtimallar, onun imkanlarının hüdudlarını – onlar nə qədər böyük olsa da – dəqiq bilməkdən qat-qat güclü, ilahipərvər ehtiram doğurur”.

Baltazar Qrasiani (1601-1658)

# QANUN 31

VARİANTLARIN HAMISINI
NƏZARƏTDƏ SAXLA: QOY BAŞQALARI OYNASIN SƏNİN PAYLADIĞIN
KARTLARLA

## QANUN BELƏ İFADƏ OLUNUR

Ən yaxşı başaldatma, sizin başqa adama sanki seçim etmək imkanı verdiyiniz yalanıdır: qoy qurbanda seçim azadlığı illüziyası meydana çıxsın, halbuki o, əslində, sizin oyununuzda yalnız marionetkadır. İnsanlara elə seçim yaradın ki, onlar nəyə üstünlük versələr də siz qalib gələcəksiniz. Onları iki şərdən azını seçməyə məcbur edin, ancaq bunlar sizin məqsədlərinizə xidmət edən dəstdən olmalıdır. İnsanları dilemma qarşısında qoyun: "yuxarı baxırsan saqqal, aşağı baxırsan – bığdır".

## HAKİMİYYƏTİN AÇARI

"Azadlıq", "seçim" və ya "imkan" sözləri ilə bağlı meydana çıxan fantaziyalar bizim gerçəklikdə aldığımız nemətlərdən xeyli zəngindir. Əgər sərəncamımızda olan seçim imkanı – bazarda, seçkilərin gedişində, işdə – bir qədər yaxından öyrənilərsə, onda bəlli olar ki, o əhəmiyyətli dərəcədə məhduddur: əksər hallarda biz "A" və "B" arasında seçirik, əlifbanın qalanı isə əlçatmaz qalır.

Hiyləgər və fərasətli adamlar üçün bu, juliklik üçün həddi-hüdudu olmayan imkandır. Seçmək imkanı verilən adamlara manipulyasiyanın və ya başaldatmanın obyekti olduqlarına inanmaq çətindir. Seçimlərində cüzi azadlıq verdiyinizi, üstəlik də iradənizi sırıdığınızı onlar görə bilməzlər. Variantların diapazonunun daraldılması, beləliklə, sizin maxinasiyaların mütləq

hissəsi olmalıdır. Deyirlər ki, əgər quşun qəfəsə özbaşına girməsinə nail ola bilərsənsə, onda o daha yaxşı oxuyacaq.

Aşağıda – "seçim azadlığı üzərində nəzarətin" ən çox yayılmış formalarıdır.

Variantların düzgün təqdim olunması. Bu, Henri Kissincerin ən sevimli metodu idi. Prezident Riçard Niksonun vaxtında dövlət katibi olan Kissincer, bossundan yaxşı məlumatlı olduğunu hesab edirdi və əksər hallarda düzgün qərarları məhz özünün qəbul etdiyinə inanırdı. Amma əgər o, dövlət siyasətini müstəqil surətdə müəyyən etməyə cəhd etsəydi, bu, qətiyyətsizliyi ilə ad çıxaran prezidenti qəzəbləndirmiş olardı. Buna görə də Kissincer hər bir situasiya üçün onun seçiminə üç-dörd hərəkət variantı təklif edirdi, özü də onları elə şəkildə təqdim edirdi ki, üstünlük verdiyi variant başqaları ilə müqayisədə həmişə məsələnin açıq-aşkar ən yaxşı həlli təsirini bağışlayırdı. Bir-birinin ardınca tələ yeminə aldanan Nikson, Kissincerin onu itələdiyi tərəfə hərəkət etdiyini ağlına belə gətirmirdi.

Tərs adama təzyiq. Bu metod uşaqlar və ya başqa özünəməxsus xasiyyətli, ziddiyyət ruhundan çıxış edərək nail olmaq istədiyinizin əksinə hərəkət edən adamlara münasibətdə yaxşı təsir edir. Guya əks olanı müdafiə etdiyinizi göstərməklə onları özünüzə lazım olanı "seçməyə" məcbur edin.

Oyun meydançasının dəyişdirilməsi. 1860-cı illərdə Con D.Rokfellerdə neft üzərində inhisara nail olmaq niyyəti meydana çıxmışdı. Əgər o, kiçik neft kompaniyalarını satın almağa girişsəydi, planının üstü açılardı və müqavimətlə üzləşərdi. Bunun əvəzində o, heç nəyi səsə-küyə salmadan, neftin nəql edilməsi ilə məşğul olan dəmiryol kompaniyalarını satın almağa başladı. Rokfeller qalaqurma etdi, başqa meydanda oyuna keçdi – və nəticədə nail oldu ki, neft hasilatı ilə məşğul olan kiçik kompaniyaların sərəncamında yalnız onun verdikləri imkanlar qaldı.

Seçimin daraldılması. Alıcı tərəddüd edəndə və qərar qəbul etmyi sabaha saxlayanda hər dəfə qiyməti qaldırın. Bu, patoloji qətiyyətsiz adamlarla ticarətdə əla fənddir. Bu, sabah bu günlə

müqayisədə daha faydalı sövdələşmək mümkün olduğu ilə bağlı onların təsəvvürlərini alt-üst edəcək.

Zəif adam seçim situasiyasında. Bu taktika "variantların gözə soxulmasına" oxşasa da, zəif adamla daha aqressiv olmaq zəruridir. Onların həyəcan, dəhşət kimi emosiyalarına təzyiq edin, bu, əvvəl-axır, onları hərəkət etməyə sövq edəcək. Onların idrakına müraciət etməyə cəhd edin – və onlar həmişə aradan çıxmağa üsul tapacaqlar.

Dilemmanın buynuzları. Bu, hüquqşünasların məhkəmədə tətbiq etdikləri klassik metoddur: hüquqşünas şahidi, hadisənin ehtimal olunan iki izahı arasında seçim etməyə çəkib gətirir, ancaq bunlardan hər biri şahidlərin versiyasında boşluq yaradır! Onlar hüquqşünasın suallarına cavab verməli olurlar, amma deyəcəkləri hər şey özlərinə qarşı çevriləcək. Bu metodda əsas olanı – astagəl olmamaq və təzyiqdir: qurbana özünə gəlməyə və sivişib aradan çıxmağa imkan verməyin. Dilemmanın iki buynuzu arasına düşərək onlar özlərinə məzar qazacaqlar.

Obraz: Öküzün buynuzları. Öküz buynuzları ilə sizi küncə qısnayır; canınızı qurtara biləcəyiniz bir buynuzla yox, aralarındakı məsafəyə tələyə olantək salan iki buynuzla. Sola və ya sağa qaçın – siz hara hərəkət etsəniz da, iti sivri ucla üzləşəcəksiniz və onlar sizi dəlib keçəcək.

Nüfuzlu rəy: "Zira insanın könüllü olaraq və fərdi seçimi ilə öz üstünə tökdüyü istənilən əzab-əziyyət və şər, başqalarının onun üstünə tökdüklərindən müqayisəolunmaz qədər az ağrılıdır".

Nikkolo Makiavelli (1469-1527)

Rudolf Virxovun (liberal baxışları ilə məşhur olan alman alim-patoloq və siyasətçi) aramsız hücumlarından cin atına minən Almaniyanın kansleri Bismark sekundant vasitəsilə ona duelə çağırış göndərmişdi. "Çağırış edilən tərəf olaraq, mən silah seçmək hüququna malikəm, – deyə, Virxov bəyan etmişdi. – Nə etmək, belə olan halda mən bunu seçirəm". Bu sözlərlə, o,

rəqibinə görkəmindən tamamilə eyni olan iki kolbasa uzatdı. "Bunlardan biri, – duelyant izah elədi, – ölümcül təhlükəli mikroblarla yoluxdurulub; o birisi isə tamamilə ziyansızdır. Qoy cənab kansler bu iki kolbasadan hansını yeyəcəyini qərara alsın, mən isə ikincini yeyəcəyəm". Şərtləri kanslerə çatdıranda o, düşünüb-daşınmadan dueli ləğv etdi.

Klifton Fadiman, "Qəhvəyi rəngdə lətifələr kitabı", 1985

Ata C.P.Morqan bir dəfə tanış zərgərə demişdi ki, qalstuk üçün üstündə mirvari olan sancaq almaq istəyərdi. Bundan tezliklə sonra zərgərin əlinə füsunkar bir mirvari düşdü. O bu mirvariyə layiq olan sağanaq sifariş etdi və 5 min dollarlıq qəbzlə birlikdə Morqana göndərdi. Növbəti gün bağlama geri qaytarılmışdı. Morqan bağlama ilə birlikdə göndərdiyi məktubda yazırdı: "Sancaq mənim xoşuma gəlir, amma qiymət xoşuma gəlmir. Əgər siz zərfə qoyulmuş dörd min dollarlıq qəbzi qəbul etməyə razısınızsa, möhürü açmadan, qutunu geri göndərin". Narazı olan zərgər qəbzdən imtina etdi və acığa düşərək, qasiddən rədd olmağı tələb elədi. O, bədbəxt sancağı götürmək üçün qutunu açdı və yalnız bu vaxt gördü ki, sancaq qutuda yoxdur. Onun yerində 5 min dollarlıq qəbz idi".

Klifton Fadiman, "Qəhvəyi rəngdə lətifələr kitabı", 1985

# QANUN 32

İNSAN FANTAZİYALARI İLƏ OYNA

QANUN BELƏ İFADƏ OLUNUR

Həqiqətdən çox vaxt qaçırlar, çünki o gözəgəlimli və gözəl deyil. Əgər siz illüziyaların alt-üst olması üzündən baş verəcək partlayışa hazır deyilsinizsə, həqiqətə və reallığa heç vaxt istinad etməyin. Həyat o qədər qəddar və acıdır ki, ona romantik fantaziya gətirməyə qabil olan adamlar səhrada oazis kimidirlər: onlara doğru dartınırlar. Kütlənin illüziyalarına rəhbərlik etmək – qüdrətli hakimiyyətdir.

HAKİMİYYƏTİN AÇARI

Fantaziya təklikdə heç vaxt fəaliyyət göstərə bilməz. Ona bozluğun və bayağılığın təzadlaşdırıcı fonu tələb olunur. Fantaziyaya kök atmağa və çiçəklənməyə şərait yaradan məhz ruhdan salan, solğun gerçəklikdir.

Xəyalı həyata keçirməyə, nağılı başı xarab edən gerçəkliyə çevirməyə qabiliyyəti olan adamın həddi-hüdudu olmayan hakimiyyətə əli çata bilər. Əgər siz kütlələri öz ağuşuna ala bilən fantaziya axtarırsınızsa, bizlərdən hər birimizə ən güclü təsiri olan banal həqiqətlərə diqqət yetirin. İnsanların bərbəzəkli avtoportretləri və keçdikləri həyat yolları ilə aldanmağınıza yol verməyin, onları əsirlikdə saxlayanın əslində nə olduğunu öyrənin və qazıb çıxarın. Bunu tapın – və onda çox böyük hakimiyyət verən sehrli açar sizin əlinizdə olacaq.

Zəmanə və insanlar dəyişir, hər necə olsa da, insanları sarsıdan, buxovlayan reallığın və hakimiyyətin təqdim etdiyi imkanların bir neçə variantını tədqiq edək.

Reallıq: dəyişikliklər aramla və tədricən baş verir. Bunlar gərgin iş, uğur, heç də az olmayan özünüfəda və böyük səbir tələb edir.

Fantaziya: qəfil çevrilmə taleyin tam dəyişməsini, əməyi, özünüfəda etməyi və vaxtı əvəz edən bəxtəvərlik gətirir.

Bu bizim günlərimizin, sözsüz ki, hər yerdə kifayət qədər olan şarlatanlarının ən sevimli fantaziyasıdır. Tez və tam dəyişikliyi vəd edin: yoxsulluqdan var-dövlətə, xəstəlikdən sağlamlığa, əzab-əziyyətdən çiçəklənməyə – və sizin arxanızca gələcəklər.

Reallıq: sosial cəmiyyət sərt məhdudiyyətlər, qanunlar və davranış normaları sistemi mövcuddur. Biz bununla barışırıq və bilirik ki, vərdiş etdiyimiz tamamilə eyni bir dairəvi marşrutla günbəgün hərəkət etmək məcburiyyətindəyik.

Fantaziya: biz tamamilə başqa, fərqli dəyərlər sistemi və maraqlı macəralar ehtimalı olan yeni dünyaya düşürük.

XVII əsrin birinci onilliyində bütün Londonun danışdığı elə yalnız Corc Salmanazar adlı bir cavan oğlan haqqında idi. O, ingilislərin əksəriyyəti üçün nağıl olan yerdən – Çinin sahillərinin yaxınlığında yerləşən Formoz (Tayvan adasının tarixi adı. – Y.Ə.) adasından gəlmişdi. "Oksford Universiteti" Salmanazarı ada dilini tədris etməyə dəvət etmişdi. Bir neçə il keçəndən sonra o, İncili ada sakinlərinin dilinə tərcümə etdi, ardınca Formozun tarixi və coğrafiyası haqqında kitab yazdı – kitab dərhal bestseller oldu. Ali ingilis cəmiyyəti bu cavan oğlanla ən sevimli oyuncaqla olduğu kimi rəftar edirdi və dəvət olunduğu hər yerdə o, toplaşanları öz vətəni və onun qəribə və ekzotik adətləri ilə bağlı hekayələrlə əyləndirirdi.

Salmanazar vəfat edəndən sonra onun vəsiyyətnaməsi açıqlananda, hamı həqiqəti bildi: o, vur-tut, zəngin təxəyyülü olan

fransız imiş. Formoz haqqında hekayələrinin hamısı, detalların hamısı – əlifba, dil, ədəbiyyat, haqqında məlumat olmayan ölkənin bütöv mədəniyyəti – onun uydurması, mistifikasiyası imiş. O, nağıl ölkəsi ilə bağlı ingilislərə heç nə məlum olmadığını bilərək, ingilislərin ekzotik və qeyri-adi olana hərisliklərinə cavab verən mürəkkəb, çox ciddi düşünülmüş əhvalat yaratmışdı. Britaniya mədəniyyətinə xas olan, insanların təhlükəli xəyalları üzərində sərt nəzarət, Salmanazara onların fantaziyalarını öz maraqları üçün istifadə etməyə əla imkan vermişdi.

Reallıq: ölüm; ölülər qayıtmayacaq, keçmişi dəyişmək qeyri-mümkündür.

Fantaziya: bu dözülməz gerçəkliyin qəfil və büsbütün ləğv edilməsi.

Vermeyer Deftskinin rəsmləri gözəlliyi ilə şöhrət tapıb və rəssamlıq sənətinin əsl klassikasıdır, amma onların sayı çox deyil və bunun nəticəsi olaraq, çox nadirdirlər. Lakin 1930-cu illərdə incəsənət əsərləri bazarında Vermeyerin yaratdıqları peyda olmağa başladı. Rəsmin əsl olub-olmadığı ilə bağlı müraciət olunan ekspertlər, onların əsl olduğunu elan edirdilər. Əvvəllər naməlum olan Vermeyer bir çox kolleksiyaçı üçün rəsm qalereyasının bəzəyi ola bilərdi. Bu, Lazarın[3] dirilməsini xatırladırdı: Vermeyer Daftski ağlasığmaz surətdə sanki həyata qayıtmışdı. Keçmiş öz strukturunu dəyişmişdi.

Həqiqət yalnız bir müddət sonra üzə çıxdı: yeni "Vermeyerlər" hollandiyalı Han van Meegerenin fırçasına məxsus imiş və saxta rəsmləri məhz o, məharətlə hazırlayırmış. Saxtakarlıq üçün o məhz Vermeyeri seçmişdi, çünki fantaziyanın nə demək olduğunu başa düşürdü: düşünülmüş iş ona görə uğura məhkum idi ki, kolleksiyaçılar və ekspertlər nəyin bahasına olsa da buna inanmaq istəyirdilər.

Yadda saxlayın: fantaziya ilə bağlı oyunda uğurun zəmanəti – məsafənin saxlanmasındadır. Uzaqda olan, heç bir problem vəd etmədən həyəcanlandırır, özünə cəzb edir. Onun vərdiş olunmuşa çevrilməsinə heç vaxt imkan verməyin, uzaqdan gözə görünən miraj, sadəlövh ona yaxınlaşanda yox olur. Fantaziyanı heç vaxt

həddən artıq konkret qələmə almayın – o yayğın olmalıdır. Saxta fantaziyalar düzüb-qoşarkən qurbanlarınıza düz o qədər yaxınlaşmağa imkan verin ki, onlar görə və şirniklənə bilsinlər, ancaq kifayət qədər uzaqda saxlayın ki, xəyala dalmaqda və həsrətində olmaqda davam etsinlər.

Obraz: Ay. Əlçatmaz, daim dəyişən cizgilər, o gah yoxa çıxır, gah da yenidən peyda olur. Biz ona, xəyallara dala-dala və heyranlıqla, həsrət və hicranla baxırıq – o heç vaxt vərdiş olunana çevrilmir, həmişə fantaziya doğurur. Açıq-aşkar olanı təklif etməyin. Ay vəd edin.

Nüfuzlu rəy: “Yalanda ecazkarlıq, cazibədarlıq var, yalan – fantaziyayadək yaxşılaşdırıla biləcək uydurmadır. Onu mistik konsepsiya libası ilə pərdələmək olar. Həqiqət – soyuq, ayıq və narahat faktlardır, onları qəbul etmək elə də asan deyil. Yalan xeyli xoşdur. Dünyada ən nifrət edilən adam – həmişə yalnız düzünü deyən, romantikanın ona yad olduğu adamdır... Mənim üçün düzünü deməkdənsə, romantik olmaq daha maraqlı və əlverişlidir”.

Cozef Veyl,

Sarı Balaca da elə odur (1875-1976)

“Əgər elə yalan danışmaq istəyirsən ki, sənə inansınlar, həqiqətə uyğun olmayan həqiqət danışma”.

Yaponiyanın imperatoru Tokuqava İyasu, XVII əsr

3 Lazar – İncil personajı, İsa Məsihin diriltdiyi Vifaniyanın sakini, Marfa və Mariyanın (Həzrəti Məryam) qardaşı. Yəhudi mənşəli kişi adıdır. Orijinalda Elazar (ivr. אֶלְעָזָר ,hərfi mənada – Tanrı mənə kömək etdi deməkdirאל : “Tanrı”; עזר “kömək etdi”), ya da Eliezer (ivr. אליעזר – mənim Tanrım mənə kömək etdi) kimi səslənir.

# QANUN 33

## HƏR BİR ADAMIN ZƏİF SİMLƏRİNİ BİL

QANUN BELƏ İFADƏ OLUNUR

Hər kəsin zəiflikləri, qala divarında boşluqları var. İnamsızlıq, nəzarət olunmayan emosiyalar və ya arzular, bir də ola bilsin ki, kiçik gizli əyləncələr bunlara aiddir. Hər necə olsa da, zəiflikləri aşkar edəndə, onu öz xeyriniz üçün istifadə edərək, işgəncə silahına çevirin.

İŞGƏNCƏ SİLAHINI TAPMAQ: fəaliyyətin strateji planı

Bizim hamımıza müdafiə olunmaq lazım gəlir. Hər bir insan öz üzərində onu dəyişkənliklərdən, dostların nəzakətsizliyindən və düşmənlərin hücumlarından müdafiə edən zireh gəzdirir. Bizim hər şeydən çox istədiyimiz bizi rahat buraxmaları və öz bildiyimiz kimi hərəkət etməyimizə izin verməleridir. Rəqibin müdafiə xətlərinin möhkəmliyini sınağa çəkmək üçün edilən daimi cəhdlər bizdən çox enerji alır. Lakin başa düşmək vacibdir ki, insanların mütləq surətdə hamısının öz zəiflikləri – psixoloji zirehlərində özünəməxsus boşluqları var; bircə bunları aşkar etmək və öz maraqların daxilində onlara təzyiq etmək qalır.

Bəzi adamlar zəifliklərini gizlətmir, başqaları onları hamıdan gizlədir. Sonuncuların müdafiə xətlərindəki boşluğu axtarıb tapmaqla onların öhdəsindən gəlmək, bir qayda olaraq, asandır.

Hücumu planlaşdıranda aşağıda qələmə alınan prinsipləri yadda saxlayın.

Jestlərin dilinə, təhtəlşüurun siqnallarına diqqətli ol. Ziqmund Froyd qeyd etmişdir: "Fani adamlardan heç biri sirr saxlamağa qabil deyil. Əgər onun dodaqları susursa, barmaqlarının ucu danışır; xəyanət onun hər bir məsaməsindən sızıb kənara çıxır". Bu əsas müddəanı yadda saxlamaq və insanın zəifliklərini axtararkən onu nəzərə almaq zəruridir – bu zəifliyi ilk baxışda əhəmiyyətsiz olan jestlər və ötəri atılan sözlər qaçılmaz surətdə faş edir.

Vacib olanı yalnız sizin nə axtardığınız yox, həm də bunu harada və necə axtardığınızdır. Gündəlik söhbətlər – çox zəngin, hələ mənimsənilməsini tələb edən – yerin təkindəki ehtiyatlardır, odur ki, həmsöhbətin zəifliklərini aşkar etmək üçün dinləməyi öyrənin.

Əgər siz bir kəsdə zəif yerin olduğundan şübhələnirsinizsə, bu yeri nəzərə çarpdırmadan tapmağa cəhd edin. Detalları qeydə almağı öyrənin – sizi maraqlandıran adam ofisianta "çay haqqı"nı necə verir, nə onun xoşuna gəlir, nə gəlmir, geyinmək manerasında gizlədilən məlumatları oxuyun. Onun səcdə qıldığı bütləri, yiyəsi olmaq üçün hər şeyə gedəcəyi şeyləri axtarın – istisna deyil ki, siz ona çoxdankı arzusunun yerinə yetirilməsində kömək etmiş olacaqsınız. Yadda saxlayın: biz hamımız öz zəifliklərimizi gizlətməyə çalışırıq, buna görə də şüurlu, nəzarət altında olan davranışın arxasından çox az nə isə öyrənmək olar. Şüuru və nəzarəti adlayaraq kənara sızıb çıxan detallardır, xırdalıqlardır maraq kəsb edən.

Aciz uşaq tap. Zəifliklərin əksəriyyəti uşaqlıqda, insan müdafiəni qurmağı öyrənməzdən əvvəl meydana çıxır. Ola bilsin, uşağı ərköyün böyüdüblər, ona "gözün üstə qaşın var" deməyiblər, ola bilsin də, onun emosional tələbatları qane olunmamış qalıb. Uşaq yaşa dolanda həm bu, həm də o biri dərinə gedə bilər, amma tamamilə itmir. Adamın uşaqlığı haqda məlumatlar, onun yetkin yaşında zəifliklərinin şifrəsinin açılması üçün əla açar kimi xidmət edir.

Siz uşaqlıq məsələsinə toxunanda adam özünü tez-tez uşaq kimi aparırsa, bu, belə zəifliklərdən birinin əlamətidir. Odur ki,

adamın bu cür, sinninə heç də uyğun olmayan davranışına diqqətlə göz qoyun.

Təzadlar axtar. Görüntü çox vaxt özünə əks olanı gizlədir. Sinəsinə vurmaq və döyüşkən qışqırtıların arxasında qorxaqlıq gizlənir, təvazökar adam ümumun diqqətini özünə yönəltməyi arzulayır. Zahiri olanı onun arxasındakı ilə tutuşdurmaqla çox vaxt onların sizə nümayiş etdirdikləri keyfiyyətlərin əks qütbündə duranları aşkar etmək olar.

Boşluğu doldur. Emosional vakuumun iki əsas tipi – əminsizlik və məmnunsuzluqdur. Əmin olmayanlar sosial fikir qəliblərinin qurbanı olurlar. Məmnun olmayanlara gəlincə isə onların daim məmnun olmamalarının köklərini axtarmaq lazımdır. Həm bunlar, həm də o birilər zəifliklərini gizlətməyə demək olar qabil deyillər. Onların emosional boşluqlarını doldurmağı bacarmaq – hakimiyyətin qüdrətli mənbəyidir, üstəlik də tükənməzdir, ondan sonsuz qədər uzun müddət istifadə etmək olar.

Nəzarət olunmayan emosiyalara qida ver. Nəzarət olunmayan emosiyalara paranoidal qorxunu aid etmək olar – situasiyaya adekvat olmayan qorxu və ya istənilən rəzil istək: simiclik, şöhrətpərəstlik, nifrət və ya cismani tələbat. Emosiyaların məngənəsində olan adamlar çox vaxt özlərini ələ ala bilmirlər və siz onları idarə edə biləcəksiniz.

Obraz: Məngənə. Düşməninizin qoruyub saxladığı sirləri, hündürdən səsləndirmədiyi gizli fikirləri var. Lakin onlar bayıra çıxırlar və o buna mane olmaqda gücsüzdür. Haradasa – beynində, ürəyində və ya mədəsində – boşluq, onun zəifliyinin vintciyi var. Boşluğu arayıb taparaq, həmin vintciyi aşkar edərək onu ləzzətlə burub sıxmağa başlayın.

Nüfuzlu rəy: "Hər cür adama təsir etmək üçün rıçaq axtarıb tap. Bu, insanları sanki onların öz iradəsi ilə hərəkət eləməyə məcbur etmək sənətidir. Burada qətiyyətdənsə, bacarıq daha vacibdir. Sən hər bir kəsə necə yaxınlaşmağı bilməlisən. İstənilən hərəkətin, iradənin gücü ilə edilən istənilən aktın öz motivi var, onun necə olması isə – individual zövqdən asılıdır. İnsanların

hamısı özünə kumir yaratmağa meyillidir – bu, biri üçün şan-şöhrətdir, başqaları üçün – eqoizm, şəxsi təmənna. Bacarıq bu bütlərin hamısını tanıya bilməkdən və onları özünə xidmət etməyə məcbur etməkdən ibarətdir. İnsanı hərəkətə gətirən motivləri bilərək, sən bununla da onun qəlbinə açar tapmış olursan”.

Baltazar Qrasiani (1601-1658)

## ŞİR, DAĞKEÇİSİ VƏ TÜLKÜ

Şir yamacla Dağkeçisini qovurdu,
Ona artıq çatırdı
Və həris baxışlarla
Doyumlu, dürüst naharını yeyirdi.
Ona, sanki heç cür xilas yoxdur:
Hər ikisinin yolunu yarğan kəsirdi;
Amma yüngül Dağkeçisi bütün qüvvəsini qardı;
Kamandan çıxan ox kimi
Uçurumun üzərindən süzdü,
Və uçub əks tərəfdə daş qayada dayandı.
Mənim Şirim dayandı.
Bu vaxt onun yanında dost peyda oldu.
Bu dost – Tülkü idi.
“Necə! – deyir o, – sənin cəldliyin, səndəki qüvvə ilə.
Yəni sən cılız Dağkeçisinin qabağında geri çəkiləcəksən?
Bircə arzula, sən möcüzələrə qadirsən,
Uçurum geniş olsa da əgər sən istəsən,
Onda dəqiq ki, tullanacaqsan.
İnan vicdanıma və dostluğuma sən mənim:
Səni cəsarətə çağırmazdım,
Əgər bilməsəydim
Həm möhkəmliyini, həm yüngüllüyünü sənin”.
Burada Şirin qanı qaynadı, oynadı;
O dördayaq sıçrayıb atıldı;
Amma uçurumu keçə bilmədi
Bir göz qırpımında uçdu və – ölümünə çırpıldı.

Bəs onun ürək dostu necə oldu?
O ehmalca dərəyə endi
Və görcək ki, Şirə nə məddahlıq, nə xidmət
Gərək deyil artıq,
Sakit ürəklə və sərbəstliklə
Dostuna ehsan verməyi qərara aldı
Və bir aya dostundan təkcə sümüklər qaldı.
İvan Krılov, 1769-1844

# QANUN 34

## ÖZ TƏBİRİNCƏ ŞAHANƏ OL: ÖZÜNÜ KRAL KİMİ APAR – VƏ KRAL KİMİ QƏBUL OLUNACAQSAN

## QANUN BELƏ İFADƏ OLUNUR

Çox vaxt özünüzü necə təqdim etməyinizlə, sizinlə necə rəftar ediləcəyi müəyyən olunur. Özünüzü vulqar və ya boz göstərməklə uzunmüddətli ünsiyyətdə hörmət qazana bilməzsiniz. Axı kral özü özünə hörmət edir və həmin hissi də başqalarında doğurur. Özünüzü inamla və şahanəliklə aparmaqla göstərirsiniz ki, tac gəzdirmək – sizin təyinatınızdır.

## HAKİMİYYƏTİN AÇARI

Uşaqlıqda, həyatımızın lap başlanğıcında bizə ölçüyəgəlməz sərvət verilir: biz belə hesab etməyə meyilliyik ki, bütün dünya bizimdir və onu əldə etmək istəyirik. Bu hiss biz ilk dəfə sosiuma düşdüyümüz, karyeramızda ilk addımları atmağa başladığımız vaxta qədər qorunub qalır. Amma biz hamımız yaşlanırıq, məyusluqlar yaşayırıq və uğursuzluqlara düçar oluruq, toplanan təcrübə dünyanın tədricən daralan yeni sərhədlərini qurur. İndi bizim dünyadan gözləntilərimiz getdikcə az və daha az olur. Biz başqasının ərazisinə soxulduğumuz üçün günahımızı hiss edərək baş əyməyə, dabanlarımızı bir-birinə vurub şaqqıldatmağa, ən xırda bəhanəyə görə üzrxahlıq etməyə başlayırıq. Üfüqün bu cür büzüşməsini yalnız bir üsulla adlamaq olar: şüurlu surətdə əks istiqamətdə proses keçirtmək – uğursuzluqların əhəmiyyətini azaltmağı və məhdudiyyətlərə diqqət yetirməməyi, daha yaxşıya

layiq olduğunuza özünüzü əmin etməyi, nəhayət, bunu tələb etməyi – uşaqlıqda olduğu kimi – öyrənin. Buna nail olmaq üçün özünüzə müəyyən strategiya işləyib hazırlamalı və ona riayət etməlisiniz. Gəlin onu "Tac Strategiyası" adlandıraq.

"Tac Strategiyası" müəyyən səbəb-nəticə zəncirinə əsaslanır: əgər siz tale tərəfindən möhtəşəm işlər üçün təyin olunduğunuza inanarsınızsa, onda bu əminlik sayəsində siz özünəməxsus, tac padşahın ətrafında yaratdığı parıltıtək nur saçmağa başlayacaqsınız. Bu zahiri nur ətrafdakıları hipnoz edəcək və onlar sizin özünüzə əmin olmaq üçün, çox güman, sanballı səbəbləriniz olduğunu hesab etməyə başlayacaqlar.

Əsil-nəcabəti olmayan adamlar – Feodora Vizantiyskaya, Kolumb, Bethoven, Dizraeli – tarix boyunca özlərinin əzəmətli olduqlarına elə möhkəm inamla "Tac Strategiyası"na riayət ediblər ki, bu, peyğəmbərliyə çevrilir və bu, həyata keçirdi! Fənd sadədir: özünüzə əminliyiniz sizin özünüzə inamsızlığınıza üstün gəlməlidir. Hətta əgər qəlbinizin dərinliklərində özünüzü aldatdığınızı başa düşürsünüzsə də, bununla belə, özünüzü padşahtək aparın. Görəcəksiniz, sizinlə elə buna müvafiq olaraq da rəftar edəcəklər.

Tac, ola bilsin, sizi kütlədən fərqləndirəcək, lakin onun parıltısını uzun müddət qoruyub saxlamaq bundan heç də az əhəmiyyətli deyil. Bunun üçün özünüzü xüsusi qaydada, sanki davranışınızla əhatənizdə olanları sizdən ayıran məsafəni qeyd edirmişsiniz kimi aparmaq lazımdır. Fərqləndiyinizi qeyd etməyin yaxşı üsulu – şəraitdən asılı olmayaraq, özünü həmişə ləyaqətlə aparmaqdır.

Özünü şahanə aparmaq manerasını həyasızlıqla, özünə inamlı olmağı isə – özünəarxayınlıqla qarışıq salmaq lazım deyil. Hərdən krallara həyasızlıq xas olur, ancaq bu yalnız həyəcan və zəifliyi büruzə verir. Deməli, həyasızlıq şahanə davranışa düz əks olan nə isə bir cizgidir.

Ləyaqət, yeri gəlmişkən, istənilən çətin şəraitdə xilas edən məğlubiyyətsiz keyfiyyətdir: sanki heç nə sizə toxuna bilməz və əgər siz lütf edib buna diqqət yetirərsinizsə, ona həmişə cavab verə bilərsiniz. Razılaşın ki, fövqəladə dərəcədə güclü mövqedir və nəhayət, şahanə davranışın nümayiş etdirilməsi üçün zəruri olan

daxili psixoloji göstərişləri qüvvətləndirməkdən ötrü zahiri, axtardığınız effektə nail olmaqda sizə kömək edəcək fəndlər mövcuddur. Birincisi, Kolumbun strategiyasını tətbiq edin. Qiyməti mümkün qədər yüksək təyin edin və onu aşağı salmayın. İkincisi, rəqib qismində öz mövqeyinə görə hamıdan yüksək olanı seçməklə şəxsi ləyaqət hissinizi təzahür etdirin. Əgər siz ən əsas olanın üzərinə hücum edirsinizsə, bu hücum sizi avtomatik olaraq onunla bir səviyyəyə qoyur. Bu, David və Qoliaf strategiyasıdır: əzəmətli opponent seçməklə əzəmətli görüntünüzü yaradırsınız. Üçüncüsü, özünüzdən yüksəkdə olana hansısa bir hədiyyə edin. Bu, himayədarı olanların strategiyasıdır: patrona hədiyyə etməklə siz, onunla özünüz arasında bərabərliyə işarə etmiş olursunuz. Bu, köhnə julikcəsinə tryukdur: ver ki, ala biləsən.

Yadda saxlayın: qiymətinizi özünüz təyin etmisiniz. Siz az istəyirsiniz və düz o qədər alırsınız. Elədirsə, çox istəyin – bununla göstərəcəksiniz ki, əslində şahanə iltifata layiqsiniz. Hətta sizə imtina edən də özünüzə inamınıza hörmət duyacaq, bu hörmət isə tez və ya gec öz rolunu oynayacaq və əvvəlcədən fikirləşmək mümkün olmayan gözlənilməz üsulla özünü doğruldacaq.

Obraz: Tac. Onu başınıza taxın və o sizi qəddinizi dəyişməyə məcbur edəcək – sizdə nur saçan təmkinli ləyaqət meydana çıxacaq. Tərəddüd etdiyinizi heç vaxt göstərməyin, şahanəliyinizi itirməyin, yoxsa tac başınızdan düşəcək. O daha layiqli olana keçəcək. Tacqoyma mərasiminə nə vaxt dəvət olunacağınızı gözləməyin. Dünyanın ən qüdrətli imperatorları, bir qayda olaraq, tacqoymanı özlərinə özləri ediblər.

Nüfuzlu rəy: "Hər kəs öz təbirincə şahanə olmalıdır. Qoy sənin hər bir, hətta sıravi hərəkətin – öz sahəsində – padşahyana hərəkətə bərabər olsun. İşlərində möhtəşəm və fikirlərində uca ol. Əməllərinin hamısı ilə göstər ki, padşah olmağa layiqsən, hətta əgər gerçəklikdə o deyilsənsə də".

Baltazar Qrasiani (1601-1658)

"Özünəhörməti heç vaxt itirmə və tək qalanda özünə münasibətdə saymazyana rəftaradək alçalma. Qoy özün barədə mülahizələrinin ciddiliyinə əsaslanan mənəvi ölçü meyarın istənilən zahiri müddəalardan çox şəxsi naturanın bütövlüyü olsun. Özünə yaraşdırmadığın hərəkətlərdən özünü, kənardan nüfuzluların ciddi tənqidinə görə yox, öz nəcib məziyyətlərinə hörmətdən çıxış edərək saxla. Özünə ilahipərvər qorxu ilə münasibət göstərməyi vərdiş et və Senekanın[4] təxəyyülündəki mürəbbeyə səndə ehtiyac meydana çıxmayacaq".

Baltazar Qrasiani (1601-1658)

4 Lusius Annaeus Seneka (lat. Lucius Annaeus Sĕnĕca, b.e.ə. 4-cü – b.e. 65-ci illər) – Roma filosifu, şair və dövlət xadimi. Neronun mürəbbesi və stoisizmin ən böyük nümayəndələrindən biri

# QANUN 35

## VAXTI İDARƏ ETMƏK SƏNƏTİNƏ YİYƏLƏN

## QANUN BELƏ İFADƏ OLUNUR

Tələsdiyinizi heç vaxt büruzə verməyin – tələskənlik özün və öz vaxtınla sərəncam etməyi bacarmamağı üzə vurur. Həmişə sakit görünməyə çalışın, sanki hər şeyin əvvəl-axır öz ayağı ilə əlinizə gələcəyini bilirsiniz. Düzgün məqamı seçməyi, zamanın ruhunu, ən əsası isə – sizi hakimiyyətə gətirəcək tendensiyaları tutmağı öyrənin. Əgər vaxt hələ gəlib çatmayıbsa, kənara çəkilməyi və məqam yetişən vaxt var qüvvənizlə mübarizə aparmağı öyrənin.

## HAKİMİYYƏTİN AÇARI

Zaman – süni konsepsiyadır və biz onu özümüz əbədiyyətin və Kainatın hüdudsuzluğuna tab gətirməyin mümkün olması, onları insanlaşdırmaq üçün yaratmışıq. Zaman haqqında təsəvvür yaradaraq biz hansısa bir dərəcədə onu idarə etmək, onunla oyun çıxartmaq imkanı əldə etmişik. Uşaqda zaman asta və uzun, asanlıqla dartılıb uzanandır. Yaşlılarda o təşviş doğuran sürətlə uçur. Beləliklə, zaman onun necə qəbul edilməsindən asılıdır və bu, başa düşdüyümüz kimi çox güclü şəkildə dəyişə bilir.

Biz üç növ zamanla üzləşirik; onlardan hər biri öz məsələlərini təklif edir ki, bunları müəyyən bacarıq və fərasət olarsa, həll etmək mümkündür.

Birinci növ – dartılmış zaman: uzun çəkir, bəzən illərlə uzanır – ona çox səbirlə və ehtiyatla yanaşmaq lazımdır.

İkinci növ – sıxılmış zaman: bu, rəqibin hesablamalarının hamısını alt-üst edərək, hücum etmək üçün silah kimi istifadə edə biləcəyimiz zamandır.

Və nəhayət, üçüncü növ – endşpil zamanı, bu vaxt planı tez və inadkarlıqla həyata keçirmək lazımdır. Siz daldaya çəkilib gözləmisiniz, məqamı təyin etmisiniz və indi tərəddüd etmək olmaz.

Uzadılmış zaman. Siz, qorxudan və ya səbirsizlikdən, sürəti artıraraq, öz həllini tələb edən problemlərin bütöv yumağını meydana çıxarırsınız və əvvəl-axır sizdə gedə biləcəyi ilə müqayisədə daha çox vaxt gedir. Tələskən adamlar bəzən getdikləri yerə tez çata bilmirlər, onlar vacib kağızları itirirlər, təhlükəli vəziyyətə düşməklə risk edirlər, onlar elə özlərinin yaratdıqları problemləri həll edə-edə, daimi böhran rejimində yaşayırlar. Hərdən təhlükə ilə üzləşəndə fəaliyyətsizlik – etmək mümkün olanlar arasında ən yaxşısıdır: siz gözləyirsiniz, siz şüurlu olaraq tempi aşağı salırsınız. Vaxt gedir və birdən sizə elə imkanlar düşür ki, siz onları heç təsəvvür belə etməzdiniz.

Siz vaxtı şüurlu olaraq yavaşıdırsınız, ancaq bunu həyatınızı və ya ani olan ləzzəti uzatmaq üçün yox, hakimiyyət oyunlarını oynamaq üçün edirsiniz. Beyniniz daim təxirəsalınmaz işlərlə yüklənməmiş olanda, siz bir neçə addım qabağı görmək imkanı əldə edirsiniz. Üstəlik də, qarşınızda düzülən tələlərə münasibətdə dayanıqlı olmaq bacarığına yiyələnəcəksiniz və adi səbirsiz sadəlövhə çevrilməkdən özünüzü saxlaya biləcəksiniz. Hakimiyyətin bünövrəsinin, əsasının yaradılması illərlə vaxt apara bilər; bu əsasın möhkəm qoyulduğuna əmin olun. Hədəfdən yan vurmayın – uğur yavaş-yavaş tikilir və yalnız belə bir uğur uzun müddət çəkir.

Sıxılmış zaman. Sıxılmış zamanla bağlı tryuk, əhatənizdə olanların vaxtla bağlı təsəvvürlərini təhrif edərək, – tələsmək məcburiyyətində qoymaqla, gözləməyə və ya özlərinə rahat olan ritmi pozmağa vadar etməklə – onların vaxtla bağlı hesablamalarını pozmaqdan ibarətdir. Rəqibinizin planlarını pozmaqla siz sərəncamınıza vaxt əldə edirsiniz, bu isə artıq işin yarısı deməkdir.

Adamları gözləməyə məcbur etmək – vaxtı daraltmağın təsirli üsuludur, əlbəttə, onlar sizin nə məqsəd güddüyünüzdə şübhələnməyə başlayan vaxta qədər. Siz saatı nizamlayırsınız –

adamlar gözlənti içindədirlər və tezliklə sayıqlığı itirirlər və indi sizə zərbəni endirmək qalır. Buna əks olan fənd də effektivdir: rəqibi tələsməyə məcbur edin. Öz işinizi onunla tələsmədən başlayın, ardınca gərginliyi kəskin artırın, elə hiss yaradın ki, hər şey lap indicə baş verəcək. Fikirləşməyə vaxtı olmayanda insanlar səhvlərə yol verirlər – bununla da onlar üçün müddətlər təyin olunur.

Endşpil zamanı. Siz oyunu virtuoz artistliklə apara bilərsiniz – hərəkətə keçmək, öz ritminizi ona sırıyaraq və onun hesablarını dağıdaraq rəqibi yolundan vurub çıxarmaq üçün yerinə düşən məqamı səbirlə gözləyirsiniz – ancaq əgər siz hər şeyi necə tamamlayacağınızı fikirləşib tapmamısınızsa bütün bunların heç bir əhəmiyyəti yoxdur. İradə olmadan, lakin ən əsası – lazım olan məqamda rəqibi amansızcasına basıb əzməyə hazır olmadan səbir bir qara qəpiyə də dəyməz. Siz hər şeyin aydınlaşacağı məqamı uzun müddət gözləyə bilərsiniz, amma bu vaxt gəlib çatanda tez və qətiyyətlə hərəkət etmək lazımdır. Sürət, rəqibi iflic etmək üçün lazımdır.

Obraz: Şahin. O səmada, yüksəklikdə təmkinlə və dinməz dairələr cızır, ətrafda hər şeyə diqqətlə göz qoyur. Orada, aşağıda olanların heç ağlına da gəlmir ki, təhlükə altındadırlar. Qəfildən məqam seçərək, şahin daştək aşağıya elə sürətlə düşür ki, ondan müdafiə yoxdur. Onun qurbanı nə baş verdiyini heç başa da düşməyə macal tapmır, amma möhkəm caynaqlar onu artıq göylərə aparır.

Nüfuzlu rəy:
"İnsanların işlərində qabarma anı olur,
Bu əgər əldən buraxılmayıbsa, onları sürətlə xoşbəxtliyə aparır,
Əks halda isə onların həyat dənizində bütün səyahəti
Dayazlıqlar və çətinliklər arasında keçir".
Uilyam Şekspir (1564-1616)

Fars sultanı iki nəfərə ölüm hökmü çıxarır. Onlardan biri, sultanın öz atına nə qədər bağlı olduğunu bilərək həyatının müqabilində ata bir il ərzində uçmağı öyrədəcəyini vəd edir. Dünyada yeganə uçan atın yiyəsi ola biləcəyini təsəvvür edən sultan razı olur. O biri məhkum dostuna şübhə ilə baxır. "Axı atların uça bilmədiyini sən məndən pis bilmirsən. Sultana belə bir şikarı təklif etməyə səni nə məcbur elədi? Sən axı bununla yalnız qurtulmaq mümkün olmayanı təxirə salırsan". "Bu elə deyil, – verildi cavab. – Əslində mən azad olmaq üçün dörd şans əldə etdim. Birincisi, bir il ərzində sultan ölə bilər. İkincisi, mən özüm də ölə bilərəm. Üçüncüsü, at da ölə bilər. Dördüncüsü isə... birdən hər halda mən ona uçmağı öyrətdim!"

R.Q.H.Syu,

"Hakimiyyətin gücü", 1979

# QANUN 36

## NƏYƏ YİYƏLƏNƏ BİLMİRSƏN, ONA NİFRƏT ET: SAYA ALMAMAQ – ƏN YAXŞI QİSASDIR

## QANUN BELƏ İFADƏ OLUNUR

Xırda şeyi problem kimi qəbul etməklə siz ona mövcud olmaq hüququ verir və onu qüvvə ilə təmin edirsiniz. Siz düşmənə nə qədər çox diqqət ayırırsınızsa, o, bir o qədər güclü olur, axı kiçik bir səhvi düzəltməyə cəhd edəndə o çox vaxt daha ciddi və nəzərə çarpana çevrilir. Hərdən hər şeyi olduğu kimi saxlamaq yaxşıdır. Əgər istədiyiniz, amma yiyələnə bilmədiyiniz nə isə mövcuddursa, ona münasibətdə saymazyanalıq nümayiş etdirin. Siz nə qədər az maraq göstərəcəksinizsə, bir o qədər əlçatmaz olduğunuz təsiri bağışlayacaqsınız.

## HAKİMİYYƏTİN AÇARI

Arzular çox vaxt paradoks doğurur: siz nəyin isə dalınca nə qədər qovhaqova düşürsünüzsə, o sivişərək, bir o qədər çətin ələ düşür; siz arzunuzun obyektinə nə qədər çox maraq göstərirsinizsə, o özündən bir o qədər bərk itələyir. Bu onunla izah edilir ki, arzunuz həddən artıq güclüdür – bu, ətrafınızdakı insanlarda ehtiyatlı olmaq, ardınca isə qorxu hissini doğurur. Nəzarət olunmayan arzu sizə zəif, əhəmiyyətsiz, miskin insan görkəmi verir.

Siz belə çox yiyələnmək istədiyiniz şeydən nümayişkaranə surətdə üz çevirməli, biganəliyinizi, saymazyanalığınızı göstərməlisiniz. Bu, güclü reaksiyadır və bu, obyektinizi müvazinətdən çıxaracaq. Siz cavab istəyini doğuracaqsınız. Ən çox

güman olunan odur ki, bu, sadəcə olaraq, sizə təsir etmək, ola bilsin, sizə yiyələnmək, bəlkə də, sizə ağrı yetirmək istəyi olacaq. Əgər sizə yiyələnmək istəyərlərsə, onda deyə bilərik ki, lətafətləndirmənin birinci mərhələsinin öhdəsindən uğurla gəlmisiniz. Əgər xətrinizə dəymək, yaralamaq istəyərlərsə, əyilməyin, öz oyun qaydalarınızı sırıyın.

Nifrət – kralların imtiyazıdır. O lütf edib öz baxışlarını hara yönəldərsə, gerçəklik oradadır, o nəyi görməyi qərara alarsa, odur gerçəklik. XIV Lüdovik bu silahdan istifadə edirdi – əgər kimsə onun xoşuna gəlmirdisə, özünü elə aparırdı ki, sanki həmin adam burada yoxdur; Lüdovik üstünlüyünə xələl gətirməyərək, öz qərarı ilə ünsiyyəti kəsirdi. Nifrət kozırını oyuna daxil etməklə siz də – onlarsız da keçinə bildiyinizi ətrafınızdakılara mütəmadi göstərə-göstərə bu cür hakimiyyətə nail olun. Belə hərəkət xəttini seçməklə siz qüvvə əldə edirsiniz, ancaq oyunun bahası əks olana – bağlılığa və sadiqliyə qoyularsa, bunlar çox vaxt zəiflədir. Miskin insana layiq olmadığı diqqəti yetirməklə siz özünüz də miskin kimi görünürsünüz və sizin ünsiyyətiniz nə qədər çox davam edirsə, bu (miskinlik), bir o qədər əhəmiyyətli təsir bağışlayır. Lakin başqa bir təhlükə də var: əgər siz bezdirici adamı basıb əzməyə və ya heç olmasa onu yaralamağa müvəffəq olubsunuzsa, onda məğlub olanın zəif tərəfinə simpatiya meydana çıxarmaqla risk edirsiniz.

Biz çox vaxt səhvlərimizi malalamaq təhriki hiss edirik, lakin nə qədər çox çalışırıqsa, nəticə hərdən bir o qədər pis olur. Bəzən elə olur ki, hər şeyi olduğu kimi saxlamaq daha düzgündür. Problemin üzərində ilişib qalmaq, sizdə nə qədər həyəcan və narahatlıq doğurduğunu göstərərək onu üfləyib alovlandırmaq və dərinləşdirmək əvəzinə, çox vaxt ümumiyyətlə bu problemin mövcud olduğunu bildiyinizi büruzə vermədən, aristokratın ikrah maskasını taxmaq daha ağıllıdır. Bu strategiyanı tətbiq etməyin bir neçə üsulu var.

Birinci üsul – onu yetişməmiş üzüm siyasəti adlandıraq. Əgər siz nəyi isə lap çox istəyirsinizsə, amma bunu əldə edə bilməyəcəyinizi bilirsinizsə, ən pisi – nə qədər məyus olduğunuz göstərmək və bəxtsizliyinizlə bağlı hamıya şikayətlənməkdir.

Həmin nəyinsə sizin üçün heç vaxt elə də vacib olmadığını üzə vurmaq xeyli yaxşı olardı.

İkinci üsul: əgər sizə "altdan" – sizdən zəif və ya aşağıda olan kimlərsə – hücum edirlərsə, diqqət yetirməyin, hücumun heç nəzərinizə də çarpmadığını göstərin. Dalqın görkəmlə uzaqlara baxın, ya da mehriban təbəssümlə nəvazişlə cavab verərək, bu hücumun sizin üçün heç bir əhəmiyyət kəsb etmədiyini nümayiş etdirin. Eyni cür də, əgər siz nə isə xoşagəlməz bir hadisə ilə üzləşmisinizsə – bu məsələnin sizin üçün elə də əhəmiyyət kəsb etmədiyini göstərməklə səhvinizin doğurduğu təəssüratı yumşalda bilərsiniz.

Yadda saxlayın: güclü adamın dilxoredici xırdalıqlara və qıcıqlandırıcı boş şeylərə layiqli reaksiyası – nifrət və ya lütfkarlıqdır. Nəyin isə sizə toxunduğunu, xətrinizə dəydiyini və ya kefinizi pozduğunu çalışın göstərməyəsiniz – bununla işə kömək olmayacaq, siz bununla yalnız problemin mövcud olduğunu etiraf etmiş olacaqsınız. Nifrət – elə bir təamdır ki, onu gərək soyuq halda verəsən.

Obraz: Xırda yara. O xırda olsa da, ağrıdır və zoqquldayır. Üstünə müxtəlif dərmanlar qoyursunuz, şikayətlənirsiniz, onu qaşıyır və qoparırsınız. Həkimlər xırda bir yaranı ciddi problemə çevirərək vəziyyəti yalnız pisləşdirirlər. Amma onu, sadəcə olaraq, gərək rahat buraxasan, eşələməyəsən – və vaxt keçdikcə yara elə sağalacaq ki, heç izi də qalmayacaq.

Nüfuzlu rəy: "Nifrət kartını oyuna qatmağı öyrən. Bu, qisasın ən hiyləgər-ağıllı formasıdır. Bir çox adamın adı heç kimə məlum olmazdı, bircə əgər bu adamların görkəmli rəqibləri onları saya almasaydılar. Heç bir qisas unudulmaqla müqayisə oluna bilməz, zira unudulmaq layiqli olmayanın öz şəxsi miskinliyi tozunda basdırılmasından başqa bir şey deyil".

Baltazar Qrasiani (1601-1658)

"Biriləri hamı ilə və hər şey haqda qeybətdən özlərini saxlaya bilmədikləri kimi, başqaları da istənilən məsələ ilə bağlı əl-ayağa

düşürlər. Onlar həmişə hər şeyi şişirdirlər, hər şeydən sirr edərək və hər yerdə inciklik üçün səbəb taparaq hər şeyi ciddi qəbul edirlər. Demək olar heç bir inciklik və kədər ürəyə yaxın tutmağına layiq deyil, axı bu özünü boş-boşuna narahat olmağa məcbur etmək demək olardı. Bir şeyi ki, sadəcə olaraq, çiynin üstündən tullayıb atmaq lazımdır, ona görə özünə əzab verə-verə yaşamaq absurddur. Hal-hazırda vacib əhəmiyyət kəsb etdiyi təsiri bağışlayan bir çox şeyin tamamilə əhəmiyyətsiz olduğu bəlli olur – əgər onlara saymazyana yanaşılarsa; boş olduğu təsiri bağışlayan digərləri isə, əgər onlara lazımi diqqət yetirilərsə, heyran qalmağa layiq olurlar".

Baltazar Qrasiani (1601-1658)

Bir dəfə H.K.Çestertonun iqtisadi baxışları mətbuatda Bernard Şou tərəfindən tənqidə məruz ediləndə, onun dostları hücumlara nə ilə cavab verəcəyini səbirsizliklə gözləyirdilər – lakin cavab gəlmədi. Tarixçi H.Bellok buna görə onu qınadı. "Mənim əzizim Bellok, – dedi Çesterton, – mən ona cavab verdim. Şou kimi itiağıllı adam üçün susmaq – ən dözülməz fatihədir".

Klifton Fadiman,
"Qəhvəyi rəngdə lətifə kitabı", 1985

# QANUN 37

## UNUDULMAYAN TAMAŞALAR YARAT

## QANUN BELƏ İFADƏ OLUNUR

Gur obrazlılıq və simvolik gözəl jestlər hakimiyyət aurasını yaradır – onlar istənilən adamı ağuşuna alır. Buna görə də əhatənizdə olanlar üçün cəzbedici olan əyani və parıltılı işıq saçan, sizin iştirakınızın payını şişirdib artıran simvollarla dolu tamaşa qoyun. Tamaşanın şüasından kor olaraq heç kim sizin etdiklərinizin əslində nə qədər olduğuna diqqət yetirməyəcək.

## HAKİMİYYƏTİN AÇARI

Öz işinizi sözlərin köməyi ilə müdafiə etməyə çalışmaq risklidir: sözlər – təhlükəli alətdir, onlar çox vaxt hədəfə dəymir. Ətrafdakıların kimisə inandırmaq üçün istifadə etdikləri sözlər, sanki bu mövzu ətrafında düşünüb-daşınmağa dəvət edir və bu da çox vaxt bizim əks qənaətlərə gəlməyimizlə başa çatır. (İnsan təbiətinin ziddiyyətliliyi özünü qismən bunda göstərir.) Belə də olur ki, sözlər, onları deyənə münasibətdə bizdə xoşagəlməz hisslər meydana çıxararaq heysiyyətimizə toxunur, həmin adamın isə bu heç ağlına da gəlmir. Vizual informasiyaya gəlincə isə o, sözlər labirintindən yan keçərək, birbaşa yolla getməyə imkan verir. O özünün emosional qüvvəsi ilə sarsıdır və refleksiyalar və şübhələr üçün yer qoymadan ani olaraq təsir edir. O, musiqitək rasionaldır, düşünülüb-daşınılan fikirlərin bəndlərini dağıdaraq sel kimi axıb keçir.

Başa düşmək zəruridir: sözlər sizi qaçılmaz surətdə müdafiə mövqeyinə qoyur. Əgər siz izahat vermək məcburiyyətindəsinizsə,

bununla da dərhal sizin qüvvənizlə bağlı şübhələr meydana çıxır. Lakin görmə duyğusu vasitəsilə qəbul olunan obraz təsiredicidir apriori. O suallar meydana çıxarmır, çox güclü assosiativ sıra doğurur, arzuolunmaz interpretasiyaları istisna edir, ani olaraq şüura yol tapır və sosial bərabərsizlik tərəfindən ucaldılan adlanmaz maneələri dağıdır. Sözlər mübahisələri və diskussiyaları qızışdırır, obrazlar insanları birləşdirir. Obrazlar – hakimiyyətin ən vacib və zəruri alətidir.

Simvolun malik olduğu hakimiyyət heç də bundan az deyil – bu qoy bilavasitə görmə duyğusu ilə qəbul olunan obraz olsun və ya onun sözlə təsviri (Padşah-Günəş). Abstrakt ideya – saflıq, patriotizm, mərdlik, sevgi – emosional yük və güclü assosiasiyalar daşıyır.

Roma imperatoru Əzəmətli Konstantin Günəşə bütün ömrünün ilahisitək ehtiram edirdi, lakin o, bir dəfə gözünü Günəşə qaldırdı və onun üstündən çarpaz keçən xaç gördü. Günəşin üzərində xaç görüntüsü onu yeni dinə sitayiş etməyə sövq etdi və Konstantinin xristianlığın öz imperiyasında bərqərar olmasına köməyi az olmadı. Dünyanın moizəçilərinin hamısı yığışsaydı, ona belə möhtəşəm təsir edə bilməzdi. İndi siz də, bu gün insanlara ani olaraq təsir göstərə biləcək müvafiq obrazlar və simvollar tapın: adınızın onlarla assosiasiyalaşmasına nail olun. Bu sizə deyilməz qədər hakimiyyət verəcək.

Ən effektiv kombinasiya – əvvəllər uyuşmaz olan görmə obrazları və simvollarının qaynağıdır; sizinlə bağlı olan assosiasiyalar sayəsində bunlar yeni ideyanı, konsepsiyanı, dini dəqiq nümayiş etdirə bilərlər. Tez-tez olur ki, görmə obrazları müəyyən ardıcıllıqla peyda olur və bu halda onların peyda olduqları nizam özü-özlüyündə simvolikdir. O obraz ki birinci peyda olur, məsələn, hakimiyyəti simvollaşdırır, ortada dayanan – mərkəzi əhəmiyyət kəsb edən təsirini bağışlayır.

Simvollardan tabeçiliyinizdə olanları və ya tərəfdaşlarınızı ruhlandırmaq və birləşdirmək üçün istifadə edin. 1648-ci ildə qiyamın gedişində Fransa kralına sadiqliyini saxlayanlar qiyamçıları məsxərəyə qoyaraq onları balaca uşaqların bir az böyük uşaqları qorxutmağa çalışdıqları sapandla (fransızca frondes) müqayisə

edirdilər. Kardinal de Rets bu alçaldıcı obrazı qiyamın simvoluna çevirməyi qərara aldı: indi o Fronda adını aldı, qiyamçılar isə fronderlər oldular. Onlar şlyapalarında sapand (bir başı haçalanmış, haçalanmış tərəflərinə rezin taxılan, xırda daşlar atan "silah") görkəmində olan bəzəklər gəzdirməyə başladılar, sözün özü isə döyüş çağırışına çevrildi. Sizin hadisənizə uyğun olan simvol həmişə tapılar – emosional assosiasiyalar nə qədər çoxdursa, bir o qədər yaxşıdır.

Obraz və simvolların istifadə olunmasının ən düzgün üsulu – bunlardan insanları ovsunlayan və onların diqqətini xoşagəlməz reallıqlardan yayındıran ecazkar tamaşa yaratmaqdır. Bunu etmək elə də mürəkkəb deyil: insanlar miqyaslı, əyləndirici və həqiqətəuyğun olmayan hər şeyi sevirlər. Onların hisslərinə çağırış edin və izdiham sizin şoularınıza axışacaq. İnsanların ürəklərinə ən qısa yol, görmə qabiliyyəti vasitəsilə alınan təəssüratlar yolu ilə keçir.

Obraz: Xaç və Günəş. Çarmıx və parıltılı dəbdəbə. Biri o birinin üstünə düşəndə yeni reallıq öz formasını almış olur – yeni hakimiyyət yüksəlir. Bu simvoldur – onun çoxsözlü izahlara ehtiyacı yoxdur.

Nüfuzlu rəy: "İnsanlar üçün şeylərin xarici qatı vacibdir həmişə... Hökmdar ilin müvafiq dövründə xalqı bayramlar və tamaşalarla əyləndirməlidir".

Nikkolo Makiavelli (1649-1527)

"Onu saray əyanlarıtək əhatə edən digər ulduzlara saldığı işığa, onun öz şüalarını hamıya və hər kəsə ədalətlə və bərabər paylamasına, onun hər yerə bərəkət gətirməsi və həyat, sevinc və canlanma doğurmasına, onun heç vaxt xəyanət etmədiyi daimiliyinə görə, mən günəşi ən möhtəşəm, qüdrətli monarxı simvollaşdırmağa layiq olan obraz kimi seçirəm".

XIV Lüdovik, Kral-Günəş, 1638-1715

Yuxarı Kiotoda yaşayan Sakamotoyya Heçiquan adlı bir adam var idi. Hökmdar Hideyoşi 1588-ci ilin onuncu ayında Kitanoda özünün məşhur tanoyu qəbulunu verəndə Heçuqan eni doqquz fut olan al qırmızı rəngli iri çətiri, uzunluğu yeddi fut olan dirəkdə bərkitdi. Çətiri o, iki fut məsafədə qırmızı çəpərlə elə bir şəkildə əhatə etdi ki, günəş işığı ondan əks olunaraq hər yerə eyni rəngli şüalar saçsın. Bu kompozisiya Hideyoşinin elə xoşuna gəldi ki, o, mükafat qismində Heçuqanı vergidən azad etdi.

A.L.Sadler, "Tanoyu; yapon çay dəsgahı"

# QANUN 38

## NƏ İSTƏYİRSƏN FİKİRLƏŞ, AMMA HAMI KİMİ HƏRƏKƏT ET

## QANUN BELƏ İFADƏ OLUNUR

Əgər orijinal ideyalar və qeyri-ortodoksal yollarla fors etdiyinizi, öz zamanınızı qabaqladığınızı və epoxaya qarşı durduğunuzu göstərmək istəyirsinizsə, adamlar sizin, sadəcə olaraq, diqqəti cəlb etmək istədiyinizi, onlara isə yuxarıdan aşağı baxdığınızı fikirləşə bilərlər. Adamları sizin üstünlüyünüzü duymağa məcbur etdiyinizə görə onlar sizi cəzalandırmaq üçün əvvəl-axır bir üsul tapacaqlar. Onlarla qaynayıb-qarışmaq və hamı kimi olmaq qat-qat təhlükəsizdir. Öz orijinallığınızı yalnız, buna dözümlü olan dostlarınıza və bir də unikallığınızın xoşlarına gələcəyini dəqiq bildiyiniz adamlara açın.

## HAKİMİYYƏTİN AÇARI

Hamımıza yalan danışmaq və əsl duyğularımızı gizlətmək lazım gəlir, çünki cəmiyyətdə tamamilə azad özünüifadə qəbuledilməz, hətta demək də olar ki, qeyri-mümkündür. Biz ən zərif yaşlarımızdan bizdən nə eşitmək istəyirlərsə onu deməklə fikirlərimizi gizlətməyi öyrənirik, heç kəsin xətrinə dəyməməyə, könlünü qırmamağa var gücümüzlə çalışırıq. İnsanların əksəriyyəti buna gerçəklik kimi baxır: əhatəmizdə olanların hamısının qəbul etdikləri ideyalar, dəyərlər dəsti var və bunu mübahisə etmək mənasızdır. Biz nəyə inanmaq istəyiriksə, ona inanırıq, ancaq evdən çıxanda maska taxırıq.

Amma bu cür itaətkarlıqda özləri üçün dözülməz olan şəxsi azadlığın pozulmasını görən adamlar da var. Onlar özünütəsdiqə və öz dəyərlərinin və inanclarının üstün olduğunu sübuta

yetirməyə möhtacdırlar. Lakin yekunda onların arqumentləri çox az adamı inandırır, təhqir olunmuşlar isə qat-qat çox olur. Onların arqumentləri niyə təsir etmir sualının cavabı ondan ibarətdir ki, insanların əksəriyyəti öz ideallarına və prinsiplərinə, bunlar haqqında dərin düşüncələrə dalmadan riayət edirlər. Onların etiqadları əsas etibarilə emosiyalara əsaslanır: onlar özləri üçün öyrəncəli olan düşüncə tərzini təftişə məruz qoymaq istəmirlər və siz onları ya birbaşa – dəlillərlə, ya da dolayısı ilə – öz davranışınızla buna çağıranda bu onları qeyzləndirir.

Müdrik və tədbirli adamlar erkən yaşlarında əzbərləyirlər ki, necə qəbul olunubsa, özünü o cür aparmaq, hündürdən səsləndirilən fikirləri tarazlaşdırmaq olar, amma bu vaxt onların öz dediklərinə və etdiklərinə inanmaları vacib deyil. Ətrafından seçilməməyi bacaran adamların nail olduqları hakimiyyətin təzahürlərindən biri – maneəsiz olaraq hər şey haqda fikirləşmək, kiminlə öz fikirlərini bölüşmək istəyirsə, onunla bölüşmək və bu vaxt izolyasiyada qalıb əzab çəkməmək və ostrakizmə[5] məruz qalmamaq hakimiyyətidir. Mövqe və hakimiyyətə nail olandan sonra öz ideyalarınızın mahiyyətinə ithaf olunmuş adamların dairəsini genişləndirməyə cəhd etmək olar.

Sadəlövh olmayın – özünüzü aldatmayın ki, guya bizim maariflənmiş dövrümüzdə ortodoksallıq[6] artıq mövcud deyil. C.Solk, məsələn, hesab edirdi ki, elmin inkişafı ilə siyasət öləcək və şərtiliklər keçmişə varacaq. Və budur, poliemielitə qarşı vaksin hazırlayanda o, elmi etiketin bütün qaydalarını pozdu – kəşfi haqda elm aləminə məruzə etməzdən əvvəl bunu elan etdi, onun uğura yolunu çəkib-döşəmiş alimləri minnətdarlıqla yada salmadan vaksinin kəşf olunma şərəfinə özünə mənimsədi – bir sözlə, özü özünü elm aləmində günəş səviyyəsinə qaldırdı. İctimaiyyət, ola bilsin, bunu xoş məramla qəbul edərdi, lakin alimlər onun üstünə tökülüşdülər. Solkun elmi birlikdə ənənəvi olaraq qəbul edilmiş davranış kanonlarına hörmətsizliyi onun tam şəkildə təcrid olunmasına, boykotuna gətirdi. Yaranmış çatı aradan qaldırmaq və həmkarları ilə münasibətləri qaydaya salmaq üçün ona bir neçə il sərf etmək lazım gəldi.

Əsl hakimiyyətə malik olan adamlar əhatələrində olanlarla özlərini heç də təhqiramiz aparmırlar, Solkdan fərqli olaraq, onlar hiyləgər tülkü olmağı və kollektivizm hissini ifadə etməyi öyrənirlər. Yüzillər ərzində məhz bu cür davranış avantüristlər, moşenniklər və siyasətçilər üçün xarakterik olub və bu, indi də belədir. Əsl liderlər – Yuli Sezar və Franklin Delano Ruzvelt – sadə xalqa yaxınlıqlarını nümayiş etdirmək naminə özlərinin təbiətən olan aristokratizmini adlamağa hazır idilər. Onlar bunu – bəzən simvolik səciyyəli – xırdalıqlarda, hərəkətlərində, jestlərində büruzə verirdilər; bunların təyinatı sadə adamlara göstərmək idi ki, mövqelərindəki fərqə baxmayaraq, başçıları onların dəyərlərini bölüşür.

Bu cür praktikanın məntiqi davamı – hər şey, hamı üçün olmaq kimi qiyməti olmayan qabiliyyətdir. Sosiuma daxil olarkən şəxsi ideallarınızı və əqidələrinizi göyərtədən kənarda qoyun, sizin indi arasında olduğunuz qrup üçün hamısından yaxşı yarayan maskanı taxın. Bu oyuna Bismark çox yaxşı müvəffəq olurdu – doğrudur, onun əslində nəyə nail olmağa çalışdığını gözəl başa düşən adamlar tapılırdı, ancaq onların sayı əhəmiyyətsiz qədər az idi. Əksəriyyət tələ yemini udurdu, adamlara fikirləşmək xoş idi ki, Bismark kimi nüfuzlu xadim onların ideallarını bölüşür. Əgər ehtiyatlılığa riayət edərsinizsə, sizi ikiüzlü hesab etməyəcəklər – zira nə uğrunda çıxış etdiyini, sadəcə olaraq, başa düşməyə imkan verməyən adamı ikiüzlü hesab etmək olarmı? Heç kim sizi sinizmdə, eləcə də idealların və dəyərlərin yoxluğunda ittiham edə bilməyəcək. Bunlar aydın məsələdir, sizdə var – siz ətrafınızdakıların ideallarını düz o vaxta qədər bölüşürsünüz ki, onların əhatəsindəsiniz.

Obraz: Qara qoyun. Sürü qara qoyundan, yəqin ki, onun özünə aid olub-olmadığını bilmədiyinə görə qaçır. Bu səbəbdən də, o özü ilə canavarlar üçün dadlı tikə və asan şikar təcəssüm etdirərək, sürünün arxasında və ya kənarda girlənir. Sürüdə qalın – bu nisbətən təhlükəsizdir. Sürüdən yunun rəngi ilə yox, fikirlərinizlə seçilin.

Nüfuzlu rəy: "Müqəddəs yerlərə itləri buraxmayın və öz mirvarinizi donuzların qabağına atmayın ki, onlar onu ayaqları ilə tapdamasınlar və çönərək sizi parça-tikə etməsinlər".

(Matfeydən Yevangeliye, 7:6)

Əgər hökmdar Makiavellinin yanında şagird olsaydı, onun hökmdara məsləhət verməli olduğu birinci şey – makiavellizmə qarşı kitab yazmaq olardı.

Volter (1694-1778)

ŞƏHƏRLİ VƏ SƏYYAH

"Bax, – dedi şəhərli, – dünyada ən böyük bazar budur". "Heç də yox", – etiraz etdi səyyah. "Hə də, ola bilsin, ən böyüyü olmasın, – dedi şəhərli – ən yaxşısı olduğu isə lap yəqindir". "Siz bunda da yanılırsınız, – mən sizə danışa bilərəm..." Səyyahı alatoranlıqda dəfn etdilər.

Robert Luis Stivenson (1850-1894)

5 Ostrakizm – sürgün etmə, sürmə

6 Ortodoksal – bir məsləkin sabit və ardıcıl tərəfdarı

# QANUN
# 39

SUYU BULANDIR Kİ,
BALIĞI TUTASAN

QANUN BELƏ İFADƏ OLUNUR

Qəzəb və emosiyalar strateji cəhətdən mütləq qaydada bəhrəsizdir. Sizə həmişə təmkinli və obyektiv qalmaq lazımdır. Məsələ ondadır ki, sakitliyinizi saxlamağınızla düşmənlərinizi qəzəbləndirmək mümkün olursa, heç bir mübahisəsiz üstünlük qazanmış olursunuz. Düşmənləri müvazinətdən çıxarın: onların özündənrazılığında boşluq tapın ki, bunun vasitəsilə onları bezdirmək mümkün olsun – və onlar sizin qarmağınızda olacaqlar.

HAKİMİYYƏTİN AÇARI

Əlüstü özündən çıxan adamlar tez və ya gec gülünc görünməyə başlayırlar, çünki onların reaksiyası çox vaxt bu reaksiyanı meydana çıxaran səbəbə müvafiq deyil. Onlar özlərinə yetirilən inciklikləri və təhqirləri şişirdərək hər şeyi həddən artıq ciddi qəbul edirlər. Belə adamlar xırdalıqlara münasibətdə o qədər həssasdırlar ki, onların hər şeyi daxilən nə qədər dərin yaşamaları öz-özlüyündə gülünc görünməyə başlayır. Qəzəb gurultusunun qüvvəyə dəlalət etdiyi ilə bağlı onların əminlikləri daha komikdir. Əslində hər şey əksinədir: əsəbilik – qüvvənin yox, gücsüzlüyün əlamətidir. Çılğınlığınızla əhatənizdə olanları qısa müddət ərzində başlarını itirməyə məcbur edə bilərsiniz, lakin əvvəl-axır sizə getdikcə az hörmət edəcəklər. Vaxt keçdikcə əhatənizdə olanlar həm də özünü bu dərəcədə ələ ala bilməyən adamın öhdəsindən gəlməyin çox asan olduğunu dərk edəcəklər.

Məslə isə ondadır ki, problemin həlli qəzəbin və emosional reaksiyanın basılmasında deyil. Axı emosiyanın basılması adamdan

çoxlu enerji alır və davranışda sapmalara gətirir. Bunun əvəzində biz dərk etməliyik ki, cəmiyyətdə və hakimiyyət oyunlarında şəxsi olan heç nə yoxdur.

Hər kəs elə hadisələr zəncirinə düşür ki, bu zəncir başlanğıcını indiki məqamdan çox əvvəldən götürür. Bizim əsəbiliyimiz, bir qayda olaraq, uşaqlıq problemlərindən, valideynlərimizin problemlərindən meydana gəlir, valideynlərin də problemləri, öz növbəsində, onların uşaqlıq çağlarından gəlir və bu kimi. Onun (əsəbiliyimizin) köklərini ətrafda olanlarla qarşılıqlı münasibətlərdə də, yığılan məyusluqlarda və incikliklərdə də tapmaq olar. Çox vaxt bizə elə gəlir ki, əsəbiləşməyimizin (qəzəblənməyimizin) təhrikçisi – konkret bir adamdır, ancaq gerçəklikdə məsələ qat-qat mürəkkəbdir və bizə yetirilən inciklikdən xeyli dərinə gedib çıxır. Əgər bir kimsə öz əsəbiliyini sizin üzərinizə tökürsə (və bu sizin ona etdiyinizə qətiyyən müvafiq gəlməyən təsir bağışlayırsa), özünüzə xatırlatmaq lazımdır ki, onun qəzəbi personal olaraq sizə yönəlməyib – özünüz barədə bu qədər yüksək fikirdə olmayın. Səbəb xeyli genişdir, kökləri ilə keçmişə, o cümlədən də, onlarca sayda əvvəlki incikliklərə gedir, odur ki, bütün bunları başa düşməyə cəhd etməyinə belə dəyməz. Qəzəb püskürməsini öz hesabınıza qəbul etmək əvəzinə, ona gizli qüvvə təzahürü kimi, təhqir və ya qəzəbli tənbeh görüntüsü altında sizin öhdənizdən gəlmək və ya hətta sizi cəzalandırmaq cəhdi kimi baxın.

Problemə başqa rakursdan baxış sizə hakimiyyət oyununu daha böyük aydınlıq və enerji ilə aparmağa imkan verəcək. Hər şeyi bu qədər ağrılı qəbul etməyə və əhatənizdə olanların emosiyalarından kölə asılılığına düşməyə dəyməz, onların özlərini ələ ala bilmək qabiliyyətini itirmələrini öz xeyrinizə çevirmək qat-qat ağıllı olardı: onlar başlarını itirdikləri halda, siz ayıq başınızı saxlayırsınız.

Üç şahlıq müharibəsində (b.e.ə. III əsr) həlledici döyüşə hazırlığın aparıldığı vaxt, Tsao Tsaonun müşavirləri sənəd aşkar etdilər və burada onun sərkərdələrinin bəzilərinin düşmənlə əlbir xəyanətdə ifşa olunduqları sübuta yetirilirdi. Müşavirlər onu, xəyanətkarları həbs və edam etdirmək qərarını verməsi üçün tələsdirirdilər. Bunun əvəzində o, sənədləri yandırmağı və bütün

bu əhvalatı unutmağı əmr etdi. Əgər o, döyüşün kritik məqamında özünü itirdiyini göstərmiş, xəyanət barədə bildirmiş, haqq-ədalətin zəfər çalmasını tələb etmiş olsaydı, bu, qoşunlarda döyüş ruhunun zəifləməsini meydana çıxararaq onun özünə qarşı çevrilə bilərdi. Haqq məhkəməsi gözləyə bilərdi: sədaqətsiz sərkərdələrlə o, vaxtı gələndə ayırd edəcək. Tsao Tsao öz üzərində nəzarəti itirmədi və düzgün qərar qəbul etdi.

Qəzəb sizin imkanlarınızı yalnız məhdudlaşdırır, hökmlü, güclü adam isə məhdud imkanlar şəraitində mövcud ola bilmir. Xoşagəlməzlikləri ürəyinizə yaxın buraxmamağı və emosiyalarınıza nəzarət etməyi öyrənin. Buna nail olandan sonra siz çox böyük hakimiyyətə çatacaqsınız: indi siz əhatənizdə olanların emosional reaksiyaları ilə manipulyasiya edə bilərsiniz. İnamsız olanları fəal hərəkətlərə, onların mərdliklərini şübhə altına almaq və asan qələbələr perspektivi ilə şirnikləndirməklə dümsükləyin. Əgər siz tez özündən çıxan və ya əsəbi rəqiblə üzləşmisinizsə, hərdən ən yaxşı reaksiya – reaksiyanın olmamasıdır. Taleyranın taktikasına riayət edin: adam təmkinini itirdiyi halda, soyuqqanlılığını saxlayan opponent qədər onu cinləndirən başqa heç nə yoxdur. Əgər ətrafınızda olanları müvazinətdən çıxarmaq sizin marağınızdadırsa, sifətinizdə aristokratik, darıxan, istehzalı və zəfər çalan yox, sadəcə olaraq, laqeydlik ifadəsi saxlayın. Bu onlara od vuracaq. Onlar qəzəbdən qızıb ağappaq olanda isə, siz asan qələbələr əldə edəcəksiniz – və birinci də bu olacaq ki, onların infantil davranışlarına qarşı siz ləyaqət və təmkinlilik qoyacaqsınız.

Obraz: Balıqlar olan gölməçə. Su təmiz və təlatümsüzdür, balıqlar burada özlərini yaxşı hiss edirlər. Lakin suyu bulandırın və balıqlar üzə çıxacaq. Suyu bir az da bərk bulandırın, onda siz onları əsəbiləşməyə və suyun üzünə çıxmağa, özü də bu vaxt rastına düşən istənilən yemi – o cümlədən də indicə yem taxılmış qarmağı da udmağa məcbur edəcəksiniz.

Nüfuzlu rəy: "Əgər sənin rəqibin qızğın xasiyyəti ilə seçilirsə, onu qıcıqlandırmağa çalış. Əgər o, özünə vurğundursa, onun eqoizmi üzərində oyna... Əsl usta düşmənin fəal hərəkətlərini,

düşmənin müvafiq olaraq hərəkət edəcəyi situasiyanı ona dürtüşdürməklə idarə edir. Usta düşməni elə bir yemlə cəlb edir ki, o bu yemi mütləq dimdikləyəcək. O, tələni düşmənin qarşısında saxlayaraq ona dayanmağa imkan vermir, ardınca isə seçmə qoşunla onun üzərinə hücuma keçir".

Sun-tzı (b.e.ə. VI-V əsr)

"İmkan daxilində çalışın ki, heç kimə qarşı düşmənçilik hissi keçirməyəsiniz... Adamla əsəbi şəkildə danışmaq, ona qarşı pis münasibətini sözlərlə ifadə etmək və ya bunu bütün görkəminlə nümayiş etdirmək sadəcə vacib deyil – bu təhlükəlidir, axmaqlıqdır, sarsaqlıq və vulqarlıqdır. Qorxu və nifrəti yalnız və yalnız öz hərəkətlərindən başqa heç bir şəkildə üzə vurmaq lazım deyil; hisslər də xeyli effektiv olar, əgər onlar əməldə ifadə edilmiş olarsa, lakin bunun üçün onların istənilən başqa formada təzahür etməsindən qaçmaq vacibdir. Yalnız soyuqqanlı canlıların sancması ölümcüldür".

Artur Şopenhauer (1788-1860)

İkinci dərəcəli hərbi komandir Kinyonun qardaşı var idi, nadir rast gəlinən sarsaq xasiyyətli, ali kahin Rioqaku. Onun monastırının yanında çox hündür rami ağacı bitirdi. Belə olmuşdu ki, xalq arasında bu ağacın ləqəbi var idi – Ali Kahin Ağacı. "Bu hiddətləndiricidir", – dedi ali kahin və ağacı kəsməyi əmr etdi. Kötük qaldı və indi adamlar onu Ali Kahin Kötük adlandırmağa başladılar. Əvvəlkindən də bərk qeyzlənən Rioqaku kötüyü kökündən çıxarmağı və mümkün qədər uzağa atmağı, onun yerində isə çirkab kanalı tikməyi hökm etdi. Nə etmək – xalq indi də bu yeri Ali Kahin Çirkab Kanalı adlandırırdı.

Kenkyo, Yaponiya,
"Mənasız qeydlər", XIV əsr

# QANUN 40

## MÜFTƏ NAHARLARI NİFRƏTLƏ RƏDD ET

## QANUN BELƏ İFADƏ OLUNUR

Sizə müftə təklif edilən şey özündə təhlükə ehtiva edir: adətən bunun arxasında hiyləgər tryuk və ya gizli öhdəlik durur. Qiyməti nəyə isə dəyən şeyə görə haqq ödəməyə dəyər. Öz yolunuzun haqqını ödəyərək siz minnətdarlıq etmək, üzərinizdə günah hissi duymaq və aldatmaq zərurətindən qaçırsınız. Çox vaxt tam qiyməti ödəmək daha ağıllıdır – eyni vaxtda həm parlamaq, həm də qənaət etmək mümkün deyil. Pullara heyfiniz gəlməsin, onları işləməyə məcbur edin, səxavət hakimiyyətin əlamətidir və onu özünə cəzb edir.

## PUL VƏ HAKİMİYYƏT

Hakimiyyət idarəsində hər şeyin qiyməti var və hər bir əşya haqqında onun qiymətinə görə mühakimə yürüdürlər. Əgər nə isə müftə və ya endirim qiymətinə təklif olunursa, çox vaxt üstündə yüklə gəlir – psixoloji yüklə: borclu olduğunuz, keyfiyyətin qurbanı olduğunuzla bağlı mürəkkəb hiss – və bunu müşayiət edən narahatlıq və sair bu kimi. Güclülər ən vacib dəyərləri, manevr etmək üçün müstəqilliyi və məkanı müdafiə etməyi erkən yaşlarında öyrənirlər. Haqqı endirimsiz ödəməklə onlar özlərini təhlükələrdən, çətinliyə düşə biləcəkləri vəziyyətlərdən və həyəcanlardan sığortalayırlar.

Pulla bağlı işlərdə açıqlıq və mütəhərriklik həm də strateji cəhətdən ölçülüb-biçilmiş – bizə artıq məlum olan, "götürməyə hazırlaşanda, ver" fokusunun variasiyası olan – səxavətliliyin nə qədər dəyərli olduğunu öyrədir. Siz hadisəyə müvafiq olan bəxşişi

təqdim edirsiniz və onu alan özünü sizə borclu hesab edir. Səxavətlilik insanları yumşaldır – və aldadır onları. Səxavətli adam şöhrət qazanandan sonra siz əhatənizdə olanların heyranlığına nail olaraq onların diqqətini özlərinin hakimiyyətə çatmaq planlarından yayındırırsınız. Varidatınızı düşünüb-daşınmadan sərf edərək siz saray əyanlarını feyzyab edə-edə və qiymətli müttəfiqlər qazana-qazana onların könlünü alırsınız.

Pula oyunbazlıqla münasibət göstərməyə qabil olan hər bir nəfərə, pulu yaradıcı surətdə və strateji cəhətdən istifadə etməkdən özünüdağıdıcı surətdə imtina etməklə xarakterizə olunan minlərlə adam düşür. Bu cür tiplər özləri ilə güclü, hökmlü adamlarla əks qütblü ziddiyyət təşkil edirlər və siz – onların ziyanverici təsirindən qaçmaq və ya onların mütəhərriksizliklərini öz xeyrinizə çevirmək üçün – onları tanıyıb seçə bilməyi öyrənməlisiniz.

Acgöz balıq. Acgöz balıqları yalnız pul maraqlandırır, insanlar yox. Soyuq və qəddar olan belə adamlar dünyanı cansız mühasibat balansının cədvəlləri arxasından görürlər. Əhatəsində olanlara yalnız peşkalara olduğutək münasibət göstərərək və ya onları özünün var-dövlətə doğru yolunda arzuolunmaz maneə kimi qəbul edərək onlar insanların hisslərini tapdayır və hətta onlara lazım olacaq adamları da özlərindən iyrəndirirlər. Acgöz balıqla ümumi işinin olmasını heç kim istəmir və illər keçəndən sonra o, çox vaxt tənha qalır və bu, sonun çatdığından xəbər verir.

Acgöz balıqlar – moşenniklərin mövcud olmasının əsasıdır: "asanlıqla varlanmaq perspektivi" görkəmində qarmaq yemindən gözləri tutularaq, onlar iti qarmağı görməmişliklə udurlar, onunla birlikdə tilov yükünü də qapışdırırlar. Onları aldatmaq ona görə belə asandır ki, bu qədər vaxtı rəqəmlərlə (insanlarla yox) ünsiyyətdə keçirdiklərindən, psixologiyada qətiyyən heç nə anlamırlar – həm başqasının, həm də özlərinin. Onlar sizi istismar etməyə başlamazdan əvvəl onlardan uzaqlaşın, ya da məqsədlərinizə nail olmaq üçün onların tamahkarlıqları üzərində oynayın.

Sövdələşmə iblisi. Güclü adamlar hər şeyi qiymətləndirir və ölçüb-biçirlər, hesaba yalnız dəyəri yox, həm də vaxtı, ləyaqəti,

ruhi sakitliyi alırlar. Sövdələşmə iblisləri bu qabiliyyətdən məhrumdurlar. Onlar buna sərf etdikləri qiymətli vaxta heyifsilənməyərək sonsuz sövdələşir, səhv edib-etmədikləri ilə bağlı daim narahat olur və başqa yerdə daha ucuz sövdələşə bilib-bilməyəcəklərini götür-qoy edirlər. Buna əlavə olaraq, nəhayət onlara çatan həmin predmet çox vaxt heç nəyə gərək olmur, hərdən bahalı təmir tələb edir və ya daha bahalı analoqundan iki dəfə tez sıradan çıxır. Bu cür tiplər, belə təsəvvür oluna bilər ki, yalnız özlərinə ziyan vura bilərlər, lakin onların həyata münasibətləri infeksion xəstəliyə taydır: ona yoluxmaq olar.

Sadist. Maliyyə sadistləri pulu öz hakimiyyətlərinin aləti kimi istifadə edərək onunla çirkli oyunlar oynayırlar. Onlar, məsələn, sizin onlara borc verdiyiniz pulu qaytarmayaraq vaxt uzada bilərlər və bu vaxt bildirərlər ki, çek artıq poçtla sizin ünvanınıza tələsir. Sadistlər, oxşayır, fikirləşirlər ki, əgər onlar nəyə görə isə pul ödəyirlərsə, bu, satan adamı alçaltmaq üçün onlara mənəvi hüquq verir. Onların pula münasibətində şahlara xas olan genişlik yoxdur. Əgər sizə bu cür tiplə iş görmək "xoşbəxtliyi" nəsib olubsa, bu dağıdıcı münasibətlərə sürüklənib salınmaqdansa, ola bilsin ki, pulda itirmək daha yaxşıdır.

Ağına-bozuna baxmayan bəxşişçi. Səxavət hakimiyyət şahlığında müəyyən funksiyanı yerinə yetirir: o insanları cəzb edir, onları yumşaldır, müttəfiqiniz edir. Lakin onu ağılla istifadə etmək və qədərini bilmək lazımdır. Ağına-bozuna baxmayan bəxşişçilər hamının onları sevməsini və onlara heyran qalmasını istədiklərinə görə səxavətlidirlər. Bu vaxt onların səxavətliliyi o qədər səpələnmiş, ünvansız və miskindir ki, arzu olunan nəticəni əldə etmək mümkün olmur: axı onlar hamıya hədiyyə etdiklərindən, alanlardan heç biri özünü xüsusi diqqətə layiq olunmuş kimi hiss etmir. Bu insan tipi cəlbedici görünə bilsə də, onunla istənilən növ münasibətlərə daxil olanda siz onun doyması mümkün olmayan emosional tələbatlarının yükünü daim duyacaqsınız.

Obraz: Çay. Özünüzü müdafiə etmək və ya suyu saxlamaq üçün siz onun qabağını kəsirsiniz. Lakin tezliklə onun suları üfunətlənir və müxtəlif canlılar əmələ gəlməyə başlayır. Bu axarsız sularda yalnız ən ikrahedici həyat formaları salamat qala bilər, bu

sularda heç kim üzə bilmir, səyahətlər kəsilir, ticarət dayanır. Bəndi dağıdın. Su axanda və hərəkət edəndə bolluq, var-dövlət və hakimiyyət gətirir. Çaylarda vaxtaşırı subasmalar olur və bunlar çiçəklənmə və bərəkət gətirir.

Nüfuzlu rəy: "Əzəmətli insan, əgər simicdirsə – axmaqdır, yüksək mövqeyi olan adam üçün isə tamahkarlıqdan qorxunc qüsur yoxdur. Simic nə torpaqlar, nə dostlar qazanmaz, zira iradəsinin həyata keçməsində ona kömək edə biləcək dostları azdır. Dostları olmasını istəyən kəs öz əmlakını hər şeydən yüksək tutmamalıdır; əvəzində dostları səxavətli hədiyyələrlə əldə etmək lazımdır. Zira maqnit dəmiri özünə belə güclü çəkdiyi kimi, insanın bağışladığı qızıl və gümüş də adamların ürəyini o cür cəzb edir".

Giyom de Lorris (1200-1238)

"Yaponlarda məsəl var, belə səslənir: "Tada yori takay mono va nai" – o deməkdir ki, "Müftə başa gələn ən çox qiymətləndirilir".

Mitsuhiro Matsumoto, "Aşkar edilməyən yol", 1988

## SİMİC

Bir simic var-dövlətini itirəcəyindən qorxuya düşərək hiylə etməyi qərara aldı. O, nəyi vardısa, hər şeyi satdı, əlinə düşən pulların hamısını verib bir qızıl külçəsi aldı və onu basdırdı. O, hər gün bu yerə gəlir və külçənin yerində olub-olmadığını yoxlayırdı. Onun işçilərindən biri bunu görür. İşçi düşünür ki, yəqin orada xəzinə gizlədilib və xozeyin elə üzünü çevirməyə bənd imiş, həmin yerə gəlir və külçəni oğurlayır. Simic qayıdanda və külçənin yox olduğunu aşkar edəndə ağlamağa və saçını yolmağa başladı. Lakin onun fəryadlarını eşidən qonşusu dedi: "Dərd çəkmə, bunun yerinə bir daş götür, onu elə həmin yerdə basdır və fikirləş ki, bu elə sənin qızıl külçəndir. Sən ondan istifadə etməyə hazırlaşmırdın, daş isə torpağın altında heç də qızıldan pis qalmır, axı".

Pul, ona malik olanda yox, ondan istifadə edəndə dəyər qazanır.

Ezop, b.e.ə. VI əsr

# QANUN
# 41

## ƏZƏMƏTLİLƏRİN İZLƏRİ İLƏ GETMƏYƏ ÇALIŞMA

## QANUN BELƏ İFADƏ OLUNUR

Həmişə elə gəlir ki, əvvəllər baş verən, sonradan olandan yaxşı və orijinaldır. Əgər siz qüdrətli adamın varisi və ya görkəmli valideynlərin övladısınızsa, onları üstələmək üçün sizə onları, sadəcə, təkrar etmək yox, onların nailiyyətlərini ikiqat artırmaq lazım gələcək. Onların kölgəsində itib-batmayın – başqasının keçmişində ilişib qalarsınız. Siz öz adınızı və şəxsiyyətinizi yaradacaqsınız, əgər kursu dəyişdirərsinizsə. Hökmlü atadan imtina edin, onun mirasını damğalayın və özünüzdə əks olunanla deyil, öz işığınızla parlayaraq hakimiyyətə nail olun.

## HAKİMİYYƏTİN AÇARI

Əgər hökmdar hakimiyyətdə həddən artıq çox qalırdısa, bəzi qədim dövlətlərdə, məsələn, Benqaliyada və Sumatrada, onu edam edirdilər. Bu, özündə qismən yeniləşmə ritualını ehtiva edirdi, lakin əsas məqsəd hökmdarın qüdrətinin müəyyən həddi üstələməsinə yol verməmək idi. İndi, artıq o, hökmdar, yanlarında olmayanda, ona ehtiram etməyə, ona ilahitək səcdə eləməyə artıq heç nə mane olmurdu. Bu arada isə qayda-qanunun yeniləşdirilməsi üçün fəaliyyət meydanı təmizlənmiş, bunu maneəsiz təsbit etmək mümkün olurdu.

Krala və ya valideynə birmənalı olmayan münasibət həm də, öz atasını tanımayan qəhrəmanlar haqqında əfsanələrdə əks olunub. Hakimiyyət adamının arxetipi, Moisey (Musa peyğəmbər) sahilyanı qamışlıq kolluqlarında tapılıb və valideynlərini heç vaxt

tanımayıb; onunla rəqabət apara və ya onun hərəkətlərini məhdudlaşdıra biləcək atası olmadığından o, hakimiyyətin zirvəsinə yüksəlməyə qabil oldu. Qüdrətli İsgəndər, Filipp Makedonski tərəfindən deyil, Yupiterin tanrısı Ammondan mayalandığı haqqında əhvalatı yayırdı. Belə miflərdə və rəvayətlərdə ata istisna olunub, çünki keçmişin dağıdıcı qüvvəsini simvollaşdırır.

Keçmiş, gənc qəhrəmana öz dünyasını qurmağa mane olur: o öz atasının yolu ilə getməlidir – hətta əgər ata ölübsə və ya hakimiyyəti yoxdursa da. Qəhrəmana öz sələfinin qarşısında təzim etmək, ənənə və təcrübənin qarşısında baş əymək lazım gəlir.

Hakimiyyət boşluğu doldurmaq, keçmişin ölü yükündən təmizlənmiş sahəni əkmək qabiliyyətindən asılıdır. Yalnız atanın fiquru kənarlaşdırılandan sonra qarşınızda binaların ucaldılması və yeni nizamın təsbit edilməsi üçün yararlı olan təmiz məkan meydana çıxır. Buna nail olmağa imkan verən çox sayda müxtəlif strategiya – qarşısıalınmaz coşqunluğu maskalayaraq ona sosial cəhətdən məqbul don geydirən, başçının ritual səciyyəli öldürülməsinin variasiyalar var.

Keçmişin kölgələrinin öhdəsindən gəlməyin, ola bilsin, ən xətərsiz və sadə üsulu – nəsillərin əbədi antaqonizmində oynayaraq və cavan nəsli köhnəyə qarşı kökləyərək onların əhəmiyyətini azaltmaqdır. Bunun üçün yerinə düşən – keçmişlə bilavasitə bağlı, rüsvayçılıq dirəyinə mıxlanması mümkün olan fiqur tələb olunur.

Özünüzü sələfinizdən ayırmaq istədiyiniz məsafə çox vaxt hansısa bir simvolikanın yaradılmasını və ya özünüz haqqında bəyan etməyinizi tələb edir. Məsələn, XIV Lüdovik Fransa krallarının ənənəvi iqamətgahında qalmaqdan imtina etməklə və Versalda şəxsi sarayını tikdirməklə simvolik jest etdi. Onun nümunəsinə riayət edin: sələflərinizin təcrübəsinin qulu olmayın. Bu halda siz onları heç vaxt ötüb keçə bilməyəcəksiniz. Orijinal stil və simvolikanızı işləyib hazırlamaqla fərqliliyinizi əyani surətdə nümayiş etdirməlisiniz.

Tarixin gərdişini geri çevirmək istəyində nə isə bir kütbeyin inadkarlıq var və o hakimiyyətə doğru yolda böyük maneədir,

çünki bu – əgər kimsə sizə qədər A, B və C əməliyyatını edərək uğura nail olubsa, onda siz də bunu təkrar edərək uğur qazana biləcəyinizə inam, daha dəqiq olsaq, mövhumati inamla bağlıdır. Bu, qeyri-yaradıcı adamlar üçün – onların tənbəl və buxovlanmış olduqlarına görə – ən sadə və rahat, lap elə peçenye reseptitək, düzxətli yanaşmadır. Amma bəlaya bax da: şərait və situasiya heç vaxt dəyişikliklərsiz təkrar olunmur.

Nəhayət sonuncu: bolluq və çiçəklənmə bizi tənbəl və passiv edir; əgər tutduğumuz mövqe təhlükəsizliyimizi və hakimiyyətimizi təmin edirsə, bizim fəaliyyət göstərmək üçün stimulumuz yoxdur. Bu, ciddi təhlükədir. Bu cür son həddə düşmək heç nəyə gərək deyil, tənbəllikdən və rifahdan piylənib şişməkdənsə, hər şeyi təzədən başlamağa psixoloji cəhətdən hazır olmaq yaxşıdır. Necə də tez-tez olur ki, erkən qələbələr bizi özümüzün karikaturasına çevirir. Güclü adamlar bu cür tələləri görüb tanıya bilirlər; onlar daim hərəkətdədirlər, mübarizədədirlər, onlar öz-özlərinə naxələf çıxırlar. Atanın qayıtmasına imkan vermək olmaz, yolun hər bir mərhələsində ona qalib gəlmək məcburiyyəti yaranır.

Obraz: Ata. O, övladların üstünə nəhəng kölgə salır, onları keçmişlə bağlayaraq, onların gənc qəlblərini buxovlayaraq və özünün getdiyi – indi artıq darıxdırıcı olan həmin yolla getməyə məcbur edərək hətta özü gedəndən sonra da onları qul kimi saxlayır. O ən müxtəlif hiylələrə qabildir. Övladlar hər bir addımda atanı itələməyə və onun kölgəsindən kənara addım atmağa hazır olmalıdırlar.

Nüfuzlu rəy: "Əzəmətli insanın izləri ilə getməkdən ehtiyatlan – onu üstələmək üçün sənə iki dəfə çox səy göstərmək lazım gələcək. Ləpirlərlə gedənləri təqlidçi hesab edirlər. Onların nə qədər tər tökdükləri vacib deyil, onlar bu damğadan canlarını heç vaxt qurtara bilməyəcəklər. Yeni istiqaməti müəyyən etmək və bunda kamilləşmək, şöhrətə doğru yeni yol tapmaq asan deyil. Təkrarolunmazlığa çox sayda yol aparır, ancaq onlar heç də həmişə tapdanmış yollar deyil. Ən təzə yollar ən keçilməz ola

bilər, lakin çox vaxt məhz onlardır möhtəşəmliyə doğru ən qısa yol".

Baltazar Qrasiani (1601-1658)

BİRİNCİLƏRİN MÖHTƏŞƏMLİYİ

Çoxları öz işində feniks quşutək parlaya bilərdi, əgər başqaları onların sələfi olmasaydı. Birinci olmaq – böyük üstünlükdür; onun məşhurluğu ikiqat artıq olur... Birinci gedən adamlar ilkinlərin hüququ ilə nail olurlar şöhrətə, amma onların arxasınca gələnlər, ailənin kiçik oğulları kimi, kasad qismətə qane olmaq məcburiyyətindədirlər...

Solomon atasına münasibətdə döyüşkənlikdən və qisasçılıqdan imtina edərək müdrikliklə sülhü seçdi. Lakin o kursu dəyişərək qərara aldı ki, qəhrəman olmaq bundan asandır... Bizim möhtəşəm II Filippimiz isə bütün dünyanı öz dərrakə taxtından idarə edərək xalqları əsrlər boyunca sarsıdıb. Əgər onun atası enerji nümunəsi idisə, Filipp dərrakənin paradiqması oldu... Müdrik məsləhətçilərin rəhbərlik etdiyi Filippə bu cür novatorluq möhtəşəmlərin sırasında özünə yer qazanmağa kömək etdi.

Dahilər öz sənətlərini atmadan tapdanmış cığırdan çıxır və hətta dünyanın özü qədər qədim peşələrdə yüksəyə, şöhrətə doğru addımlar atırlar. Marsialın[7] lirikanı Horatsiyə[8] necə təslim etdiyi haqqında, Horatsi epik poeziya qoyub getmişdir Vergiliusa[9]. Terensi[10] komediyanı seçdi, Persiy[11] – satiranı, onlardan hər biri öz janrında birinci olacağına ümid bəsləyirdi.

Cəsur istedad asan qələbə naminə heç vaxt təqlidçiliyə getməz.

Baltazar Qrasiani (1601-1658)

7 Markus Valerius Marsial (lat. Marcus Valerius Martialis, təqribən 40-cı il – təqribən 104-cü il) – Roma şair-epiqramçısı,

onun yaradıcılığında epiqramm, bizim indi bu ədəbi termin altında anladığımız olmuşdur.

8 Kvintus Flakkus Horatsi (lat. Quintus Horatius Flaccus,b.e.ə. 65-ci il 8 dekabr – b.e.ə. 8-ci il 27 noyabr) – Roma ədəbiyyatının “qızıl əsrinin” Qədim Roma şairi.

9 Publius Vergilius Maro (lat. Publius Vergilius Maro) – b.e.ə. 70-ci il 15 oktyabr – b.e. 19-cu il 21 sentyabr) – Qədim Romanın milli şairi, “Eneida”nın müəllifi.

10 Publius Afer Terenti (lat. Publius Terentius Afer, b.e.ə. 195-ci (ya da 185-ci il) – 159-cu illər) – Plavtla yanaşı, Qədim Roma komediyasının ən istedadlı nümayəndəsi.

11 Avl Flakkus Persiy (lat. Aulus Persius Flaccus, 34-cü il 4 dekabr – 62-ci il 24 noyabr) – Roma şairi, satira kitablarının müəllifi.

# QANUN 42

PASTORU SARSIT – VƏ
PASTVA DAĞILACAQ

QANUN BELƏ İFADƏ OLUNUR

Bəlanı çox vaxt bir güclü şəxsiyyət – araqarışdıran, sakitliyin pozucusu, özünəəmin bambılı gətirə bilər. Əgər siz belə adamlara fəaliyyət meydanı verərsinizsə, başqaları onların təsiri altına düşəcək. Onun yetirdiyi xoşagəlməzliklərin üst-üstə qalaqlanacağı vaxta qədər gözləməyin, onunla sövdələşməyə cəhd etməyin – onlara bel bağlanılası deyil. Onların təsirlərini, onları təcrid etmək və ya qovmaqla neytrallaşdırın. Araqarışdıranı kənarlaşdırın – və onun əhatəsi qaçıb dağılışacaq.

HAKİMİYYƏTİN AÇARI

Keçmişdə kral bütöv milləti bir ovuc yaxın adamı ilə idarə edirdi. Yalnız elitanın hakimiyyətə çıxışı var idi. Vaxt keçdikcə hakimiyyət tədricən daha demokratikləşir və parçalanırdı. Anacaq bu, qruplaşmaların hakimiyyət mərkəzinin olmadığı, hakimiyyətin çoxları arasında bərabər şəkildə paylandığı ilə bağlı yanlış hiss doğurur. Gerçəklikdə isə hakimiyyət, kəmiyyət dəyişikliyinə məruz qalaraq öz mahiyyəti etibarilə dəyişməz qalıb. Hər şeyə qadir, milyonların taleyini müəyyən edən tiranların sayı, ola bilsin, azalsa da, bu günə qədər də minlərlə cırtdan despotlar qalıb və onlar – gizli hakimiyyət rıçaqları, xarizmaları və başqa mexanizmlərin köməyi ilə şəxsi iradələrini sırımaqla – öz xırda malikanələrində sərəncam edirlər. Hər bir qruplaşmada hakimiyyət bir – iki nəfərin əlində cəmlənib, çünki bu məhz həmin sahədir ki, burada insan təbiəti həmişə dəyişməz qalacaqdır: insanlar həmişə güclü şəxsiyyətin ətrafında, günəşin ətrafında hərlənən planetlər kimi cəmləşəcək.

Bu cür hakimiyyət mərkəzlərinin artıq mövcud olmadığı yanlışlığına varmaq, sonsuz səhvlər etmək, enerjini və vaxtı boş-boşuna sərf eləmək və heç vaxt məqsədə yetişməmək demək olardı. Güclü adamlar vaxtı hədər itirmirlər. Onlar özlərini hakimiyyətin guya çoxları arasında bölüşdürüldüyünə inandıqları kimi göstərə bilərlər – amma bu vaxt qruplaşmanın həlledici, kozır kartların hamısı əllərində olan fiqurlarına diqqətlə göz qoyacaqlar. Hər şey məhz onlardan asılıdır. Əgər xoşagəlməz hallar başlayırsa, bunun əsasında nəyin durduğunu axtarmaq və fırtınanın yatırılması üçün, ümumi mənzərədən bir güclü, təcrid olunması və ya kənarlaşdırılması zəruri olan adamı tapıb, onu qoparmaq lazımdır.

Doktor Milton H.Erikson ailə psixoterapevti qismində işləyərkən aşkar etdi ki, əgər ailədə ara qarışıbsa və xoşagəlməz hallar baş verirsə, onda mütləq bunun səbəbkarı olan bir nəfər tapılır. Öz seanslarında o, "çürük almanı" simvolik olaraq təcrid edərək onu (kişi və ya qadını) qoy lap bir – iki metr olsa da, qalanlardan aralı əyləşdirirdi. Ailənin qalan üzvləri özlərindən fiziki surətdə kənarlaşdırılmış adamda tədricən öz problemlərinin mənbəyini görməyə başlayırdılar. Əgər siz araqarışdıranın kim olduğundan baş açdınızsa, əhatənizdə olanlara bunu göstərmək çox vacibdir. Yadda saxlayın: belə adamlar qrupun digər üzvlərinin arxasında gizlənərək, öz dağıdıcı hərəkətlərini başqalarının reaksiyaları ilə ört-basdır etməklə çiçəklənirlər. Onların işini "gözlə görünüən" edin və onlar sakitliyi poza və hamını müvazinətdən çıxara bilməyəcəklər.

Strateji oyunların açar-əhəmiyyətli elementi – düşmənin qüvvələrini təcrid etməkdir. Şahmatda siz rəqibin şahını küncə qısnamağa çalışırsınız. Çin damasında oyunçunun vəzifəsi – düşmənin daşlarının dalanlarda təcrid edilməsidir və onlar burada tərpənməz və faydasız olurlar. Çox vaxt düşməni təcrid etmək, onu məhv etməkdən yaxşıdır – siz eyni bir nəticə əldə etdiyiniz halda daha az qəddar görünəcəksiniz, çünki hakimiyyət oyunlarında təcridolunma ölümə bərabərdir.

Təcridetmənin ən effektiv forması – qurbanı onun hakimiyyətinin əsasından ayırmaqdır. Mao Tzedun düşməni hakim

elitadan çıxarmaq istəyəndə həmin adamla birbaşa qarşıdurmaya girmirdi. O, düşməni təcrid etmək üçün səssiz və nəzərə çarpdırmadan onun tərəfdarlarını bir-birindən ayırmaq, onları ona qarşı çevirmək, onu dəstəkləyənlərin sayını azaltmaq üzərində işləyirdi. Tezliklə belə alınırdı ki, adam diqqəti cəlb etmədən, sanki öz-özünə səhnədən gedirdi.

Sonuncu: zərbəni çobana endirəndə bu, qoyunları ölçüyəgəlməz qədər qorxudur. Başçını itirməklə onlar həyatın mənasını itirmiş olurlar. Hər şeyin ətrafında hərləndiyi ox yox olub və bütün konstruksiya uçub dağılıb. Düşmənin liderlərini nişan alın, onları devirin, ardınca isə düşmənin cərgələrində çaşqınlığa göz qoyun və bu vaxt meydana çıxan sonsuz sayda imkanları istifadə edin.

Obraz: Piylənmiş qoyunların sürüsü. Qiymətli vaxtı bir və ya iki qoyunu oğurlamağa israf etməyin, sürünün keşiyini çəkən çoban itləri ilə döyüşməklə öz həyatınızı və sağlamlığınızı risk altına qoymayın. Çobanı hədəfə alın. Onu qovun – və itlər onun ardınca gedəcək. Onu vurun – və sürü pərən-pərən düşəcək; indi siz qoyunları bir-birinin ardınca daşıya bilərsiniz.

Nüfuzlu rəy: "Kamanı çəkəndə – onu var gücünlə gər. Oxu seçəndə – ən uzununu götür. Atlını vurmaq üçün, əvvəl onun atını nişan al. Quldurlara üstün gəlmək üçün ilk növbədə başçısını ələ keçirt. Dövlətin sərhədlərinə riayət olunduğu kimi, adamları öldürəndə da ölçüyə riayət olunmalıdır. Əgər düşmənin hücumunu təkcə başçını vurmaqla dayandırmaq mümkündürsə, qalanları öldürmək və yaralamaq nəyə gərəkdir?"

Çin şairi Du Fu, Tan sülaləsi (VIII əsr)

Ağac yıxılanda meymunlar pərən-pərən düşüb qaçırlar.

Çin məsəli

CANAVARLAR VƏ QOYUNLAR

Bir dəfə, lap qədim vaxtlarda, vaxt-vədə yetişənə qədər qoyunlarla dinclik şəraitində yaşamaq arzusunda olan canavarlar qoyunların yanına elçilərini göndərmişdilər. "Biz, – deyirdilər onlar, – niyə həmişə düşmənçilik etməliyik? Bu qəzəbli itlər – bütün bəlaların baiskarı bax onlardır; onlar dayanmadan bizim üstümüzə hürürlər və bununla da bizi əsəbiləşdirirlər. Onları qovun getsinlər və onda bizim əbədi dostluğumuza və sülhə heç nə mane olmayacaq". Axmaq qoyunlar qulaq asdılar, itləri qovdular və ən yaxşı müdafiəçisindən məhrum olan sürü məkrli düşmənlər üçün asan şikar oldu.

Ezop, b.e.ə. VI əsr

# QANUN 43

## ƏTRAFINDA OLANLARIN ÜRƏKLƏRİNİ VƏ AĞILLARINI ƏLƏ AL

## QANUN BELƏ İFADƏ OLUNUR

Zorakılıq, son nəticədə özünüzə qarşı yönələcək reaksiya doğurur. Siz gərək insanların ürəklərini alasınız ki, onlar sizə tərəf hərəkət etmək istəsinlər. Şirnikləndirə bildiyiniz sizin sadiq nökəriniz olur. Adamların qılığına girmək üçün, onların individual psixoloji səciyyələri və onların zəif damarları üzərində oynamaq lazımdır. Hisslərə təsir etməklə müdafiəni yumşaldın, insanlara əziz olanların və onların qorxuları üzərində oynayın. Ətrafınızda olanların ürəklərinə və ağıllarına saymazyana yanaşılarsa, onlar nəticədə sizə nifrət edəcəklər.

## HAKİMİYYƏTİN AÇARI

Hakimiyyət oyununda siz öz maraqlarından başqa heç bir stimulu olmayan adamlarla əhatə olunmusunuz. Və əgər onları maraqlandırmaq üçün təklif etməyə heç nəyiniz yoxdursa, onda sizə münasibət, ola bilsin, xoşməramlı olmasın: sizin simanızda növbəti konkurent görəcək və ya sadəcə olaraq, öz qiymətli vaxtlarını sizə sərf etmək istəməyəcəklər. Bu soyuqluğu naməlum adamın ürəyinə və ağlına yol arayıb tapmağı, onu meydanın özünə aid olan hissəsinə çəkib gətirməyi bacaran kəslər adlamağa müvəffəq olurlar. Lakin əksəriyyətə bu oyunu mənimsəmək eləcə, heç vaxt müyəssər olmur. Özünüz üçün yeni olan adamla rastlaşanda bir addım geri çəkilmək və onun təkrarolunmaz naturasına diqqət yetirmək əvəzinə, onlar özləri haqqında danışırlar, onlar öz iradələrini və öz fikir qəliblərini sırımaq üçün

səbirlərini basa bilmirlər. Onlar mübahisə edir, öyünür, qüvvələrini nümayiş etdirirlər. Onlar, bunun fərqinə varmadan, həmin məqamda özlərinə düşmən, rəqib yaradırlar, çünki özünə barmaqarası münasibət göstərilməsi, şəxsiyyətinə saymazyana yanaşılması, psixoloji özünəməxsusluğundan baş çıxarmaq istəməmək qədər başqa heç nə adamı özündən çıxarmır. Simanızda yalnız ortabab görürlər hissi – sizdə narazılıq və ziddinə getmək istəyi doğurur.

Yadda saxlayın: adamları öz tərəfinizə çəkmək üçün hər şeydən əvvəl onlara yanaşmaq yolunu tapmaq və yumşaq, nəzərə çarpdırmadan müqaviməti qırmaq lazımdır. Onların qılığına ikitərəfli kəskin yanaşma ilə girin – onların emosiyaları ilə işləyin və onların intellektual ehtirasları üzərində oynayın. Onları (individual psixoloji cəhətləri) başqaları arasından seçib fərqləndirməyə və onların məhz nədə qalan hamıya oxşadıqlarına (baza səciyyəli emosional reaksiyalar) münasibətdə də diqqətli olun. Əsas hissləri hədəfə alın: sevgi, nifrət, qısqanclıq. Əgər siz bunlara toxunmağa müvəffəq olarsınızsa, onlar nəzarəti zəiflədəcəklər və onları inandırmaq qat-qat sadə olacaq.

T.E.Lourens Birinci Dünya müharibəsi dövründə Orta Şərqin səhralarında türklərə qarşı döyüşəndə ona vəhy gəlmişdi: qəfildən ona tamamilə aşkar oldu ki, ənənəvi, adi müharibə əbədiyyətə qovuşub. Köhnə qəbildən olan əsgər həmin dövrün nəhəng ordusunun içində itib-batmışdı, onunla manipulyasiya edir, ona şahmat taxtasında piyada kimi yanaşaraq əmrlər verirdilər. Lourens bu cür vəziyyətlə barışmaq istəmirdi. Onun üçün hər bir əsgərin şəxsiyyəti, hələ ələ keçirmək lazım gələn bütöv bir ölkə idi. Sadiq, təşəbbüskar, psixoloji cəhətdən hazırlıqlı əsgər daha böyük rəşadətlə və daha ağılla döyüşür – o şəxsiyyətdir, marionetka deyil.

Lourensin duyğuları bizim – demək olar, hamımızın özümüzü rədd edilmiş, özümüzü simasızlaşdırılmış kimi hiss etdiyimiz, hakimiyyətə qarşı inamsızlıq keçirdiyimiz dünyamız üçün daha düzgündür. Bunların hamısı hakimiyyətin qəddarlıq və təzyiq tətbiq etməklə apardığı açıq-saçıq oyunlarını bir qədər də bəhrəsiz və təhlükəli edir. Taxtanın üstündə fiqurlar olmaqdansa,

tərəfinizdə olanlardan sadiqliyə və şərikliyə nail olun. Buna nail olmaq üçün isə, hər kəsin individual psixoloji səciyyələrini nəzərə almaq zəruridir. Heç bir vəchlə özünəəminliklə zənn etmək lazım deyil ki, bir nəfərlə özünü doğruldan taktika başqası ilə də yaxşı nəticə verəcək.

Ətrafınızda olanları öz tərəfinizə çəkməyin ən yaxşı üsulu düşündüyünüzün onların özlərinə nə kimi fayda gətirəcəyini adamlara nümayiş etdirməkdir – və imkan daxilində sadə və anlaşılan şəkildə. Şəxsi maraqlar – mümkün olanlar arasında ən güclü motivdir: vəzifənin möhtəşəmliyi ağılları ələ ala bilər, lakin əgər bunun ardınca yayğın perspektivlərdən başqa heç nə olmasa – coşqunluğun ilk təlatümü yatandan sonra maraq sönəcək. Fayda – daha möhkəm əsasdır.

İnsana yanaşmanın yolunu tapmaq və insan ürəyini haylamaq məharətinə başqalarından yaxşı yiyələnənlərin arasında çoxlu rəssam, intellektual, şair var. Bu, onunla izah edilir ki, ideyaları obrazlar və metaforalar yolu ilə təlqin etmək hər şeydən yaxşıdır. Buna görə də öz tərəfinizdə birbaşa insanların ürəklərinə çağırış etməyə qabil olan heç olmasa bir rəssamın, artistin və ya yazıçının olması ağıllı işdir.

Sonuncu: kütlələrlə oynamağı öyrənin. Sizə edilən dəstək nə qədər genişdirsə, hakimiyyət bir o qədər möhkəmdir. Siz daim bütün səviyyələrdə getdikcə yeni-yeni müttəfiqlər qazanmalısınız – onların sizə gərək olacaqları vaxt mütləq yetişəcək.

Obraz: Qıfılda açar yeri. İnsanlar sizi içəri buraxmamaq üçün divar ucaldırlar. Heç vaxt onların yanına zorla soxulmayın – siz yalnız yeni-yeni divarlarla üzləşəcəksiniz. Divarlarda, ürəklərə və ağıllara aparan qapılar var, onlarda isə açar üçün xırdaca deşiklər olur. Açar yerinə nəzər yetirin, qapını açacaq açar seçib tapın – və siz zorakılığa və basqına əl atmadan onların qəlblərinə çıxış əldə edəcəksiniz.

Nüfuzlu rəy: "Adamı öz tərəfimə çəkmək üçün onun ürəyini bilməyim zəruridir, yalnız bu halda mən öz nitqlərimi düz hədəfə yönəldə biləcəyəm... Bu səbəbdən, hökmdarın dəstəyi ilə

sığortalanmaq istəyən, öz hökmdarının ürəyini qazanmazdan əvvəl diqqətlə müşahidə etməklə, onun hisslərini, sevgisini və nifrətini, gizli istəklərini və qorxularını öyrənməlidir".

Xan Fey-tzı,
Çin filosofu, (b.e.ə. III əsr)

Kainatı dəyişən adamlar heç vaxt buna başçılara xidmət etməklə çatmayıblar, əvəzində kütləni öz arxalarınca aparmaqla nail olublar. Başçılara xidmət edən adamlar intriqalara əl atırlar və yalnız ikinci dərəcəli nəticələr əldə edirlər. Arxasınca kütlələri aparanlar isə – dünyanın görkəmini dəyişən, mahiyyət etibarilə, dahidirlər.

Napoleon Bonapart (1769-1821)

Hökumətlər insanları yalnız kütlə halında nəzərdən keçirirdilər, ancaq bizim insanlarımız qeyri-standart idilər, onlar formasiya yox, individuallar idilər... Bizim krallığımız hər bir kəsin ağlında yerləşib.

T.U.Lourens (1888-1935)

# QANUN 44

## GÜZGÜ EFFEKTİNİN KÖMƏYİ İLƏ TƏRKSİLAH ET VƏ QƏZƏBLƏNDİR

## QANUN BELƏ İFADƏ OLUNUR

Güzgü reallığı əks etdirir, bu həm də başaldatmanın mükəmməl silahıdır: siz düşmənlərinizin hərəkətlərini güzgüdə olduğu kimi, onların etdikləri hər şeyi dəqiqliklə təkrar edərək əks etdirəndə onlar sizin strategiyanızın necə olduğunu başa düşə bilməyəcəklər. Güzgü effekti onları alçaldır, onlara öz hisslərini ört-basdır etməyə mane olur. Güzgünü onların qəlblərinə tutaraq siz onların dəyərlərini bölüşdüyünüz illüziyasını yaradırsınız; güzgünü onların əməllərinə tutmaqla siz onlara dərs vermiş olursunuz. Güzgü Effektinin hakimiyyətinə müqavimət göstərməyə çox az adamın gücü çatar.

## GÜZGÜNÜN EFFEKTLƏRİ

Güzgülər bizim üzərimizdə hakimiyyətə malikdir, onlar bizi həyəcanlandırırlar. Güzgüdə öz əksimizə baxanda biz çox vaxt nə görmək istəyiriksə, onu görürük – özümüzün tanış və öyrəşdiyimiz fərdi obrazımızı. Biz diqqətlə baxmamağa çalışırıq, qırışlara və xırda defektlərə saymazyana yanaşırıq. Lakin diqqətlə baxanda hərdən belə hiss edirik ki, başqalarını necə görürüksə, özümüzü də o cür – çox sayda insanın arasında bir adam, subyektdən çox obyekt kimi görürük.

Güzgü Effektlərini tətbiq etməklə, ətrafımızdakıların əməllərini onda əks etdirməklə, onların hərəkətlərini imitasiya etməklə biz Güzgü Effektinin vahiməli gücünü simvolik olaraq hərəkətə gətirərək, əhatəmizdəkiləri müvazinətdən çıxardır və cırnadırıq. Özünü məsxərə, parodiya obyekti, hansısa cansız, ruhsuz şey kimi duyaraq onlar hirslənirlər. Lakin həmin şeyi bir qədər başqa cür

edin və onlar sevinc çaşqınlığı içində olacaqlar – axı siz onların düşüncələrini və istəklərini dəqiqliklə əks etdirdiniz. Güzgü Effektində çox böyük qüvvə ehtiva olunub, çünki o ən primitiv hisslərə təsir göstərir.

Hakimiyyət idarəsində dörd əsas Güzgü Effekti məlumdur.

Neytrallaşdırıcı Effekt. Düşmənləriniz nə edirlərsə, onu edin, onların hərəkətlərini bacardıqca dəqiq təkrarlayın və onlar sizin güzgünüzlə kor olaraq niyyətlərinizi görməyəcəklər. Onların işlərinin və sizinlə ünsiyyətlərinin xarakteri sizin bunlara necə reaksiya verməyinizdən, işləri aparmaq maneranızdan asılıdır: onların özlərinin reaksiyasının və hərəkətlərinin surətini çıxarmaqla düşmənlərinizi neytrallaşdırın. Bu, bir qədər barmağa dolamaq səciyyəli taktikadır, o hətta hiddət partlayışı da doğura bilər. Yəqin hamının yadında olar ki, uşaqlıqda kimsə onu, hər bir sözünü təkrar etməklə cırnadırdı – çox tezliklə sizdə xətrinizə dəyənin üstünə yumruqlarla düşmək istəyi meydana çıxırdı. Yaşlılar daha incə işləyə bilərlər və işləməlidirlər və bununla belə, opponentinizi ağlı başından çıxan hala çatdırmaq sizin qüvvəniz daxilindədir. Şəxsi strategiyanızı güzgü qalxanı ilə ört-basdır etməklə siz gözəgörünməz tələlər düzürsünüz, ya da sizin üçün qoyduqları tələyə tərəf rəqiblərin özlərini itələyirsiniz.

Narsiss12 Effekti. Biz hamımız qulağımıza qədər özümüzə vurulmuşuq. Narsiss Effekti bu ümumi özünəvurğunluğu istifadə edir: siz insanların qəlbinə dərin nəzər yetirirsiniz, onların gizlindəki fikirlərini, onların dəyərlərini, zövqlərini və maraqlarını dərk edirsiniz. Ardınca siz bunların hamısını, özünüzü onların güzgüdəki şəxsi əkslərinə çevirərək, onların özlərinə qaytarırsınız. Onların qəlblərini əks etdirmək qabiliyyətiniz adamların üzərində sizə qüdrətli hakimiyyət verəcək, bundan sonra onlar sizə sevgi meylinə oxşar nə isə bir hiss keçirəcəklər.

Əxlaqi Effekt. Siz əhatənizdə olanlara onların özlərinin dərmanlarını verməklə dərs keçirsiniz. Ətrafınızdakıların sizə yetirdikləri pisliyi əks etdirirsiniz və bunu elə bir şəkildə edirsiniz ki, onlar başa düşürlər – özləri sizinlə necə rəftar ediblərsə, siz də onlarla dəqiqliklə eyni rəftar edirsiniz. Onları sizinlə yaxşı rəftar etmədiklərini dərindən duymağa məcbur edirsiniz. Əgər siz

şikayətlənsəydiniz və ya ah-vay etsəydiniz, bu onların mövqeyini yalnız möhkəmləndirərdi.

Onlar sıçrayaraq geri qayıdan öz əməllərinin nəticələrini üzərlərində hiss edəndə isə, özlərinin asosial davranışları ilə ətrafdakıları necə yaraladıqlarını və ya təngə gətirdiklərini çox dərin səviyyədə dərk edirlər.

Hallüsionogen Effekt. Güzgülər vahiməli qədər yalançıdır, çünki sizin guya real dünyaya baxdığınız təsəvvürünü yaradırlar. Gerçəklikdə isə qarşınızdakı adi şüşə parçasıdır və o, hamıya bəlli olduğu kimi, dünyanı dəqiqliklə olduğu kimi göstərə bilməz: güzgüdə hər şey çevrilmiş vəziyyətdədi.

Hallüsionogen Effekt predmetin, yerin, insanın gözəl surətini yaradarkən meydana çıxır. Bu surət özü ilə maketə oxşar nə isə təcəssüm etdirir – insanlar onu həqiqət yerinə qəbul edirlər, çünki onun real praobrazla zahiri oxşarlıqları var. Bu – insanlara "kuklalar", saxta şeylər dürtüşdürən, real dünyanın həqiqətəoxşar şəkildə surətini çıxaran moşenniklərin və aferistlərin sevimli metodudur. Bu effekt həm də, maskirovka və kamuflyaj tələb olunun hər yerdə işə keçir.

Obraz: Perseyin qalxanı. O elə cilalanıb ki, güzgüyə çevrilib. Meduza sizi görə bilməz, onun yalnız qorxunc görkəmi özünə qayıdır. Belə bir güzgünün müdafiəsi altında siz yalan danışa, lağa qoya, quduzluq vəziyyətinə çatan hala sala bilərsiniz. Bir zərbə ilə siz, bunu gözləməyən Meduzanın başını üzəcəksiniz.

Nüfuzlu rəy: "Hərbi əməliyyatın vəzifəsi – başaldatma yolu ilə düşmənlərin niyyətlərinə uyğunlaşmağa nail olmaqdır... əvvəl onlara istədiklərini almağa imkan vermək, ardınca isə məharətlə onları qabaqlamaqdır. İntizama riayət et və düşmənə uyğunlaş... Və budur, başlanğıcda sən xidmətçi qız kimisən, belə ki, düşmən sənə öz qapısını açır; sonra sən – azadlıqda olan dovşan kimisən, belə ki, düşmən səni day tutub saxlaya bilməyəcək".

Sun-tzı (b.e.ə. VI-V əsr)

"Sən əlbəyaxaya girəndə, qələbə uğrunda mübarizə aparanda və başa düşəndə ki, üstün ola bilmirsən, rəqibinə sarmaş, onunla vahid bütöv ol. Siz bir-birinizə sarmaşmış vəziyyətdə olanda, zəruri olan fəndi seçib və tətbiq edərsənsə, qalib gələ bilərsən... Düşmənlə birlikdə yıxılmağı bacarmaq sayəsində çox vaxt inamlı qələbə qazanmaq olar, amma siz bir-birinizdən ayrı olardınızsa, qələbə şansı itirilmiş olardı".

Miyamoto Musaşi "Beş üzük kitabı", XVI əsr

OĞURLANMIŞ MƏKTUB

Tərəfdaşımın nə qədər ağıllı və ya axmaq, nə qədər mərhəmətli və ya kinli olduğunu və bu vaxt onun nə fikirləşdiyini bilmək istəyəndə, onun sifətində olan ifadəni mən öz sifətimə verməyə çalışıram, sonra isə özümdə hansı fikirlərin və hisslərin əmələ gələcəyini gözləyirəm".

Edqar Allan Po (1809-1849)

12 Narsissizm – özünəvurğunluq

# QANUN 45

DƏYİŞİKLİKLƏRİN ZƏRURİLİYİNİ MOİZƏ ET, AMMA İSLAHATLARA ÇOX DA ALUDƏ OLMA

QANUN BELƏ İFADƏ OLUNUR

Dəyişikliklərə tələbat hər bir kəsə az-çox aydındır, lakin bir günlə yaşayan adamları vərdişlər formalaşdırır. Onlar həddən ziyadə dəyişikliklərə ağrılı reaksiya verirlər, bu isə qiyama aparır. Əgər siz hakimiyyət zirvələrində təzəlikcəsinizsə və ya ona nail olmağa indi-indi cəhd edirsinizsə, köhnə iş metodlarına hörmət nümayiş etdirərək, bir tamaşa qurun. Əgər dəyişikliklər zəruridirsə, onlara keçmişin azacıq yaxşılaşdırılması görkəmini verin.

HAKİMİYYƏTİN AÇARI

İnsan psixologiyasına bir çox hallarda ikiləşmə xasdır. Bu özünü, məxsusi olaraq, onda göstərir ki, hətta dəyişikliklərin nə qədər zəruri olduğunu başa düşərək belə, yeniləşmənin həm ictimai institutlar, həm də ayrı-ayrı şəxslər üçün vacibliyini bilərək belə, həmin proseslər şəxsən bizim özümüzə toxunanda, biz yenə də əsəbilik keçirir və həyəcanlanırıq. Biz dəyişikliklərin labüd olduğunu, yüngüllük gətirəcəyini, durğunluğu qovub dağıdacağını bilsək də, qəlbimizin dərinliklərində keçmişdən yapışırıq. Səthi dəyişikliklərlə, "kosmetik təmirlə" biz hələ razılaşa bilərdik, lakin vərdiş olunan həyat tərzinin mahiyyətinin özünə toxunan, qurulmuş nizamı pozan dərin dəyişikliklər bizdə çox dərin inkar meydana çıxarır.

Hər bir inqilabı mütləq şəkildə irtica mərhələsi əvəzləyir, çünki şeylərin ləğv olunan nizamının yerində əmələ gələn boşluq, bu cür vakuumu təhtəlşüurunda ölüm və xaosla əlaqələndirən insan varlığı üçün həddən artıq dözülməz yükə çevrilir. Dəyişikliklər imkanı insanların ürəyincədir, onları inqilabın tərəfinə cəlb edir, lakin ilk coşqunluq keçəndən, entuziazm sönəndən sonra boşalmışlıq hissi qalır. Keçmişə üz çevirməklə köhnə nizamın sürünüb geri qayıtması üçün yarıq yaratmış oluruq.

Makiavelliyə görə, dəyişikliklərə çağıran peyğəmbər yalnız əlində silah salamat qala bilər: kütlələr qaçılmaz olaraq keçmişə doğru dartınanda o güc tətbiq etməyə hazır olmalıdır. Lakin silahlı peyğəmbər çox duruş gətirə bilməz, bircə, əgər öz mövqeyinin mürəkkəbliyini başa düşərək, çox tez bir zamanda köhnələrin əvəzinə dəyərlərin və ritualların yeni dəstini yaratmağın qayğısına qalmasa, bununla da dəyişikliklərin vahiməyə saldığı adamları sakitləşdirməsə. Qat-qat daha sadə və az qaniçən üsul – özünəməxsus başaldatmadır. Yenilikçiliyi və islahatları ürəyiniz nə qədər istəyirsə, o qədər də keçirin, amma bunlara köhnənin və ənənələrin sakitləşdirici görkəmini verməyə çalışın.

Deyək ki, köhnə adın istifadə olunması və ya qrupun əvvəlki nömrəsinin saxlanması kimi sadə bir hərəkət sizi keçmişlə əlaqələndirəcək və sizə tarixin nüfuzunun dəstəyini təmin edəcəkdir.

Dəyişiklikləri ört-basdır etməyə imkan verən başqa bir strategiya: səs-küylə, hamının eşidəcəyi səslə elan edin ki, siz keçmişin dəyərlərini dəstəkləyirsiniz. Ənənələrin tərəfdarının görkəmini qəbul edin və yalnız tək-tük adam bunun gerçəkliyə nə qədər az uyğun olduğunu görə biləcək. İntibah epoxasının Florensiyası əsrlərlə çəkən respublikaçılıq ənənələrinə malik idi və bu dayaqların laxladılması üçün edilən istənilən cəhdə şübhə ilə yanaşırdı. Kozimo Mediçi özünü respublikaçılığın qatı tərəfdarı kimi qələmə verirdi, halbuki gerçəklikdə şəhərdə hakimiyyətin öz ailəsinə məxsus olmasına nail olurdu. Mediçilər respublika görüntüsünü Florensiyada formal olaraq saxladılar, faktiki olaraq isə o məhv edilmişdi. Mediçilər ənənələrin qorunub saxlanması adı ilə altdan-altdan quruluşun radikal islahatını keçirdilər.

Təbiətdən gələn bu mühafizəkarlığın öhdəsindən gəlmək olar, əgər ənənələrə bac-xərac verilərsə – sözdə. Öz inqilabınızda keçmişlə əlaqələndirilməsi mümkün olan elementləri müəyyən edin. Bəyan edin ki, onlar ənənələrə əsaslanır. Düzgün sözlər deyin, razılaşdığınızı nümayiş etdirin, bu arada isə öz radikal nəzəriyyələrinizi həyata keçirin, onlara işləmək imkanı verin.

Və nəhayət, sonuncu: zamanın ruhuna saymazyana yanaşmaq olmaz. Əgər islahatlar öz zamanını həddən artıq qabaqlayırsa, islahatçıların taleyi faciəvidir – bu adamları çox az kimsə anlaya biləcək, onların addımlarının hamısı ümidsiz şəkildə səhv başa düşüləcək və inkar doğuracaq, qəbul edilməyəcək. Daxil etdiyiniz dəyişikliklər gerçəklikdə olduğundan daha mühafizəkar təsir bağışlamalıdır.

"Zamanın sədalarına qulaq verin". Əgər siz gur təlatümlər və dəyişikliklər zamanında yaşayırsınızsa, onda keçmişə qayıdışı, komfort və ənənələri moizə edən hakimiyyəti alacaqdır. Durğunluq epoxasında isə, islahatlar və inqilabi dəyişikliklər kozır olacaq – lakin cini butulkadan buraxanda, ehtiyatlı olun. İnqilabı başa çatdıranlar, bir qayda olaraq, heç də onu başlayanlar olmur.

Obraz: Pişik. Mühafizəkar varlıq – o ev istisini sevir. Əgər onun vərdişlərini pozarıqsa, onun məkanına soxularıqsa, onda o idarəolunmaz və psixopatik olacaq. Bunun qarşısını onun rituallarını dəstəkləməklə alın. Əgər dəyişikliklər zəruridirsə, pişiyi keçmişin iyini saxlamaqla aldadın, görünən yerlərdə isə onun vərdiş etdiyi şeyləri düzün.

Nüfuzlu rəy: "Hansı isə bir şəhərin dövlət quruluşunu dəyişməyə can atan və bu quruluşun hamı tərəfindən qəbul olunmasını və məmnuniyyətlə dəstəklənməsini istəyən adama qədim adətlərin heç olmasa kölgəsini saxlamaq zəruridir ki, yeni qayda-qanunun əvvəlkinə qətiyyən oxşamadığına baxmayaraq, qayda-qanunun dəyişdiyi xalqın nəzərinə çarpmasın. Zira insanlar ümumiyyətlə özlərinə, əslində mövcud olanla yox, gördükləri ilə təskinlik verirlər".

Nikkolo Makiavelli (1469-1527)

## ROJDESTVONUN MEYDANA ÇIXMASI

Yeni İlin bayram edilməsi – qədim ənənədir. Məhsuldarlıq tanrısı Saturnun şərəfinə romalılar dekabrın 17-i ilə 23-ü arasında saturnali qeyd edirdilər. Bu, ilin ən şən günləri idi. Hər cür iş və ticarət dayandırılırdı, bərbəzəkli izdiham küçələrə tökülüşürdü, bütün ətrafda karnaval əhvali-ruhiyyəsi hökm sürürdü. Qulları müvəqqəti azadlığa buraxırdılar; evləri dəfnə budaqları ilə bəzəyirdilər. Adamlar bir-birinin evinə qonaq gedir, hədiyyə edirdilər – mum şamlar və gil fiqurlar. Xrist (İsa Məsih, İsa peyğəmbər) doğulandan çox-çox əvvəl İşıq Bayramı olub və bu da dekabr ayında. Hesab olunur ki, german tayfaları qış günəş vaxtını geniş qeyd edirdilər və Votan və Frey, Donor (tora) və Freyr tanrılarına etiqadı bu vaxta salırdılar. Hətta imperator Konstantin (285-337 illər) xristianlığı Romanın rəsmi dini elan edəndən sonra da xristianlığa qədərki bayramlar qışın ortasında keçirilən günəş və gələcək məhsuldarlıqla bağlı yaddaşın obyektləri qismində tamamilə sıxışdırılıb çıxarıla bilməzdi. Konstantinə qədər 274-cü ildə Romada rəsmi olaraq Günəş tanrısı Mitra kultu elan edilmişdi, onun doğum günü, dekabrın 25-i, milli bayram olmuşdu. Mitra, arilərin işıq tanrısı, Kultu Yunanıstana və Romaya Persiyadan (İrandan) gəlmişdi, ardınca isə German torpaqlarına və Britaniyaya bərqərar olmuşdu. Onun ziyarətgahlarının çoxsaylı xarabalıqları indiyədək də buna sübutdur ki, Mitraya (ələlxüsus da Roma legionları tərəfindən) məhsuldarlıq, sülh və qələbə tanrısı kimi ehtiram olunurdu. Buna görə də, Papa Liberinin başçılıq etdiyi (352-366) xristian kilsəsi düşünülüb-daşınmış və müdrik addım ataraq, 354-cü ildən etibarən Mitra gününün bayram edilməsini ləğv etdi və dekabrın 25-ni bizim Tanrımız İisus Xristosun Doğumu günü elan etdi.

Anna-Syuzanna Rişke, "NoyeSürher Saytunq", 25. XII.

# QANUN 46

## HEÇ BİR VƏCHLƏ HƏDDƏN ZİYADƏ KAMİL ADAM TƏSİRİ BAĞIŞLAMA

## QANUN BELƏ İFADƏ OLUNUR

Başqalarından yaxşı olduğun təsirini bağışlamaq təhlükəlidir, lakin bundan da təhlükəli günahların və zəifliklərin olmamasıdır. Paxıllıq gizli düşmənlər doğurur. Ağıllı adam vaxtaşırı nöqsanlar nümayiş etdirir, xətərsiz günahcıqlarını etiraf edir ki, özünü paxıllıqdan qorusun və daha insani və daha əlçatan olduğu təsirini bağışlasın. Yalnız ilahilər və ölülər heç nədən ehtiyat etməyərək kamil görünə bilərlər.

## HAKİMİYYƏTİN AÇARI

İnsan varlığı qeyri-kamil olduğunun dərkinə böyük çətinliklə vərdiş edir. Özümüzdə olanı əhəmiyyətli dərəcədə üstələyən qabiliyyətlər, talant və qüvvə ilə rastlaşanda, özümüzü itiririk. Bu hal ona görə meydana çıxır ki, əksəriyyətimiz şişirdilmiş özünəqiymətə malikik və bizi nədə isə üstələyən bir kimsənin yanında birdən duyuruq ki, əslində özümüz ortababdan uzaq və ya ən azı, heç də təsəvvür etdiyimiz qədər də möhtəşəm deyilik. Şəxsi obrazın bu məcburi aşağılanması həyatda kifayət qədər xoşagəlməz iztirabları asanlıqla meydana çıxarır. Hər şeydən qabaq, biz paxıllıq hiss edirik. Lakin paxıllıq sakitlik gətirmir və bərabər olmaq duyğusuna yaxınlaşdırmır. Üstəlik də, biz cəmiyyətdə damğalanmış bu duyğunu özümüzə etiraf edə bilmirik – axı öz paxıllığın haqqında elan etmək özünün natamam olduğunu boynuna almaq deməkdir. Deməli, onu müxtəlif

üsullarla içəriyə salmaq lazım gəlir, məsələn, bizi paxıllıq etməyə məcbur edəni tənqid etməklə. Məkrli, destruktiv paxıllıq hissinə qarşı durmağın müxtəlif üsulları var. Hər şeydən əvvəl, hakimiyyətə nail olanda qabaqladığınız kəslərin, çox güman, sizə qarşı paxıllıq hissi keçirdikləri haqda fikrə dalın. Onlar bunu, ola bilsin, üzə vurmurlar, lakin bu qaçılmazdır. Onların sizə nümayiş etdirdikləri fasadı sadəlövhcəsinə saf pul kimi qəbul etməyin – sətirlərarası oxuyun, onların tənqidini, arxanızdakı pıç-pıçı, ötəri atılan sarkastik atmacaları, həddən artıq tərifləri, – sizin devrilmənizi hazırlayaraq, arxanızda sizə çirkab atıldığının səhvsiz əlamətini – gözlərdəki gizlədilmiş kini qeydə alın. Paxıllarla bağlı problemlərin yarısı ona görə meydana çıxır ki, biz paxıllığı vaxtında görüb tanıya bilmirik, sonra isə həddən artıq gec olur.

Əgər adamlar sizə paxıllıq edirlərsə, onların sizə qarşı fəaliyyət göstərəcəklərinə də hazır olun. Onlar sizin yolunuzda nəzərdə tutulmayan maneələr düzəcəklər. Bu tip hücumdan özünü çəpərləmək çətindir. Paxıllığın öhdəsindən gəlməkdənsə, onun meydana çıxmasından yaxa qurtarmaq asan olduğundan özünüzü elə aparmalısınız ki, onun meydana çıxmasının qarşısını lap əvvəlində alasınız. Paxıllığı çox vaxt düşünüb-daşınmadan etdiyiniz hərəkətlərin, səciyyəvi xüsusiyyətlərinizin doğurduğunu dərk edəndə bu bədheybətin dişini, o sizi gəmirib məhv etməzdən əvvəl qopara bilərsiniz.

Hakimiyyət dünyasında ən böyük təhlükə – fortunanın çarxının qəfil dönməsidir: heç kimin gözləmədiyi sürətli irəliləmə, qələbə və ya uğur. Bunların hamısı, hələ dünən eyni bir pillədə durduğunuz adamların arasında paxıllıq doğura bilər.

Arxiyepiskop de Rets 1651-ci ildə kardinal adına ithaf olunanda gözəl başa düşürdü ki, bu, onun həmkarlarının bir çoxunun paxıllığını doğuracaq. Keçmiş yoldaşlarından üz çevirməyin ağılsızlıq olduğunu və yaxşı hərəkət olmadığını başa düşən de Rets, baş verəndə öz xidmətini aşağılamaq və "layiq olmadığı" uğurda xoşbəxt talenin rolunu qeyd etmək üçün əlindən gələn hər şeyi etdi. O, adamların onunla ünsiyyətdə özlərini buxovlanmış hiss etməmələri üçün, özünü sadə və təvazökarcasına aparırdı, belə ki, sanki heç bir dəyişiklik baş verməyib. O yazırdı ki, bu

müdrik rəftar "paxılları sakitləşdirərək, arzu olunan təsiri göstərdi və bu ən böyük sirlərdən biridir". De Retsin nümunəsindən ibrət götürün və sırınmaqsız-filansız qeyd edin ki, sizin, sadəcə olaraq, bəxtiniz gətirib, uğurunuz əhatənizdə olanlar üçün daha əl çatan olsun deyə, onlarda əmələ gələn paxıllığı yumşaldın.

Paxıllıqdan qaçmaq üçün hansısa bir zəifliyinizin, xırda ağılsız hərkətlərinizin, xətərsiz günahcığınızın faş olmasına imkan verin.

Paxıllığın müxtəlif maskalarını tanımağı öyrənin. Şişirdilmiş mədhiyyələr – demək olar yəqinliklə, onları israf edən simanın paxıllıqdan əziyyət çəkdiyinin əlamətidir: ən çox güman edilən sizi devrilməyə hazırlıq görüldüyüdür, çünki heyrancasına-şişirdilmiş tərifə haqq qazandırmaq demək olar mümkün olmayacaq; arxanızda bıçaq itilənə biləcəyi də istisna deyil. Lakin sizi ölçü-biçi bilmədən tənqid edənlər də və ya sizin barənizdə şər-şəbədə gəzdirənlər də, ola bilsin, sizə heç də az paxıllıq etmirlər. Onların davranışını özünüz üçün üstüörtülü paxıllıq kimi müəyyən edin – və siz tələdən canınızı qurtaracaqsınız: bir-birinizə qarşılıqlı şəkildə çirkab tullamağa cəlb olunmayacaq və onların tənqidini ürəyinizə yaxın tutmayacaqsınız. Əgər siz onların ikrahdoğurucu varlıqlarına saymazyana yanaşarsınızsa, bütün hər şeyin əvəzini çıxmağa müvəffəq olacaqsınız.

Obraz: Bağda alaq. Siz onlara gübrə verməyə bilərsiniz, lakin siz bağı sulayanda onlar artır. Ola bilsin bu, sizin heç nəzərinizə də çarpmayacaq, amma onlar məkanı tuturlar, hündür və görkəmi ikrah doğuran alaq sizin möcüzəli bitkilərinizə çiçəklənməyə imkan verməyərək onları boğur. Nə qədər gec deyil, ayrı-seçkilik qoymadan sulamağı dayandırın. Paxıllıq alağına nə su, nə də qida vermədən onu məhv edin.

Nüfuzlu rəy: "Fürsət düşəndə özünün xətərsiz bir nöqsanının ifşa edilməsinə imkan ver. Paxıllıq çəkənlərin nöqteyi-nəzərindən, kamilliyin əsas günahı ondan ibarətdir ki, o günah eləmir. Onlar mingözlü Arqusa çevrilərək gözlərinin hamısı ilə nöqsan axtarırlar – bu, onların yeganə təsəllisidir. Paxıllığa öz zəhərini səpələməyə imkan vermə – nöqsana yol ver, məziyyətlərində və ya

intellektində hansısa bir boşluq aşkar et ki, onu, paxıllığı, öncədən tərksilah edə biləsən. Bax beləcə sən, qırmızı plaşı Paxıllıq Buynuzlarının qabağında yellədirsən ki, öz ölməzliyini xilas edəsən".

Baltazar Qrasiani (1601-1658)

"Kiminsə talantını və vergisini ört-basdır etmək üçün vergili olmaq və fövqəltalant tələb olunur".

Fransua de Lərößfuko (1613-1680)

Görməmiş və paxıl padşahla rastlaşırlar. Padşah onlara deyir: "Sizdən biriniz məndən ürəyindən keçən hər şeyi istəyə bilər, mən onun xahişini yerinə yetirəcəyəm, amma bir şərtlə – ikinci bunun ikiqatını alacaq". Paxıl birinci xahiş etmək istəmirdi, çünki paxıllığı kimin isə ondan çox alacaı fikrini heç yaxın da buraxmırdı. Görməmiş də birinci xahiş eləmək istəmirdi, çünki hər şeyin ona çatmasını arzulayırdı.

Nəhayət, görməmiş paxılı inandıra bilir ki, birinci o xahiş eləsin – bəs nə oldu? O, padşahdan özünün bir gözünü çıxarmasını xahiş elədi.

Solomon Şimmel, "Yeddi fani günah", 1939

Paxıl özünü, sanki məxfi, şəhvətli günahkar imiş kimi cidd-cəhdlə gizlədir və özünü ələ verməmək üçün müxtəlif tryuklar fikirləşərək və hiylələrə əl ataraq sonsuz qədər ixtiraçı olur. Bu minvalla özünü elə göstərə bilir ki, guya başqalarının – onun ürəyini gəmirən – üstünlüyü onun gözünə görünmür, sanki o, həmin başqasını görmür, onu eşitmir, onun varlığı heç ağlına da gəlmir, buna bənzər nə haqdasa heç vaxt eşitməyib. O – özünü tülkülüyə vurmağın ustasıdır. Lakin o öz üzərində üstünlüyün hər hansı bir formada, heç bir situasiyada meydana çıxmasına yol verməməyə var gücü ilə çalışır. Əgər ondan üstün olanlar hər halda meydana çıxırlarsa, o, həmin adamları həddən çox tənqid etməklə, öz daldalanacağından zəhər tüpürən qurbağa kimi, sarkazm və şər-böhtan püskürə-püskürə çirkabda batırmağa

çalışır. Nəticədə o özünün fəaliyyət meydanında ən əhəmiyyətsiz, ortabab və hətta natamam adamların peyda olmasına şərait yaradır.

Artur Şopenhauer (1788-1860)

# QANUN 47

NƏZƏRDƏ TUTDUĞUN MƏQSƏDDƏN UZAĞA GETMƏ: QALİB GƏLƏNDƏ,
NƏ VAXT DAYANMALI
OLDUĞUNU BİL

QANUN BELƏ İFADƏ OLUNUR

Qələbə anı – bu, çox vaxt ən böyük risk anıdır. Qələbənin qızğınlığında özünəəminlik və özünə həddən artıq güvənmə sizi məqsəddən kənara itələyə bilər, həddən artıq uzağa gedərək isə, qalib gələ biləcəyinizdən çox düşmən qazana bilərsiniz. Düşünüb-daşınmanın və çox ciddi planlaşdırmanın alternativi yoxdur. Qarşınıza məqsəd qoyun, ona çatan kimi isə, dayanın.

HAKİMİYYƏTİN AÇARI

Hakimiyyətin öz ritmləri və qanunauyğunluqları var. Oyunda qalib gələn adam odur ki, qanunauyğunluğun alqoritmini tutub, onu öz iradəsindən asılı olaraq tətbiq edib, insanları qərarlaşmış ritmin vərdiş edilən cığırından vurub çıxara bilir. Strategiyanın əsas mahiyyəti – yaxın gələcəyin hadisələrini öncədən görmək və onları idarə etməyi bacarmaqdır. Lakin qələbə eyforiyası sizi baş verməli olanı idarə etmək qabiliyyətindən məhrum edə bilər. Burada iki ssenari mümkündür. Birinci: siz uğurunuzu qanunauyğunluq kimi qəbul edirsiniz və əminsiniz ki, onu təkrar edə bilərsiniz. Siz, bu istiqamətin özünüz üçün əlverişli qaldığına əmin olmaq arzusu ilə, dayanmadan elə həmin istiqamətdə hərəkət edirsiniz. İkinci: uğur sizi kefləndirir və coşdurur. Zəif yerinizin olmadığına inanaraq özünüzü aqressiv aparmağa başlayırsınız və bu, əvvəl qazandığınız qələbəni mütləq heçə endirəcək.

Dərs sadədir: güclü adamlar ritmi artırıb-azaldırlar, şəraitdən asılı olaraq davranış xəttini dəyişirlər və improvizə etməyi öyrənirlər. Onlar becid ayaqlarına özlərini həddən artıq uzağa aparmağa yol vermirlər, bunun əvəzində isə bir az geri çəkilirlər ki, ümumi mənzərəni gözdən keçirsinlər. Onların qanında elə bil qələbədən keflənməyə qarşı zərdab var, bu onlara uğur qazananda hisslərini cilovlamağa və özünəməxsus taym-aut götürməyə imkan verir. Özlərini ələ alaraq, onlar baş verəni sakitcə düşünüb-daşınıb və uğurlarında iştirakı olan şəraitin və bəxtin payını ayıq başla qiymətləndirib, coşqunluqlarına sərbəstlik vermirlər.

Qəzavü-qədər və şərait hakimiyyət dəhlizlərində həmişə vacib rol oynayır. Lakin qəribə görünsə də, xoşbəxt qəzavü-qədər hərdən bəxt gətirməməkdən də təhlükəli olur. Uğursuzluqlar bizə çox vacib şeyləri öyrədir – dözüm, məqamı düzgün seçmək bacarığı, ən pis olana hazırlaşmaq zərurəti. Kor bəxt – nəyin ki sayəsində sizdə hər şey alınıb – parıltı və talantla bağlı fikri təlqin etməklə, yuxarıda haqqında danışılana əks olan dərsi verir. Fortuna tez və ya gec sizdən mütləq üz çevirəcək və bu baş verəndə, sizin buna hazırlıqsız olacağınız riski var.

Hakimiyyəti qoruyub saxlamaq üçün çox vaxt gücü və hiyləni növbələşdirmək və onları taraz halda saxlamaq tələb olunur. Əgər güc tətbiq etmək səyləri əndazədən çıxarsa, bu, əks fəaliyyət doğuracaqdır; hiyləgərlik tərəfə əyintiyə yol verəndə isə – nə qədər məharətli olmasa da, hiylələri öncədən demək mümkün olur artıq. Əgər siz qalibsinizsə, fəaliyyətsizliyinizlə düşmənə layla çalaraq özünüzü sakit aparın. Ritmləri bu cür dəyişmək – çox güclü və təsirli vasitədir.

Cızığı keçən adamları çox vaxt özündən yüksəkdə durana xoş gəlmək, onların özlərinə inamını doğrultmaq arzusu ağuşuna alıb aparır. Lakin həddən artıq səy göstərmək risklidir – bu, sizin işəgötürəninizdə şübhə doğura bilər. Sərkərdələr döyüşü udandan bilavasitə sonra Filipp Makedonskinin onları təqib etmək və vəzifələrini aşağı salmaq adəti var idi. Filipp hesab edirdi ki, bir dənə də belə qələbə və adam – tabeçilikdə olan və tərəfdardan rəqibə çevrilə bilər. Siz kiməsə xidmət edəndə öz qələbələrinizin

əndazədən çıxmamasına çox ciddi şəkildə göz qoymaq, şöhrətin barını yığmağı ona təqdim etmək və heç bir vəchlə narahat olmağa bəhanə verməmək ağıllı işdir. Etibar qazanmaq üçün tam itaət təsvir edin.

Və sonuncu: harada və necə dayanmaq çox vacibdir; bu məqamın çox böyük psixoloji əhəmiyyəti var. Yaddaşlarda qalan, özünəməxsus kulminasiya kimi, axırıncı səhnə olur. Mürəxxəs olmaq üçün, şərəfli qələbədən sonrakından yaxşı məqam yoxdur. Səhnədə qalmaqda davam etməklə siz effekti azaldacağınızla risk edirsiniz, bundan sonra, ola bilsin ki, sizə bu yüksəkliklərə ucalmaq nəsib olmayacaq və əyninizə autsayder rolunu ölçmək lazım gələcək. Hüquqşünaslar çarpaz sorğu-sual haqqında dedikləri kimi: "İstədiyinə nail olanda, sual verməyi dərhal dayandır".

Obraz: Göydən düşən İkar. Onun atası Dedal mumdan qanad düzəltmişdi, bu qanadlar labirintdən çıxmaq və Minotavrdan canlarını qurtarmaq üçün onları qaldırmalı idi. Əsarətdən xoşbəxt qurtulmadan və uçuş hissindən keflənən İkar o vaxta qədər elə hey hündürə qalxdı ki, günəş mumu əritdi və o, düşərək, çırpılıb öldü.

Nüfuzlu rəy: "Dövlət və respublika qələbə ilə qane olmalıdırlar, zira onlar bundan çoxa can atanda, bir qayda olaraq, uduzurlar".
Nikkolo Makiavelli (1469-1527)

## ÇARPAZ SORĞU-SUAL KEÇİRİLMƏSİNİN QAYDASI

Çarpaz sorğu keçiriləndə həmişə, mühüm etiraf ediləndən və ya sizi qane edən cavab alınandan dərhal sonra dayanmaq bacarığı ən vacibdir. Şahidin sorğu-suala tutulmasının triumfal notlarla başa çatdırılmasından vacib heç nə yoxdur. Hüquqşünasların kifayət qədər çoxu şahidləri ziddiyyətli ifadələrdə və uyğunsuzluqlarda tutmağa müvəffəq olsalar da, bununla qane

olmayıb, o vaxta qədər sual verməkdə davam edirlər ki, andlılarda yaranan uğurlu təəssürat tamamilə yox olur.

Frensis Vellman,

"Çarpaz sorğu məharəti", 1903

## DİKBAŞ XORUZ

İki xoruz peyin qalağının yanında dalaşırdı. Xoruzlardan birinin gücü çox idi, bu xoruz o birisini döydü və onu peyin qalağının yanından qovdu. Toyuqların hamısı xoruzun ətrafına yığışdılar və onu tərifləməyə başladılar. Xoruz istəyirdi ki, onun gücü və şöhrəti barədə o biri həyətdə də xəbərləri olsun. O uçub tövlənin üstünə qalxdı, qanadlarını çırpdı və ucadan banladı: "Hamınız mənə baxın, mən xoruza qalib gəldim! Dünyada heç bir xoruzda məndə olan qədər güc yoxdur". Banlayıb qurtarmağa macal tapmadı, qartal uçub gəldi, xoruzu vurub yerə sərdi, caynaqlarına aldı və öz yuvasına apardı.

Lev Tolstoy (1828-1910)




## FORMANIN QEYRİ-MÜƏYYƏNLİYİNƏ YİYƏLƏN

### QANUN BELƏ İFADƏ OLUNUR

Siz konkret formaya yiyələnməklə, əyani planlara malik olmaqla özünüzü düşmənləriniz üçün açırsınız. Düşmənlərinizin hücum edə biləcəkləri konkret forma almaq əvəzinə, uyğunlaşın və daimi hərəkətdə olun. Bu faktı qəbul edin ki, müəyyən heç nə yoxdur və bir dəfə həmişəlik qoyulmuş qanunlar mövcud deyildir. Özünü müdafiə etməyin ən yaxşı üsulu – su kimi, axarlı və formasız olmaqdır; stabillik və uzunmüddətli qayda-qanuna heç vaxt stavka etməyin. Hər şey dəyişir.

### HAKİMİYYƏTİN AÇARI

İnsan – daim formalar yaratması ilə fərqlənən varlıqdır. O öz hisslərini birbaşa ifadə etməyə möhtac olduğundan, danışıq dili, ya da cəmiyyətdə qəbul olunmuş rituallar vasitəsilə hisslərinə forma verir. Biz hisslərimizi müəyyən formaya salmasaq, onları bir-birimizə ötürə bilmirik.

Yaratdığımız formalar daim dəyişirlər – zamanın ruhunu ifadə edən dəb, stil, insani təzahürlərin hamısı təsir göstərir. Biz əvvəlki nəsillərdən miras aldığımız formaları daim dəyişirik və bu dəyişikliklər həyatın və həyat qabiliyyətinin əlamətidir. Gerçəklikdə dəyişməz qalan predmetlər, donub qalmış formalar – bunlar bizə ölümün siması kimi görünür və biz onları dağıdırıq.

Hakim dairələr – çox vaxt o adamlardır ki, cavanlıqlarında yeni nəyi isə yeni formalar vasitəsilə ifadə etməyə onlara imkan verən böyük yaradıcı potensial təzahür etdiriblər. Cəmiyyət onlara hakimiyyəti bəxş edir, çünki o, belə yeniliyin yanğısı ilə yaşayır, onu qiymətləndirir və buna görə mükafatlandırır. Problemlər bir müddət sonra, adamlar vaxt ötdükcə mühafizəkar və ətalətli olmağa başlayanda meydana çıxır. Onlar artıq yeni formaların yaradılması barədə xülyalara dalmırlar, onların individuallıqları dayanıqlı olur, onlar vərdişlərində ətalətli olurlar və bu rigidlik13 onları nişangaha asan düşən hədəfə çevirir.

Hakimiyyət formaları mütəhərrikliklə dəyişə bildiyi vaxta qədər çiçəklənir. Müəyyən formadan məhrum olmaq, amorf olmaq demək deyil – hər şey formaya malikdir, bundan qaçmaq qeyri-mümkündür. Hakimiyyətin müəyyən formasının olmaması o deməkdir ki, o, su və ya civə kimi özünü əhatə edən hər şeyin cizgilərini ala bilər. O, daim dəyişir və növbəti dəfə necə olacağının öncədən deyilməsi həmişə qeyri-mümkün olaraq qalır.

Birinci psixoloji tələb – heç nəyi ürəyə yaxın tutmamaqdır. Heç bir halda müdafiə mövqeyinə durmayın. Bununla siz keçirdiyiniz həyəcanları, emosiyaları büruzə vermiş, formanın üstündən örtüyü atmış olursunuz. Rəqib ağrılı yerinizə toxunduğunu, "Axilles dabanınızı" tapdığını başa düşür, deməli, həmin yerə yenə və yenə zərbələr endirəcək. Buna görə də sifətinizi ifadəsiz maskaya çevirin və o sizin həmkarlarınızı və rəqiblərinizi cin atına mindirəcək.

Bu texnikanın ustalarından biri baron Ceyms Rotşild idi. Parisdə, xaricilərə münasibətdə həmişə bədxahlığı ilə fərqlənən ölkədə, almaniyalı yəhudi, Rotşild, heç bir həmləni öz ayağına yazmazdı və ya hər halda, heç vaxt üzə vurmazdı ki, bu, onun heysiyyətinə toxunub. O həm də istənilən siyasi situasiyaya

asanlıqla uyğunlaşırdı. Rotşild onların hamısını eyni cür qəbul edirdi – və əriyib yox olurdu. O, heç vaxt axıradək açılmayaraq uyğunlaşdığı və firavanlıq içində olduğu vaxtda, başqa ən varlı ailələr çevrilişlər dövründə və fortunanın qəfil ziqzaqlarında öz varidatlarından məhrum olurdular. Onlar, – köhnə, sümükləşmiş formalardan qultək asılı qalaraq keçmişdən yapışırdılar.

Yaşlandıqca, keçmişdən getdikcə az yapışıb qalmağınız lazımdır. Mütəhərrikliliyinizi itirməyin – əks təqdirdə sümükləşəcəksiniz və qədim daşlaşmış tapıntı təsirini bağışlayacaqsınız.

Heç bir halda unutmayın ki, formaların axarlı olması – strateji mövqedir. O sizə taktiki sürprizlər yaratmaq üçün məkan vermiş olur. Rəqibləriniz növbəti gedişinizi fikirləşib tapmağa cəhd edərək vurnuxduqları vaxt, onlar gözlənilmədən öz planlarını qaçılmaz surətdə açırlar və bu onları əlverişsiz vəziyyətə qoyur. Formaların axarlı olması sizə təşəbbüsü özünüzdə saxlamağa, yalnız hərəkətlərinizə gecikmiş reaksiya vermək imkanı qalan düşməninizi qabaqlamağa kömək edir. Bu, düşmənin planlarını qarışdırır, ləngidir və onun kəşfiyyat və casus şəbəkəsinin fəaliyyətini pozur. Yadda saxlayın: formanın daim dəyişdirilməsi – alətdir. Onu çoxluğun zövqlərinə uyğunlaşmaq, ya da taleyin kəşməkəşlərinə dini itaətkarlıq nümayiş etdirərək ümumi axında üzməklə qarışıq salmayın. Siz bu alətdən daxili harmoniya və ya qəlbinizdə dinclik əldə etmək üçün yox, hakimiyyətinizin möhkəmləndirilməsi üçün istifadə edirsiniz.

Nəhayət, sonuncu. Dəyişən şəraitə uyğunlaşmağı öyrənmək, hər şeylə yanaşı, həyata öz gözlərinizlə baxmağı, baş verənləri müstəqil şəkildə qiymətləndirməyi və adamların yolunuzda itaətkarcasına tökdükləri məsləhətlərdən imtina etməyi öyrənmək deməkdir. Bu o deməkdir ki, siz əhatənizdə olanların ehtiramla yanaşdıqları qanunları və onların – nə etmək lazım olduğunu sizə pıçıldamaq üçün yazdıqları – kitablarını, həmçinin də yaşlıların müdrik məsləhətlərini qətiyyətlə kənara atmalısınız. Başqalarının müdrikliyinə həddən artıq ehtiramla yanaşmaq sizin fərdi qabiliyyətlərinizin əskildilməsi ilə nəticələnə bilər. Keçmişə,

ələlxüsus da özünüzün keçmişinizə münasibətdə amansız olun və sizə kənardan sırınan fəlsəfələrə hörmət etməkdən imtina edin.

Obraz: Merkuri. Qanadlı carçı, kommersiya tanrısı, oğruların, juliklərin, zirək və fərasətli olanların hamısının himayəçisi. Merkuri doğulan gün liranı icad etdi. Həmin günün axşamı üçün Apollonun inəklərini oğurladı. O ən müxtəlif görkəmlər alaraq bütün dünyanı dolaşırdı. O, bir çox dillərdə adını daşıyan civə, maye metal kimi, ələkeçməzliyi, sürüşüb aradan çıxmağı – formanın qeyri-daimiliyinin hakimiyyətini təcəssüm etdirir.

Nüfuzlu rəy: "Deməli, ordu yaradılanda ideal məqsəd – formanın yoxluğuna gəlməkdir. Müharibədə qələbə dəfədən dəfəyə təkrar olunmur, əvəzində öz formasını sonsuz olaraq dəyişir... Suyun cizgiləri olmadığı kimi, silahlı qüvvələr də daimi struktura malik deyillər: dəyişərək və düşmənə uyğunlaşaraq qələbəyə nail olmaq qabiliyyəti, dahilik adlanır".

Sun-tzı (b.e.ə. VI-V əsrlər)

Müdrik heç vaxt nə qədimdəkilərin yolları ilə getməyə, nə də bütün dövrlər üçün sərt normalar təsbit etməyə can atmır, əvəzində öz əsrinin şeylərini öyrənir və onlarla iş görməyə hazırlaşır.

Sun şahlığında bir adam var idi, o, ortasında ağac bitən sahəni əkirdi. Bir dəfə var gücü ilə qaçan dovşan, sürətini azaltmadan ağaca çırpıldı, boynu sındı və öldü. O vaxtdan adam kotanını kənara qoydu və ağacın yanında gözləməyə başladı ki, bir dovşan da qaçaraq ona çırpılacaq. İkinci dovşan eləcə, gəlib çıxmadı və o, Sunun bütün sakinlərinin məsxərə obyektinə çevrildi. Əgər kiminsə bu əsrin adamlarını qədim padşahların qanunları ilə idarə etmək istədiyini ehtimal etsək, onda deyə bilərik ki, o eynilə ağacın yanında gözləyən adam kimi hərəkət edəcək.

Xan Fey-tzı, Çin filosofu, b.e.ə. III əsr

Döyüş sənətlərində strategiyanın başa düşülməməsi və öncədən bilinməməsi, formanın gizlədilməsi vacibdir, hərəkətlər isə – o qədər gözlənilməz olmalıdır ki, onları əldə silah qarşılamaq mümkün olmasın. Yaxşı sərkərdəyə dəqiq qələbə qazanmağa nə kömək edir? Arxasınca izlər qoymayan, anlaşılmaz qalan müdriklik və fəaliyyət tərzi. Yalnız forması olmayanı hədəfə alıb vurmaq mümkün deyil. Müdriklər izaholunmazın arxasında gizlənirlər; onlar daim dəyişirlər, belə ki, onların yollarını kəsmək qeyri-mümkündür.

"Quay ustalarının kitabı", Çin, b.e.ə. II əsr

13 Rigidlik (lat. Rigidus – sərt, möhkəm) – sərtlik, ötkəmlik, mütəhərriksizlik, qeyri-elastiklik. Psixologiyada – yeni situasion tələblərə müvafiq olaraq, fəaliyyət proqramında dəyişikliklər etməyə hazırlığın olmamas....